AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCAN NƏSR MƏTNLƏRİNDƏ LİNQVİSTİK QƏNAƏT PRİNSİPİNİN TƏZAHÜR SƏVİYYƏLƏRİ

İxtisas: 57.06.01 — Azərbaycan dili

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş

DİSSERTASİYA

İddiaçı: Könül Nəriman qızı Həsənova

Elmi rəhbər: Nizami Qulu oğlu Cəfərov
akademik, AMEA-nın həqiqi üzvü

Sumqayıt - 2022

MÜNDƏRİCAT

Giriş---------- 3

I FƏSİL. Qənaət prinsipinin tədqiqi vəziyyətinin şərhi və psixolinqvistik, tarixi – müqayisəli aspektlərinin təhlili ---------- 10

1.1. Azərbaycan və dünya dilçiliyində qənaət prinsipinin tədqiqi vəziyyətinin analizi---------- 10

1.2. Qənaətin psixolinqvistik istiqamətdə analizi---------- 18

1.3. Qənaət prinsipinin tarixi – müqayisəli aspektdə linqvistik təhlili--------- 27

II FƏSİL. Nəsr dilində fonetik, leksik, morfoloji səviyyələrdə qənaət prinsipinin təzahürü, onun nəsr və şeir mətnləri ilə müqayisəsi---------- 37

2.1. Fonetik səviyyədə qənaət---------- 37

2.2. Leksik səviyyədə qənaət---------- 45

2.3. Morfoloji səviyyədə qənaət---------- 56

2.4. Nəsr və şeir mətnlərində qənaətin müqayisəli aspektdə analizi---------- 67

III FƏSİL. Nəsr mətnlərində sintaktik səviyyədə qənaətin təzahürü---------- 74

3.1 Funksional cümlə tiplərində qənaətin təzahürü---------- 75

3.2. Ümumi şəxsli və şəxssiz cümlələrdə qənaətə uyğun struktur-semantik sıxılma---------- 87

3.3 . Adlıq cümlələrdə linqistik qənaətin şərtilikləri---------- 97

3.4. Dialoqlarda söz cümlələr və vokativ cümlələr qənaətin universal göstəricisi---------- 105

3.5. Yarımçıq cümlələrdə qənaətin üslubi-kommunikativ imkanları---------- 112

3.6. Çox nöqtə qənaəti işarələyən punktuasiya göstəricisi kimi---------- 121

Nəticə---------- 130

İstifadə olunmuş ədəbiyyat siyahısı---------- 133

GİRİŞ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Qənaət nəzəriyyəsi yarananda insan amili şübhəsiz ki, nəzərə alınmış, cəmiyyətlə bağlı bütün sahələri əhatə etmişdir. Bu xüsusla dilin qənaət nəzəriyyəsi də formalaşmışdır. Qənaət sferası fenomeni ekonomik həyatın yığcam formalarda təsviridir.

Dil qənaəti prinsipinin inkişaf mərhələləri və əsas nəzəri əsasları müəyyən tədqiqatlarda işlənilib hazırlanmışdır. Dilin qənaət nəzəriyyəsinə məxsus anlayış və terminlər formalaşmışdır: "qənaət prinsipi", "qənaət qanunu", "dilin qənaət vasitələri və ənənə", "mətnin kompressiyası", "qənaət üsullarının dil vasitələri" və s.

"Qənaət" çoxmənalı sözdür, deyildiyi kmi, müxtəlif sahələrdə faydalı, əlverişli mənalarında istifadə olunur. Dil sistemində də qənaət mühüm prinsiplərdən biridir. Bu prinsip dilin bütün səviyyələrinə tətbiq olunur. Dildə qənaətin iki növü vardır: formal qənaət, semantik qənaət. Formal qənaətdə dil vahidinin bir elementi işlənmir. Semantik qənaətin mahiyyəti ondan ibarətdir ki, bəzən mətnin və onun verdiyi informasiyanın çoxluğu, artıqlığı söyləmin struktur cəhətdən yüksək dərəcəsi ilə seçilir, yəni yüksəkliyin həddi çoxalır, dərin struktur elementləri artır. Bu zaman semantik qənaətdə fikir elementi implisitik (gizli) şəkildə təqdim olunur. Gerçəkliyin ümumiləşdirici inikası təfəkkürün anlayış, məfhum, göstərici, kateqoriya, nəzəriyyə və s. kimi formalarında təzahür edir ki, bu da saysız-hesabsız dil vahidləri ilə reallaşdırılır. Obyektiv aləmdə dəyişiklik baş verdiyi kimi, dildə də buna uyğun dəyişmələr əmələ gəlir və dil təfəkkürə münasibətində müəyyən dəyişikliklərə məruz qalır. Bu dəyişikliklər özünü linqvistik qənaət formaları şəklində də təzahür etdirir. Qənaət prinsipi Azərbaycan nəsr mətnlərinin bütün struktur səviyyələrində müşahidə olunur. Nəsrşünaslıqda dil problemi ilə bağlı birmənalı şəkildə təsdiq olunur ki, qənaət prinsipi dilin bəsitliyi, yığcamlığı, lakonikliyi üçün stimul rolunu oynayan linqvistik hadisədir və o, fonetik, leksik, morfoloji, sintaktik səviyyələrdə qısalaşmanın, ellipsisləşmənin spesifik təzahür formalarındandır. Kontekstual şəraitin özü qənaət prinsipinin spesifik təzahür şəkillərinə zəmin hazırlayır. Nəsr mətnlərində dilə

yaradıcı münasibətin yüksək nümunəsi kimi qəbul edilməyə layiq bədii örnəklər göstərir ki, qənaət əməliyyatı nəticəsində səs, söz, ifadə, cümlə mətn daxilində elipsisləşməyə məruz qalsalar da, semantiklik, bədiililik, ifadəlilik imkanlarını itirmirlər, abstrakt şəkildə təsəvvürdə səfərbərliyə alınaraq mətnin daxili gücünü, enerjisini, bədiilik işığını əyaniləşdirmək, normalaşdırmaq gücünə malik olurlar. Bir anlıq düşünsək ki, yazıçı əsərlərinin münasib yerlərində qənaət prinsipi tətbiq etmir, onda nə qədər yeknəsəkliyin, lazımsız, şablon təkrarlılığın baş alıb getdiyini təsəvvürə gətirmək çətin deyil, çünki qənaət prinsipi mətni artıq sözlərdən təcrid edir, dilin norma qaydalarını özündə təcəssüm etdirir. Təsəvvürlərdə canlı və cansız varlıqların, obrazların parlaq nümunələri və onların bədii aspektdə oxucu zehninə möhkəm həkk olunması da qənaət prinsipi ilə sıx şəkildə bağlıdır. Əsl nəsr mətnində, onun müəyyən komponentində qanunauyğun linqvistik hal kimi yazıçı yaradıcılıq prosesində qənaət əməliyyatı aparmışsa, şübhəsiz ki, həmin sintaktik bütöv, mətn olduqca cilalı, yığcam, lakonik, obrazlı şəkildə olacaqdır, çünki bu amillər mətnin təbii olmasından ötrü güclü faktorlardır. Nəsr mətnlərində qənaət prinsipi üslubi mahiyyətlidir və bədii-üslubi sınaqlara məruz qalması onun əsl linqvistik keyfiyyətidir.

Qənaət prinsipinə Azərbaycan dilinə həsr olunmuş qrammatika kitablarında demək olar ki, olduqca az yer ayrılır, amma onun dilimizin fonetik, leksik, morfoloji, sintaktik yaruslarında geniş və hərtərəfli rolu vardır. Bəzi araşdırmalarda bu dil göstəricisindən epizodik şəkildə bəhs olunsa da, amma nəsr mətnləri əsasında qənaət prinsipi ayrıca bir tədqiqatın mövzusu olmamışdır. Aydındır ki, elipsisləşmə dilin bütün yaruslarını əhatə etdiyindən və nəsr mətnlərində işləklik intensivliyi ilə təzahür etdiyindən onu, yəni qənaət prinsipini dərindən araşdırmağa xüsusi bir tədqiqat işi həsr etməyə dəyər və bütün bu qeyd olunanlar bizim dissertasiya işimizin mövzusunun aktuallığını şərtləndirir.

Bəllidir ki, yazılı və şifahi nitq mədəniyyətində aktiv fəaliyyət göstərən qənaət Azərbaycan və dünya dilçilərini, psixolinqvistlərini düşündürmüş, uzun illər linqvistoloqlar “dildə qənaət prinsipi” ifadəsini işlətməyə ehtiyatla yanaşmışlar. Keçən

əsrin 70-ci illərinin ortalarında dildə qənaət problemi Azərbaycan dilçisi Mübariz İmran oğlu Yusifovun diqqətini cəlb etmiş, o, bir neçə il "Dil sistemində qənaət" [Azərbaycan dili materialları üzrə] mövzusunda dissertasiya üzərində işləmiş və 1976 – cı ildə uğurla müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi adını almışdır. 3 fəsildən ibarət olan bu tədqiqat işində fonem, söz, cümlə səviyyələrində özünü göstərən qənaət problemlərindən danışılmış, yeri gəldikcə müəllif elmi-nəzəri fikirlərini əsaslandırmaq üçün nəsr əsərlərindən də nümunələr vermişdir. Bundan əlavə, akademik Kamal Abdullayevin, professor Qulu Məhərrəmlinin, professor Zərifə Budaqovanın, doktorant Könül Həbibovanın da kitab və məqalələrində qənaət prinsipi ilə bağlı az da olsa, elmi tezislərə rast gəlmək olur ki, bunlar da qənaət haqqında epizodik bilgilər verir. Şübhəsiz ki, bu siyahını bir qədər də uzatmaq olar, lakin dissertasiyanın bir paraqrafı qənaət prinsipinin tədqiqi vəziyyətindən bəhs olunduğundan, burada geniş danışmağı lazım bilmirik.

Tədqiqatın obyekti və predmeti. Tədqiqat işinin obyekti adından da göründüyü kimi, nəsr mətnlərində təzahür edən qənaət prinsipinin üslubi xüsusiyyətləridir. Araşdırmanın predmeti tədqiqat obyektinə uyğun olaraq qənaət prinsipinin fonetik, leksik, morfoloji, sintaktik təkamülünü şərtləndirən dil vasitələridir.

Tədqiqatın məqsəd və vəzifələri. Nəsr mətnlərində fonetik, leksik, morfoloji, sintaktik səviyyələr üzrə baş verən qənaət prinsipinin tədqiqi araşdırmanın əsasını təşkil edir. Dissertasiya işi Azərbaycan nəsr mətnlərində qənaət prinsipinin hərtərəfli tədqiqinə həsr olunduğu üçün onun qarşısında bir sıra mühüm vəzifələr durur :

— Azərbaycan və dünya dilçiliyində qənaət prinsipinin tədqiqi barədə əyani təsəvvür yaratmaq;

— Qənaət prinsipinin tarixi-müqayisəli müstəvidə analitik təhlili verilir;

— Qənaət prinsipinin psixolinqvistika elmi ilə əlaqəsi öyrənilir;

— Nəsr mətnlərində fonem səviyyəsində özünü göstərən qənaət prinsipinin spesifik cəhətləri diqqət önünə çəkilir;

— Nəsr mətnlərində morfem səviyyəsində özünü göstərən qənaət prinsipinin önəmli cəhətləri saf-çürük edilir;

— Nəsr mətnlərində leksik səviyyədə təzahür olunan qənaət müxtəlif söz qrupları əsasında müəyyənləşdirilir;

— Nəsr mətnlərində sintaktik səviyyədə ellipsisləşmə ilə bağlı qənaət problemi şəxsli və şəxssiz, məqsəd və intonasiyaya görə cümlə növləri, adlıq, söz-cümlələr, yarımçıq cümlələr və çox nöqtə durğu işarəsi üzrə öyrənilir;

Tədqiqatın metodları. Tədqiqat işində struktur-transformasiya və müqayisəli-təsvir metodları tətbiq olunmuşdur. Dissertasiya işi tədqiqatın xarakterinə uyğun olaraq linqvistik təsvir metodu ilə aparıldığından, yeri gəldikdə kontekstual-situativ və funksional-üslubi metodlardan da istifadə olunmuşdur. Mətnlərdəki qənaət qanunlarına sinxron yöndə yanaşılsa da, konkret məqamlarda dil materialları diaxron müstəvidə də aprılmışdır.

Müdafiəyə çıxarılan müddəalar. Müdafiəyə aşağıdakı müddəalar təqdim olunur:

1. Azərbaycan və dünya xalqlarının dilçilik elmində qənaətin dilin bütün struktur səviyyələrində özünü göstərməsi zəngin faktlarla əsaslandırılmışdır.

2. Azərbaycan nəsr mətnlərində fonetik səviyyədə qənaət qanunauyğun linqvistik hadisə kimi dəyərləndirilərək müdəa kimi ön plana çəkilmişdir.

3. Leksik və morfoloji səviyyələrdə qənaət nəsr mətnlərində artıq morfoloji və leksik vahidlərin yol verilməməsi ilə bağlı izah olunmuşdur.

4. Tədqiqatda sintaktik səviyyədə qənaətə geniş yer ayrılmaqla müxtəlif cümlə tiplərində təzahür edən qənaət problemi, cümlə strukturunda onun mövqeyi tədqiq edilmişdir.

5. Qənaət prinsipi nəqli, sual, nida, əmr cümlələrində bədii-üslubi imkanlarını təzahür etdirərək mühüm bədii keyfiyyət göstəricisinə çevrilir.

6. Qənaət prinsipi ümumi şəxsli cümlələrdə, şəxssiz cümlələrdə struktur-semantik sıxılmaya məruz qalaraq fəal bədii mövqelərdə üslubi keyfiyyətlər qazanır.

7. Adlıq cümlələr struktur-semantik komperasiya timsalında bədii-estetik keyfiyyətlərini nümayiş etdirir.

8. Nəsr mətnlərinin dialoji nitq aktlarında söz-cümlələr və vokativ cümlələr qənaəti qısa və yığcam biçimlərdə əks etdirən sintaktik vahidlər kimi diqqət çəkir.

9. Yarımçıq cümlələr bədii fikrin estetik təsirini artırır, mətnin lakonik formalarda verilmə ehtiyaclarını ödəyir.

10. Bədii məziyyətlərin müəyyən məqamlarını təsirli və qənaətli formalarda əksetdirmə vasitəsi kimi çoxnöqtə mətnlərin daxili emosionallıq, ekspessivlik və dinamik keyfiyyətlərini gücləndirir.

Tədqiqatın elmi yeniliyi. İlk dəfə Azərbaycan nəsr mətnləri üzrə qənaət prinsipinin nəzəri yönləri ilə sistemli elmi-tədqiqat müstəvisinə gətirilməsi, Azərbaycan və dünya dilçiliyində tədqiqi vəziyyətinin qiymətləndirilməsi, psixolinqvistik yöndən estetik təbiətinin zəngin dil faktları əsasında aşkara çıxarılması, tarixi – müqayisəli müstəvidə dilin inkişafı ilə bağlı səviyyələrinin tədqiq edilməsi, fonetik səviyyədə qənaətin məziyyətlərinin analitik təhlilə yönəldilməsi, morfoloji səviyyədə qənaətin linqvistik kateqoriyalar üzrə dəyərləndirilməsi, spesifik xüsusiyyətlərinin sintaktik səviyyədə nəqli, sual, nida, əmr, ümumi şəxsli və şəxssiz, adlıq və söz cümlələr, yarımçıq cümlələr və çoxnöqtə durğu işarəsi üzrə aşkarlanması təqdim olunan dissertasiyanın elmi yeniliyini şərtləndirən amillərdəndir.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Dissertasiya işində nəsr mətnlərində spesifik şəkildə özünü göstərən qənaət prinsipinin üslub xüsusiyyətləri müasir dilçilik elminin tələblərinə uyğun aparılmışdır. Bu mövzuda yazılmış ilk sistemli tədqiqat əsəri olduğu üçün dilçilər, eləcə də psixolonqvistika ilə, koqnitiv dilçiliklə məşğul olan tədqiqatçılar üçün nəzəri – praktik əhəmiyyətli qaynaq ola bilər. Azərbaycan dilinin tarixi fonetika, leksika, morfologiya və sintaksisin bəzi problemlərinin düzgün yönümdə həllində faydalı rol oynayacağı da qeyd edilməlidir. Nəsr mətnlərinin əksər məqamlarında təzahür edən qənaətdə fonetik, leksik, morfoloji, sintaktik vahidlərin struktur – semantik, eyni zamanda üslubi xüsusiyyətlərinin üzə çıxarılmasında,

müəyyənləşdirilməsində tədqiqatçıların bu dissertasiyadan yararlanacağına şübhə yoxdur. Tədqiqat işi linqvokulturologiyanın bir sıra vacib məsələlərinin də elmi izahına töhfə ola bilər. Dissertasiya işindən dilçilik, o cümlədən mətnin koqeziyası sahəsində aparılacaq tədqiqatlarda elmi mənbə kimi istifadə olunacaqdır. Filologiya fakültəsinin bakalavr və magistratura pillələrində təhsil alan tələbələr, həmçinin filoloq doktorantlar bu dissertasiya işindən faydalana bilərlər. Bu mövzuda seçmə fənnlərin tədrisi zamanı istifadə edib yararlanmaq mümkündür.

Dissertasiyanın aprobasiyası və tətbiqi. Tədqiqatdan əldə edilən nəticələr linqvokulturologiyanın, psixolinqvistikanın, ümumən mətnin linqvistik təhlili üzrə əsərlərin yazılmasında tətbiq oluna bilər. Dissertasiya ADPU-nun Müasir Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın ayrı-ayrı hissələrinin yazılması prosesində kafedraya hər il hesabat verilmiş, əsas müddəaları doktorantın çap olunmuş məqalələrində əks olunmuşdur. Tədqiqatın nəticələri barəsində müxtəlif universitetlərdə dilçiliyin aktual problemləri ilə bağlı keçirilən elmi konfranslarda məruzə edilmiş və həmin konfransın materiallarında elmi tezislər şəklində dərc olunmuşdur. Araşdırma işinin mövzusu Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının Dilçilik üzrə Problem Şurasında təsdiq olunmuşdur. Tədqiqat işindən əldə edilən elmi nəticələr, dissertasiyanın əsas məzmunu, tədqiqat konsepsiyası Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyasının müəyyənləşdirdiyi elmi jurnallarda nəşr olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Müasir Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

Dissertasiyanın strukturu. Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. “Giriş”də işin ümumi səciyyəsindən bəhs olunur, dissertasiyanın bu hissəsi 1513 işarədən ibarədir. Birinci fəsil qənaət prinsipinin tədqiqi vəziyyəti, abstrakt təsəvvürlə bərpası və tarixi-müqayisəli müstəvidə müqayisəli linqvistik təhlilinə həsr olunur və bu fəsil 14 922 işarəni özündə ehtiva etdiririr. İkinci fəsildə nəsr mətnlərində fonetik, leksik, morfoloji səviyyələrdə özünü göstərən qənaət

problemi araşdırılır və bu fəsil 10442 işarədən ibarətdir. Üçüncü fəsildə sintaktik səviyyə üzrə baş verən qənaət prinsipindən danışılır və qənaətin ellipsisləşmə ilə bağlı xarakteristikası verilir. Bu fəsil 15906 işarədən ibarətdir. Dissertasiyanın nəticə hissəsi 800, ədəbiyyat hissəsi isə 2650 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 243.760 işarədən ibarətdir.

I FƏSİL
QƏNAƏT PRİNSİPİNİN TƏDQİQİ VƏZİYYƏTİNİN ŞƏRHİ VƏ PSİXOLİNQVİSTİK, TARİXİ – MÜQAYİSƏLİ ASPEKTLƏRİNİN TƏHLİLİ

Nəsr mətnlərində nitqin əksər səviyyələrində qənaət prinsipi özünü göstərir və bu linqvistik hadisə həm dialoji, həm də monoloji nitq aktlarında təzahür edə bilir. Bədii mətnin əksər məqamlarında təzahür edən qənaət prinsipi ifadəsinin yerində Azərbaycan dilçi-mütəxəssisləri tərəfindən uzun illər "ixtisaredilmə", "qısalaşdırma", "artıqlıq", "ellipsisləşmə" və s. söz və terminlər işlədilmişdir ki, bunların da hər biri ayrı-ayrılıqda özünü doğruldur. Müxtəlif dil normalarının dəqiq şəkildə müəyyənləşdirilməsində qənaət prinsipi mühüm rol oynayır. Müəyyən dil normalarının meydana çıxmasını şərtləndirən qənaət prinsipinin Azərbaycan və dünya dilçiliyində tədqiqi vəziyyətinin izlənilməsi olduqca vacib məsələlərdən biridir ki, tədqiqatın ilk bölməsində bu məsələlər saf-çürük edilir. Nəsr mətnlərində qanunauyğun linqvistik hadisə kimi qənaət prinsipinə koqnitiv dilçiliyin, o sıradan psixolinqvistika elminin metod və üsullarından da yanaşmaq olar ki, təhlil prosesində bu vacib məsələyə də aydınlıq gətirilməyə cəhd edilir. Dildə qənaət prinsipi tarixi inkişaf və təkamülün nəticəsində meydana çıxır ki, bu prosesdə baş verən dəyişikliklərin araşdırılması, tarixi-müqayisəli aspektdə təhlili tədqiqatın zəruriliyini şərtləndirən amillərdəndir.

1.1 . Azərbaycan və dünya dilçiliyində qənaət prinsipinin tədqiqi vəziyyətinin analizi

Qənaət prinsipi dilin bütün səviyyələrində özünü göstərə bilir və ən kiçik dil vahidi fonemdən tutmuş ən əhatəli mətnlərə qədər bütün linqvistik material forma sistemində geniş yer tutur və onların hər biri obrazlı konkretliyin, bədii formanın biçimlərində təzahüretmə imkanları qazanır ki, bu prosesdə qənaət prinsipinin də xüsusi yeri vardır. Qənaətlə obrazlılıq, bədii-estetik meyarlar yaratma imkanları dilin bütün yaruslarında

mövcuddur. Dilin fonetik, leksik, morfolji, frazeoloji, sintaktik laylarında potensial mövcud olan, dil materiallarının xarici və daxili qatlarında ellipsisə məruz qalan bədii vasitələri, onların obrazlı mahiyyətini, gücünü təcəssüm etdirmək, aşkarlamaq üçün qənaət prinsipi olduqca lakonik, yığcam, imkanlı ifadə tərzidir. Nəsr mətnlərinin tələblərinə müvafiq olaraq qənaət prinsipini səciyyələndirən bir cəhəti xüsusilə göstərmək lazımdır və o da bundan ibarətdir ki, qənaət mətnin strukturunda lazımsız təkrarlığın qarşısını alır, dilin daxili, estetik imkanlarının daima yığcamlığa meyliliyini şərtləndirir. Bədii mətndə müşahidə olunan qənaət prinsipi məzmunun, yazıçının düşüncə, əhvali-ruhiyyə tərzinin yığcam, lakonik, qısa şəkildə verilməsinə kömək edən ən dəyərli linqvistik hadisədir və Azərbaycan və dünya dilçiliyində bu linqvistik göstəricinin – qənaət prinsipinin tədqiqi vəziyyətinin xülasə edilməsi xüsusi önəm kəsb edən məsələlərdəndir.

Dil daim konkretlikdən ümumiliyə doğru inkişafda, təkamüldə olduğu üçün qənaətə meylliliyi özündə daha çox ehtiva etdirir. Nitq prosesində qənaət prinsipi hər şeydən əvvəl, səs, söz, şəkilçi, cümlə sıralalanma qanunauyğunluqlarının tənzimləyici funksiyasını yerinə yetirir. Fonetik, leksik, morfoloji, sintaktik səviyyələrdə qənaət prinsipi özünü həm canlı danışıq dilində, həm də yazılı dildə ixtisarlaşma, ellipsisləşmə yolu ilə göstərir. Bunlar qənaət prinsipinin ən vacib atributlarından olub, səciyyəvi səs, söz, morfoloji göstərici, sintaktik konstruksiyaların buraxılmasını,struktur-semantik qısalaşmanı nitqin normal tərzdə qurulmasını nümayiş etdirir. Deməli, nitq prosesində qənaət prinsipinin yığcamlığa, lakonikliyə xidməti vəzifəsi çox qabarıq şəkildə özünü göstərir, çünki onlar bədii mətnin tərtibində bu və ya digər şəkillərdə özünü təzahür etdirən ən bariz linqvistik göstəricilərdəndir.

Keçən əsrin əvvəllərindən ta günümüzə qədər Azərbaycan dilçiliyinə həsr olunmuş əsərlərdə qənaət prinsipinin əhəmiyyətli rolundan bəhs edən fikirlərə demək olar ki, təsadüfi hallarda rast gəlmək olur. Başqa sözlə desək, dilçiliyimizin bir sıra nəzəri problemləri içərisində qənaət prinsipinə ayrıca və xüsusi diqqət yetirilməmişdir. Məlumdur ki, Azərbaycan dilinin üslubiyyatı ilə bağlı ilk və ən dəyərli mənbə Ə.

Dəmirçizadənin 1962-ci ildə nəşr etdirdiyi "Azərbaycan dilinin üslubiyyatı" adlı fundamental əsəri hesab olunur və alim bu əsərində demək olar ki, "qənaət prinsipi" termini əvəzinə, daha çox və intensiv şəkildə "ixtisar", "qısaltma", "normanın pozulması" və s. kimi söz və ifadələrə üstünlük vermişdir və bunları biz də məqbul sayırıq. Məlumdur ki, dilin ümumi norması istər yazarkən, istər danışarkən bəzən müəyyən dərəcədə pozulur, Ə.Dəmirçizadə belə pozulma hallarını mümkün və məqbul sayılan pozulma hesab edir və onları güzəşt qəbili kimi səciyyələndirir. Tədqiqatçı belə güzəştlərin isə müxtəlif ola bilməsindən, bəzi güzəştlərin nəticə etibarilə yeni bir kateqoriyanı yaratmasından bəhs edərək göstərir ki, *"yiyəlik birləşmələrində yiyəlik halının ixtisar edilməsi nəticə etibarilə xüsusi qrammatik qaydanın yaranması üçün əsas olmuş — şəhərin qapısı, dağın başı ilə yanaşı şəhər qapısı, dağ başı kimi ifadələr yaranmış və qanuniləşmişdir. Buna görə də belə halı biz müasir dilimizdə müəyyən qanunun güzəşti deyil, artıq qanuni norma sırasına düşmüş xüsusi hal hesab edirik*" [24,s.11]. Ə. Dəmirçizadə *belə norma və güzəştlərin hamısının eyni nəticəni vermədiyini; bəzisinin qanuniləşdiyini, bəzisinin isə yerinə görə mümkün hesab olunan bir hadisə sayıldığını; hətta müəyyən dövrdə belə güzəştlərə daha çox yer verildiyi halda, başqa bir dövrdə belə güzəştlərə az yer verilir; bir dövrdə belə halların yenilik, başqa bir dövrdə isə köhnəlik, arxaizm hesab olunduğunu"* [24, s.12] əsaslandırmaq üçün dəyərli təhlillər apararaq göstərmişdir ki, "*Klassik ədəbi dilimizdə nisbət şəkilçisi qəbul etmiş hər hansı bir ismin təsirlik hal şəkilçisinin ixtisar edilməsi mümkün və normal hesab olunurdu: narını üz əvəzinə Aşıq Ələsgər narın üz işlətdiyi kimi, Füzuli də atasını, anasını əvəzinə atasın, anasın ifadələrini işlətmişdir. Əlbəttə, belə ixtisar klassik ədəbi dilimizdə çox müşahidə olunan bir hadisədir. Klassik ədəbi dilimizdə qrammatik qaydanın bu şəkildə pozulması mümkün və normal sayılırdı, halbuki, müasir dilimizdə belə ixtisara əsasən canlı danışıqda yol verilsə də, ümumi dil normasının pozulması və güzəşti sayılır*" [25, s.11-12]. Fikrimizcə, alim söylədiyi bu cümlələrin müəyyən yerlərində "dilin qənaətə meyliliyi" ifadəsini işlətsə, onun fikirləri olduqca məntiqli səslənərdi. Ə. Dəmirçizadənin bu cür aspektdə təhlilləri çoxlu saydadır və onlar əksər məqamlarda qəbul ediləndir və

onun yeri gəldikcə "qənaət prinsipi" terminindən istifadə etməməsi təəssüf doğuran cəhətlərdəndir.

Azərbaycan dilçiliyində "qənaət" terminindən fikrimizcə, ilk dəfə Z.Budaqova istifadə etmişdir. Z.Budaqova 1970-ci ildə "Elm" nəşriyyatında çap edilmiş "Azərbaycan bədii dilinin üslubiyyatı" adlı məqalələr toplusunda "Cümlənin məqsəd və intonasiyaya görə növləri" bəhsini işləmişdir. Həmin bəhsin "Əmr cümləsi" hissəsində müəllif "qənaətlə ifadə edilmə" ifadəsindən istifadə edərək elmi tezisini aşağıdakı kimi vermişdir: "*Bədii ədəbiyyatda elliptik-əmr cümlələrindən geniş şəkildə istifadə olunur. Müəyyən sözün buraxılması həmin cümlələrdəki fikrin ekspessivliyini daha da artırır, fikir obrazlı və qənaətlə ifadə edilir, həm də əsas məqsəd ön plana çəkilir. Bu qəbil cümlələrin bir qismi xahiş və ya tələb xarakterli olur*" [20, s. 281]. Alim çoxlu sayda bədii nümunələri ilə elmi tezisini əsaslandırır və qənaətlə bağlı gələcək nəsillər üçün sanki elmi bir cığır açır. Əlbəttə, bundan sonra Azərbaycan dilçiliyində elliptik cümlələrin tədqiqinə girişilsə də, "qənaət prinsipi" ifadəsi heç kimin dilinə gətirilmir.

Azərbaycan dilçiliyində leksik, morfoloji, habelə fonetik təkrarlar üzərində müəyyən tədqiqat işləri aparılmışdır. Sintaktik təkrarlar dilçiliyimizdə keçən əsrin 70-ci illərinin ortalarında M.Adilovun diqqətini cəlb etmiş və tədqiqatçı tərəfindən 1974-cü ildə "Elm" nəşriyyatında çap olunan "Azərbaycan dilində sintaktik təkrarlar" adlı monoqrafiyasında söz birləsməsinin, yəni sintaktik təkrarların quruluş, zəngin üslubi xüsusiyyətlərindən geniş şəkildə bəhs edilsə də, onlarda özünü göstərən qənaət prinsipindən danışılmamış, təkrarlarda bu prinsipin yeri müəyyən edilməmişdir. Halbuki, əsəri diqqətlə oxuduqca aydın olur ki, müəllif sintaktik paralelizmlərlə bağlı araşdırmalarının müəyyən yerlərində "qənaət prinsipi" ifadəsini də işlədə bilərdi, çünki onun təhlil etdiyi dil faktlarından aşkar görünür ki, dildə real olaraq özünü göstərən təkrarlar sistemində qənaətin təzahürü açıq-aşkar şəkildədir [11, s.18-22-36].

Qənaət prinsipi ilə bağlı Azərbaycan dilçiliyində ən əhatəli araşdırmanı ilk dəfə olaraq M. Yusifov yerinə yetirmişdir. O, 1976-cı ildə "Dil sistemində qənaət (Azərbaycan dili materialları üzrə)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və əsərdə

qənaətlə bağlı çox mühüm cəhətləri təhlil süzgəcindən keçirmişdir. Alimin fikrincə, "*Dildə qənaət qanunauyğun linqvistik hadisədir və müəyyən normaların meydana çıxmasını şərtləndirir*" [115, s.4]. Tədqiqatçı dil sistemində baş verən qənaət üçün dilin kommunikativ funksiyasını meyar kimi qəbul edərək, bu funksiyadan kənara çıxan elementləri qənaətli forma kimi qiymətləndirir və müxtəlif dil normalarının müəyyənləşdirilməsində məhz bu meyardan istifadənin əhəmiyyətindən geniş şəkildə danışmışdır [115, s.4]. Üç fəsildən ibarət olan bu araşdırma işində alim qənaət prinsipini fonem, morfem, cümlə səviyyələri üzrə araşdırmış, elmi tezislərini əsaslandırmaq üçün bədii əsərlərdən, canlı danışıq dilindən zəngin nümunələr vermişdir.

Azərbaycanda müxtəlif illərdə nəşr edilən "Dilçilik ensiklopediya" larında və izahlı lüğətlərdə qənaət prinsipinə qısa elmi edütlər həsr olunmuşdur. Məsələn, 2008-ci ildə "Mütərcim" nəşriyyatında çapdan buraxılan "Dilçilik ensiklopediyası" kitabında "qənaət prinsipi" aşağıdakı kimi əksini tapmışdır: "... *Dildə baş verən dəyişmələrə təsir edən amillərdən biri kimi səciyyələndirilən qüvvəyə qənaət qanunu [az qüvvə sərf etmək], mahiyyət etibarilə danışanın öz danışığına az qüvvə [enerji] sərf etməklə fikrini ifadə etməyə nail olması. Qənaət qanunu dilin bütün səviyyələrində [yarus] özünü biruzə verir. Ən az qüvvə sərf etmək prinsipinə əsaslanan qənaət qanunu sözlərin müxtəlif yerlərində səslərin, səs birləşmələrinin , hecaların düşməsi və s. şəkildə təzahür edir: Məs:, Azərbaycan dilində [sora-sonra, savayı-savay], [Tarverdi-Tanrıverdi], [tabelik-tabelilik] və s. Sözdüzəltmə səviyyəsində müxtəlif ixtisarlar və abbreviaturalar, söz birləşməsi əsasında düzələn mürəkkəb sözlər və s. qənaətlə bağlı vahidlər və hadisələrdir*" [26, s.425].

Nəsrlə müqayisədə poeziya dili lakonik ifadə biçimləri ilə doludur və qənaət prinsipinə şeirdə demək olar ki, hər bir misra, bənddə, bütöv mətnlərdə geniş yer verilir. Bu barədə M. Hüseynovun "Dil və poeziya" monoqrafiyasında bir qədər geniş bəhs olunur. Linqvist-alim əsərdə mətnin zahiri strukturunda və semantik nüvəsində sözə qənaət prinsipini poeziyanın poetik-üslubu xüsusiyyəti kimi səciyyələndirir və şeir sənətində az sözlə çox məna ifadə etmək keyfiyyətini onun işlənmə zənginliyini, burada

hər bir sözün sərrastlığını, emosional gücünü və nəhayət, söz sənətkarının fərdi üslubunun vacib əlamətlərindən birini qabarıq nəzərə çarpdırdığını təhlil edərək belə nəticəyə gəlir ki, "*Poeziya dili lakonik keyfiyyətlərlə doludur. Yığcamlıq şeir dilinin incəliklərini açır*" [53, s.70]. Tədqiqatçı qənaət prinsipinə bu meyarlardan yanaşaraq haqlı olaraq onu da qeyd edir ki, "*Qənaətlə məna həcminin əhatəliliyi elə bir pozulmaz vəhdətdir ki, burada sözün bütün çalarları, semantik-üslubi imkanları maksimum poetik fəaliyyətdə götürülür*" [53, s.70].

M.Hüseynov şeir sətirlərinin semantik və forma siqlətində qənaət əməliyyatının ən mühüm üstün cəhətlərini poetik örnəklər əsasında epizodik bir şəkildə təhlilə cəlb edir, dəyərli elmi tezislər irəli sürür.

Tədqiqatçı K. Həbibova "Türkologiya" jurnalının 2011-ci il 4-cü nömrəsində çap etdirdiyi "Kitabi – Dədə Qorqud" dastanlarının dilində qənaət prinsipinin psixolinqvistik şərhi" adlı məqaləsində qənaət problemini ellipsis üzrə izləmiş, onu dastanda personajların psixoloji durumu ilə əlaqələndirərək, zəngin nümunələr əsasında izah etmişdir. Araşdırmaçının nəzərincə, "*İnsan psixikasında özünü biruzə verən qənaət prinsipinə görə yalnız o dil hadisələri sabit, dəyanətli olur ki, onlarda minimum tənəffüs məsrəfi, asan yaddaqalma, şəklini dəyişmə və s. birləşmiş olsun. Məhz bu baxımdan elliptik formaya malik nitq konstruksiyalarının qrammatik tamamlanmasına semantik cəhətdən formalaşmada sərbəstdir*" [45, s.75-76].

Ə.Abdullayev, Y.Seyidov, A.Həsənovun şərikli yazdıqları "Müasir Azərbaycan dili" (sintaksis) adlı dərsliyin son nəşrlərində müəlliflər "Təktərkibli cümlələr" bəhsinin müvafiq yerlərində "qənaətə meylilik" ifadəsindən istifadə etmiş və həmin tip sintaktik vahidlərin dildə qənaətə meyliliklə əlaqədar təzahür etdiklərini zəngin nümunələrlə faktlaşdırmışlar [6, s. 205-215].

K. Abdullayev 2016-cı ildə nəşr etdirdiyi "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" adlı dərs vəsaitinin "Azərbaycan dilində cümlə üzvlərinin funksiyası" adlı hissəsində qənaətlə bağlı təhlillər aparmış və bu linqvistik prinsipin dildə nələrlə əlaqədar olmasına dürüstlük gətirmişdir. Tədqiqatçı cümlə üzvlərinin sintaktik bütövün tərkibində

elə belə, adi şəkildə, sadəcə olaraq özlərini göstərməməsindən, bir-birilə birləşməmələrini, onların cümlə daxilində müəyyən funksiyanı yerinə yetirmələrindən, yəni, cümlə üzvlərinin öhdələrinə düşən konkret sintaktik və kommunikativ proqramlar həyata keçirmələrindən, cümlə üzvlərinin müəyyən funksiyaları yerinə yetirmələrindən və cümlə strukturunda funksional baxımdan müəyyən dəyərə malik olan dil vasitələrinin qənaət prinsipi ilə əlaqədar ola bilməsindən danışmış [9, s.91-92] düzgün olaraq vurğulamışdır ki, "*Cümlə daxilində qənaət prinsipinin özünü göstərməsi, ilk növbədə, cümlənin bu və ya digər üzvünün ellipsisə uğraması hesabına baş verir*" [20, s. 72].

Ellipsisi başdan-ayağa supresiv halla əlaqələndirən alimin nəzərincə, "*Onun əlamətdar [suppressivin-K.H] cəhəti odur ki, cümlə tərkibində istənilən zaman danışanın məqsədindən, arzusundan asılı olaraq bərpa edilməsi asanlıqla baş verə bilir*" [9, s.92]. K. Abdullayev ellipsisləşmə ilə təsəvvür arasındakı tam paralelizmi də dəqiq meyarlarla müəyyənləşdirir və göstərir ki, "*Ellipsis, yəni, cümlə üzvünün cümlədə buraxılması heç də o demək deyil ki, uyğun sintaktik pozisiyada-mövqedə o öz yerini tutmamışdır, buraxılmışdır, onu belə deyək, "unudulmuşlar". Təbii ki, cümlənin mövqeyi vasitəsilə həyata keçirilə bilər və bu, mövqeni şərtləndirən böyük mətn və situasiyanın köməyi ilə üzə çıxır. Bu şəkildə ellipsis "xatırladılır" və ya doldurulur* [9, s.93]. K. Abdullayev Azərbaycan dili ilə bağlı ellipsisin bərpası ilə bağlı üç istiqamət təklif edir və bu istiqamətləri sözügedən əsərində ayrı-ayrılıqda təhlil süzgəcindən keçirir [10, s.93-98].

Azərbaycan dilçiliyində qənaət prinsipinin tədqiqi mənzərəsi təxminən bu şəkildədir. Dünya dil modelində müxtəlif sistemli dillərin qənaətə meylini ilk dəfə müəyyənləşdirən Boduen de Kurtene olmuşdur. O, bu meylin yaranması üçün vacib olan bir sıra amillərlə yanaşı, konkretlikdən mücərrədliyə doğru inkişafın da rolunu göstərmişdir [125, s.56].

Rus dilçiliyində qənaət prinsipinin tədqiqi vəziyyəti geniş və əhatəlidir. 1960-cı ildə rus dilçisi A.Martine "Qənaət prinsipi və fonetik hadisələr" adlı əsərini nəşr etdirir və müəllif burada dilin təkamülü, inkişafı ilə bağlı olan fonetik hadisələrdən geniş danışır və onların baş vermə səbəblərinin xarakterik cəhətlərini üzə çıxarır [142, s.101].

Rus dilçisi Y.M.Lotman 1970-ci ildə "Poetik mətnin təhlili" monoqrafiyasını çap etdirmiş və onun aşağıdakı fikirləri şeir dilində sözə qənaət prinsipinə aid görkəmli linqvistik-alim mövqeyinin ifadəsi və leytmotivini təşkil edir: "...*Həcmcə çox böyük olmayan bir şeir neçə cildlik qeyri-bədii mətnin ifadə eləyə bilmədiyi informasiyanı özündə yerləşdirə bilər"* [141, s.35]. Y.M.Lotman digər bir əsərində də şeir dilində spesifik səciyyə kəsb edən qənaət prisipinin özünəməxsus spektrlərini geniş planda araşdırmışdır [140, s. 45-81].

Qənaət prinsipi ilə bağlı rus dilçisi V.A.Serebrenikovun da araşdırmaları xüsusi maraq doğurur və alim bu linqvistik göstəricini insanın psixofiziki imkanları ilə əlaqələndirərək göstərir ki, "*Qənaətə meylin mənbəyində insan orqanizmi durur. Dildə qənaət prinsipi özünümühafizə instiktinin bir konkret təzahür formasıdır. Bu, fizioloji gərginliyin həddən artıq işlənməsinə qarşı özünəməxsus reaksiyadır, yaddaşın işini mürəkkəbləşdirən, nitqin yaranması və qavranması ilə bağlı beyində mövcud olan bəzi funksiyaların həyata keçməsinə qarşı, hər cür qeyri-rahatlığa qarşı duran bir prosesdir*" [149, s.22].

Rus alimi İ.F.Vardul dildə qənaət prinsipini üslubi bir kateqoriya kimi dəyərləndirir, onu daha çox suppresivliklə əlaqələndirir və tədqiqatçının fikrincə, "*Sintaksemi ellipsisləşdirmək onun məzmununu qənaətləşdirmək deməkdir*" [126, s.63]. İngilis dilçiliyində də qənaət prinsipi ilə bağlı müəyyən araşdırmalara təsadüf olunur. Məsələn, O.Yespersen cümlə daxilində qənaət prinsipinin özünü göstərməsini ilk növbədə, cümlənin bu və ya digər üzvünün ellipsisə uğraması ilə bağlayaraq qeyd edir ki, "*Ekspessiya danışan nə verirsə, odur, qənaət isə onun verə biləcəyi, amma vermədiyidir*" [132, 359].

Fransız dilçisi S.Balli qənaət prinsipini konspektual və situativ aspektlərdə araşdırmış və bütün bunları özünün "Ümumi linqvistika və fransız dili məsələləri" adlı kitabında ümumiləşdirmişdir. Konseptual və situativ qənaəti S.Balli bir neçə istiqamətdə araşdırmışdır. Alimin fikrincə, "*Mətndə qənaət edilmiş söz, söz birləşməsi, cümlə*

modellərindəki ellipsisləri kontekstin, sintaktik bütövün köməyi ilə bərpa etmək mümkündür" [122, s.99].

Q. Paul dil vasitələrindən qənaətli istifadənin işlədilmədən asılı olduğunu qeyd etməklə bərabər, həm də konkret və abstrakt mənalardan danışır ki, burada da qənaət meyli üçün abstraktlaşma əsas amillərdən hesab bolunur [146, s.95].

V.V.Vinoqradov poeziyada yığcamlığı şərtləndirən amillərdən danışarkən yeri gəldikcə qənaət prinsipinə də toxunmuşdur. Görkəmli rus şərqşünasının fikrincə, "*Sözə qənaət şeir dilinin əsas göstəricisidir, şeir qənaət olunmuş və ifrat dərəcədə sıxılmış nitqdir ... Şairlik işini ancaq mahir zərgər əməyi ilə müqayisə etmək olar. Axı söz də qızıl kimidir*" [128, s. 22].

Beləliklə, bütün bu araşdırmalardan belə nəticə çıxarmaq olar ki, dildə qənaət prinsipi ən mühüm üslubi kateqoriyalardan biridir və həmin kateqoriyanın nəsr mətnləri əsasında Azərbaycan dilçiliyində tədqiq olunmaması təəssüf hissi doğuran məsələlərdəndir.

1.2. Qənaətin psixolinqvistik istiqamətdə analizi

Qənaət prinsipi, ümumiyyətlə, dilçiliyin mühüm bir problemidir. Bu prinsip müxtəlif ekstralinqvistik amillərlə şərtlənir. Psixoloji, psixofizioloji və sosial amillərlə (dil daşıyıcılarının yaddaş və təfəkkürü, qarşılıqlı ünsiyyət əlaqələrinin situasiyaları və s.) şərtlənir. Qənaət nəzəriyyəsi dildə və nitqdə ümumi ideyanı aktuallaşdırır, dilin antroposentrik istiqamətini müəyyənləşdirir, dilin praqmalinqvistika, sosiolinqvistika, koqnitiv linqvistika, psixolinqvistika, kütləvi kommunikasiya nəzəriyyəsini, üslubiyyat və nitq mədəniyyətini inkişaf etdirir.

Dildə qənaətin təbiəti müxtəlif bilik sahələrinin də marağına səbəb olur. İlk növbədə praqmatik çərçivədə bir sıra dil vasitələri adresantın praqmatik intensiyasını (niyyətini), fikir prosesinin formalaşmasınının yığcam qənaətlə verilməsini təşkil edir. Dil vasitələrindən ümumi ünsiyyətdə rasional seçimi müəyyənləşir. Qənaətin praqmatik

meyilini, mətninin sıxlaşdırılmış informativliyini, müasir qarşılıqlı ünsiyyət əlaqəsini və s. təyin edir.

Dildə qənaət prinsipinin öyrənilməsi sosiolinqvistik aspektdə yeni rakursları üzə çıxarır: insan və sosium arasndakı qarşılıqlı münasibətləri, qarşılıqlı əlaqə və təsirini aşkarlaylır, bu zaman sıxışdırılmış, yığcamlaşdırılmış mətnlərdə adresatın sosial mövqeyi müəyyənləşir.

Koqnitiv çərçivədə dilin qənaət prinsiplərini öyrənmək stereotipləşmə hadisəsi ilə əlaqəli götürülür. Qənaətin qeyri-mümkün kiçildilməsi dərketmə prosesinin ifadəsində standart situasiyalara müvafiq informasiyaları ötürür, insanın tarixi təcrübəsi burada nəzərə alınır. İnsan qavramının «rituallaşması» sterotiplərlə əks olunur.

Dildə qənaət prinsipini psixolinqvistik istiqamətdə öyrənməklə insanın operativ yaddaşı, təfəkkürü, onun nitqinin implist və ekspeist cəhətləri diqqət mərkəzində olmuşdur. Biliyin ümumi fondu adresanta və adresata verilmə məsələləri, onların eksplisit ifadə vasitələri və implisit problemi ilə bağlı öyrənilmişdir.

Təfəkkürün normal fəaliyyəti yalnız düşüncə aydın olduğu halda mümkündür və o, insanın yaradıcı fəaliyyətinin əsasını təşkil edir. Ona əsaslanaraq biz maddi nemətlər istehsal edir, sənət əsərləri yaradır və fəaliyyətimizi idarə edirik. Təfəkkürün fəaliyyəti ilə biz faktları təhlil edir, ümumiləşdirir və yeni nəticələrə gəlirik. Məsələn, yazıçının müəyyən bir hadisəni təsvir etməsi və müəyyən bədii ümumiləşdirmələr əldə etməsi bu məsələlərlə birbaşa bağlıdır. Təfəkkür idrak prosesinin yüksək bir forması olmaqla özü də təsəvvürlər və anlayışlar kimi mühüm mərhələlərdən ibarətdir. "*Təsəvvürlər-keçmişdə qavranılmış və yaddaşımızda iz buraxmış hadisələrdir. Bunlar real varlığı əks etdirən faktlar olub konkret təfəkkürün əsasını təşkil edir. Anlayış isə təsəvvürlərin ümumiləşdirilməsi, onların əlaqələndirilməsi, abstraksiya formasıdır. Bunun vasitəsilə abstrakt təfəkkür meydana çıxır*" [64,s.40].
Aydın məsələdir ki, təfəkkürün ifadə forması nitq və yazıdır. Nitq insan cəmiyyətinin inkişafının müəyyən mərhələsində meydana çıxmış və onun tarixi inkişafının başlıca cəhətini təşkil edən bir vasitə olmaqla, insanlar arasında ünsiyyətin əsasını təşkil edir.

Nəsr mətnlərində qənaət prinsipini söz, söz birləşməsi, cümlə modelləri ilə, həmçinin substantivləşmə, semantik sıxılma ilə müəyyənləşdirmək olur ki, həmin hadisələrin abstrakt təfəkkür və təsəvvür vasitəsilə bərpası məsələlərinin araşdırılması xüsusi önəm daşıyır.

Təfəkkürdə qənaətin yaranması ilə bağlı psixolinqvistikada saysız-hesabsız mülahizələr mövcuddur və bunları ümumiləşdirən tədqiqatçı Könül Həbibovanın nəzərincə, "*İnsanın daxili [səssiz] nitqi onun səsli nitqinin törəməsidir. Yəni səsli nitq yaranma etibarilə daxili nitqdən daha ilkindir. Səssiz nitqin isə formalaşması daha sonrakı mərhələnin məhsuludur. Bir məqamı da vurğulayaq ki, səsli nitq şərti də olsa, üzvlənə bildiyi halda səssiz nitq bu xüsusiyyətdən məhrumdur və səsli nitqlə müqayisədə sürətli və bəzən də anidir. İnsan bir an içində ətrafda baş verənləri səssiz nitqlə şüurunda təhlil edərək dəyərləndirib ona səsli nitqlə münasibət bildirir. Çox güman ki, ellipsis məhz sonuncu prosesin məhsuludur. Bir çox tanınmış tədqiqatçıların dəfələrlə haqqında bəhs etdiyi dilin qənaət prinsipi səssiz nitqin səsli nitqə çevrilməsi zamanı yaranır və bu zaman müəyyən dil vahidlərinin buraxılması səssiz nitqdə istifadə olunan komponentlərin konkretliyindən irəli gəlir*" [45, s. 75].

Nəsr mətnlərində özünü göstərən qənaət prinsipinə psixolinqvistika elminin metod və tələbləri səviyyəsindən də yanaşmaq olar, çünki "*Bu elm sahəsi danışıq prosesini, danışıq fəaliyyətini dilin mənimsənilməsi və qavranılması prosesini öyrənir*" [26, s.150]. Bu elm sahəsində mühüm aspekt kimi dildə baş verən qənaətin müxtəlif təzahür səviyyələri də aşkar edilir [146, s.303]. Azərbaycan dilçilik əsərlərinin bəzilərində "dilin psixologiyası" terminindən istifadə olunur. Deməli, nəsr mətnlərində də dilin psixologiyası ilə bağlı fonetik, leksik, semantik, sintaktik yarusları üzrə özünü göstərən qənaət prinsipi onun inkişafı, funksiyası və daxili tərəfləri ilə birbaşa bağlı olan mühüm və vacib məsələlərdəndir. Nəsr mətnlərində qənaət prinsipini fonetik səviyyədə araşdırarkən aydın olur ki, yazıçılarımız ədəbi tələffüzün əsas göstəricilərinə riaət edərək tələffüzdə ağırlıq törədən, yorucu səslənən, dilin ahəngini pozan cəhətlərdən qaçmış, asanlıqla, sürətlə tələffüz edilən və bəsit, zərif, incə, gözəl səslənən cəhətləri saxlamağa

üstünlük vermişlər. [Bu barədə dissertasiyanın müvafiq bölmələrində geniş bəhs olunduğundan burada danışmağı vacib bilmirik]. Nəsr dilində qənaət prinsipi morfoloji səviyyədə daha geniş kateqoriyalar üzrə özünü nümayiş etdirir. Morfoloji prinsip üzrə bir fakta nəzər yetirək: Orfoqrafiyada morfoloji prinsipin tələbi ilə feilin şərt və arzu formaları keçmiş zamanda ikivariantlı şəkilçilərlə -sa, -sə, -a, -ə verilirsə; [alsa idi, gəlsə idi, ala idi, gələ idi], orfoepiyada bu şəkilçilər yazıda olduğu kimi qəbul edilə bilməz; əvvəla ona görə ki, ümumxalq danışığında şərtin və arzunun hekayəsi həmişə -a, -e şəkilçi ilə -say, -ey-lə ifadə olunur və digər tərəfdən, şifahi dildə alseydin, aleydin, göreydin, formaları çox asanlıqla tələffüz edilib, danışığa bəsitlik, zəiflik, incəlik gətirir ki, yazıçılarımız personajların nitq aktlarında bu formalara üstünlük verirlər.

Nəsr mətnlərində leksik səviyyədə qənaət prinsipi müxtəlif hərfi işarələr vasitəsilə gerçəkləşdirilir və bunlar daha çox ixtisarları, abreviaturları əhatə edir. İxtisarlarda, abreviaturlarada qənaət prinsipi öyrənilərkən onlarda hərfi işarələrlə bütöv söz formaları əlaqədə götürülməlidir, çünki hərfi işarənin mənası, şüurdakı təsəvvürdə kimi aydın şəkildə inikas olunur. *Məs:,* ABŞ — Amerika Birləşmiş Ştatları; BMT — Birləşmiş Millətlər Təşkilatı; ADR — Azərbaycan Demokratik Respublikası və s.

Qohum və müxtəlifsistemli dillərdə olduğu kimi, Azərbaycan dilində də ixtisarlar sözlərin baş hərfləri vasitəsilə bir növ işarə səciyyəsi daşıyır. İxtisarların, abreviaturların əsas əlaməti ondan ibarətdir ki, oxucuda zehni yorğunluğa imkan vermir, bir çox hecada sözü bir hərflə işarələyir, nəşr mətnlərində müəyyən üslubi funksiyaları yerinə yetirir. Nəsr dili abreviaturlara olduqca işlək bir səviyyədədir. Varlığın müxtəlif obyektlərini- əşyanı, məkanı [dövlət və təşkilat adları] adlandıran abreviaturlara qənaət prinsipinin tətbiqi daha çox aiddir. Bunların əksəriyyəti sözlərin baş hərfləri ilə ifadə edildikdə qənaət prinsipi təzahür edir və onları şüuraltı şəkildə, təsəvvürümüzdə asanlıqla canlandıra bilirik.

Dilimizdə predmetin içində olan digər bir şey həmin predmetlə adlandırılma məqamlarında yazıçı qənaət prinsipindən daha çox yararlanmalı olur. Məs:, İki qab yedim [yəni iki boşqab xörək]; üç stəkan içdim [yəni çay, süd, şərbət, su və s]; Bir banka aldım

[yəni, kompot, mürəbbə və s.]; Xörək bişir [yəni xörək ocağın üstdə qazanda bişir]; samovar qaynayır [yəni, samovardakı su]; Qazan qaynayır [yəni onun içindəki xörək]; Su daşır [yəni, çaydandakı su qaynayaraq] və s. Qeyd etməliyik ki, bu tipli qənaət prinsipi nəsr mətnlərində məhsuldar işləklik intensivliyinə malikdir və onlar da abstrakt şəkildə öz yerlərinə transformasiya oluna bilirlər, deməli, qənaətin bu tip təzahürlərini araşdırarkən dil vahidini sistem-struktur [paradiqmatik-sintaqmatik], semasioloji və onomasioloji, psixolinqvistik və sosiolinqvistik nöqteyi-nəzərdən tədqiq etmək lazım gəlir. "*Ünsiyyət ümumiləşdirməsiz mümkün olmadığı kimi, ümumiləşdirmə də işarələnməsiz qeyri-mümkündür*" [133, s.101; 8, s.31]. "*Abstraksiya gərək əşyalandırılsın, rəmzləndirilsin, bu və ya digər işarə vasitəsilə reallaşsın*" [144, s.102]. Semantik aspektdə yuxarıda verdiyimiz nümunələrin demək olar ki, hamısında [*xörəyin bişməsi üçün qazan, suyun qaynaması üçün samovar, çaynik* və s.] işarələnmələr mövcuddur və elə məhz buna görə işarələnmələr vasitəsilə qənaət edilmiş söz və ifadələri asanlıqla təsəvvürümüzdə avtomatik şəkildə bərpa etmək olar. Nəsr mətnləri nöqteyi-nəzərindən və qənaət problemi ilə əlaqədar məsələləri aşağıdakı istiqamətlər üzrə aydınlaşdırmaq fikrimizcə, daha düzgündür: dil-düşüncə-obyektiv və subyektiv gerçəklik-qənaət prinsipi. Bu dördbucağın əsasını məna-struktur sistemləri təşkil edir. Qənaəti həm məna, həm də struktur vasitəsilə aşkar etmək mümkündür. Yuxarıda da qeyd etdiyimiz kimi, qənaət prinsipi üçün əsas şərtlərdən biri bədii ümumiləşdirmədir. Məsələn, qənaətin yaranmasını əşyalar arasındakı kəmiyyət əlaməti əsasında müəyyənləşdirmək də mümkün olur və nümunəyə nəzər salaq: Həkimin vəzifəsi xəstəyə baxmaqdır; Tələbənin vəzifəsi dərs oxumaqdır.Bu cümlələrdə çoxluq bildirən –lar, -lər şəkilçisinə qənaət olunmuşdur. Başqa sözlə,onlar çoxluq mənasında işlənmişdir, yəni, tələbə və həkim sözləri əslində tələbələr, həkimlər mənasında çıxış etmişdir. Bəzən mətnlərdə çox da az mənasında işlənə bilir. Belə olduqda cəm halı ümumiləşdirilmiş şəxs adları ilə əvəz edilir. Məs:, — *Ağlayan kimdir ? — Fatmanisə xalalar, Nurcahan xalalar, Sona bacılardır* [85, s.12].

Qənaət aspektindən yanaşdıqca ağlayanların sayı təkcə adları çəkilən şəxslərdən ibarət deyil, onlar sadəcə olaraq minləri, milyonları cəm halda ümumiləşdirmiş, üç şəxs

adı ilə ifadə olunmuşdur. Əlbəttə irad tutula bilər ki, *-lar, -lər* cəmlik şəkilçisi bu funksiyanı yerinə yetrir, buna bizim də şübhəmiz yoxdur. Ancaq həmin şəxs adları ümumilik kəsb edərək məcaziləşir, semantik sıxılma baş verir və kapitalist dünyasında qorunması zəruri olan bütün qadınların hüququ nəzərdə tutulur. Ümumiyyətlə, nəsr mətnlərində semantik sıxılma nəticəsində özünü göstərən qənaət prinsipi müxtəlif assosiativ əlaqələr əsasında baş verir və bunlar sifətlərin, sayların substantivləşməsi ilə də təzahür edə bilir. (Bu barədə araşdırmanın müvafiq yerlərində geniş danışılacaq).

Beləliklə, qənaətin nəsr mətnlərində fonetik, morfoloji, leksik, semantik yaruslar üzrə təzahürü və onların insan təsəvvüründə asanlıqla bərpası onu psixolinqvistika elminin tədqiqat predmeti kimi səciyyələndirir. Təhlil göstərir ki, bütün dil resursları üzrə təzahür edən qənaət prinsipi ağırlaşmanın qarşısını alır, mənanın daha dəqiq ifadəsini, oxucuda emosional-ekspessiv hissləri yaratmağı özündə ehtiva etdirir.

Sintaktik səviyyə üzrə nəsr mətnlərində qənaətin təzahürünü daha geniş şəkildə müşahidə etmək olur və burada əsas rolu ellipsisləşmə oynayır və buraxılan üzvləri şüuraltı şəkildə bərpası olduqca asan olur.

Ellipsisləşməni müxtəlif istiqamətlərdə təsnif etmək olar və fikrimizcə, buraxılan üzvün cümlə quruluşu vasitəsilə təsəvvürdə bərpası; buraxılmış üzvün kontekst vasitəsilə təsəvvürdə bərpası və bunlarda mexaniki, zahiri görkəmə, formaya görə ellipsisləşmə ola bilər. Çünki ellipsisləşmədə psixoloji motiv və emosional çalarlıq aparıcı rol oynayır və bunlar bir-birini qarşılıqlı şərtləndirir. Cümlədə müəyyən söz və ya ifadənin buraxılması ellipsisləşmənin yaranmasının qanunauyğun halıdır və bunların təsəvvürdə bərpası mexaniki olaraq baş verir. Bütün bu dediklərimizi nəzərə alıb nəsr dilində qənaətin təsəvvürdə canlandırılmasını aşağıdakı istiqamətlər üzrə təhlilə cəlb edə bilərik :

1) Qənaətin cümlə modeli ilə təsəvvürdə bərpası.Cümlədə müəyyən söz və ya ifadənin buraxılması qənaət prinsipini şərtləndirir və buna cümlənin son mövqeyində təsadüf olunur. Personaj gözlənilmədən birdən öz nitqini kəsir, yalnız intonasiyadan, mimikadan məlum olur ki, nə isə gizlində müəyyən bir söz, ifadə vardır, lakin danışan şəxs həmin söz və ya ifadəni işlətməyi lazım bilmir, oxucu isə həmin söz və ifadəni

təsəvvüründə canlandıra bilir. Məs:, *Ay sənin ... gör nə bicdirlər [46, s.41]; Kənd də kənd deyil ki, ... [46, s.101]; Bu evi sən yesən, onda gərək mən ...olam [46, s.22] və s.*

Bu cümlələrdə buraxılan üzvlərin yerində üç nöqtə durğu işarəsindən istifadə olunmuşdur və onların yerində təsəvvürümüzdəki "*atana lənət*" [birinci cümlədə], "*cəhənnəmdir*" [ikinci cümlədə], "*ac*" [üçüncü cümlədə] söz və ifadələrini bərpa etsək, cümlələrə məntiqi planda heç bir xələl gəlməz və göründüyü kimi cümlə vasitəsilə buraxılmış üzvləri təsəvvürümüzdə heç bir çətinlik çəkmədən yerlərinə bərpa edə bilərik. Burada qənaətlə bərabər, yazıçının digər məqsədlər də güddüyünü nəzərdən qaçırmaq olmaz. Yazıçı sosial etikanı qorumaq naminə və buraxılmış üzvlərin yerinə üç nöqtə işarəsindən istifadə edə bilər ki, bu da nəsr mətnində geniş müsahibə olunan sintaktik faktlardandır.

Bəzən cümlə quruluşunu öz-özlüyündə heç bir başqa amildən asılı"*ellipsisin olmadan həyata keçirir. Təsəvvürdə olan tam strukturun əsasında cümlə quruluşundakı ellipsisə uğramış hər hansı bir element bərpa edilə bilir"* [119, s.93-94]. Məs:, *Bəlkə sizdən sual elədilər ki, ey müsəlman yoldaşlar, siz hələ nə istəyirsiniz? Siz hara, azadlıq hara? Siz hara, müsavat hara?* [85, s.20].

Təsəvvürdəki quruluşu bərpa etsək, birinci cümləni çıxmaq şərtilə növbəti gələn cümlələrə də "*ey müsəlman yoldaşlar*" xitab – cümləsini əlavə etməliyik və belə olduğu halda cümlələrdə şablon təkrarlılıq baş alıb gedər və qənaət prinsipi yoxa çıxar.

Cümlə quruluşu vasitəsilə bərpa edilən buraxılmış üzv öz funksiyası etibarilə cümlə daxilindəki sintaktik əlaqələrlə möhkəm bağlı olur və yaxud cümlə sintaktik kompleksinin daha möhkəm sintaktik əlaqəsinə xidmət edir. Məs:, *Qış fəslindəki ağaclar kimi hərə öz aləminə çəkilmiş, öz fikriylə məşğuldu* [46, s.108].

Bu cümlənin birinci komponentində "*-dı*" şəkilçisinə, ikinci komponentində "hərə" mübtədasına qənaət olunmuşdur. K.Abdullayev qeyd edir ki, "*məhz bu tipli ellipsisləşdirmə bu konkret sintaktik hissələri bir bütöv kompleksdə birləşdirir və təbii ki, hər bir hissənin də ayrılıqda sintaktik cəhətdən müstəqilliyini azaldır, heçə endirir*" [9, s.24]. Bərpa etməli olsaq, hər bir hissə ayrılıqda bu şəkildə ifadə edilə bilər : *a) Qış*

fəslindəki ağaclar kimi öz aləminə çəkilmişdi; b) Qış fəslindəki ağaclar kimi hərə öz aləminə çəkilmişdi.

Digər misala nəzər salaq: *Bilmirəm sən nə deyəcəksən – vəhşi deyəcəksən – bitərbiyə deyəcəksən, qudurğan deyəcəksən, namərd deyəcəksən, murdar deyəcəksən* [74,11]

Göründüyü kimi, bu sintaktik bütövdə - cümlədə 6 dəfə "deyəcəksən" xəbəri təkrar işlədilmişdir. Tərəfimizdən cümləyə qənaət əməliyyatı tətbiq edib birinci və sonuncu komponentdə həmin xəbəri saxlayıb digərlərində ellipsisə uğratsaq, cümlənin məntiqinə heç bir zərər gəlməz, sadəcə olaraq ekspessiv keyfiyyət bir qədər zəifləyər və cümlə bu formada alınar: Bilmirəm sən nə deyəcəksən – vəhşi, bitərbiyə, qudurğan, namərd, murdar deyəcəksən hətta burada "sən" şəxs əvəzliyini, cümlənin sonunda işlənən "deyəcəksən" feilini də ellipsisləşdirmək olar, çünki həmin əvəzliyin vəzifəsini şəxs şəkiklçisi öz üzərinə götürür, sonuncu hissədə işlənən "deyəcəksən" xəbərinin funksiyasını birinci komponentdə çıxış edən eyni xəbər yerinə yetirir. Nəsr mətnlərində qənaət prinsipini mətnin köməyi ilə də izləmək doğru-düzgün linqvistik nəticələrin əldə edilməsinə şərait yaradır.

2) Qənaət prinsipinin mətn vasitəsilə təsəvvürdə bərpası. Nəsr mətnlərində qənaətin bu yöndən öyrənilməsi cümlənin quruluş sərhədlərindən kənara çıxması ilə də əhəmiyyətlidir. "*Bu halda qonşu cümlələrdə işlənən söz birləşmələrinin ayrı-ayrı hissələri ellipsisə uğraya bilir və hər dəfə ellipsisi qonşu cümlənin, başqa sözlə desək, mürəkkəb sintaktik bütövün konteksti vasitəsilə bərpa etmək lazım gəlir*" [119, s.95] və təsəvvürümüzdə də onları aydın şəkildə canlandırmaq olur. Məs:, *Qədim dayı Zülqədərin gözünün içinə baxdı. Mirzə ərizəni çıxarıb onu yanına çağırdı*: *— Bu sənin ərizəndir? Qədim boğazını arıtladı: — Hə cızıxlı kağız idi. — Kimə yazmışdın? — Qibleyi aləmə! Nə istəyirdin? — Su. — Cavab gəlmişdir! — Mənim ərizəmə?! — Mənim ərizəmə?! Padşahdan? Qibleyi-aləmin özündən, Nə yazmışdır?* [101, s.108].

Bu dialoji nitq aktının birinci cümləsində mübtəda [*mənim ərizəm*], ikinci cümlədə vasitəsiz tamamlıq [*ərizəni*], üçüncü cümlədə tamamlıq və xəbər [*ərizəni*

yazmışdım], dördüncü cümlədə vasitəsiz tamamlıq [*qibleyi-aləmdən*]; beşinci cümlədə vasitəli tamamlıq və xəbər [*qibleyi-aləmdən, istəyirdim*], sonrakı üç cümlədə vasitəsiz tamamlıq və xəbər [*cavab gəlmişdir*], son cümlədə mübtəda [*qibleyi-aləm*] buraxılmışdır və bunları təsəvvürdə bərpa oluna bilir və hansı cümlə üzvünün buraxıldığını mətnin koməyi ilə müəyyənləşdirmək olar.

3) Qənaət prinsipinin situasiya ilə bərpası və təsəvvürdə əksi. Situasiyanın köməyi ilə cümlədaxili və cümləxarici qənaəti təsəvvürdə əks etdirmək olur və bu tipli qənaət prinsipi həm təktərkibli, həm də cüttərkibli sintaktik komplekslərdə özünü göstərir. Məs: — *Bəs, bu gün niyə idarələr bağlıdır*?

— *Bu gün də Qriqorinin başına soyuq dəyib.*

— *Bəs, bu gün niyə oğlun dərsə gəlməyib?*

— *Bu gün də müqəddəs Pyotr yuxu görüb.*

— *Bəs, bu gün niyə Bakı müəllimləri tətil ediblər?*

— *Bu gün Pavel bayramıdır*

— *Bu gün Aleksandr bayramıdır.*

— *Bu gün niyə yavansınız?*

— *Bu gün niyə dükan-bazar bağlı idi.*

— *Niyə bağlı idi?*

— *Bu gün Dionisi həzrətlərini suya çəkiblər*

— *Bu gün Loan Krestitelin boynunu vurullar.*

— *Bu gün Ksenosant bayramıdır* [85, s.21].

13 replikadan ibarət olan bu dialoqda cavab yerində işlənməli olan cümlələrdə "Çünki, ona görə ki, o səbəbə ki" köməkçi elementləri buraxılmışdır və kompleksin verdiyi təsəvvür əsasında həmin elementlərdən birini işlətmək mümkündür. Buraxılmış elementləri bərpa etsək, cavab cümlələri belə olmalıdır*: Çünki bu gün də Qriqorinin başına soyuq dəyib. Ona görə ki, bu gün müqəddəs Pyotr yuxu görüb; O səbəbə ki, bu gün Pavel bayramıdır* və s. Onu da inkar etmək olmaz ki, bərpa edilməmiş cavab

cümlələrində buraxılmış köməkçi elementlər implist [*gizli*] şəkildədir və onları situasiya vasitəsilə təsəvvürdə əks etdirmək olur.

Nəsr mətnlərində qənaət prinsipi gizli şəkildə təktərkibli cümlələrdə özünü göstərir. Məs:, *Qış fəsli. Hər tərəf ağappaq* [101, s.38]. Bunlar adlıq cümlə modelindədir və qənaətə meylilik adlıq cümlələrin xarakterik əlamətidir. İki cümlədən ibarət olan bu adlıq cümlələr də ayrı-ayrılıqda 2 ellipsisləşmə - qənaət özünü göstərir və əgər cümlədə buraxılan söz və morfoloji göstəricini bərpa etsək cümlələr belə alınar : *İndi qışdır; İndi hər tərəf ağappaqdır.*

Deməli, bu tip qənaət prinsipində dil təsviri bütöv bir situasiyaya uyğunlaşdırılır və belə situasiya nəsr mətnlərində çoxcəhətliliyi ilə seçilir. Bəzən yazıçı müəyyən təəssürat altında real predmetin, obyektin mənfi və müsbət cəhətlərini təsvir edərkən, afərin, mərhəba, yaxşı, əla, cəhənnəm və s. emosional –qiymətləndirici söz və ifadələrdən istifadə etməli olur, bunlar da təsvirin, hərəkətin ümumiləşmiş, abstrakt adına çevrilirlər. Özləri bir sözdən ibarət olsalar da, təsəvvürdə geniş cümlələr təəssüratı bağışlayırlar: *Bu çay əla çaydır; cəhənnəm olsun; Afərin olsun. Pəh-pəh nə dadlı xörəkdir* və s.

Beləliklə, nəsr mətnlərində qənaət prinsipi birinci növbədə ellipsisləşmə prosesində özünü qabarıq şəkildə göstərir və o, cümlə, sintaktik bütöv, situasiya pozisiyalarında təzahür edir. Kommunikasiyada iştirak edən hər hansı qənaət elementi danışanın nəzərdə tutduğu modeli, quruluşu və hətta leksik, fonomorfoloji elementləri psixofiziki yöndə əks etdirməyə şərait yaradır.

1.3. Qənaət prinsipinin tarixi-müqayisəli müstəvidə linqvistik təhlili

Dildə qənaət prinsipini tarixilik və müasirlik nöqteyi-nəzərdən saf-çürük etdikdə olduqca maraqlı və dilçilik elmi üçün mühüm dəyər kəsb edən məsələlər meydana çıxır. Səslər, morfoloji göstəricilər sözlərin tərkibində elə belə, kor-koranə, adi şəkildə bir-birilə birləşmirlər. Sözlərin tərkibində səslərin, şəkilçilərin bir-birilə əlaqəyə girməsi, birləşməsi faktı öz-özlüyündə qanunauyğun linqvistik hal olub, konkret tarixi bilinməyən uzun illərin məhsuludur. Cümlənin qurulma mexanizmi üçün söz və söz birləşmələri əsas olduğu kimi,

mətnin təşkilində cümlə əsas faktordur və bunlar dildə kommunikativ funksiyaları yerinə yetirirlər. Çoxlu sayda dil göstəricilərindən olan söz və şəkilçilərə tarixilik və müasirlik prizmalarından yanaşdıqda həmin söz və şəkilçilərin tərkibində tarixi inkişaf nəticəsində qənaət prinsipinə meyliliyi açıq və aşkar şəkildə sezməmək mümkün deyil və bunlar dilin təkamül prosesinin dinamik səciyyəsini şərtləndirir. Təbii ki, sözdə buraxılmış səsin, morfoloji göstəricinin bərpası onun söz quruluşundakı mövqeyilə müəyyənləşdirilə bilər və bu mövqeni şərtləndirən situasiyanın, üslubi məqamın köməyi az deyil. Qənaətə meyilliyin əsasında uzun tarixi inkişaf prosesi durur və bu inkişaf prosesi göstərir ki, dil mürəkkəblikdən bəsitliyə, sadəliyə doğru daha çox meyillidir.

Dildə qənaət prinsipi uzun təkamül prosesinin nəticəsi kimi meydana çıxır. Dil səviyyəsində hər hansı bir sözün quruluşunun mürəkkəblikdən sadəliyə doğru inkişafını izləməklə qənaət prinsipinin əhəmiyyətini aşkara çıxarmış olarıq. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanlarından üzü bəri ən azından XIX əsrin sonlarına kimi dilimizdə işlənən "yengi" sifətini götürək. Tarixi qrammatika kitablarında qeyd edilir ki, "*yengi" sifəti təxminən XIX əsrin ortalarına qədər əski formasını saxlamış, get-gedə onun tərkibində q samitinin zəifləyib düşməsi ilə "yeni" şəklində sabitləşmişdir"* [91, s.74]. Bu fikrə etirazımız yoxdur, lakin əlavəmiz bundan ibarətdir ki, dilimizin inkişaf qanunauyğunlaqlarına müvafiq olaraq söz mürəkkəblikdən sadəliyə, yəni qənaətə doğru bir təkamül yolu keçmişdir, çünki bu təkamül prosesi təkcə Azərbaycan dilində deyil, ümumtürk dillərinin əksəriyyətində də özünü təzahür etdirir. [Burada biz mürəkkəb sözü dedikdə qrammatika kitablarındakı sözün quruluş növünü nəzərdə tutmuruq - K.N.]. Və yaxud, 5 min il əvvəl şumer dilində tir sözünü götürək və "həyat, diri" mənalarında hazırda dilimizdə işlənən bu sözün qənaət prinsipinə transferi müxtəlif fonetik tərkiblərdə olmuşdur. Orxon abidələrində bu söz "tirig" şəklində işlənmişdir: *Üçin külüg tirig ben // Mən günü diriyəm, üç yaşında atasız qaldım* [66, s.32]. S.Kərimov qeyd edir ki, müasir dövrdə "diri" mənasında işlənən tirig sözü olduqca qədim formadır [76, s.8]. Müxtəlif tarixi dövrlərdə *tirig* sözü teri, tori, tarui tarixi şəkillərində də işlənmişdir. Bütün bunları şərh etməkdə məqsədimiz budur ki, söz tərkibində uzun inkişaf prosesindəki qənaət

prinsipinin özünü necə təzahür etməsi yolunu üzə çıxarmaqdır. Qədim dil araşdırmalarından bu da məlum olur ki, "*tirig*" sözünün sonunda *g* samitinin ellipsisə uğraması XIII əsrin sonlarına təsadüf edir, *ölug – ölü, çölg – çöl, suçik – suçi* sözlərində olduğu kimi [76, s.33]. Bütün bu dil faktlarını nəzərə alıb *tirig* sözünün qənaət prinsipinə transferini belə göstərə bilərik: *tiri [şumercə] → tirig [Orxon yazılarında] → tarui [türkcələrdə] → tiri [puleotoponimlərdə] → diri [müasir Azərbaycan dilində]*. Deməli, sözdə bir səsin dilin təkamülü nəticəsində düşməsi mürəkkəblikdən sadəliyə doğru meylliliklə bağlıdır ki, bu da qənaətin ən mühüm göstəricisi kimi dəyərləndirilməlidir.

Azərbaycan dilinin qədim dövrlərinə aid olan yazıların dilində müasir ədəbi dilimizdə işlənən "ulu" sözünün *ologğ – oloq – uluğ* şəkillərinə rast gəlirik. Elmi mənbələrdə *ologğ – oloq – uluğ* fonetik tərkibinə malik sözü şərh edilərək göstərilir ki, bu sözlər "hər bir şeyin böyüyü" mənasını verir [67, s.62]. Hazırda həmin formalar dilimizdə işlənməsələr də, "ulu" sözü, yəni həmin formaların sadələşdirilmiş, qənaətə uyğunlaşdırılmış şəkli işlənir və "qədim" mənasını bildirir. Bu sözün qənaətə transferi fikrimizcə, belə olmuşdur: *ologğ → oloq → uluğ → ulu*.

Məlumdur ki, onluq sayları ayrı-ayrı lüğəvi vahidlərdən ibarət olan miqdar saylarının birləşməsindən düzəlmişdir və onlardan səksən, doxsan sayları qədim dövrlərdə səkkiz + on, doqquz + on formalarında işlənmiş və onların belə şəkil alması heç də o demək deyil ki, uyğun mövqelərdə sözlər bəsitləşmiş şəkillərdə öz yerlərini tutmamışlar, buraxılmışdır. Miqdar saylarının tərkibindən də, səslənməsindən aydın şəkildə görünür ki, "on" sayı həmin sözlərin tərkibində fonetik dəyişikliyə məruz qalaraq işlənir və sadəcə olaraq həmin sayların müasir formalarında tələffüzü sadələşir, sözlər yığcamlaşır.

Substantivləşdirilmiş saylarda qənaət prinsipi özünü semantik resurslar üzrə təzahür etdirir. Məsələn, *26-lar Ağcaqum çölündə güllələndilər* – cümləsində *26-lar* sayı müəyyən funksional dəyərə malik olan dil vasitəsidir və qənaət prinsipi ilə əlaqədar olaraq bu şəkildə işlədilmişdir. Substantivləşmiş 26-lar sayının məna pastulatlarını çözələsək, mütləq həmin şəxslərin – güllənənlərin adlarını və soyadlarını, hansı işlə məşğul olduqlarını, nə üçün güllələndiklərini sadalamalıyıq. Bu qeyd etdiklərimiz, şübhəsiz ki,

mikromətn çərçivəsində öz bədii həllini tapır və informativlik mətndə reallaşdırılır. Cümlə strukturunda həmin sayın substantivləşmiş şəkildə işlədilməsi oxucunu fizioloji əziyyətdən azad edir və oxucu istər-istəməz təsəvvüründə, təfəkküründə 26 nəfər şəxsi göz önünə gətirir. Deməli, 26-lar sözü özündə həmin sayda olan şəxslərin ad və soyadlarını abstrakt, instintiktiv şəkildə təzahür etdirir, ilk növbədə burada qənaət prinsipi çoxlu sayda xüsusi isimlərin semantik ellipsisə uğraması hesabına baş verir. Müasir publisistikamızda işlənən 60-cılar, 91-lər saylarında vəziyyət 26-lar substantivləşmiş sayında olduğu kimidir.

Tarixilik və müasirlik müstəvilərində qənaət prinsipini izlədikcə məlum olur ki, dildə əvəzliklər sistemində də müəyyən sadələşmə prosesi baş vermişdir. Müasir dilimizdə üçüncü şəxsin təkini və müəyyən uzaq və ya yaxın məsafələrdəki əşyaya işarə etmək, onları ifadə etmək üçün "o" sözündən istifadə olunur. Dilimizdə bu yeganə tək hərflə ifadə olunan müstəqil və leksik mənaya malik olan hərfi sözdür. "*XIX əsrin əvvəllərinədək "O" əvəzliyi normal vəziyyətdə "ol" şəklində işlənmişdir. Lakin bu dövrdən sonrakı ədəbi dilimizdə o əvəzliyinin "ol" şəklinə rast gəmirik*". [58, s.106]. Deməli, minilliklər ərzində "ol" şəklindəki bu əvəzliyin sonunda "l" samitinin düşməsi üslubi xüsusiyyətdən daha çox, dilin qənaətə meyliliyi ilə izah olunmalıdır. H.Mirzəzadə göstərir ki, "*Şəxs və işarə əvəzliklərində, yəni "ol" əvəzliyində baş verən səs düşməsi hadisəsinin səbəbi bizə məlum deyildir*" [91,108]. N.K.Dmitriyev öz tədqiqatlarında belə qənaətə gəlmişdir ki, "*bu əvəzliyin, yəni "o"-nun məcazi olaraq iki forması mövcuddur : ul>ol / u>o*" [131, s.99]. Göründüyü kimi hər iki dil tarixçisi – türkoloq "ol"-un "o", "u" –ya çevrilməsi prosesini düzgün izləmişlər, lakin həmin əvəzlikdə "ol"-da l samitinin düşməsi hadisəsini izah etməkdə çətinlik çəkmişlər. Fikrimizcə, Azərbaycan dilində olduğu kimi, digər türkcələrdə də "*ol*"-un "*o*", "*u*" şəklinə düşməsi dilin qənaətə meyliliyi ilə əlaqədar baş vermişdir. "*O*" əvəzliyinin "*u*" şəklində işlənməsinə hazırda Azərbaycan dilinin bəzi dialekt və şivələrində də rast gəlinir.

Tarixi dövrlərdəki əsərlərin dilində sol əvəzliyi intensiv şəkildə işlənmişdir. A.N.Kononovun fikrincə, "*şol" əvəzliyi "şu+ol" tərkib hissələrindən yaranmışdır. Türk*

xalqlarının dillərində olan yaxın münasibət nəticəsində su və ol əvəzlikləri çarpazlaşmış tam bir lüğət vahidinə [sol] çevrilmişdir" [135, s.102]. Paralel işlənən bu əvəzliklərin tərkibindən saitlərdən birinin düşməsi qənaət prinsipinin bir halıdır, çünki belə halı dilimizdə hər zaman müşahidə edə bilirik. Azərbaycan dilində saitlə bitən birinci söz, saitlə başlayan ikinci bir sözlə birləşdiyi vaxt birinci sözün son saiti itir ki, bu da dilin qənaətə meyliliyi ilə bağlıdır. Məs: *Əliəkbər-Ələkbər, Hacıağa-Hacağa* sözlərində bir səsli düşdüyü kimi, *su-ol* əvəzliklərində də birsəsli düşmüşdür. Verdiyimiz qısa izahatdan belə nəticəyə gəlirik ki, sol dilin təkamülü prosesində tərkib hissələrinə paylanmağa doğru getmiş, türkcələrin bəzilərində öz əslini ol, sol mühafizə etmiş, bəzilərində isə tamamilə dilin qənaətə meyliliyi ilə bağlı olaraq bəsitləşmiş və onun qənaət prinsipinə transferini belə sxemləşdirə bilərik: *su+ol – sol – ol - o.* Sonuncu "o" əvəzliyindən başqa, digər formalar müasir dilimizdə və dialektlərimizdə işlənmirlər. Dilimizdə işarə etmək yolu ilə işlənən "o" əvəzliyinin qədim dövrlərdəki forması "usbu" şəklində olmuşdur. XIV–XV əsrə qədərki klassiklərimizin dilində "usbu//osbu" formalarının işləklik intensivliyi müşahidə olunur. V.V. Radlov bəzi türkcələrdə həmin işarə əvəzliyinin "*os//ospu*" fonetik tərkiblərində işləndiyini qeyd edir [145, s.1149-1150]. Azərbaycan dilində istər sol, sul və istərsə də onun tərkibcə dəyişmiş növü "os+bu" tamamilə normallaşa bilmədiyindən sabitləşməmişdir. Hazırda onun məqbul variantı "o"-dan istifadə olunur və bu əvəzliyin də qənaət prinsipinə meylilik istiqamətini belə göstərə bilərik : *usbu > osbu – su – so – o.*

Müasir Azərbaycan dilində aktiv fəaliyyətdə olan "elə" işarə əvəzliyinin tarixi dövrlərdə fəal işlənən "öylə//söylə əvəzlliyindən törəməsi qrammatika kitablarında birmənalı şəkildə sübut edilmişdir [110, s.114]. Bu işarə əvəzliyinin "öylə" forması dilimizdə demək olar ki, təsadüfi hallarda işlənir, "söylə" forması isə arxaikləşərək dilimizin lüğət tərkibini tərk etmişdir. Bu, yəni öylə//söylə əvəzliyində qənaətin transformasiya istiqamətini belə müəyyənləşdirmək düzgün olardı: söylə -öylə -elə.

Dilimizdə - *ar,-ər* şəkilçisi əsasən, sifət köklərinin sonuna gələrək, düzəltmə feil əmələ gətirir. Türkologiyada belə ehtimal edilir ki, "*bu şəkilçisi qədim dövrlərdə işlənən –kar, -kər, -qur, -gər,-qər şəkilçilərinin variantlarından biridir*" [90, s.131] və tərkib

hissələrindən birinci səssizini itirmiş, qənaətə müvafiq olaraq *–ar, -ər* kimi bəsit bir şəkil almışdır. Qənaət prinsipinə uyğun şəkil almış bu forma nəsr mətnlərində morfoloji üsulla əmələ gələn feillərin tərkibində aktiv işlənir.

Bəzi feillərə tarixi və müasir aspektlərdən yanaşdıqda aydın şəkildə görünür ki, dilimizin öz daxili təkamül qanunlarına əsasən düzəltmə və analitik üsulla yaranmış feillərdə mürəkkəblikdən sadəliyə doğru başlanan proses tarixilik etibarilə çox-çox qədim dövrlərdən başlamışdır. Məsələn, müasir ədəbi dilimizdə işlənən "idi" – nin qədim şəkli *erdi, irdi* köməkçi feilləri olmuşdur, lakin zaman keçdikcə sözün tərkibindən qənaət prinsipinə müvafiq olaraq "*r*" səsi düşmüş və fonetik dəyişmələr baş vermiş və nəticədə müasir dilimizdə -idi [*-dı, -di, -du*] şəkli sabitləşmişdir.

Ermiş, irmiş formaları müasir dilimizdə olan imiş-in qədim şəklidir. *İdi*-nin keçirdiyi tarixi inkişafı, qənaətə meyliliklə bağlı olaraq *imiş* də eyni vəziyyətdə keçirmişdir.

Müasir dilimizdə şərt məzmununu reallaşdırmaq üçün *–sa, -sə* şəkilçisindən istifadə olunur. Bu morfoloji göstərici tarixi əsərlərin dilində - isər şəklində işlənir, *-acaq, -əcək* şəkilçisinin sinonim dubleti kimi özünü göstərir. Tarixi qrammatika kitablarında ehtimal edilir ki, "*-isər şəkilçisi iki tərkib hissədən [i+sər] əmələ gəlmişdir və biz də bu fikri məqbul hesab edirik*" [93, s.155]. H. Mirzəzadə göstərir ki, "*-isər şəkilçisi iki tərkib hissədən əmələ gəlmişdir. Birinci tərəf müasir dilimizdə işlənən şərt məzmun bildirən – ilsə şəkilçisidir; Məs:, gəlir isə - gəlirsə, almış isə - almışsa və s. Bu şəkilçinin qədim şəkli – isər –dir. Lakin dilucu titrək səs olan r türk dillərində sabit olmadığı üçün get-gedə zəifləyərək, sözün sonundan düşmüş və isər, -sa, -sə şəklində sabitləşmişdir*" [91, s.155]. Fikrimizcə, bu deyilənləri dilin qənaətə meyliliyi ilə də əlaqələndirmək daha düzgün olardı.

Müasir nəsr dilində bəzi məqamlarda "çıxa bildi", "çata bildi", "görə bildi" və s. cümlələrdə inkarlıq məzmunu gerçəkləşdirmə hallarında "bildi" feili ellipsisə məruz qalır, assimlyasiyaya uyğun olaraq həmin cümlələr "çıxammadı", "çatammadı",

“görəmmədi” şəkillərində işlənir ki, bunlar qənaət prinsipinin təzahürü kimi səciyyələndirilməlidir.

Dilimizdə ta qədim dövrlərdən XIX əsrə qədər feili bağlama şəkilçisi olan *-ıbən, -ibən, -ubən, - übən* morfoloji göstəricisi işlənmişdir. Dilin qənaətə meyliliyi ilə bağlı olaraq bu şəkilçinin ikinci komponentində - *an, - ən* hissəsi ixtisar edilmiş *–ıb, -ib, -ub, -üb* şəklinə düşmüşdür. İstər qədim, istərsə də müasir formalar məna və funksiya etibarilə eyni vəzifəni yerinə yetirirlər.

Zərflər olduqca abstrakt nitq hissəsi olduğu üçün onlarda da qənaətə meylilik özünü qabarıq şəkildə göstərir. Məsələn “Kitabi Dədə Qorqud” dastanlarının dilində hərəkətin tərzini bildirən “çaparaq”, “qaçaraq” kimi sözlər “çapar”, “qaçar” –araq şəkilçisinin ixtisarı şəklində işlənir: *Qazan bəyin qardaşı Qaragünə çapar getdi* [78,164]. Əslində müasir dilimizlə müqayisədə “çapar” sözündə morfoloji sıxılma özünü göstərir və abstrakt şəkildə təsəvvürümüzdə “çaparaq” tərz zərfi canlanır. Müasir dilimiz üçün arxaikləşmiş “şimdi”, “qabaqcaq” zaman zərflərinin hazaırda bəsitləşmiş, qənaətə uyğunlaşdırılmış “indi”, “qabaqca” formalarından istifadə olunur. “Bəri” zərfi qədim yazılı əsərlərin dilində “bu+əri” şəklində mürəkkəb formada işlənmişdir, yəni sözün etimoloji quruluşu həmin şəkildə olmuşdur, hazırda onun bəsit şəklindən istifadə edilir. Deməli, söz kökü ilə şəkilçi arasında ciddi qənaətə meylilik özünü göstərir, yəni morfoloji – semantik təkamül nəticəsində ciddi diferensial fərqlər təzahür edir. Kəmiyyət zərfləri miqdar [müəyyən və qeyri-müəyyən] sayları və kəmiyyət anlayışlı müxtəlif sözlərlə ifadə olunduqda miqdar saylarında bəzən köməkçi sözlər [*kərə, dəfə, qat, qədər* və s.] qənaətə uyğun olaraq düşür ki, müasir və tarixi əsərlərin dilində belə buraxılma ilə bağlı istənilən qədər nümunəyə rast gəlmək mümkündür.

Müasir dilimizdə işlənən “bəri” qoşmasının qədim şəkli “bərli” zaman məzmunu bildirən qoşmasıdır. N.A. Baskakov belə güman edir ki, “*bərlu qoşması mürəkkəb söz olub, birinci komponenti işarə əvəzliyi bu, ikinci tərkib hissəsi isə əvvəllərdə müstəqil söz , sonralar isə şəkilçiləşmiş olan ünsürdən ibarətdir*” [123, s.503]. Rus türkoloqunun bu fikrində tam reallıq əks olunmuşdur və tarixi dövrlərdə bərlu qoşmasından müəyyən bir

çıxış nöqtəsindən cərəyan edən hərəkətin və yerişin inkişafını göstərmək üçün istifadə edilmişdir, hazırda dilimizdə tamamilə işləkliyini itirmişdir. Bu qoşmanın qənaətə meylilik istiqamətini belə göstərə bilərik: *bu+əri – bərli – bəri*.

Müasir ədəbi dilimizdə işlənən *ilə, -la, -lə, -nan, -nən* qoşmalarının birlən müstəqil sözündən törəndiyi ehtimal edilir. "Birlən, bilə qoşması iki tərkib hissədən əmələ gəlmişdir; yəni say bildirən "bir" sözünün feil düzəldən –lə şəkilçisi və qədim feili bağlama şəkilçisi "n" ünsürü ilə birləşməsindən düzəlmiş" [99, s.208] və "birlikdə, vəhdətdə" mənasını ifadə etmişdir [34, s.31: 117, s.42]. Qədim birlən qoşmasının qənaət prinspinə transferi fikrimizcə , aşağıdakı istiqamət üzrə baş vermişdir: *birlən – ilən – lan, lən – nan, nən* – ilə *-la, -lə*. Müşahidələrimiz göstərir ki, müasir nəsr dilində sonuncu variantlara daha çox üstünlük verilir. Birlən > bilə qoşması ilə bağlı R.A. Melioranski, A.N.Kononov, V. Kotviç və başqa türkoloqların araşdırmalarını sintez edən Ə. Rəcəbli qeyd edir ki, "*Qədim türk birlən > bilə qoşması ehtimal ki, aşağıdakı inkişaf yolunu keçərək türkcələrə gəlib çıxmışdır*: a) *birlən > bilən > ilən > lən; b) birlə > bilə > ilə > la, -lə* [99, s.450].

Bədii tarixi materiallarda sual əvəzliyi, birləşdirici, bağlayıcı, qüvvətləndirici ədat vəzifəsində çıxış edən kim sözü müasir ədəbi dilimizdə sual əvəzliyini çıxmaq şərtilə "ki" şəklində həm bağlayıcı, həm də ədat funksiyasını icra etmişdir. Uzun illər kim və ki formaları da yazılı materiallarının dilində işlənmişdir. Dilimizin tarixi inkişafı ilə bağlı olaraq qənaət prinsipinə uyğun uzun bir yol keçmiş və sözün sonunda *m* ünsürü düşmüşdür.

Dildə özünü göstərən qənaət uzun illər, əsrlər boyu onda baş verən qısaldılmaların, ixtisarların yəni səslərin düşümü hadisələrinin təzahürüdür. Axı ədatı qədim dövrlərdə axır fonetik variantında işlənmiş və müasir dilimizdəki semantik məzmunu ifadə etmişdir. Hər iki variant axır; axı ifadəyə son, nəhayət, nəticə məzmunu gətirir və dilimizdə r samitinin vəziyyəti sabit olmadığı üçün , axır sözünün sonundakı "r"-in buraxılması ilə *axı* şəklinə düşmüşdür.

Güzəşt bildirən *əgərçi, əyərçi, gərçi* bağlayıcıları Azərbaycan ədəbi dilində XIV əsrdən etibarən işlənməyə başlamış, XVIII əsrin sonlarından həmin mürəkkəb [əyər+çi,əgər+çi, gərçi formalarda *–çı, -çi* ünsürləri qənaətə uyğun tərzdə ixtisar edilmişdir.

Dilin sintaktik səviyyəsində də qənaət prinsipinin izlənilməsi olduqca maraq kəsb edən məsələlərdəndir. Qədim və orta əsrlərin yazı dilində birinci tərəfi saylardan düzəlmiş birinci növ ismi birləşmələrinin tərəfləri arasında kəmiyyətə görə uzlaşma cəhətdən müəyyən xüsusiyyətlərə rast gəlirik. Məsələn, "Kitabi – Dədə Qorqud" un dilində "qırx namərdlər", Xətaidə "yüz min ziyalılar", Füzulidə "iki aləmlər", Vaqifdə "iki əllər", Koroğluda "iki bəylər", kimi işlənən birinci növ ismi birləşmələr "-lar, -lər" şəkilçisi ilə işlənmişdir. Birincisi məntiqi baxımdan müasir dilimizdə belə formalar özünü doğrultmur, səhv hesab olunur. Morfologiyaya və sintaksisə aid vəsaitlərdə də göstərilir ki, sayların isimlərlə birləşməsi, yəni birinci tərəfi saydan ibarət olan ismi birləşmələr bir sıra xüsusiyyətlərə malikdir. Əvvəla, isimdən əvvəl konkret say gəldikdə isimlər cəm şəkilçisi qəbul etmir. Tarixilik baxımından yanaşdıqda aydın şəkildə görürük ki, türkdilli qədim abidələrin dilində birinci növ ismi birləşmələr daha çox işlənir. Bu tip söz birləşmələrinin qədim dövrlərdə işləklik intensivliyini nəzərə alan Ə. Şükürlü yazır ki, "*Bu da birinci növ təyini söz birləşmələrinin əmələ gəlmə tarixinə görə ikinci və üçüncü növ təyini birləşmələrdən daha qədim olduğunu sübut edir*" [108, s.169]. M. Qıpçaq bu üstünlüyü riyazi hesablama – kəmiyyət baxımından üzə çıxarır və qeyd edir ki, "*VII – X əsrlər Orxon və uyğur abidələrinin dilində 70 faiz birinci növ, 25 faiz ikinci növ, 4 faiz üçüncü növ təyini söz birləşməsinə rast gəlinir*" [83, s.73]. A.N.Kononov söz birləşmələrinin sintaktik xüsusiyyətlərindən danışarkən göstərir ki, "*Təyin etmə zamanı nisbət şəkilçisi ilə düzələn forma daha çox işlənir: atası oğlu, ana balası, Kazım oğlu*" [135, s.160]. Nəsr dili materialları üzərindəki müşahidələrimiz göstərir ki, birinci şəxs tək [əksər hallarda] və cəmində [nadir hallarda] olduğu kimi, birinci tərəfi ikinci şəxsin cəmi ilə düzələn üçüncü növ təyini söz birləşmələrində də yiyəlik hal şəkilçisi düşür və ona qənaət olunur. Bu vəziyyətdə də əmələ gələn birləşmə ikinci növ təyini söz birləşməsinə

bənzəsə də, lakin məzmun etibarilə üçüncü növ ismi birləşmə sayılır. Məs: *dağın çiçəyi-dağ çiçəyi, ananın südü – ana südü, ayağın tozu – ayaq tozu, atanın nəfəsi – ata nəfəsi* və s.

Sadə və mürəkkəb səviyyələrində də cümlə tərkibində qənaət prinsipinə uyğun prosesləri də geniş şəkildə izləmək mümkündür və bu ayrıca böyük bir araşdırmanın mövzusudur.

Beləliklə, nəzərdən keçirdiyimiz linqvistik faktlar göstərir ki, tarixi inkişaf nəticəsində dil mürəkkəblikdən bəsitliyə doğru yol keçmiş və söz daxilində qənaət prinsipinin özünü göstərməsi, ilk növbədə, sözün bu və ya digər səsinin buraxılması, ixtisarı hesabına baş vermişdir.

II FƏSİL
NƏSR MƏTNLƏRİNDƏ FONETİK, LEKSİK, MORFOLOJİ SƏVİYYƏLƏRDƏ QƏNAƏT PRİNSİPİNİN TƏZAHÜRÜ, ONUN NƏSR VƏ ŞEİR MƏTNLƏRİ İLƏ MÜQAYİSƏSİ

Nəsr mətnlərində fonetik, leksik, morfoloji səviyyələrdə qənaət bir çox dil vahidlərində özünü göstərir. Fonetik səviyyədə qənaət üçün müxtəlif dil vahidlərində qanunauyğun hal kimi səslərin düşməsi, ixtisarı əsas vasitə kimi götürülməlidir. Bu məsələnin şərhi üçün söz və morfoloji forma göstəricilərinin diferensiallaşma qaydalarına nəzər salmaq vacib şərtlərdəndir. "*Söz kökləri və şəkilçilərin diferensiallaşması ilə əlaqədar olaraq meydana çıxan qənaət dildə bir sıra formaların müəyyənləşməsinin əsasını təşkil edir*" [115, s.10]. Müxtəlif quruluşdan olan sözlərdə və həmin sözlərin tərkibində işlənən şəkilçilərdə səslərin ixtisarı çoxhecalılığı azaldır, tələffüz şəraitini asanlaşdırır və belə diferensial formalar nəsr dilinə də sirayət edə bilir. Leksik səviyyədə qənaət nəsr mətnlərində abreviaturaları, yazıçının fərdi üslubi ilə bağlı ad və soyadları, evfemistik ifadələri, frazeoloji vahidləri və s. kateqoriyadan olan linqvistik yarusları əhatə edirik ki, təhlil prosesində bu dil göstəricilərinin qənaətə meylilik xüsusiyyətlərini ayrı-ayrılıqda nəzərdən keçirmək aktual səslənən məsələlərdəndir.

2.1. Fonetik səviyyədə qənaət

Nəsr mətnlərində fonetik və morfoloji mənaları dərindən bilmək, onların işlənmə intensivliyindən, dinamikasından, qarşılıqlı əlaqələrindən, nitq aktlarındakı yeri və mövqeyindən baş çıxarmaq mühüm əhəmiyyət kəsb edir. Bədii əsərlərin dilində mətnə müvafiq olaraq fonetik və morfoloji formalar, sintaktik quruluşlar seçilib işlədilir. Dilə xas olan və daha çox üslubu səciyyələndirən linqistik qənaət nəsr mətnlərinin fonormoloji quruluşunda da əsas yerlərdən birini tutur. "*Nəsr mətnlərində fonomorfoloji səviyyədə qənaət prinsipi təsadüfi, ixtiyarı vxarakter daşımır, müəyyən qaydalara əsaslanan*

qanunauyğunluqlar sistemi kimi özünü göstərir" [52, s.144]. Fonetik səviyyədə konkretlikdən ümumiliyə doğru inkişafla əlaqədar qənaət müəyyən orfoepik, qrammatik normaların yaranmasında əsas amillərdən biri kimi olduqca əhəmiyyətlidir. Nəsr mətnlərində mürəkkəb şəxs adlarından yeri gəldikcə istifadə olunur və belə antroponimlərin bəzilərində səs düşümü hadisəsi təzahür edir ki, bu da qənaəti şərtləndirir. Məs:, *Qoca müəllim Manafzadə Əlağanın üç yaş yarım bir oğlu var* [126, s.269]; *Hacalı ayağa qalxdı* və s.

Birinci nümunədəki Əlağa antroponimində i saiti, ikincisində isə [Hacalı] şəxs adında *ı* saiti qənaətə uygun olaraq buraxılmışdır. "*Belə variantlar lokal nitqdə işləndiyi kimi, bəzi yazılı mənbələrdə də fərdi üsluba xas nümunələr kimi işlədilmişdir*"[114, s.31].

Dilimizdə şəkilçilərin diferensiallaşması ilə əlaqədar olaraq –lıq şəkilçisində (-lı şəkilçisi törəməsi olub), yəni ümumilikdən konkretliyə doğru inkişafla bağlı onun sonunda q samiti düşmüşdür. Hər iki forma -lıq//-lı dilimiz üçün normalaşmış hal hesab olunur. Məsələn, meşəlik yer işlətdiyimiz kimi "meşəli yer" söz birləşməsini də işlədə bilirik və hər iki birləşmə çoxluq məzmunu ifadə edərək sinonim dublet təşkil edir və yaxud, *daşlıq yer – daşlı yer, təpəlik yer – təpəli yer* və s. "*Türkoloqlar təsadüfi deyildir ki, - lı morfeminin - lıq morfemindən əmələ gəldiyini təsdiqləyirlər*" [67, s.20].

Qənaət prinsipi ilə əlaqədar olaraq, müasir nəsr mətnlərində nəzərə çarpan fonomorfoloji hadisələr xeyli saydadır və belə linqvistik hadisələrdən biri də eliziya [səs düşümü] hadisəsidir. Səs düşümü hadisəsi qədim fonetik hadisələrdən biridir və eliziyanın söz daxilində yaranması, başlıca olaraq, səslərin tutduqları mövqe və münasibətlə, həmçinin də səslərin güc iyerarxiyası ilə əlaqədardır. Belə ki, nitq prosesində bəzi səslər gücünü itirir və əvvəlki mövqeyində qala bilmir. *"Səslərin düşümü nəticəsində sözlər sadə şəkil alır və prosesdə "artıqlıq" deyilən qüsur aradan qaldırılır. Əvvəlcə nitq daxilində əmələ gələn bu hadisə sonradan dil normasına çevrilir*" [68, s.124] ki, bunların fonetik və fonomorfoloji istiqamətdə nəsr mətnlərinin verdiyi materiallar əsasında təhlil edilməsi olduqca aktuallıq kəsb edən məsələlərdən biridir.

Nəsr mətni özünün müəyyən təzahüründə spesifik səciyyəvi əlamətlərə malik olur və bu planda o, linqvistik qənaət prinsipinə görə də təhlil edilib, qiymətləndirilə bilər. Nəsr mətnlərində qrammatik vahidlərin məqsədəuyğun şəkildə işlədilməsi nəticəsində fonetik üslub müəyyən normaya çevrilir və bu aspektdə müəyyən linqvistik kateqoriyaların qrammatik və üslubi imkanları daha genişdir. Nəsr mətnlərinin dialoji nitq aktlarında həm qrammatik, həm də üslubi məqsədlə işlədilən feilin arzu, vacib və şərt şəkillərinin forma əlamətlərinə qoşulan ikinci şəxsin cəm şəkilçiləri [-sınız,-siniz, sunuz,-sünüz] qənaət prinsipinə uyğun olaraq qısaldılaraq –sız, -siz, -suz, -süz formasında işlənir. Məs:, -*Yəni siz Nailənin anasında bir günah görmürsüz? [113, s.125]; -Məndən olsa, Krıma göndərərsiz* [113, s.127]; *Harda qalmısız?* [113, s.129] və s.

Diqqətli oxucu bu cümlələrdəki feillərdən dərhal sezir ki, altından xətt çəkilmiş sözlərdə "-sünüz" şəkilçisi "-süz" şəklində işlədilərək qənaətə uyğunlaşdırılmışdır ki, əksər qrammatika kitablarında "*bu formalar müasir ədəbi dilimizdə orfoepik norma kimi qiymətləndirilir*" [94, s.291] və bu tipli sözlər nəsr mətnlərində aktiv şəkildə işlədilməkdədir.

Müşahidələrimiz göstərir ki, danışıq dilinin təsiri ilə nəsr mətnlərinin tərkibində işlənən sintaktik bütövlərin sonundakı –dır,-dir, -dur, -dür şəkilçilərində "r" səsi düşür və fonetik səviyyədə qənaət əldə edilir. Məs:, *həkimdi [r], gəlindi [r]. — Çox savadlı həkimdi. Hamı tərifləyir bunu. Həm də gözəl gəlindi* [28, s.16].

Fonetik səviyyədə qənaət prinsipi müəyyən dəyişmələrlə xarakterizə olunur. "*Bunların müəyyən səbəbləri vardır. Bu cür dəyişmələrin səbəbləri dildən kənarda yox, dilin özündə, onun daxili inkişafını tənzimləyən qanunlarda arayıb-axtarmaq gərəkdir*" [51, s.13].

Linqvistik qənaətlə əlaqədar olaraq, nəsr mətnlərində diqqəti cəlb edən fonomorfoloji hadisələrdən biri də feilin qəti gələcək zaman şəkilçisidir. Dilçilik əsərlərində feilin qəti gələcək zaman formasının əlaməti kimi –acaq, -əcək [saitlə qurtaran feillərdə -yacaq,-yəcək] şəkilçisi formaca təbii diferensiasiyaya uğramış və xalq dilinə uyğun olaraq sintaktik bütövlərdə qənaət prinsipinə uyğunlaşdırılmışdır. [84, s.72]. Yəni

cümlələrdə alacağam əvəzinə alacam, gələcəyəm əvəzinə gələcəm, oxuyacağam yerinə oxuyacam şəkillərində işlədilir. Məs:, — *Qoy çantana, pilləkəndə alacam* [28, s.107]; - *Məni gözlə, bir saatdan sonra gələcəm* [28, s.121]; *Əlimdə olan bir iki gün ərzində sizin köməyinizlə nəsə etməyə çalışacam* [28, s.123] və s.

Belə qənaət formalarından bəhs edən M. Yusifov göstərir ki, "*Qeyri-qəti gələcək zamanın inkarının dil strukturu üzrə ifadə forması belədir: feil+inkar+qoy — qəti gələcək: al-ma-ar. Burada da ikili variant yaranır. Birincisində, sözün şəkilçisi tərkibində iki sait arasına samit daxil olması tamamilə mümkün olan haldır : almayar. Ancaq belə bir variant nitqi daha da ağırlaşdırır. Ona görə nitq bu variantı ümumişlək norma kimi qəbul etmir*" [114, s.31].

Nəsr mətnlərində köməkçi sözlərdən olan idi, imiş, isə sözlərə qoşulduqda bunların əvvəlindəki saitlər ixtisar olunur və qənaət prinsipinə uyğunlaşdırılır. Məs:, *Bunu hətta Nurlanənin qardaşı Vüqar da bilirmiş* [28, s.121]*; Yataqda Məleykə xanım da onları görmüşdü* [28, s.98]; *Fəxrimin arxadakı istirahət otağında kiminsə olduğundan şübhələnib* [28, s.125] və s.

Cümlənin sonunda gələn sözləri *bilir imiş, görmüş idi, kimin isə* şəklində də işlətmək mümkündür, belə olan halda, sözlərin səslənməsində bir ağırlıq hiss olunardı. Əslində isə sözlərdə qənaət prinsipinə uyğun olaraq ixtisarlar baş versə də bunlar ədəbi tələffüzdə qısa sait kimi tələffüz olunur.

Qeyd etməliyik ki, "*idi, imiş köməkçi feilləri ayrı-ayrılıqda deyil, eyni zaman forması daxilində birləşərək, bir-birini asanlıqla əvəz etməklə, uyğun zaman formaları əmələ gətirirlər*" [65, s.23].

Göründüyü kimi, qənaət bu köməkçi sözlərin şəkilçiləşmiş formalarında təzahür edir və Ə.Abdullayev göstərir ki, "*ədatlar müstəqil sözdən köməkçi sözə və onlar da şəkilçiyə keçə bilir. İnkişaf prosesi belə gedir. İdi, imiş ədatlarının şəkilçiləşmiş formalar var : -dı, -di, -du, -dü və -mış,-miş, -muş, -müş [gəlməli idi, gəlməli imiş, gəlirdi, gəlirmiş, lakin köməkçi nitq hissələrinin bir növünə daxil olan bu morfemləri şəkilçi və ya hissəcik*

[şəkilçi] terminləri ilə adlandırmaq olmaz. Çünki bunlar ayrıca bir nitq hissəsi olmur; nitq hissələrindən birinə-ədatlara daxil olur" [7, s.182-183].

Tədqiqatçının *idi, imiş, isə* - ni ədat adlandırarkən gətirdiyi əsaslar o qədər də inandırıcı görünmür. Qrammatika kitablarında "*bu vahidlər haqqında mövcud fikirləri ardıcıllıqla izlədikdən və onların dilimizdə işlənmə məqamlarını nəzərdən keçirdikdən sonra belə qənaətə gəlirik ki, idi, imiş, isə vahidlərinin hissəcik kimi öyrənilməsi daha məqsədə müvafiqdir*" [111,s.103] və onların şəkilçiləşmiş formaları feillə bağlı olub qənaət prinsipinin yaranmasına xidmət göstərir.

Maraqlı cəhət budur ki, nəsr mətnlərində nəqli keçmiş zamanın *–mış, -miş, -muş, -müş* şəkilçisi və *-imiş* bağlaması fəal şəkildə feillərin tərkibində işlənir. Nəqli keçmiş zamanın birinci forması olan – mış şəkilçisinin bir sıra əlavə xüsusiyyətləri vardır. Bu şəkilçi tam şəkildə işləndiyi kimi, qənaət prinsipinə uyğun olaraq bəzən sonundakı ş samiti olmadan da işlənir və öz əvvəlki funksiyasını yerinə yetirir. "Həmin şəkilçinin belə xüsusiyyətinə ən çox ikinci şəxsin tək və cəmində, həm də danışıq dilində rast gəlinir" [90, s.326]. *–mış*[4] şəkilçisinin *ş* ünsürü olmayan fonetik variantına, yəni qənaətə uyğunlaşdırılmış şəklinə nəsr mətnlərində aktiv şəkildə təsadüf edilir. Məs:, *Nə eşitmisən, ay vicdansız, məni bu qədər incidərsən?* [28, s.150]; *— Belə çıxır ki, Stepanakerti azərbaycanlılıarın yaşadığı kəndlər dövrələyirmiş* [28, s.338].

Bu nümunələrdən birincisində *eşitmisən* feilinin tərkibində işlənən -mi şəkilçisi keçmiş zaman şəkilçisinin qısaldılmış, ikinci cümlədə *dövrələyirmiş* feilinin tərkibində çıxış edən şəkilçi isə *imiş* köməkçi sözünün ixtisar edilmiş formasıdır. Cümlədə keçmiş zamanın *–mış*[4] şəkilçisi ilə *imiş* bağlamasının qısaldılmış forması olan –mış əlamətini qarışdırmamalı. Fkrimizcə, həmin formalar fonetik tərkibcə oxşasalar da, işləndikləri yerə və funksiyaya görə bir-birlərindən seçilir. Nəqli keçmişin şəkilçisi –mış[4] birbaşa feil əsasına qoşulur və hal-hərəkətin keçmişdə icra vaxtını bildirir. İmiş bağlamasının qısaldılmış forması olan –mış[4] isə yalnız zaman və şəkil əlamətlərindən sonra feilə qoşula bilir və modal münasibət bildirir. Bundan əlavə, nəqli keçmiş zaman şəkilçisi qəbul etmiş feilin ifadə etdiyi iş, hal və hərəkətin icrasında danışan şahidlik edə bilər.

Linqvistik qənaət prinsipinə uyğun olaraq –*kən* şəkilçili sözlər nəsr mətnlərində intensiv işlənir. Feili bağlama şəkilçisinin bu formasında *i* [ikən] saitinin düşümü hadisəsi baş verir ki, bu da qənaət qanununun təzahürü kimi səciyyələndirilməlidir. Məs:, *Əsmər xanım bir az əvvəl onunla söhbətində dedi ki, martın 2-də Ülvi barədə narahatçılıq keçirib emalatxanaya enərkən, Fəxrinin arxasındakı istirahət otağında kiminsə olduğundan şübhələnib* [28, s.125]*; Mən isə belə düşünürəm ki, əsl qatil baltanı mətbəxdən götürərkən əlinə əlcək geyinibmiş* [28, s.125] və s.

Nəsr mətnlərində *ikən* feili bağlama şəkilçisinin ixtisar formasının həm adlara, həm də başlıca olaraq, indiki, gələcək və nəqli keçmiş zaman şəkilçisini qəbul etmiş feillərə qoşularaq, cümlədə feili bağlama vəzifəsində işlənməsi həmin morfoloji göstəricinin xarakterik xüsusiyyətidir.

Nəsr mətnlərinin tərkibində işlənən sintaktik bütövlərdə səbəb məzmununu reallaşdırmaqdan ötrü *üçün* qoşmasının *ü* səsinin düşmüş şəklindən də istifadə olunur. "*Üçün* qoşması sözlərə qoşulduqda bunun əvvəlindəki sait ixtisar olunur. Məs:, *sizin üçün — sizinçin"* [28, s.76], *mənim üçün – mənimçün.*

— *Əgər komsomolda çalışıramsa, deməli, hansısa tələbənin adını öyrənmək mənimçün çətin olmamalıdır* [28, s.71].

İlə qoşması sözlərə qoşulduqda bunun əvvəlindəki i saiti ixtisar olunsa da, ədəbi tələffüzdə qısa sait kimi tələffüz olunur. *İlə* qoşmasının bütöv formasında olduğu kimi, qənaət edilmiş şəklində də o, qoşulduğu sözlə birlikdə birgəlik mənasını reallaşdırır, alət və vasitə, hərəkətin müəyyən məkan boyunca icra olunduğunu, iş və hərəkətin tərzini bildirir və bu mənaları ifadə etmə xüsusiyyətlərinə nəsr mətnlərində tez-tez rast gəlmək olur. Məs:, *Qızın xalasıgilin ünvanını bilirdi, 8-ci mikrorayondakı o evin beşinci mərtəbəsinə liftlə necə qalxdıqlarını, 46 saylı mənzilin qapısı önündə qızın xalası oğlu Rüfətlə, xalası Nəzakətlə necə görüşdüyünü unutmamışdı və heç vaxt da unutmayacaqdı* [29, s.191]*; Bu sözlərdən sonra qızın nazik dodaqlarındakı məkrli təbəssüm sərt nifrətlə əvəz olundu* [29, s.195]; *Firdovsi həbs olunmaq qorxusundan qızın valideynlərinin adını*

elə hörmətlə çəkirdi ki, sanki sevimli qayınatasından, qayınanasından danışdı [29, s.197] və s.

Qənaət prinsipi ilə əlaqədar olaraq, ilə qoşmasının –la,-lə şəklinə düşməsinin inkişaf səviyyəsini də türkoloji mənbələr əsasında araşdırmaq olduqca maraqlıdır. Bu qoşmada sadələşmə, yəni qənaət mürəkkəb formadan sadəyə doğru baş vermişdir. Müasir ədəbi dilimizdəki ilə [-la, -lə] qoşmasının qədim forması kimi birlən morfemi götürülür: "say bildirən "bir" sözünün feil düzəldən –lə şəkilçisi və qədim feili bağlama şəkilçisi –n ünsürü ilə birləşməsindən düzəlmişdir. *Bir-lə-n* vaxtılə birlikdə, vəhdətdə demək imiş, lakin sonralar tədriclə inkişaf edərək, müstəqil bir sözdən köməkçi bir sözə keçib, qoşma məzmunu kəsb etmişdir.

Müasir Azərbaycan ədəbi dilində "*ora, bura, hara sözlərinə yerlik və çıxışlıq hal şəkilçiləri qoşulduqda söz kökünün sonundakı a saiti düşür*" [57, s.138] və dilimizin özünün təbiətindən doğan fonetik qənaət təzahür edir. Yer bildirmək üçün bu, o işarə əvəzliklərinə -ra şəkilçisi artırılır, bura, ora, -ra şəkilçisi etimoloji cəhətdən məkanla əlaqədar olmuş və həmişə yer bildirmişdir. Ora, bura, hara sözlərinin yerlik və çıxışlıq hallarda paradiqması bu cürdür: ora→ orda – ordan, bura –burda –burdan ; hara-harda – hardan. Nümunələrə nəzər salaq: *Burda rəssamlıqla bağlı bir neçə kitab və şəkilli jurnallar var idi* [28, s.169]; *Bizim burdan asfalta düşməyimizə də nəzərə alsaq səkkiz kilometr [36, s.53]; -Səhv etmirəmsə, İran şahı Ağa Məhəmməd Qacarı orda öldürmüşdülər* [36, s.83] və s.

Məlumdur ki, dilimizdə sonu saitlə bitən miqdar saylarının sonuna *–ıncı, -inci, -uncu, -üncü* sıra saylarını əmələ gətirən şəkilçilər artırıldıqda şəkilçinin əvvəlindəki sait qənaətə uyğun olaraq ixtisar olunur *iki-nci, altı-ncı, yeddi-nci, əlli-nci, iyirmi-nci*. S.Cəfərov doğru olaraq göstərir ki, "*iki saitin arxa-arxaya, yan-yana gəlməsi Azərbaycan dilində səciyyəvi xüsusiyyət daşımır. Buna görə də saitlə bitən miqdar saylarından sıra sayı düzəltmək üçün –ncı; -nci şəkilçisindən istifadə olunur*" [22, s.29]. Hətta bədii əsərlərdə rəqəmlə yazılan qoşun, ordu hissələri nömrəsini bildirən sıra saylarındakı –ncı şəkilçisindəki –n ünsürü də düşə bilir. Məs:, — *Bir tərəfdən Rusiyanın xüsusi xidmət*

orqanlarının xalq cəbhəsinin içərisindən seçib buraya göndərdiyi casusların, satqınların, digər tərəfdən Xankəndindəki 366-cı alayın vasitəsilə aldılar Şuşanı [36, s.83]; Və o, belə bilməzdi ki, düz 1995- ci il oktyabrın 30-dək dəfələrlə ölüb diriləcək və həmin gün Azərbaycanın əsir və itgin düşmüş girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sayəsində Qırmızı Xaç vasitəsilə 5 nəfərlə birlikdə Ağdamın Qarvənd kəndində Unanyan Robert adlı erməni əsiri ilə dəyişdiriləcəkdir [36, s.114].

Nəsr mətnlərində bəzən sıra sayının morfoloji göstəriciləri qənaətə uyğun olaraq tam şəkildə ixtisar oluna bilir. Belə halda sıra sayları miqdar sayına yaxınlaşır. Belə ki, bəzən miqdar sayı sıra sayı mənasında işlənir. Məsələn, *ev 72, otaq 15 [72-ci ev, 15-ci otaq əvəzinə], səh. 14 [14-cü səhifə əvəzinə], tapşırıq 1 [birinci tapşırıq əvəzinə]. Axşam xahiş etdim ki, mikrorayondakı mənzil on dördə gəlsin* [44, s.47].

Dilimizdə qənaət prinsipi –ma, -mə inkarlıq şəkilçisi vasitəsi ilə də təzahür edir. Belə ki, inkar şəkilçisi indiki və qeyri-qəti gələcək zaman şəkilçisi ilə işləndikdə inkar şəkilçisindəki a, ə saiti düşür: *yazır-yazmır, görür-görmür, gələrəm-gəlmərəm*; *Mən onların heç birini tanımıram* [75, s.341]*; O kürd seperatçılarının bu əməliyyata girməsini məısləhət bilmirdi* [75, s.338]*; Qız içindən qıvrıla-qıvrıla qalmışdı, bilmirdi İvandan necə söz alsın* [75, s.358] və s.

İndiki zamanın inkar formalarından geniş danışan M. Yusifov qeyd edir ki, "*İkinci variantda nitq çoxkomponentliyi azkomponentlikliyi əvəz etmişdir. Nəticədə almayır tipli strukturda inkar şəkilçisinin a elementi öz fonem müstəqilliyini itirərək ixtisar olunmuş və həmin struktur almır kimi qısa formaya düşmüşdür. Bu strukturda isə digər nitq variantı yoxdur. Odur ki, almır tipli struktur ümumi norma qazanaraq yazıya da eyni qaydada keçmişdir. Nəticədə, həm də yazı və nitq arasında norma vəhdəti yaranmışdır*" [114, s.31].

Azərbaycan dilində elə ikihecalı isimlər var ki, özündən sonra saitlə başlanan şəkilçi qəbul etdikdə ikinci hecadakı sait düşür: *ağız –sənin ağzın, boyun-sənin boynun, alın-onun alnı* və s.

Bu cür sözlərin sonu *r, l, m, n* sonorlarından biri ilə bitir. Onlardan yalnız üç söz *r, f, b* samitləri ilə qurtarır: *ağız, sinif, eyib.*

Belə sözlər dilimizə ərəb [o cümlədən fars] dilindən keçən sözlərdir. Bu cür sözlərin kökünün sonuna saitlə başlayan istənilən şəkilçi artırdıqda söz kökünün ikinci hecasındakı sait düşür: fikir-onun fikri, fikir-fikrin-fikrə-fikri və s. Dilimizdəki ərəb-fars mənşəli *səbir, sətir, fəsil, ağıl, isim, abır, cisim, eyib, sinif, qədir, nəsil, zehin, ömür, şəkil, ətir* və s. sözlər bu qəbildəndir. Əsl Azərbaycan sözlərində isə ikihecalı söz kökünün sonuna yalnız saitlə başlayan mənsubiyyət şəkilçisi artırdıqda ikinci hecadakı sait düşür. Ağız-körpənin ağzı, alın-mənim alnım, burun-itin burnu, boyun-dəvənin boynu, oğul-sizin oğlunuz, qarın- uşağın qarnı, ağız-onun ağzı və s. kimi bu qəbildən olan sözlər nəsr mətnlərində aktiv şəkildə müşahidə olunur. Məs:, *Aysu özünü eşitməzliyə qoyub yerində uzanmamaqda davam etdi, bir azdan onun burnuna yüngül tüstü qoxusu, dalınca yanan odun ətri gəldi* [75, s.61]*; Dəmirçioğlu bir az fikrə getdi, sonra tərəddüdlə sözə başladı* [75, s.41]; *Yola çıxmazdan qabaq mürgü vuran oğlunun, ayrı otaqda yatmış qızının saçlarından öpmüşdü [109,47]; Yol boyu bütün el-obanı, övladlarını qucub bağrına basa bilir* [75, s.42] və s.

Nəsr mətnlərinin fonetik və qrammatik quruluşunda əsas meyl dil materialına qənaətdir və qrammatik qaydaların mövcud dil əsasında yaranması, dilin normalaşma təkamülündən irəli gəlir. Nəsr mətnlərində fonomorfoloji səviyyədə qənaət prinsipi dilin norma qaydalarina əsaslanan qanunauyğunluqlar sistemi kimi özünü göstərir.

2.2. Leksik səviyyədə qənaət

"*Dil tarixi bir prosesdir. Hər bir dilin lüğət tərkibi onun ən sürətlə inkişaf edən hissəsidir*" [8, s.22]. İnkişaf proseində dil daima qənaətə meyliliyi özündə əks etdirir. "*Yaradıcı söz dil vahidlərinin struktural, semantik cəhətlərini özündə birləşdirən mürəkkəb bir quruluşdur*" [94, s.21]. Yaradıcı sözə abreviaturlar da daxildir.

Dilimizin lüğət tərkibinin zənginləşməsində abreviaturaların, yəni ixtisar edilmiş sözlərin də böyük rolu var və nəsr mətnlərində söz sənətkarlarımız yeri gəldikcə bu tipdən olan sözlərə müraciət edirlər və bunlar da nəsr dilində qənaətlə bağlı vahidlər kimi təzahür edirlər. Dilin lüğət tərkibində xüsusi yer tutan abrevaturalar nəsr dilində baş hərfləri göstərilməklə qısaldılır, yığcamlaşdırılır, lakonik bir şəklə salınır və onlar nəşr mətnlərinin mənalı hissələrinə çevrilir, üslubi səciyyə kəsb edir. Bəzən yazıçı əsərlərində elə ixtisarlardan istifadə edir ki, bu nitq vahidləri mətnin cazibəsində aktuallaşdırılmış amil kimi çıxış edərək geniş işləklik qazanır, əsərdə baş verən hadisələrin, məkanın müəyyən motiv və motivikasiyaların təsvirində mühüm əhəmiyyət kəsb edir. Bədii ifadə sistemində abreviaturaların görünüşü açıq-aşkarda olur, oxucunun diqqətini dərhal cəlb edir, yazıçının məqsədindən asılı olaraq bəzən bütöv, bəzən isə qısaldılmış şəkillərdə verilir ki, hər iki halda onlar cümlənin məzmununa, məntiqi qurulmasına xidmət edir. Mətnlərin tərkibində bütöv, yəni sözlərlə ifadəsi şəkildə verildikdə bu vəziyyətdə onların qənaətə xidmətdən danışmaq qeyri-mümkündür. Qısaldılmış şəkillərdə isə abreviaturaların müxtəlif formalarına təsadüf olunur ki, bunlar linqvistik araşdırma üçün dəyərli material verir.

Nəsr sənətimizin ifadə sistemində mühüm yer tutan ixtisarlar qənaət qanununun linqvistik göstəricisi kimi leksik vahidin qısaldılmasına xidmət göstərməklə yanaşı, bədii ünsiyyətdə cümlələrin texniki tərtibində mühüm rol oynayır. Abreviaturaların mətnin hansı sahəsində işlədilməsindən asılı olmayaraq onların yazıçı tərəfindən aydın görünüş mövqeyinə gətirilməsi təsvir olunan vəziyyətin yığcam, lakonik qısaldılmış biçimlərdə canlandırılmasını təmin edir.

S.Məmmədova "*ixtisarları sözlərin baş hərfləri saxlanmaqla birləşmə şəklində təşəkkül tapmış söz yaradıcı forma kimi dəyərləndirir və onu abbrevasiya termini kimi səciyyələndirir*" [86, s.23].

Sözlərin baş hərflərini saxlamaq, digər hissələrini ixtisar etmək, yəni onların qrafikasında qənaət əməliyyatını yerinə yetirmək ən az qüvvə, enerji sərf etmək prinsipinə əsaslanır. Sözlərin baş hərfləri ilə ifadə edilən leksik vahidlər bədii nitq prosesində

aktuallaşır, sözün estetik funksiyası onun deyktik-idarəetmə, göstərmə funksiyasını üstələyir". Qənaət qanununa əməl etmək yazıçının yaradıcılıq potensiyasından asılı bir məsələdir, abreviaturaları —mürəkkəb ixtisarları bədii kateqoriya həddinə çatdıran söz sənətkarlarının əsərləri də oxucunun zövqünü oxşamaq gücündə olur. Hər bir söz sənətkarı abreviaturalara öz yaradıcılıq üslubuna uyğun tərzdə müraciət edir, yazıçı mühakimələrinin dərinliyi bu dil faktlarının köməyi sayəsində də güclənir. Abreviaturalar — ixtisar edilmiş sözlər sintaktik yolla əmələ gələn yeni sözlərin xüsusi bir növüdür və qrammatika kitablarında bu növün özlüyündə aşağıdakı qrupları göstərilir:

1) *Dilin öz daxili imkanları vasitəsilə əmələ gələn abbreviaturalar*. Məs:, *Azərbkitab, Azərnəşr, Azərneft, BMT, ABŞ* və s.

2) *Rus dilindən alınma abbreviaturalar*: *MFS, ZİM, ZİS, QES, QAİ, raykom, partkom* və s." [92, s.214].

Ölkəmiz müstəqillik qazandıqdan sonra dilimizin lüğət tərkibinə xeyli abbreviaturalar daxil olmuş, bu sözlərin növləri, orfoqrafiyası, orfoepiyası barədə dilçilik əsərlərində zəngin elmi məlumatlara rast gəlinir [82, s.532-536; 59, s.93-94]. Dilçilik əsərlərinin əksəriyyətində dilimizə yeni daxil olan ixtisarlar neologizmlər, köhnəlmiş abbreviaturalar isə tarixizmlər kimi izah edilir. Tarixi mövzuda yazılmış bədii əsərlərdə köhnəlmiş abbreviaturalara, müasir mövzuda qələmə alınmış nəsr əsərlərində isə yeni ixtisarlara daha çox yer verilir və hər iki halda ixtisarlar qənaət prinsipinə əsaslanır, bədii mətndə yazıçının məqsədinə, üslubi məramına xidmət göstərir, bədii mətləbin oxucu tərəfindən əxz olunmasında daha əlverişli nitq vahidləri kimi çıxış edir. Məs:, *Raykomun işçiləri səksəkə içində idi. Bölmə müdiri müvafiq sənədləri araşdırıb, ayrı-ayrı işçiləri söhbətə dəvət edir, üzbəüz əyləşdiyi raykom katibini sorğu-suala tuturdu* [63, s.96]*; Hansı maşını gətirmisən?*

— *"Pobeda"nı — nı sürücü cavab verdi:*

— *Get "Zim"i gətir. Sən bu jurnalistlərin incə məxluq olduqlarını bilmirsən. Üzümüzə deməsə də, daxilində fikirləşəcək ki, yəqin "ZİM"-ə qıymırıq. Rəhim müəllim isə zarafatla sürücünü başa saldı.*

... "*ZİM" maşını o qədər də rahat olmayan Naxçıvan-İrəvan yolunda bizi atıb-tutmadan, həm də yüksək surətlə şütüyürdü*" [63, s.108].

Hər iki nümunədə raykom [rayon komitəsi], ZİM [rus dilindən alınma] abreviaturları yazıçı tərəfindən bədiiliyin xeyrinə olaraq işlədilmiş, bunlardan birincisində, idarənin adını, ikincisində, isə maşının markasını göstərmək üçün istifadə edilmiş və birinci ixtisarda heca modelinə, ikincisində hərf modelinə əsaslanılmışdır ki, hər ikisində sözün sıxılması — sözə qənaət şüurlu ixtisarların yaranmasına səbəb olmuşdur.

Sözün hərfi işarələr və açıq formalarının müqayisəsi ilə ixtisarların formaca qənaət prinsipinə xidmətini aydınlaşdırmaq olur. Nəsr "... *üslubun leksikasının sistemli tədqiqinin vəzifəsi, ilk növbədə, bu üslub funksiyalarına müvafiq olan və məcmu halında özünəməxsus sistem təşkil edən leksik qrup və dərəcələrin fərqləndirilməsidir*" [87, s.29]. Dilin qənaət meylinə görə ixtisar şəklində işlənən sözlər şifahi nitqdə geniş vüsət aldığı üçün müasir nəsr dilinə də nüfuz edə bilir. Məs:, *Ümidim qalıb AENES-ə, gedirəm dərdimi söylüyüm, az-çox onnan çəkinirlər* [32, s.221]*; — Hə, AENES-dən cin bismillahdan qorxan kimi qorxurlar* [32, s.272] və s.

Nəsr mətnlərində çox hallarda yazıçı ölkə, vilayət, mahal adlarından ibarət mürəkkəb sözlərin ixtisar edilmiş formalardan istifadə edir ki, bu xüsusi adlar bədii detallaşmaya — hadisələrin baş verdiyi məkan motivini aktiv şəkildə nəzərə çarpdırmağa xidmət göstərir. Məs:, *Stalinin "SSRİ-də sosializmin iqtisadi problemləri" əsəri çətin ki, tələblərimizə cavab versin* [32, s.115]. Bu nümunədə köhnəlmiş ölkə adı SSRİ abreviaturu əsər adında işlədilərək sintaktik bütövün təfərrüatına uyğunlaşdırılmışdır, əgər yazıçı həmin ixtisarı bütöv şəkildə [Sovet Sosialist Respublikaları İttifaqı] versəydi, oxucu mütaliə zamanı bu sözlərin oxunuşuna müəyyən qüvvə və enerji sərf etməli olardı.

Fikrimizcə, nəsr mətnlərinin dilində qənaətə xidmət edən ixtisarlardan danışarkən, onları strukturlarına görə 2 modelinə xüsusi diqqət yetirilməlidir. 1) Heca modeli [partkom, raykom, komxoz]; 2) Hərf modeli [DQMV [Dağlıq Qarabağ Muxtar Vilayəti], ATƏT [Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı]; AMİK

[Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi] və s. Hərf modelli ixtisarlar dedikdə biz şübhəsiz ki, abreviaturları formalaşdıran sözlərin baş hərflərini nəzədə tuturuq. Maraqlı cəhət budur ki, nəsr dilində müşahidə olunan bu abreviaturların söz formasından, yəni hərf modelindən deyil, bütöv şəklindən istifadə edildikdə də qənaətə əməl olunur. Məs:, *Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi etibarı ilə Ermənistana heç vaxt birləşməyib və birləşdirilə də bilməz.*

Sovet hakimiyyəti illərində Dağlıq Qarabağ Azərbaycanın tərkibində siyasi-iqtisadi cəhətdən xeyli inkişaf etdirilmişdir. Burada tikinti-abadlıq, sosial sahələrdə böyük işlər görülmüşdür. Vilayətin mərkəzi olan Stepanakert ölkənin abad, mədəni şəhərlərindən birinə çevrilmişdir [36, s.170].

Bu nümunənin birinci abzasında DQMV abreviaturu sözlər şəklində, ikincisində isə aydın şəkildə görünür ki, Dağlıq Qarabağ coğrafi adından sonra Muxtar Vilayət, sonuncu cümlədə isə Vilayət sözündən əvvəl Dağlıq Qarabağ Muxtar sözləri ellipsisə uğramışdır. Əgər birinci cümlədəki coğrafi ad digərlərində də olduğu kimi işlədilsəydi, bu zaman təkrarlıq oxucunu yorar, bədii effekt sxolastik, quru təsir bağışlayardı. Qeyd etməliyik ki, hər iki abzasda Azərbaycan və Ermənistan ölkə adlarından sonra "Respublika" coğrafi terminin ellipsisə uğraması da müşahidə olunur ki, bu da cümlənin ümumi strukturuna heç bir xələl gətirmir, əksinə, abzasların oxucu tərəfindən oxunuşunu sürətləndirir.

Müəyyən bir bədii əsərdə hadisələrin cərəyan etdiyi vaxt, zaman konseptini düzgün təyin etməkdə arxaikləşmiş ixtisarlar olduqca kəsərli nitq vahidləridir və bu baxımdan aşağıdakı cümlələrdə işlədilən abreviaturlar keçən əsrin 30-60–cı illər arasında ölkəmizdə mövcud olan texniki obyektlər və müəyyən dövlət qurumları haqqında oxucuda aydın təsəvvür yaradır: — *Bir də ki, ay canım nəyə lazımdır MTS direktorundan felyeton yazasan* [63, s.91]*; MTS direktorunun dınqırına dəyib ki, niyə onun adı qəzetdə çəkilib* [120, s.109]*; Sən demə, köpəkoğlu NKVD-nin agentiymiş* [63, s.154]*; Yoxsa qırmızı partizanlarla, NKVD–nin adamları ilə haçan rastlaşarsan,* [63, s.163];*On ildən*

çoxdur ki,nazirlikdə Zavxoz işləyirəm [63, s.293]*; Bəs nə bilmişdin? Ağzında – KQB ... deyyirsən* [63, s.412] *və s.*

Nəsr dilində abreviaturların işlənmə intensivliyinin və üslubi cizgilərinin təhlil məqamlarından bu da məlum olur ki, hərfi modelə malik olan ixtisarlar, söz artıqlığı deyilən anlayışın qarşısını alır və onların nəsr mətnlərində yazılışı və oxunuşu təsvir edilən hadisə və obyektlər haqqında, eyni zamanda həmin hadisə və obyektlər barədə əyaniliyi özündə ehtiva etdirməklə güclü bədii effekt əmələ gətirir. Məs:, *Ayaz Mütəllibovun hakimiyyətinin getdikcə siyasi arenada gücsüzləşməsi, AXC-yə qanuni, qeyri-qanuni güzəştlərin edilməsi, bir sözlə, hər bir addım artıq hakimiyyət dəyişikliyinin labüdlüyünü təlqin edirdi* [74, s.102]*; 1988-1992-ci illərdə AXC-nin İmişli rayon şöbəsinin üzvlərinin qanunsuz hərəkətlərinə qarşı qanun çərçivəsində prinsipial və mübariz olmusan* [74, s.103]; *Onu da öyrəndim ki, Qaradağ rayonunda SƏDM inspektoru ştatı boşdur* [74, s.107]*; Yəqin yadına düşər, həbsə qədər Orcongidze [indiki Suraxanı] Rayon Daxili İşlər şöbəsində SƏDM inspektoru işləyirdim* .. [74, s.106] və s.

Bəzən yazıçı qənaət prinsipinə müvafiq olaraq bir abzas çərçivəsində izahedici məqamda bir neçə abreviatur işlətməli olur. Belə halda o, ixtisarlara izahat - dəqiqləşdirici informasiya əlavə edir. Məs: -*Sənlə razıyam ... Amma bu təqdimatın axırında yazılmasın ki, Qaradağ rayon Partiya Komitəsi ilə razılaşdırılıb. Bolotniklə [RPK –nin birinci katibi] razılaşdırılsın? [O vaxt SƏDM işçiləri, ümumiyyətlə, Sov. İKP –nin üzvü olan zabitlər RPK ilə razılaşdırılmalı idi]* [74, s.108].

Bəzən elə hallar olur ki, söz sənətkarları rəsmi dövlət qurumlarının əmr və sərəncamlarından üslubi məqsədlə bağlı olaraq istifadə etməli olur və belə məqamlarda da hərfi modelli abreviaturlar olduğu kimi saxlanılır. Məs:,

— *Polis polkovniki Fəxrəddin Cəlil oğlu Rəfiyev OSİİ rəisi;*

— *Polis podpolkovniki Ədalət Qüdrət oğlu İsmayılov NQMİ-nin rəisi*

— *Polis mayoru Vaqif Qulu oğlu Quliyev Ağdərə RDİS-in rəisi;*

— *Polis mayoru rafiq Əli oğlu Babayev Bakı şəhəri Hava limanında Xətt DİS –in rəisi təyin olunmuşlar* [74, s.165].

Göründüyü kimi, altından xətt çəkilmiş ixtisarlar bədiilikdən daha çox, informasiyavericilik göstəriciləri kimi çıxış edir, özlərindən əvvəlki və özlərindən sonrakı bədii mətnlər arasında güclü məntiqi vəhdət yaratmağa xidmət göstərirlər.

Abviaturları nəsr dilində "... *Sıxlaşdırılmış, müəyyən sözlərin baş hərflərinin şəkli əlamətləri ilə xüsusi formaya salınmış, mətndə xüsusi nəzərə çarpan, diqqəti dərhal cəlb edən nitq vahidləri*" [150, s.11] kimi də səciyyələndirmək olar və bu baxımdan ayrı-ayrı yazıçıların dünyada mövcud olan erməni terror təşkilatı adlarının qənaətə müvafiq olaraq həm hərfi modellərlə, həm də onların qarşısında izahları ilə verməsi göstərir ki, bu nitq vahidləri cümlələrdə semantik struktur yükün daşıyıcısına çevrilir, bu terror qruplarının dünyada, o cümlədən Azərbaycanın Qarabağ ərazisində necə vəhşiliklər törətmələri barədə oxucuda aydın təsəvvür yaradır. Məs:, *Ermənistan Respublikası özü terroru dövlət səviyyəsinə qaldırdı. Dövlət özü terrorla məşğul olmağa başladı. Beynəlxalq səviyyəli erməni terror təşkilatları bütün güc və imkanlarını Azərbaycana qarşı çevirdilər. Tarixin məskənlərində etnik təmizləmə aparsaq qırıb çatdıqları kürdlərin törəmələri ilə indi əməkdaşlığa başlamışlar. Bir il öncə ASAALA ilə PKK Beyrutda bir araya gəlib birgə fəaliyyət planı tutdular... O, bu məlumatı Hadrutdakı ASALA–nın nümayəndələrindən almışdı [10, s.349]; ESİ Ermənі Soyqırımın İntiqamçıları] qrupu 1980-1982 – ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyadakı türk diplomatların qətlə yetirmişdir. Məxfi terror qrupu DRO və onun bölmələri : DRO – 8, DRO – 88, DRO -888, DRO – 8888. Daşnakların bu istiqamətdə fəaliyyəti davam edir [103, 349]; ASALA [Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu] 1975 – ci ildə yaradılmış təşkilatın qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşir* [36, s.350] və s.

Göründüyü kimi, sintaktik bütövlərdə işlədilən abreviaturlar dəqiq bədii fakt və detallar təəssüratı bağışlayır, oxucuda etiraz doğurmur və bəzi yazıçılarımız bu nitq vahidlərindən məharətlə yararlanırlar və belə hallarda ixtisarlar nəsr dilində xarakterik üslubi elementlərdən biri kimi özünü göstərə bilir.

Nəsr əsərlərinin mövzu palitrasından asılı olaraq cümlələrdə silah, sursat, maşın, təyyarə adlarının ixtisarlar şəklində işlədilməsi yazıçının fikir və düşüncələrini daha

görümlü – obrazlı formalarda əyaniləşdirmək üçün çox əhəmiyyətli nitq vahidləridir və bir linqvistik material kimi, cümlələrdə qənaət prinsipinə xidmət etməklə bərabər, bədii formanın nümunəvi biçimlərində təzahüretmə imkanları qazanır ki, bu prosesdə ixtisarlar sistemi də xüsusi çəkiyə malik olur. Aşağıdakı nəsr parçasında işlənən SU və MİQ təyyarə adları dediklərimizə əyani sübut ola bilər: *Uçuş zolağında onların yerini tutmuş "SU" –lar da bir-iki dəqiqə vaxt fərqi ilə "MİQ" –lərin arxasında ölkənin qərbinə istiqamət götürdü. Uçuş sürətləri səs sürətindən iki dəfədən çox olmasına baxmayaraq, təyyarəçilər peşələrinin tələb etdiyi kimi nə qədər təmkinli, soyuqqanlı olsalar da, hədəfi yetişməyə tələsirdilər* ... [36, s.367].

Nəsr dilində bəzən yazıçı personajın ad və soyadının baş hərflərindən istifadə edir, digər hissələri ixtisara salır və hərf modelini nəsr dili materialı kimi yararlı və dəyərli edən ən vacib keyfiyyəti onların obrazlılıq yaradan nitq vahidləri sisteminə uyarlığıdır, cümlələrdəki söz düzümündə qarşılıqlı əlaqə və anlaşmaya xidmət etməsidir. Başqa bir tərəfdən də onu da qeyd etməyə dəyər ki, antroponimik vahidlərin baş hərfləri ilə verilməsi yazıçının həmin xüsusi adları müəyyən səbəblər ucbatından gizli saxlaması ilə əlaqədardır və bu halda da hərf modelli obrazlılıq onu təzahür etdirən nəsr mətninin ümumi üslubi siqlətindən və bədii sanbalından çox asılıdır. Bu baxımdan aşağıda nümunə gətirilən sintaktik bütövlər olduqca uğurludur: *Rayonda tanınan, yüksək vəzifə sahibi dostum evdə yox idi. Həyat yoldaşı S. xanım, yanında iki nəfər səkkiz - on yaşlı oğlan uşağı olan cavan gəlini mənə işarə edərək kal və boğuq səslə*:

—Allahdan yarımamış qızımdı,-dedi [62, s.59]; Bir neçə gündən sonra "Xüsusi müxbirlərin fəaliyyətini tənzimləyən şöbənin müdiri N.C. telefon vasitəsi ilə mənə dedi :

"Sovet quruluşu şöbəsi"nin müdiri H.İ. səni axtarır [62, s.85]; "Sovet quruluşu şöbəsi" nin müdiri H.İ. Moskvada qurtarıb. [62, s.85]; —H. Müəllim, ola s.bilsin ki, məktubun harasındasa müəyyən düzəlişə ehtiyac olsun [62, s.85] "Xüsusi müxbirlər şöbəsi" nin müdiri N.C.–ya zəng vurdum. H. ilə söhbətimizin necə keçdiyini ona dedim, N.C. – dan belə bir cavab aldım: Bir məktubdan ötrü məni H.İ. ilə üz-üzə qoyma [62,s.86] və s.

Göründüyü kimi, bu cümlələrdə antroponimik vahidlərin baş hərfləri ilə verilməsi formal şəkli məqsəd daşımır və bunlar hər şeydən əvvəl formal qənaət, həm də estetik bədiiliyə xidmət edən nitq aktıdır, bu və ya digər bədii mətləbin ifadəsində xüsusi rola malik leksik vahidlərdir. Başqa sözlə desək, nümunələrdə işlədilən hərf modeli xüsusi adlar bədii mündəricənin ifadəsinə yardımçıdırlar və onların qənaət hadisəsi kimi xarakterizə edilməsi də diqqətdən kənarda qalmamalıdır.

Nəsr mətnlərində yazıçının bədii məramı və məqsədindən asılı olaraq ixtisar edilmiş dərman pereparatlarının adlarından da müəyyən qədər istifadə olunur və ifadəlilik, bədiilik keyfiyyətlərini xüsusi olaraq diqqət mərkəzində saxlayan yazıçıların əsərlərinin dilində də bu növdən olan ixtisarlar da dolğun üslubi siqlət kəsb edir. Məs:, *Qeyd edim ki, hər gün orqanizmin 800-1500 milliqram kalsiyə ehtiyacı olur ... . Onu da deyim ki, kalsium "D" vitamini ilə birlikdə idmanın köməyi ilə tam sorulur. "D" vitamini də orqanizmdə kalsium balansının yaradılmasına cavabdehdir. Hər ikisi birlikdə sümüklərin qalası, dayağı sayılır. "D" vitaminin normasını da ancaq həkim, yəni mən təyin etməliyəm* [75, s.46].

Bu nəsr parçasından da göründüyü kimi, yazıçı kalsium pereparat adını qənaətə uyğun şəkildə kalsi formasında, digər vitamin adının isə hərfi modelinə əsaslanmışdır və hər iki leksik vahid bədii mühitdə üslubi siqlət qazanmışdır. Bu xüsusda D.N. Şmelyov göstərir ki, "*... Sözün ifadəliliyi yalnız onun ifadə etdiyi mənada yox, yəni yalnız onun leksik mənasından yox, həm də onun stilistik siqlətindən, eləcə də sözün akustik çalarından tutmuş asosiativ-emosional çalarına qədər başqa sözlərlə müxtəlif əlaqələrindən də asılıdır*" [151, s.61].

Nəsr mətnlərində ixtisar edilmiş sözlər də üslubi yük daşıyıcısı olub, qənaət formalarını özündə əks etdirir və belə qısaltmalar dilin obyektiv inkişafı ilə bağlı olaraq, subyektiv müdaxilə yolu ilə yaranır. Bəzən yazıçı belə ixtisarların həm qənaət edilmiş formalarından, eyni zamanda bütöv şəkilllərindən istifadə etməklə müəyyən təsvir obyekti barədə oxucuda dolğun təəssürat yaradır. Məs:, *Stalinin heykəlinin başına kəndir atıb, ucunu da bağlamışdılar "Zis-130" dalına. O vaxt bilmirdik ki, "ZİS" rus dilində*

“Zavod İmeni Stalina” anlamındaymış. Stalinin hökmranlığına son qoyulsa da, heykəlləri hələ də qalır, insanlarda xof-qorxu oyadırdı [32, s.156].

Nəsr mətnlərində antroponomik vahidlərdə də qənaət formaları müşahidə olunur. Belə qənaət nitq prosesi nəticəsində özünü göstərir. Yazıçı öz fərdi dəsti-xətti, üslubuna uyğun olaraq əsərin müəyyən yerlərində “ləqəb+şəxs adı” modelindən istifadə edir və məqamı gələndə şəxs adını ixtisar edir, yalnız ləqəbdən yararlanmalı olur. Görünür, yazıçı personajın adının işlədilməsini artıqlıq əlaməti hesab etdiyindən, artıqlığı aradan qaldırmaq məqsədilə həmin adın ləqəb hissəsinə üstünlük verməli olur. Məs:, *Remkontoranın fəhləsi Motor Məmiş idi. Motor ayamasını ona boşuna yaraşdırmamışdılar, səhərdən axşamacan, dincini almadan motor təki çalışırdı.*

Gurultulu alqış qopdu. Comalağın arasından kimsə qışqırdı:

— *Də Motor! Birini də vur, Dünyamalı dayının hayfı çıxsın! [63,s.158]; Motor işə düşəndə hamı rahat nəfəs aldı* [101,s. 159].

Göründüyü kimi, personajın adı Məmişdir. Əsərin bəzi yerlərində yazıçı qəsdən onun adından deyil, ləqəbindən istifadə etməyə üstünlük vermiş və beləliklə də, oxucuda fiziki yorğunluğun baş verməsinə imkan yaratmamışdır. Fikrimizcə, Məmiş şəxs adı Məhəmməd antroponiminin danışıq dilində diferensiallaşdırılmış formasıdır. Bu antroponimik vahiddə də qənaət hadisəsi özünü bariz şəkildə göstərir. Canlı danışıq dilində “Məmiş” antroponimi “Məhəmməd” şəxs adından nəşət etmişdir. Bu xüsusi adın qənaətə meyllilik istiqamətini belə müəyyənləşdirə bilərik: *Müxəmməd – Məhəmməd – Məmməd – Məmiş – Məmi*. Bu formaların hamısı bir-birilə əlaqədardır və bir birinin əsasında dəyişib, formalaşır.Yuxarıdakı nəsr mətnində digər bir qənaət forması da diqqəti cəlb edir, bu, “remkontorn” alınma leksik vahididir. Rus dilindən alınmalardan olan bu qısaltma heca tipindədir və dilimizin transkripsiyasına uyğun olaraq “remontnıy kontor” şəklində tələffüz olunur. Tələffüz ağır səsləndiyindən yazıçı onun qısaldılmış formasından istifadə etməli olmuşdur. Nəsr mətnlərində belə formalar aktiv şəkildə müşahidə olunur. Yazıçılarımız əsərlərində dilin ahəngini pozan cəhətlərdən qaçmış,

asanlıqla, sürətlə tələffüz edilən və zərif, asan, gözəl səslənən cəhətlərə üstünlük verməli olmuşlar.

Nəsr mətnlərində "öldü" əvəzinə "dünyasını dəyişdi, bu dünyadan köçdü", "ömrünü sizlərə bağışladı", "haqq dünyasına qovuşdu" və s. kimi ifadələrdən istifadə olunur. Burada qənaətin ən optimal forması "ölmək" sözüdür, digər ifadələr bu söz ətrafında evfemistik dona bürünür. Qənaət üçün "... *evfemizmlərin işlədilməsi dinləyiciyə və ya ictimai fikrə emosional təsir ifadə edir*" [109, s.115].

Məlumdur ki, "*leksik-qrammatik əlamətləri bir-birinə uyğun gələn, leksik tərkibinə görə fərqlənən, mənaca bir-birinə yaxın olan ifadələr sinonim frazeologizmlər adlanır*" [47, s.54]. Nəsr kontekstində frazeoloji sinonimlər üslubi çalardan asılı olaraq bir-birini əvəz edə bilirlər ki, belə məqamlarda onların qənaət formalarını müəyyənləşdirmək asan olur.

Nümunədə hər iki frazeologizm strukturca bir-birindən fərqlənir, ikinci cümlədəki "zəhləsi getmək" frazeologizmi qənaətin ən optimal variantıdır. Zəhləsi getmək [zəndeyi-zəhləsi getmək] – acığı gəlmək [xoşu gəlməmək] – görməyə gözü olmamaq [görəsi gözü olmamaq] sinonim cərgələrinin strukturuna nəzər salsaq görərik ki, "zəhləsi getmək", "acığı gəlmək" ifadələri qənaət formalarındadırlar, digər variantları isə bir qədər geniş şəkildədirlər. Hətta qənaət formalarını da bir qədər sıxlaşdırmaq olar: xoşlamamaq, sevməmək. Hamısı eyni leksik-qrammatik qrupa aiddir; "*ifadə etdikləri məna keyfiyyətinə görə biri digərindən fərqlənir*" [56, s.139]. A.D. Rayxsteyin "*frazeoloji vahidlərin məzmunlu dəyişmələrə məruz qalmasının göstəricisi kimi onların dəyişmə qabiliyyətinin və variantlığının müqayisə olunmasını daha məntiqə uyğun sayır*" [147, s.59]. Fikrimizcə, alim haqlıdır, çünki, frazeologizmlərdə qənaət prinsipi müəyyənləşdirilərkən onların variantları əsas götürülməlidir.

Mətnlərdə leksik-qrammatik səviyyədə qənaət demək olar ki, təhlilə cəlb etdiyimiz bədii materialların hər nöqtəsində müşahidə olunur. Məs:, - *İnşallah, duman çəkilsin, [sən] görərsən. [Mən] yaraşıqlı oğlanam, boyum 1,78 [metrdi], gözlərim ala [dı], saçlarım şabalıdı. [Onlar] səhərdə mənə Alen Delon deyirlər* [32, s.224]. Burada

mötərizəyə alınmış söz və şəkilçilərin hamısı qənaətə müvafiq olaraq buraxılmışdır ki, bütün bunlar qanunauyğun linqvistik hadisələrdir.

2.3. Morfoloji səviyyədə qənaət

Funksional üslublar çərçivəsində dildə qənaət probleminə tədqiqatlarda yer ayrılmışdır. Xüsusən də, danışıq nitqində dildə qənaət prinsipinin meydana gəlməsi **(**danışıq dilində yarımçıq cümlənin işlənməsi və qənaəti) qeyd olunmuşdur.

Publisistikada, bütün qarşılıqlı ünsiyyət sferasında informasiyanın sıxılması, kompressiv (məhdudlaşdırılmış, sıxlaşdırılmış) strukturun ortaya çıxması, böyük həcmdə olan informasiyanın minimuma endirilməsi, minimum dil vasitələri ilə informasiyanın verilməsi kimi məsələlər müzakirə mövzusu olmuşdur.

Dildə qənaət prinsipi – qənaət ənənələri, dil vasitələrinə qənaət, dildə qənaət qanunu, qənaət qanunun gücü, linqvistik qənaət, danışan məqsədindən asılı olaraq nitqini yığcamlaşmağa yönəldir, nitqi qənaət vasitəsi ilə gücləndirməyə çalışır. Bunun səbəbi, əsas mexanizmi dildə baş verən dəyişmədir.

Dildə qənaəti müxtəlif vasitələr yaradır. Dilin qənaət vasitələri ənənəsi universal proseslərdən olub, dilin inkişaf və funksionallaşmasını səciyyələndirir. Dünyanın çoxobrazlı obyektlərini ifadə etmək üçün kifayət qədər yığcam, sadə, aydın insan düşüncəsi kifayət edir. İnsan daim qənaətə meyil göstərir. Bu yolla verilən informasiya da tez və sürətli ötürülə bilir.

Qənaətin tiplərindən biri də leksik qənaətdir. Burada cümlənin əvvəlindəki bir söz cümlənin ardınca yenidən təkrar edilmir, bu yolla qənaət yaranır. Məs:, *Rayon mərkəzindən 25 km. aralı, dağətəyi bir ərazidə yerləşən Ləqəbli kəndinin təbiətinə, ab-havasına söz ola bilməzdi, elə adamlarına da.* [74, s.301]*;- Quzu kababı istəyirəm, yanında da şərab* [108, s.403].

Qənaətin tiplərindən biri morfoloji qənaətdir. Burada analitik forma şəkilçinin hesabına sintetik forma ilə əvəzlənir, bu zaman qənaət formalaşır. Məs*:, Sirlər var, sirr qalır, açanmır (aça bilmir)* insan.

Nəsr mətnlərində üç nöqtədən tez-tez istifadə olunur. Üç nöqtə (…) qənaət yaradır. Nitq kəsildiyi yerdə üç nöqtə qoyulur. Cümlənin ortasında və ya sonunda qoyulan çox nöqtə fikrin bitmədiyini göstərir Fikrin bitməməsi müxtəlif səbəblərdən ola bilir: …onu davam etdirməyi ya müəllif lazım bilmir, ya gizli saxlamaq məqsədilə deyir, ya da elə sözlər olur ki, onun deyilməsi cəmiyyət üçün məqbul deyildir, ya yaddan çıxmış olur, ya fikir başqası tərəfindən kəsilir, ya da natiq həyəcanlı olduğu üçün fasilələrlə danışmalı olur. Üç nöqtədən bir sıra məqamlarda nəsr əsərlərində istifadə olunur:

-anda, -əndə feili bağlama şəkilçisi ilə yaranan feili bağlamaların ifadə etdiyi iş, hərəkət şəxsli feildəki işin zamanını, icra edilmə vaxtını göstərir və cümlədə zaman zərfliyi funksiyasını yerinə yetirir. Cümlə sıxılmış şəkildə də həmin mənanı qüvvətləndirir. Məs:, *Mən qayıdanda…* [100, s.41]; *-Bu hadisəni harda gördün?- Köhnə dəyirmanın yanına çatanda…* [100, s.57]; *Körpə səsi boş dünyanı başına götürdü. Dan yeri sökülənda…*[46, s.48]. Bu nümunələrdə zaman zərflərindən sonra işlənməli olan feillər buraxılmışdır.

Nəsr mətnlərində işləklik intensivliyinə görə, ən çox özünü tabesiz mürəkkəb cümlələr göstərir. Bu tip mürəkkəb cümlələrin tərkibində olan cümlələrin xəbərlərindəki (sonuncudan başqa) şəkilçilərin ixtisarı bədii dildə qənaət imkanlarından istifadənin bir növüdür. Qənaət imkanlarından istifadə dedikdə, buraya birləşdirilən cümlələrin bəzilərində bu və ya digər zaman şəkilçisinin müəyyən hissəsinin, bir sıra başqa şəkilçilərin ixtisarını və başqa bu kimi halları aid etmək lazım gəlir. Tabesiz mürəkkəb cümlələrdə üslubla əlaqədar olaraq özünü göstərən qənaəti iki yerə ayırmaq olar: 1) Morfoloji göstəricilərə qənaət; 2) Sözlərə, birləşmə və tərkiblərə qənaət. (İkinci qrupdan, tipdən olan qənaət haqqında sintaktik səviyyədə qənaət fəslində geniş bəhs ediləcəyindən burada danışmağı lazım bilmirik – K.H.). Aydın məsələdir ki, bədii mətnlərin tərkibindəki əksər cümlələrdə idi bağlamasının qısaltma variantı olan -dı, (-di, -du, -dü) və dır xəbər

şəkilçisinin bu formalarından aktiv istifadə olunur. Məs:, *Kəndə çəkilən yolda traktor guruldayır, ekskavatorun koğusu qalxıb-enir, gəlib-gedənin üst-başını toz-torpağa batırırdı* [44, s. 83]; *Kənddə bir mal, bir toyuq ferması tikilmiş və bir çox işlər görülmüşdür* [44, s.103] və s.

Göründüyü kimi, cümlələrdəki xəbərin sonuncularını çıxmaq şərtilə əvvəlkilərdə (guruldayır, qalxıb-enir, tikilmiş) -di xəbər şəkilçisinə qənaət olunmuşdur, belə qənaət üslub nöqteyi-nəzərindən fikrin ifadəsini ağırlaşdırmamaq məqsədi daşıyır. Əgər nümunə verdiyimiz tabesiz mürəkkəb cümlənin hər birində qənaət edilmiş morfoloji göstəriciləri öz yerinə qoysaq, onda fikrin ifadəsi, cümlənin oxunuşu ağırlaşır. Şəkilçilərin ixtisarı həmin cümlələrin oxunuşunu rəvanlaşdırır, axıcı edir, ayrı-ayrı fikirlər arasında yığcam rabitə yaradır, cümlələr bir-birilə daha möhkəm bağlanır və bunun nəticəsində tabesiz mürəkkəb cümlə fikrin ifadəsini daha səlis, daha yığcam, ifadəli verə bilir.

Dilin konkretlikdən ümumiliyə doğru inkişafı ilə əlaqədar olaraq hal, mənsubiyyət, xəbər şəkilçilərində qısalaşma baş verir. Nitq prosesində əmələ gələn artıq elementlərin ixtisar edilməsi ilə qrammatik normalar müəyyənləşir. Məsələn, ikinci növ təyini söz birləşməsi hesab olunan dəniz yolu, istirahət evi, ev çörəyi və s. birləşmələrdən birinci tərəfin şəkilçisi ixtisar olunmuş vəziyyətdədir. Belə ikinci növ təyini söz birləşmələri üçüncü növə çevirdikdə mənasız ifadələr alınır: dəmirin yolu, istirahətin evi, evin çörəyi və s. Deməli, ikinci növ təyini söz birləşməsi hüququ qazanmış belə birləşmələr, əslində müxtəlif hallardan törəmiş və qrammatik norma olmuşdur. Bunları ilk formaya müvafiq [dəmirdən yol, istirahət üçün ev, evdə [bişən çörək] işlətdikdə qrammatik norma pozulmur. Bununla da nitq prosesində dil üçün əmələ gələn artıqlığı dil özü kənar edir, norma bərpa olunur. I növ ismi birləşmə modelində formalaşan bu tip birləşmələrin "*... formalaşmasında qrammatik əlaqəni ortaya çıxaran heç bir qrammatik əlamət iştirak etmir*" [79, s.44]. Morfoloji göstəricilər iştirak etməyən I növ təyini söz birləşmələrinin nəsr dilində işləklik intensivliyi aktivdir. Şəxs anlayışı ilə birbaşa əlaqədar olan müəyyən əşyanın bu və ya digər şəxsə aid olduğunu, mənsub olduğunu bildirmək üçün isimlərə bitişən xüsusi şəxs şəkilçiləri ilə formalaşan mənsubiyyət

kateqoriyasının əlverişli üslubi məqamına görə bəzən şəxs bildirən bir sözün qənaətə meyllə əlaqədar olaraq ixtisar edilməsi müşahidə olunur və nəsr mətnlərində belə morfoloji hadisəyə aktiv şəkildə rast gəlinir. Nəsr mətnlərinin dialoji nitq aktlarında bəzən müəyyən cümlə daxilində mənsubiyyət kateqoriyasının imkanı əsasında birinci tərəf yox, ikinci tərəf ixtisar oluna bilər. Qənaətlə bağlı belə ixtisar üçün mənsubiyyət şəkilçisini qəbul etməli olan isim ya qabaqcadan mətn mühitində məlum olur, yaxud da cümlənin tərkibində müəyyən vəzifədə müstəqil halda işlədilir.

Mənsubiyyət kateqoriyasında özünü göstərən üslubi hallardan biri də qənaət göstəricisi kimi ismin hal şəkilçilərinin buraxılmasıdır və bu, özünü, əsasən, yiyəlik halda göstərir. Burada əsas məqsəd qeyri-müəyyənləşdirmə yolu ilə ümumiləşdirmədir. Mənsubiyyətin qənaətlə bağlı xüsusiyyətlərindən danışarkən nəsr mətnlərində şəxslərin ixtisarını, bunların əvəzinə isə şəxs şəkilçilərinin işlənməsini də nəzərdən qaçırmaq olmaz və burada diqqəti cəlb edən əsas xüsusiyyət ondan ibarətdir ki, birinci şəxsin təki ilə üçüncünün təki bir-birini əvəz edə bilir.

Nəsr mətnlərində mənsubiyyət kateqoriyası məqamından asılı olaraq qənaətlə bağlı əlverişli imkanlara malikdir. Bədii əsərlərin dilində mənsubiyyət kateqoriyası situasiyadan asılı olaraq və qənaətə meylliliklə bağlı əlverişli üslubi imkanlar kəsb edir, söz sənətkarları məna, ekspessiv çalarlıqları, ritorik, bədii tələblər əsasında bu imkanlardan müxtəlif tərzdə istifadə etməyə çalışmışlar. Mənsubiyyət şəkilçisi birinci və ikinci şəxsləri ifadə edəndə ixtisar üçün [qənaət üçün-K.H.] geniş imkanlar olur; çünki bu şəkilçilər nisbətən konkret şəxsləri bildirir, lakin mənsubiyyət üçüncü şəxs şəkilçisi ilə formalaşmış olduqda, ixtisar imkanı [qənaət imkanı K.H.] məhdudlaşır.

Bunun iki səbəbi vardır: Birincisi budur ki, üçüncü şəxs konkret deyil, müəyyən deyil; şəxs əvəzliyini ixtisar etmək mümkün olsa da, üçüncü şəxs üzrə dəyişən və dəyişdirən konkret isimləri heç bir ifadə və cümlədən, orada mənsubiyyət şəkilçisi olduğu üçün ixtisar etmək mümkün deyildir.

İkincisi budur ki, üçüncü şəxs nisbət şəkilçisi çox zaman təsirlik hal şəkilçisi ilə omonimləşir; buna görə də *onun atı* əvəzinə atı deyilsə, *atı* sözü təsirlik halda anlaşıla

bilər. Əlbəttə, şəraitdən asılı olaraq *onun atı* əvəzinə *atı* sözünü təklikdə işlətmək mümkündür; lakin belə imkan, birinci və ikinci şəxslərdə olduğu qədər geniş deyildir".

Mənsubiyyət kateqoriyası morfoloji göstəricilərinin təkcə isimlərə deyil, ad mahiyyətli, hətta feili sifətlərə də bitişik yazılması ilə şəxs əvəzliklərinin ixtisarından söz sənətkarları bir çox üslubi çalarlıqlarda istifadə edirlər ki, onların qənaətlə bağlı mühüm cəhətlərinin öyrənilməsi aktuallıq kəsb edir.

Məlumdur ki, nəsr əsərlərində nitqin mühüm növlərindən biri olan dialoq nitqinə çox geniş yer verilir və belə məqamlarda mənsubiyyət şəkilçisi qəbul etmiş soz cümlədə başqa vəzifəli sözlə eyniləşdikdə təkrara yol verməmək üçün bunlardan birinə qənaət oluna bilər. Məs:, — *Bu işçilər kimindir*? [36,s.76] — sualını digər personaj "*Mənim*"— deyə cavablandırır. Buradakı sual cümləsini "*Bu işçilər kimin işçiləridir*?"— şəklində də işlətmək olar və belə halda da eyni məzmun anlaşılar və təkrarçılıq baş verər. Belə sualı cavablandırmaq məqamında mənsubiyyət kateqoriyasının imkanlarından istifadə etməklə bu cümləni eyni məzmunlu müxtəlif səs tərkibindən ibarət cavablar şəklinə də salmaq olur və "Bu işçilər mənim işçilərimdir" — cümləsində qənaətə müvafiq əməliyyat aparmaqla aşağıdakı formalarda da işlətsək, cümlənin məzmununa heç bir xələl gəlməz: 1) *Bunlar mənim işçilərimdir*; 2) *Bu işçilər mənimdir*; 3) *Bunlar mənimdir*; 4) *Mənimdir*; 5)*Mənim*.

Göründüyü kimi, mənsubiyyət kateqoriyası nəsr mətnlərində məqamından asılı olaraq qənaət üçün ən əlverişli üslub göstəricidir və geniş imkanlara malikdir.

Dilimizdə qənaətin ən mühüm göstəricilərindən biri "o" əvəzliyi hesab olunur və bu nitq vahidi həm şəxs, həm də işarə əvəzliyi kimi işlənərək omonimlik təşkil edir və " *Kainatdakı bütün varlıqları "o" işarə əvəzliyinin köməyi ilə də ifadə etmək olur*" [83, s.201]. Qənaət qanununa da xidmət edən bu fonem dildə məna fərqi yaradan ən kiçik dil vahididir. "*O*" səsi dildə həm fonem, həm söz, həm də cümlə ola bilər. Belə olan təqdirdə "qol" sözündə "**o**" fonem, "O dedi" cümləsində "o" söz, "kim gəldi?" sualına cavab olan "o" isə cümlədir. Deməli "o" saiti həm ən kiçik dil vahidi kimi, həm söz kimi, həm də ən böyük dil vahidi (cümlə) kimi xarakterik əlamətlərini qoruyub saxlayır. "*O*" saitinin müxtəlif dil vahidlərinə - fonemə, sözə, cümləyə keçməsi isə dilin inkişaf tarixi, inkişaf

şəraiti ilə bağlıdır. Belə ki, “O” saiti inkişafla bağlı olaraq fonemə, sözə, cümləyə aid xüsusiyyətləri qoruyub saxlamışdır. Fonem sözə, cümləyə aid xüsusiyyətləri itirməmişdir. “*Ona görə də dilin daxili imkanlarından asılı olaraq “o” saiti fonem, söz, cümlə kimi özünü göstərə bilir*” [59, s.60-61]. ”O” şəxs əvəzliyi nəsr dilində aktiv işlənərək qənaət üçün geniş imkanlara malik olur.Məsələn aşağıdakı dialoq nitqinin cavab yerində təkrarın qarşısını almaq üçün “o” əvəzliyi “*Qarabağ şikəstəsi” muğam adının yerində işlənmişdir*: —“*Qarabağ şikəstəsi” mahnıdır, yoxsa rəqs*? —deyə onu maraqla dinləyən Aksana soruşdu: — *O bir muğam parçasıdır, burada yaranmışdır* [36, s.81].

“O” işarə əvəzliyinin qənaətə xidməti barədə araşdırmanın müvafiq bölməsində geniş danışılacağından burada bəhs etməyi lazım bilmirik və aydın məsələdir ki, əvəzliklərin ümumilik bildirən, mücərrəd mənaları ilə yanaşı, mətndən asılı olaraq hər dəfə yeni məzmun daşıyan dəyişkən mənası da olur. O əvəzliyi, bir tərəfdən, bütün üçüncü şəxsləri bildirir, digər tərəfdən, mətndən asılı olaraq müəyyən konkret şəxsin adını da əvəz edir. Həqiqətən də, biri var bir neçə hərfdən ibarət sözdən, yəni şəxs adından istifadə edəsən, biri də var ki, onun əvəzində qanunauyğun hal kimi bir fonemdən istifadə edəsən və bu baxımdan “o” şəxs əvəzliyi ismin hal paradiqmasındakı işlənmə formalına görə, qənaət üçün ən universal nitq vahididuir. Məs:, *Ədəbiyyat müəllimimiz şəkillərə baxanda gözləri hədəqəsindən çıxdı. O, inana bilmirdi ki, kənddən çıxmış lüt bir oğlanın bu cür rəssamlıq istedadı ola bilər [6, s.645]; O, Məhbubədən eşitdiklərinin sehrindən xilas ola bilmirdi* [6, s.644]. Belə nümunələr nəsr mətnlərində saysız-hesabsızdır. Hər iki nümunədə personajın adı əvəzinə “O” şəxs əvəzliyindən istifadə edilməsi göz qabağındadır və belə istifadə bir tərəfdən əvəzlikdə olan yüksək mücərrədləşdirmə, ümumiləşdirmə xüsusiyyətinin olması ilə əlaqədardırsa, digər tərəfdən məntiqi qənaətlə bağlıdır.

Nəsr mətnlərinin tərkibində işlənən sintaktik bütövlərdə bəzi hallarda *bizim həyət, bizim bağça, bizim meşələr, bizim arzular* və s. kimi mənsubiyyət ifadə edən birləşmələr də müşahidə olunur ki, onların birinci tərəfi birinci və ikinci şəxslərin cəmi ilə ifadə olunur. Bu zaman qənaətə uyğun olaraq “... ikinci tərəf vəzifəsində çıxış edən mənsub

şəxs və ya əşyadan mənsubiyyət şəkilçisi ixtisar olunur” [17, s.62]. Məs:, *Bizim geniş çöllər göz işlədikcə uzanırdı* [63, s.101].

Bu cümlədə *bizim çöllər* birləşməsinin ikinci tərəfindəki sözdə qənaət hadisəsi müşahidə edilir və bu morfoloji səviyyədə, yəni şəkilçinin ixtisarı kimi özünü göstərir. Tədqiqatçıların əksəriyyəti *bizim çöllər* kimi birləşmələrdən mənsubiyyət şəkilçisinin ixtisar olunma səbəbini birinci komponentlərdəki şəxs əvəzlikləri və ya əvəzliklərə artırılan yiyəlik hal şəkilçilərilə birlikdə həmin mənanı ifadə etməsi ilə izah edirlər. Əgər birinci tərəf birinci və ya ikinci şəxsin cəmini bildirən əvəzliklə, eləcə də əşyanı ifadə edən söz ümumiləşə bilən bir əşyanı ifadə edirsə, nisbət şəkilçisi ixtisar edilə bilər. Mənsub tərəf ümumiləşmiş, yaxud ümumiləşə bilən bir əşyanı və ya hər hansı varlığı ifadə etmirsə, nisbət şəkilçisini ixtisar etmək olmaz. Dil faktlarının mövcud qanunauyğunluğu və Ə.Dəmirçizadənin fikri bir daha sübut edir ki, mənsubiyyət anlayışı ifadə edən birləşmələrdə ikinci komponentdən mənsubiyyət şəkilçisinin ixtisarı heç də birinci komponentin əvəzlik və ya əvəzliklə bərabər, yiyəlik hal şəkilçisi ilə işlənməsi deyildir. “*Bunun səbəbi məhz ikinci komponentin ümumiləşməsi və ya ümumiləşə bilən sözlərlə ifadə olunması ilə bağlıdır*” [95, s.34].

Məlumdur ki, mənsubiyyət kateqoriyası dilimizdə morfoloji və morfoloji-sintaktik üsulla ifadə olunur və hər iki üsulla ifadə olunan birləşmələrdə qənaət hadisəsi müşahidə edilir. Məs:, *Anam demişkən, cürəpəm böyük olsa da, ürəyim zəif idi, ağrıya dözümüm yox idi. Neynəyim, belə yaranmışam. Cəlladların işi çox, əsirlərə verdikləri işgəncələr saysız-hesabsız olduğu üçün bəxtim gətirdi* [36, s.117].

Bu cümlələrdə təkrar-təkrar *mənim anam, mənim cürəpəm, mənim ürəyim, mən neyləyim, mən yaranmışam, mənim bəxtim* birləşmələrində mən şəxs əvəzliyini dilin qanunauyğun hal kimi işlətmək vacib deyildir, çünki, Azərbaycan dilində, o cümlədən əksər türk dillərində olduğu kimi, həm sahib şəxsi, həm də mənsub əşyanı bir sözlə də ifadə etmək mümkündür. Qeyd etməliyik ki, nümunə verdiyimiz və morfoloji üsulla yaranmış birləşmələrdən də aydın şəkildə görünür ki, müvafiq şəxsə məxsus mənsubiyyət

şəkilçisi artırıldığı zaman sözlə birlikdə şəxs və əşyanın kimə və ya nəyə mənsub olduğunu bildirmə xüsusiyyəti qazanır.

Morfoloji-sintaktik üsulla ifadə olunan mənsubiyyət kateqoriyasının iki tərəfi olur və birinci tərəf sahib şəxs, ikinci tərəf isə mənsub şəxs və əşyadan ibarət olur ki, belə birləşmələr nəsr dilində aktiv müşahidə olunur və bütün mənsubiyyət birləşmələrinin ikinci tərəfindən morfoloji göstəricinin, yəni yiyəlik hal şəkilçisinin ixtisar edilməsi qanunauyğun hal kimi özünü göstərir. Məs:, *Bizim ölkədə hamı azad yaşayır, sizin ölkə isə terror ölkəsidir — deyə əsir erməni cəlladının üzünə tüpürdü [36, s.108]*. Bu sintaktik bütövdə *bizim ölkə* və *sizin ölkə* mənsubiyyət birləşmələrinin birincisində -miz, ikincisində isə -niz şəxs şəkilçiləri ixtisar edilmişdir.

Nəsr dilində öz qayıdış əvəzliyi ilə ifadə olunan çoxlu sayda birləşmələrə rast gəlinir və bunlar şəxs paradiqmasında *mən özüm, sən özün, o özü, biz özümüz, siz özünüz, onlar özləri şəkillərində*, hal paradiqmasında isə *öz, özün, özünə, özünə, özünü, özündə, özündə, özündən* formalarında olur, əksər hallarda birinci tərəfi *öz* qayıdış əvəzliyi ilə ifadə olunan mənsubiyyət birləşmələrinin birinci tərəfi həm yiyəlik hal şəkilçisi ilə, həm də qənaətə uyğun olaraq bu şəkilçini qəbul etmədən də işlənir. Məs:, *Sonralar özü öz xəyalpərvərliyinə gülmüşdü* [36, s. 201].

Bu cümlənin ümumi məzmunundan dərhal sezilir ki, özü öz mənsubiyyət, yəni ikiqat mənsubiyyət birləşməsindən əvvəl "o" şəxs əvəzliyi məqsədli şəkildə ellipsisə uğradılmışdır. Bundan əlavə, birləşmənin (özü öz) ikinci komponentində çıxış edən *öz* əvəzliyi yiyəlik halda *özünün* yəni yiyəlik hal şəkilçisi ilə işlənməli olduğu halda, şəkilçisiz çıxış etmişdir ki, həmin cümlədə mənsubiyyət ifadə edən birləşmənin bu şəkildə işlənməsi təsadüfi deyildir. *Mən özün, sən özün, o özü* tipli birləşmələrin də ikinci tərəfi birinci tərəfin ekvivalentidir və onu əvəz etmək hüququna malikdir. Lakin bunların ikinci tərəfi birinci tərəfə yeni məna gətirmək, birinci tərəfi bu və ya başqa cəhətdən izah etmək məqsədi daşımır. "*O, daha çox üslubi xüsusiyyət daşıyır, birinci tərəfi nəzərə çarpdırmaq, onu məntiqi vurğulu etmək məqsədilə işlədilir*" [105, s.180] və o da qeyd edilməlidir ki,

"*dildə yığcamlığı mühafizə edib saxlamaq məqsədilə [qənaətə əməl etmək məqsədilə - K.H] bu tip birləşmələrdən istifadə olunur*"[105, s.181].

Nəsr dilində belə birləşmələrin birinci komponentinin müxtəlif mənalı ümumi və xüsusi isimlərlə ifadə olunması halları da geniş şəkildə müşahidə edilir və bu zaman birinci komponent yiyəlik hal şəkilçisi ilə işləndiyi kimi, qənaətə müvafiq olaraq yiyəlik hal şəkilçisiz də işlənir. Məs:, *Bəs elə isə Zahid Babaoğlu özü niyə silaha əl atmadı* [36, s.205], *Düşmən özü gözə görünmürdü* [36, s.200] və s.

Bu cümlələrdə də *Zahid Babağlu özü, düşmən özü* birləşmələrinin birinci komponentlərindəki sözlər yiyəlik hal şəkilçisiz işlənmişdir.

Müşahidələrimiz göstərir ki, nəsr dilində elə birləşmələr vardır ki, mənsubiyyət subyektini bildirən sözdən yiyəlik hal şəkilçisi, mənsubiyyət obyektini ifadə edən sözdən isə mənsubiyyət göstəricisinə qənaət edilir, lakin ifadədə heç bir dolaşıqlıq əmələ gəlmir, əksinə ifadə daha yığcam, lakonik şəkildə dərk edilir. Məs:, *erməni cəlladı həyəcanlanmış təyyarəçini qaya üstə atdı* [36, s.333]. Bu cümlədə işlənən "*qaya üstə*" mənsubiyyət birləşməsinin hər iki tərəfində qənaət hadisəsi təzahür edir, əslində isə birləşmə "*qayanın üstünə*" şəklində də yazıla bilərdi.

Azərbaycan dilçiliyində mənsubiyyət anlayışının yaranma üsulları ilə bağlı mübahisəli fikirlər mövcuddur və mənsubiyyətin yaranması üsulları barədə yuxarıda bir qədər bəhs etsək də, burada həmin kateqoriyanın yaranması üsullarına ötəri toxunmağı zəruri hesab edirik. Q. Kazımov mənsubiyyət kateqoriyasının dilimizdə 3 üsulla reallaşdığını qeyd edir: 1) analitik-sintetik üsul (*sənin evin, onun qızı*); 2) sintetik üsul (*evin, qızın*); 3) analitik üsul (*sizin ev, sizin qız*) [71, s.202].

Nəsr dili üzərində apardığımız araşdırmalar göstərir ki, sintetik və analitik üsullarla yaranmış mənsubiyyət birləşmələrinə daha çox rast gəlinir və bu üsullarla yaranmış birləşmələrdə qənaət hadisəsi daha çox təzahür edir, çünki sintetik üsulla yaranan birləşmələrin birinci komponentində əvəzliyin [*evin, qızın, otağın*], analitik üsulla yaranan birləşmənin isə ikinci komponentində mənsubiyyətin morfoloji göstəricisinin (*sizin ev (-iniz), sizin qızı (-ımız)* ellipsisə uğraması daha çox özlərini biruzə verir. Məs:,

İstərsiniz əvvəlcə Üzeyir Hacıbeyovun, Bülbülün yaxınlıqdakı ev-muzeyinə baxarıq [36, s.71]; *Sizin ev bax, bu küçədə yerləşirdi* [36, s.79] və s.

Mənsubiyyət şəkilçisinin işlənməsinin qənaət hadisəsi ilə bağlı məqamlarını təxminən aşağıdakı kimi qruplaşdıra bilərik:

1) Hər iki tərəfi məsuliyyət şəkilçili II növ ismi birləşmə mürəkkəb sözə çevrildikdə I tərəfin hal göstəricisinə qənaət olunur. Məs:, *əmi oğlusu, dayoğlusu, bibiqızı* və s.

2) Mürəkkəb sözün tərkibində bəzən mənsubiyyət şəkilçisinə dilimizin qanunauyğun halı kimi qənaət olunur. Məs:, *əlbir, dilbir (əlləri, dilləri birgə), baş-göz üstə (üstünə)* və s.

3) Defislə yazılan mürəkkəb sözlərdə adətən I komponentin mənsubiyyət şəkilçisi ixtisara düşür: *dost-tanış, qohum-əqrəbası, əl-ayağı, qaş-gözü, gəlib-gedəni* və s.

4) I və III növ təyini söz birləşmələrində də mənsubiyyət şəkilçisinə qənaət oluna bilir, lakin birləşmənin məzmunundakı sahiblik və mənsub olmaq xüsusiyyəti eyni ilə qalır. Bu, əsasən, I tərəf (sahib) I və II növ şəxs əvəzliyi ilə ifadə olunduqda baş verir: *bizim qız, sizin düşmənlər, bizim ellər, sizin tərəflər.*

Nəsr mətnlərində yönlük hallı birləşmələrdə qənaət prinsipi özünü biruzə verir. Məs:, döyüş əmri [qənaət forması], döyüşə əmr // döyüş üçün əmr [qənaət forması ilə ekvivalent təşkil edən forma]; döyüş həvəsi [qənaət forması]; döyüşə həvəs // döyüş üçün həvəs və s.

Mətnlərdə təsirlik hallı birləşmələr də ekvivalent təşkil edən ifadələr çıxış edir. Məs:, *həyat mülahizəsi – həyatı mülahizə etmək, yol çəkilişi – yol çəkmək.* Belə birləşmələrdə qənaət həm fonem, həm də söz vasitəsilə təzahür edir.

Yerlik hallı birləşmələrdə də komponentlər arasında feil dil normasına uyğun olaraq işlənməyə bilir, feil işləndikdə qənaət prinsipi aradan qalxır. Məs:, *ev işi, yəni evdə görülən iş; sürgündə həyat, yəni sürgündə keçən həyat; ürək sirri, yəni ürəkdə sirr saxlamaq.*

Çıxışlıq hallı birləşmələrlə ekvivalent təşkil edən qənaət formaları da nəsr mətnlərində aktiv işlənir. Məs:, *ölüm qorxusu, yəni ölümdən gələn qorxu; dəmir yolu, yəni dəmirdən çəkilən yol* və s. Mətnlərdə qənaət formasına malik birləşmələrin spesifik üslubi imkanları vardır. Substantivləşmə ilə əlaqədar olaraq söz birləşmələrinin müəyyən tərəflərində təbii şəkildə ixtisarlar baş verir. Söz birləşməsindən ikinci substantiv tərəf düşdükdə birinci tərəf hər iki tərəfin xüsusiyyətini özündə cəmləşdirir". Bu tip qənaət formalı birləşmələr nəsr mətnlərində aktiv müşahidə olunur. Məs:, *Könlü çay istəyən isə qalxırdı çinarın gövdəsinə sığınmış çayxananın ikinci mərtəbəsinə [32, s. 131]; Səsini çıxaran yox idi* [32,s.130].

Hər iki cümlədə "könlü çay istəyən" və "səsini çıxaran" birləşmələrindən sonra işlənməli olan "adamlar" sözü işlədilməmişdir və onların məzmunu ixtisar edilmiş birləşmələrlə ifadə olunduğu kimi, substantiv xarakteri də həmin birləşmələrlə ifadə olunduğu kimi, həmin birləşmələrin üzərinə keçir.

Sabit söz birləşməsi şəklində ifadə olunan, yəni idiomatikləşmiş ifadələrdə də qənaət prinsipi özünü göstərir. Məs:, *xeyrini görmək (heyvanın), başına dönmək (bala), qurban olmaq (sənə) və s. Başına dönüm (bala), -dedi, -mən nə deyim, nə danışım [32, s.186]; Sözü uzatmadı, "xeyrini görəsən" (heyvanın)* [32, s.142].

Sayların substantivləşməsi prosesində qənaət prinsipi daha çox özünü təzahür etdirir. Məs:, 26-lar məğlub oldular-cümləsində 26-lar dedikdə təsəvvürümüzdə 26 şəxsin adı və soyadı canlanır. "*Substantivləşmə ənənəvi olaraq dilçilər tərəfindən dil vahidinin öz formasının dəyişmədən bir funksional qrup və ya sinifdən digərinə keçməsi kimi başa düşülən transkripsiyanın növlərindən biridir*" [79, s.81].

Nəsr dilində mənsubiyyət kateqoriyası ismin hal kateqoriyasının bəzi morfoloji göstəriciləri, xəbər şəkilçilərinin ixtisar variantları, substantivləşmiş saylar, şəxs və qayıdış əvəzlikləri və s. məqamından asılı olaraq qənaət kimi əlverişli üslubi imkanlara da malikdir, bədii mühitdə bu linqvistik hadisə təbii görünür, onlara məxsus morfoloji göstəricilərin ixtisarı mətndə spesifik morfoloji normallaşma tələblərindən irəli gəlir.

2.4. Nəsr və şeir mətnlərində qənaətin müqayisəli aspektdə analizi

Nəsrlə müqayisədə poeziya struktur-semantik sıxılmaya daha çox məruz qalır və bu halları bir şairin yaradıcılıq nümunələrini götürməklə müqayisəli aspektdə analiz etmək olur. Azərbaycan filologiyasının inkişafı naminə ağlını və zəkasını qətrə-qətrə əridən, geniş erudisyaya və professional dəsti-xəttə malik, dilçiliyimizin ayrı-ayrı maraqlı, lakin nisbətən az öyrənilmiş sahələrini mükəmməl şəkildə araşdıran filologiya elmləri doktoru, professor Həsən Mirzəyev yaradıcılığının müəyyən mərhələsində Həsən Mirzə imzası ilə çoxlu sayda poetik örnəklər yazıb-yaratmışdır və bu alim-şair yaratdığı poetik örnəklərində lakonizmi qorumaq məqsədilə, şeirlərinin oxunaqlı, cazibədar, musiqili, melodik, ritmik alınması üçün faktik dil materiallarından qənaətlə istifadə etməyə çalışmışdır. Qənaət qanununa ciddi əməl edilən şeirlərdə və eyni zamanda poetikləşdirilən misra və bəndlərdə söylənilən fikirlərin forma tutumu yığcam və lakonik, üslubi-semantik tutumu isə geniş və əhatəli olur ki, bunlar müvafiq söz, söz birləşməsi, morfoloji göstəricilərin, fonemlərin, sintaktik vahidlərin buraxılması ilə əldə edilir. Qənaət hadisəsi zəngin Azərbaycan poeziyasının istər klassik, istərsə də müasir poetik örnəklərinin demək olar ki, hamısını əhatə edir və bu linqvistik prinsip əsasında yaradılan şeirlər oxucunun qəlb dünyasına sirayət edərək, oxucuya estetik zövq bəşx etmiş olur. Dilin bütün səviyyələrində təzahür edən qənaəti Həsən Mirzənin şeir yaradıcılığında da açıq-aşkar görürük və burada şairin qənaət əməliyyatından uğurla faydalanmasının müəyyən cəhətlərinin təhlilini verməyi vacib hesab edirik.

Nəsr və dramaturji əsərlərin dili ilə müqayisədə poeziyada qənaət qanunu daha çox təzahür edir. Bu poeziya dilinin, daha dəqiq desək, forması, struktur-semantikası ilə birbaşa bağlıdır. Poeziyada intensiv və qabarıq şəkildə özünü göstərən qənaət poetik dilin şərtlikləri ilə bağlıdır və bu şərtliklər məhz qənaət əməliyyatına zəmin yaradır. Lokal və epizodik fikirləri çıxmaq şərtilə Azərbaycan dilçiliyində qənaət haqqında demək olar ki, hələlik geniş və fundamental araşdırmalara rast gəlmirik. Həsən Mirzənin poeziyasında da sözə, fonemə, morfoloji göstəricilərə qənaət onun şeir mətnlərinin forma-üslub

xüsusiyyətlərindən biri kimi və mətndə lazımsız təkrarçılığın qarşısını almaq, yersiz təffərüatlara yol verməməkdən ötrüdür və bütün bunların konkret poetik örnəklər əsasında təhlil edilməsi mövzunun aktuallığını şərtləndirən cəhətlərdəndir.

Həsən Mirzənin poetik örnəklərinin hər bir misrasında, hər bir bəndində linqvistik qənaət prinsipi müşahidə olunur ki, bunlar əhəmiyyətli üslubi-semantik əməliyyatlar nəticəsində yerinə yetirilir. Şeir mətnləri üçün bu vacib əməliyyat prosesində misra və bəndlərdə bəzi leksik vahidlər sıxlaşdırılıb aradan çıxarılır, mətndə sıxlaşdırılıb aradan çıxarılan sözlərin yeri hiss olunsa da, onların maddi şəkildə işlədilməsinə ehtiyac olmur, çünki əgər onlar işlədilsə, poetik forma pozular, təkrarçılıq, yaxud, şablonçuluq baş alıb gedər. Semantik sıxılma qanununa tabe edilmiş müəyyən bir vahidi Həsən Mirzənin şeir dilində həmin vahidin əlaqələndiyi morfoloji göstəricilər öz üzərinə götürür. Məs:, *Düşmən əlindədir müqəddəs yerim, Ləlim, cəvahirim, abidəm, pirim, Qoy ayağa qalxsın igidim, ərim, Bəlkə, bu şad xəbər silə dərdimi* [46, s.69].

Həsən Mirzənin "Dərdimi" qoşmasının bu bəndinin hər misrasında birinci şəxsin təkində olan "mənim" şəxs əvəzliyinə poetik qanunauyğunluqlara müvafiq olaraq qənaət edilmişdir. Əgər həmin əvəzliyi maddi söz cildində uzlaşdığı sözlərlə birlikdə işlətsək, şübhəsiz ki, həmin bəndin səslənmə effektivliyində əhəmiyyətli dərəcədə rol oynayan emosionallıq, eksressivlik, ahəngdarlıq, ritmik və melodik keyfiyyətləri tamamilə ağırlaşar, bənd biçimi başdan ayağa ağırlaşmış vəziyyətdə olar, oxucunun zövqünü oxşamaz və bütün bunları həmin bənddə mənim mənsubiyyət şəkilçili əvəzliyini bəndin müvafiq yerlərində işlətməklə aydın şəkildə əyaniləşdirə bilərik: *Düşmən əlindədir mənim müqəddəs yerim, Mənim ləlim, mənim cəvahirim, mənim abidəm, mənim pirim.Qoy ayağa qalxsın mənim igidim, mənim ərim, Bəlkə, bu şad xəbər silə mənim dərdimi*.

Aydın şəkildə görünür ki, müxtəlif misralarda "*mənim*" şəxs əvəzliyinin 8 dəfə təkrar işlədilməsi yeknəsənlik yaradır, bəndin forma və strukturuna ağırlıq gətirir, bir sözlə, şeir mətnin xas olan məziyyətlərinə mənfi təsir göstərir.

Həsən Mirzənin əksər şeir mətnləri və bu mətnlərin tərkibindəki ayrı-ayrı bəndlər lakonik ifadə biçimlərinə uyğun gələn dil faktorlarının köməyi ilə qurulur və həcmcə çox

da böyük olmayan bir şeir və ya bənd özündə neçə cildlik qeyri-bədii mətnin ifadə eləyə bilmədiyi informasiyanı yerləşdirə bilir. Şairin aşağıdakı bənddə verilən bədii informasiyası böyük, informasiyanın poetik aspektdə verilməsi olduqca kiçikdir və bunlar bəndin zahiri strukturunda sözə qənaət prinsipi əsasında əldə edilmişdir: *Zorla köçürüblər Oğuz elimi, Bu qəm yükü yaman büküb belimi, Dilim-dilim doğrayıblar dilimi, Aşıqlar söyləsin elə dərdimi.*

Bəndin strukturundan aydın şəkildə sezilir ki, birinci və üçüncü misralarda II şəxsin cəminin ifadəçisi olan *onlar* əvəzliyinə, dördüncü misrada *söyləsin* sözünün sonunda cəmlik bildirən *–lər* şəkilçisinə qənaət edilmişdir ki, şübhəsiz ki, bunlar bəndin poetik-üslubi tələblərindən irəli gəlir və mətnin həcmcə lakonikliyinə, yığcamlığına şərait yaradır. Bənddə verilən informasiyanın kəmiyyətcə böyüklüyünə, genişliyinə gəldikdə isə deyə bilərik ki, təkcə birinci misrada verilən informasiya haqqında həcmcə böyük elmi və bədii əsərlər yazıb-yaratmaq olar və təkcə Oğuz eli (birinci misrada işlənən) etnonimi haqqında hazırda elmi aspektdə Azərbaycan tarixində və dilçiliyində nə qədər əsərlərin yaradılması söylədiklərimizə əyani sübut ola bilər. Və yaxud, Azərbaycan bədii nəşrində oğuzların qəhrəmanlıq salnaməsindən bəhs edən əsərlər az deyil, yaşı minilliklərlə ölçülən "Kitabi – Dədə Qorqud" dastanlarını buna misal göstərə bilərik. "Zorla köçürüllər Oğuz elini" – misrasında sözlərin sıxlığı göz qabağındadır və həmin sıxlıqdan yaranan məna həcmi olduqca geniş və əhatəlidir. Belə ki, Oğuz elini kimlər öz dədə-baba yurdlarından köçürüb, qovub? – sualının cavabı fonunda iri həcmli əsərlər yazıb-yaratmaq olar. Deməli qənaət prinsipi şair sözünün lakonizminə xidmət etməklə bərabər, onun kəsərini, təsir gücünü, semantik-üslubi imkanlarını maksimum dərəcədə yüksəldən göstəricilərdəndir.

Həsən Mirzənin şeir dili lakonik keyfiyyətlərlə zəngindir və bu keyfiyyətlər qənaətin morfoloji səviyyədə, yəni çoxlu sayda şəkilçilərin ixtisarı ilə də təzahür edir və dilimizin potensial gücündən qaynaqlanan bu meyarlar şeir dilini incələşdirir. Məs:, *Qayalardan gəlir Nəbinin səsi, Cəlal bəylə gedən cəngi, nərəsi, Aşıq Qəhrəmanın zil zənguləsi, Söylənir payız, yaz Dərələyəzdə* [46, s.30].

Bu bəndin sonuncu misrasında payız, yaz sözlərində poetexnik tələblərə uyğun olaraq ismin yerlik hal şəkilçisi –da ünsürü buraxılmış, şəkilçiyə qənaət prinsipinə əsaslanmaqla şeir bəndinin fonetik quruluşu, səslənmə keyfiyyəti incələşdirilmişdir. Əgər –*da* morfoloji göstəricisini həmin sözlərə artırsaq, şübhəsiz ki, bəndin misra quruluşunda, səslənməsində poetik incəlik yoxa çıxacaq, ağırlıq hiss olunacaq dərəcədə özünü göstərəcəkdir. Söylənir payızda, yazda Dərələyəzdə.

Morfoloji göstəricilərə qənaət qanunu əsasında yanaşma Həsən Mirzənin əksər şeirlərində müşahidə olunur və bunu təbii şəkildə şeir mətnin qurulma texnikası tələb edir. Məsələn, "Həsən Mirzənin Aşıq Mehdi ilə deyişməsi"nin hər bəndinin üçüncü misrasında həm lakonizm, həm də şeiriyyət naminə -*lı* morfoloji göstəricisindən istifadədən imtina edilmişdir: *Qız-gəlini qoçaq, məğrur, vüqarlı, Şirin təbəssümlü, Həcər misallı, Al yanaq, ağ buxaq, ağ tirmə şallı, Çox gözəl gördük biz Dərələyəzdə* [46, s.36].

Poeziya bütün hallarda sözə qənaət prinsiplərinə əsaslanır və söz sıxlığı ilə məna həcminin əhatəliliyi elə bir vəhdətdədir ki, sözün bütün çalarları, semantik üslubi imkanları maksimum poetik fəaliyyətdə götürülür. Lakonizm sair sözünün kəsərini, təsir gücünü hiss ediləcək dərəcədə yüksəldir, sözləri məharətlə bir-birinə hörmək, calamaq və cilalamaq ustalığına diqqəti cəlb edir. Əsl şair yığcam, lakonik, məna tutumu etibarilə əhatəli olan misraları ilə inandırır ki, şeir dili bütün varlığı ilə sözə qənaət prinsiplərinə əsaslanır və bu, şeir yaradıcılığında ötəri fakt deyildir, onun başlıca atributu, şeir dilinin əsas təyinedici əlamətidir. Deməli, söz, söz birləşmələri kimi, zəngin qrammatik kateqoriyalara xidmət edən morfoloji göstəricilərə də qənaət şeir dilinin başlıca atributlrından hesab olunmalıdır. Söz fəhmi, söz duyğusu olduqca, güclü olan el şairi Həsən Mirzənin müxtəlif saz-söz adamları ilə deyişmələrində müəyyən bir sözün tərkibindəki hissəciklərin, ünsürlərin buraxılması halları da tez-tez müşahidə olunur. Aydın məsələdir ki, canlı danışıq dilində Dərələyəz yer adı çoxhecalı leksik vahid olduğundan çox vaxt onun tərkibindəki deyiliş, tələffüz məqamlarında "***y***" samiti düşür, sadəcə olaraq Dərələz kimi deyilir və aşıq və el şairləri əsərlərində bu formaya daha çox üstünlük verirlər ki, bu da fonetik səviyyədə qənaət qanununa canlı nümunə ola bilər.

Məs:, *Təkədonduranda yatmaq istəsən, Ovçu Qəhrəmana çatmaq istəsən,Təkəni qayadan atmaq istəsən, Qoymalısan yerə diz Dərələzdə* [46, s.35].

Bu bənddə söz sənətkarı təkcə fonetik səviyyədə qənaətlə kiayətlənmir, eyni zamanda maddi formada işlənməsi mümkün olan *sən* şəxs əvəzliyini düzgün olaraq ixtisar edir və burada həmin əvəzliyin məna yükünü onun morfoloji göstəriciləri (-*san*, -*sən*) öz üzərinə götürür. Qənaətin vacib xüsusiyyətlərindən çıxış edərək deyə bilərik ki, Həsən Mirzənin şeir dilində şəxs əvəzliklərinin maddi söz cildində ixtisarı intensiv səciyyə kəsb edir və bu işləklik dərəcəsi poetik tələblərələ bağlıdır ki, alim-şair bunlara doğru-dürüst əməl etməyə çalışmışdır. Nümunəyə nəzər salaq: *Kaş ki, o yerləri bir də gəzəydik, Nərgizin gözündən öpüb, dərəydik, Nəticə toyunda yallı süzəydik, İşlər olaydı düz Dərələyəzdə* [46, s. 32].

Sonuncu misranı çıxmaq şərtilə, digər misralarda maddi söz cildində ikinci şəxsin cəmini bildirən "*biz*" şəxs əvəzliyinin yeri görünsə də, şair bunu artıq hesab edir, çünki maddi formada iştirak etməyən bu sözün məna yükünü misrasonu mövqedə çıxış edən feil sonluqlarındakı işlənən –iki morfem öz üzərinə götürür. Bu bənddə maraqlı bir semantik cəhət də diqqəti cəlb edir ki, bu da mətndə kaş ki ədatının bircə dəfə işlənməsidir və bu ədat semantik mövqedə arzu, istək çalarını reallaşdırmaqla bərabər, mətndəki bu semantik çalarlığın bütövlükdə yükünü öz üzərinə götürür, digər misralarda təkrar olaraq işlədilməsə də, vizual şəkildə təsəvvür olunur. Deməli, şeir dilində köməkçi nitq hissələrinin kommunikativ imkanları və praqmatik potensialı qənaətə imkan yaradan vasitələrdəndir.

Dilimizdə şəxs əvəzliklərinin digər sözlərlə əlaqəyə girərək saysız-hesabsız söz birləşmələri formalaşdırılması məlumdur və Həsən Mirzənin şeir dilində belə birləşmələrin birinin komponentindəki maddi söz formasında olan və konkret şəkildə işlədilməsinə ehtiyac olmayan əvəzliklərin qənaət qanununa müvafiq olaraq buraxılmasına tez-tez rast gəlirik. Məs:, *Atatürkün qeyrətini bilir hay, Səttar xanın cürətini bilir hay,Heydərimin qeyrətini bilir hay, Qorxma, ərlər yurdu laçoya qalmaz* [46, s.41].

Bəndin üçüncü misrasında “Heydərimin qeyrəti” birləşməsi əslində formaca, strukturca “Mənim Heydərimin qüdrəti” modelində olmalı idi ki, burada da əvəzliyin işlədilməsinə müəyyən səbələrə görə lazım bilinməmişdir və demək, qənaət söz birləşmələrində də təzahür imkanlarına malikdir.

Həsən Mirzənin bəzi şeir bəndlərinin misra düzümündə həmcins üzvlər fəal çıxış edərək orijinal forma gözəlliyi yaradır və müəyyən şivələrdə morfoloji göstəricilərin düşməsi hadisəsi qənaət qanununun nəticəsi olmaqla şairin düşüncələr axınını nizama salmaq, fikir və forma siqlətini lakonik şəkildə vermək üçündür. Alim-şairin “ Tapın gətirin” rədifli şeirinin üçüncü bəndində misrasonu mövqelərdə *“- li, -dir*” şəkilçili həmcins üzvlü sözlər özlərindən əvvəl işlənən sözlərdən təbii şəkildə, qanunauyğun hal kimi həmin şəkilçiləri məhrum edir və beləliklə də, şeir mətni maksimum yığcamlıq qazanır, yersiz təkrarçılığın qarşısı alınır və qənaət prinsipi ilə ərsəyə gətirilən şeir bəndində emosional təsir olduqca güclü təsir bağışlayır. Şeir bəndinə diqqət yetirək: *Ağ bədən, ağ buxaq, incəbellidir. Qaraqaş, qaragöz, siyahtellidir. Düz yeriş, gülərüz, şirindillidi. O ağ göyərçini tapın gətirin*! [46, s.40]

Burada həmcins üzvlü sözlərin hamısı belə təsəvvürə gətirək ki, *“-li, -dir”* morfoloji göstəriciləri ilə işlənib, onda lüzumsuz yerə şəkilçilərin təkrarı şeir bəndini forma baxımından ağırlaşdıracaq, morfoloji göstəricilərin uzadılması eybəcərlik təsiri bağışlayacaq və tərəfimizdən aparılmış əməliyyata nəzər salaq: *Ağ bədənlidir, ağ buxaqlıdır, incəbeldir, Qaraqaşlıdır, qaragözlüdür, siyahtellidir, Şux yerişlidir, gülərüzlüdür, şirindillidir, O ağ göyərçini tapın gətirin!*

Əgər söz sənətkarı şeirin bu bənd sistemini belə qursaydı, şübhəsiz ki, oxucunu yormuş olardı və onun estetik zövqünü oxşamazdı və deməli, lazımsız yerə morfemlərin təkrar işlədilməsi ilə şeirin melodiyası, ahəngdarlığı, musiqi və ritmikliyi ağırlaşar və Həsən Mirzə də bir linqvistioloq alim kimi çox gözəl bilirdi ki, uzunçuluq şeir dilinə yaddır, şeir müvafiq sözlərin gərgin zəhmət hesabına semantik sıxılma əməliyyatına məruz qalmış bədiyyatın yığcam, lakonik bir poetik, lirik formasıdır və bunların

yaradılması üçün qənaət qanunun tələblərini dərindən mənimsəmək, öyrənmək olduqca vacib şərtlərdəndir.

Həsən Mirzənin "Ceyran" rədifli qoşmasının sonuncu bəndinin ilk misrasında da maraqlı bir qənaət hadisəsi müşahidə olunur: *Qoşa oxuyanlar bir-birə həmdəm, Muğam, milli mahnı qəlbimə həmdəm* [46, s.54].

Birinci misrada bir-birə sözü ədəbi dilin normalarına uyğun olaraq ya *bir-birinə*, yaxud da ki, *bir-birilə* formalarında verilməli idi, lakin şair bu formaların hər ikisindən imtina etmiş, qənaətdən bacarıqla yararlanaraq mətnin heca sistemini, səslənmə axıcılığını qorumaq məqsədi ilə bu üslubi yola üstünlük verməyi zəruri bilmişdir. Misrada işlədilən *bir-birilə* şəklini, *ilə* qoşması ilə işləndikdə bir-birilə formasını alır, birgəlik mənasının yaranmasına xidmət göstərir.

Yaradıcılığının müəyyən mərhələsində poeziyaya, şeir sənətinə də müraciət edən alim-şair Həsən Mirzənin poetik örnəkləri uzunçuluqdan, sözçülükdən tamamilə uzaqdır, çünki bu mənfi göstəricilər poeziyaya, şeir mətnlərinə ciddi qüsur, nöqsan gətirən, şeiri şeiriyyətdən çıxaran amilllərdəndir. Həsən Mirzə dilimizin qrammatik quruluşunu mükəmməl şəkildə bildiyinə, linqvistik qənaət qanununu şeirlərinə məharətlə tətbiq etdiyinə görə onun poetik örnəkləri lakonik, yığcam qəlib və biçimlərdədir, və bu keyfiyyətlər oxucunun təfəkkürünün, məntiqi düşüncəsinin fəallaşdırılmasında olduqca mühüm rol oynayır.

III FƏSİL
NƏSR MƏTNLƏRİNDƏ SİNTAKTİK SƏVİYYƏDƏ QƏNAƏT

Nəsr mətnlərində sintaktik səviyyədə qənaət demək olar ki, əksər cümlə tiplərini əhatə edir və bu tip konstruksiyalar ellipsis hadisəsi ilə bağlı olaraq yaranır. Qənaətin universal linqvistik hadisə kimi nəsr mətnlərinin məqsəd və intonasiyaya görə cümlə tiplərində, ümumi şəxsli və şəxssiz cümlələrdə, adlıq cümlələrdə, söz-cümlələrdə, yarımçıq cümlələrdə, çox nöqtə durğu işarəsi ilə ifadə olunan cümlələrdə təzahürü spesifik səciyyə daşıdığından onlara bir qədər geniş prizmadan yanaşma təhlil işini aktuallaşdırır, çünki nitqdə artıqlığa yol verməmək üçün bu tip sintaktik konstruksiyalar olduqca yararlı vahidlərdir və artıq elementlərin ixtisarı belə formada olan cümlələrlə müəyyənləşir. Mətnlərin tərkibindəki mürəkkəb cümlə konstruksiyalarında da müəyyən sözlərin buraxılmasına daha çox təsadüf olunur. Belə ki, bir qisim tabesiz mürəkkəb cümlələrdə təkrara və sözcülüyə yol verməmək məqsədilə ortaqlı, yaxud eyniyyət təşkil edən sözlər ellipsisə uğrayır və bunun nəticəsində mürəkkəb konstruksiya daha yığcam şəkil alır, bədii fikrin ifadəsi daha asan, bütöv qavranılır. Məs:, *Mən fermada quzular saxlanılan yerə, Mələk isə qoyunla rolan yerə girdi* [44, s.58]. *Onun gözləri sevincdən yaşarır, başı gicəllənir, ürəyi atılıb-düşürdü* [44, s.69]. Bu sintaktik bütövlərin birincisindəki tabesiz mürəkkəb cümlənin birinci komponentinin sonunda "girdim" xəbəri, ikinci tabesiz mürəkkəb cümlənin birinci tərəfini çıxmaq şərtilə digər hissələrində üçüncü növ ismi birləşməsinin birinci tərəfində işlənməli olan "onun" əvəzliyinə qənaət edilmişdir. Belə qənaət formalarına, yəni ellipsisləşməyə tabeli tabeli mürəkkəb cümlə konstruksiyalarında da rast gəlinir. Məs:, *Bir də gördüm ki, qabaqda Xalidə, onun arxasınca da anası otağa girdi* [44, s.101]. Tamamlıq budaq cümlə modelində olan bu sintaktik vahidin sonunda işlənən "girdi" xəbəri özündən əvvəlki sadə cümlədə buraxılmışdır. Həmin cümlədə qənaəti aradan qaldırıb belə ifadə etsək: "*Bir də gördüm ki, qabaqda Xalidə otağa girdi, onun arxasınca da anası otağa girdi*". Belə formada

bədiilik korlanır, nitq kobudlaşır, ağırlaşır. Mürəkkəb cümlələrdə özünü göstərən qənaətə nəqli cümlə tiplərində daha çox təsadüf olunur.

3.1. Funksional cümlə tiplərində qənaətin təzahürü

Sintaktik konstruksiyalarda baş verən üslubi hadisələr arasında qənaət prinsipi xüsusi önəm daşıyır və bu linqvistik hadisənin baş verməsi elliptik cümlələrin formalaşmasına şərait yaradır. Azərbaycan dilçiliyində cümlə konstuksiyalarının tədqiqi uzun illər cümlənin qrammatik-semantikasının öyrənilməsi ilə məhdudlaşdırıldığından konstruksiyalarda özünü göstərən qənaət prinsipi ilə bağlı vacib və aktual məsələlər geniş və əhatəli şəkildə araşdırılmamışdır. Qənaət prinsipi nəsr mətnlərində nəqli, sual, əmr cümlələri üçün olduqca xarakterik bir hadisədir. "*Ellipsis dildə qənaət prinsipinə əsasən mövcuddur. Elliptik formalar dilin müxtəlif səviyyələrində müşahidə olunur. Sintaksisdə bu, xəbərin düşməsi ilə nəticələnən cümlələrdə özünü göstərir*" [31, s.4]. Elliptik - əmr cümlələri məhz nəsr mətnlərinin struktur-formaca müəyyən dəyişikliyə, daha doğrusu, yığcamlığa, qısalığa meyl göstərməsi ilə yaranır. Cümlənin məqsəd və intonasiyasına görə formalaşan sintaktik bütövlərdə qənaət prinsipi linqvostruktur və zəngin üslubi xüsusiyyətlərə malikdir. "*Buna görə də nitqdə özünə asanlıqla yer tutur. Nitqin strukturunun mükəmməl formaya salınmasında öz fəsallığı ilə seçilir*" [96, s.153]. Nəsr mətnlərində bu tip cümlələrdə ellipsisləşmə olduqca fəal bir şəkildə özünü göstərir. "*Onların bədii şəraitə uyğunluğu həmin dil vahidlərinin işlənmə intensivliyini stimullaşdırır*" [15, s.89]. Bəzən yazıçı obrazları tipikləşdirmək məqsədilə dialekt areallarında işlənən cümlə modellərindən istifadə edir. "*Dialekt və şivələrimizi sintaktik cəhətdən ədəbi dildən ayıran fərqlərdən biri də I və II şəxs, bəzən də III şəxslə ifadə olunan mübtədanın çox vaxt cümlədə özünü göstərməməsidir. Xəbərdə olan subyekt vasitəsilə iş, hərəkətin kimə aid olduğu bəlli olur*" [105, s.32]. Mübtədaya qənaət edilmiş cümlələrə nəqli, sual, əmr, nida tipli sintaktik bütövlərdə təsadüf etmək olur. Məqsəd və intonasiyaya görə cümlə tipləri "Kitabi-Dədə Qorqud" dastanlarında aktiv şəkildə işlənir. V. Zahidoğlu

dastan mətnləri əsasında cümlə tərkibində idiomatik ifadələrdən bəhs edir və alim məqalədə qənaətdən danışmasa da gətirdiyi nümunələrdən aydın görünür ki, söz birləşmələrinin çoxu qənaətə meyili bir şəkildədir [116, s.44-46].

a) Nəqli cümlələrdə qənaət. Konkretlikdən ümumiliyə doğru inkişafla əlaqədar olaraq qənaətə meyllilik nəqli cümlələrdə daha çox müşahidə olunur. Nəsr mətnlərində ixtisarlaşma bütün cümlə üzvlərini əhatə edir. Nitq prosesi nəticəsində əmələ gələn baş və ikinci dərəcəli üzvlərin ixtisar edilməsi ilə sintaktik normalar müəyyənləşir. "*Nəqli cümlələrdə müəyyən bir hadisə, əşya, əlamət və s. haqqında məlumat verilir və bu tip cümlələr təsviretmə, səciyyələndirmə, təhkiyə, nəqletmə, məlumatvermə imkanlarına malikdir. Nəsr əsərlərində digər funksional cümlə tipləri ilə müqayisədə əsas yeri nəqli cümlələr tutur*" [33, s.128] və bu tip cümlələrdə qənaət prinsipi bariz şəkildə özünü göstərir. Məs:, *Sərhədçilərin yoxluğuyla barışa bilmirdik və sərhədçi oyunu hələ də ən çox sevdiyimiz əylencə idi* [32, s.112]; *Almayla bağlı bir əhvalat yadımdan çıxmır. Sərhədçilər dəstəsi hələ köçməmişdir. Böyüklərdən eşitmişdik ki, əlisilahlı soldatın itlə keşik çəkdiyi qazma anbardı* [32, s.113] və s.

Birinci sintaktik bütövdə əvəzliklə ifadə olunan (biz), ikincisində isə *mən* və *biz* mübtədaları ağırlıq yaratmamaqdan ötrü ixtisarlaşdırılmışdır. İxtisara məruz qalmış həmin üzvlərin vəzifəsini sintaktik bütövlərdəki xəbər sonluqlardakı şəxs şəkilçiləri öz üzərinə götürmüşdür.

Nəsr mətnlərində nəqli cümlələr vasitəsilə qənaət formaları aktiv şəkildə təzahür edir. Birinci cümlədə işlənən söz və ya ifadə, daha doğrusu, müəyyən bir üzv növbəti cümlələrdə ixtisar edilir, onun mental transformasiyasını mətn vasitəsilə asanlıqla təsəvvür etmək mümkündür. Məs:, *Tərəflərin yaxınları, qohum əqrəbası gəlib məhkəmə idarəsinin qarşısını kəsirdilər. Söyüb-söylənir, bir-birinə söz atır, hətta bəzən çomaq davasına da qalxırdılar* [32,s.112].

Göründüyü kimi, birinci sintaktik bütövdə "Tərəflərin yaxınları, qohum-əqrəbası"həmcins üzvlərdən ibarət olan mübtəda ikinci cümlədə işlədilməmiş və onu öz

yerinə təsəvvürümüz vasitəsilə bərpa edə bilirik. Belə qənaət formalarına nəsr mətnlərinin demək olar ki, hər abzasında rast gəlmək olur.

Məlumdur ki, mübtəda hər üç şəxsdə əvəzliklərlə ifadə olunur. Əvəzliklərlə ifadə olunan mübtədanın əlaməti morfoloji göstərici formasında xəbərdə əks etdirildiyi üçün mübtəda iştirak etmir və ümumilik məzmunu ilə əlaqədar olaraq mübtədaya qənaət bütün hallarda özünü göstərir. Məs:, *İstəyirdim tez böyüyüm, məktəbə gedim, o oğlan kimi qalın-qalın kitablar oxuyum* [32, s.122].

Bu cümlədə mübtədaya qənaət edilmişdir və cümlə cüttərkibli cümlə modelindədir, ixtisar edilmiş mübtəda birinci şəxsin təkini bildirir. İkinci və üçüncü şəxsin təkini bildirən belə formalara mətnlərdə tez-tez rast gəlmək olur.

Nəsr mətnlərində ikinci və üçüncü şəxsin cəmini bildirən mübtədanın qənaət formalarına tez-tez təsadüf olunur və bunlar da cüttərkibli cümlə tipində özünü göstərir. Məs:, *Bilirdik ki, səs-küy salmağımıza görə bizi tənbeh edənlərə "işiniz olmasın uşaqdırlar" deyib tərəfimizi saxlayacaq. Oyun vaxtı aramızda mübahisə düşəndə və nə haqdasa bəhsə girəndə Əyyub dayının üstünə qaçırdıq* [32,s.123].

Araşdırma işinin həcmini nəzərə alaraq, əlavə şərhə və bədii əsərlərdən nümunələr verməyi lazım bilmirik.

Mətnlərin nəqli cümlələrində bəzi məqamlarda parselyatlar özünü göstərir. İ. Kazımov və Ə. Abdullayev parselyasiya hadisəsini sintaktik səviyyədə qoşulma cümlə konstruksiyaları kimi izah edirlər [137, s.19;5, s.111]. Nəqli cümlənin pozisiyasında qənaət forması özünü ikinci komponentdə təzahür etdirir, yəni əvvəlki cümlədən qopub ayrılmış hissəsində qənaətə uyğun olaraq bütün cümlə üzvləri parseliyasiya hadisəsinə məruz qala bilir. Zaman zərfliklərinin parselyasiyaya məruz qalması hallarından bəhs edən Ə. Abdullayev göstərir ki, "*Onlar mətnin əsas cümlələrindən ayrılaraq kənara çıxır, xüsusi konstruksiya yaradır. Əslində bu struktur müəyyən cümlə tiplərinə oxsşasa da, aralarında cüzi intonasiya fərqləri özünü göstərir*" [4, s.111]. Azərbaycan dilində bəzən elə qoşulma konstuksiyalara təsadüf edirik ki, onlarda həm yer, həm zaman zərfliklər aktuallaşır, güclü şəkildə remalaşır. Mətndən qopan yer və zaman zərfliklər əsas-bazis

cümlə ilə möhkəm bağlanır. Bu bağlılıq mətndə məntiqi bağlılıq kimi xarakterizə olunur. Aşağıdakı mətn, fikrimizcə, məntiqi bağlılıq nəticəsində formalaşmış, sözsüz ki, burada parselyasiyanın mühüm rolu olmuşdur, struktur-semantik bağlılıq bu cür mətnlərin əsas əlaməti sayılır, məhz bağlılıq əsasında cümlələrin sadə ardıcıllığı mətnə çevrilir. Məs:, *Onu ilk dəfə fədai paltarında görmüşəm. Təbrizdə. Bir bahar* [4,111]. Nümunədən də göründüyü kimi, qənaətə uyğun olaraq əsas cümlədən parselyasiyaya uğramış hissələrdə [Təbrizdə. Bir bahar] "görmüşəm" xəbəri buraxılmışdır. Qoşulma konstruksiyalarda "məkan" və "zaman" konseptləri çulğalaşmış şəkildədirlər.

Nəqli cümlələrdə parselyasiya sintaktik bütövün müxtəlif mövqelərində təzahür edə bilər. Fikrimizi canlı danışıq dilindən götürülmüş bir geniş cümlə ilə daha konkret şəkildə əsaslandıra bilərik:

1) *Onlar Bakıdan Ankaraya 12 saata maşınla getdilər.*
2) *[...] Bakıdan Ankaraya 12 saata maşınla getdilər.*
3) *Bakıdan Ankaraya 12 saata [...] getdilər.*
4) *Bakıdan [...] 12 saata getdilər.*
5) *Bakıdan Ankaraya [...] getdilər.*
6) *Getdilər.*

Göründüyü kimi, geniş cümlə qənaət formalarına məruz qaldıqca universal informasiyavericilik keyfiyyətləri azalır, buna baxmayaraq hər bir cümlə özündən əvvəlki cümlə vasitəsilə abstrakt şəkildə mentallaşır, dərk edilir. Deməli, həmin cümlələrdə leksik mənanı "getdilər" sözü yerinə yetirir və bu söz informasiyanın ümumi sonudur. Bu tip nəqli cümlələr parsellərə ayrılan qoşulma konstruksiyalardır və bir növ yarımçıq cümlə modellərini də xatırladır. Bu tip modellər dünya dillərinin hamısında mövcuddur və bunlardan bəhs edən A.N. Nurmanov göstərir ki, "*Həmin vasitələr presuppozisiyanın meydana çıxmasına xəbərdarlıq edir, "siqnalçı" kimi fəaliyyət göstərir*" [143, s.14]. Nəsr mətnlərində parselyat-konstruksiyalarla formalaşdırılan qənaət şəkilləri implsit (gizli) formada deyil, eksplist, yəni ifadəsini aşkar şəkildə tapır və bu "*formalar haqqında dilçilik əsərlərində çoxlu sayda dəyərli elmi fikirlərə rast gəlmək olur*" [6, s.191; 120, s.41;

37,s.181]. Birinci sırada verdiyimiz geniş cümləni müəyyən paradiqmaları ilə də işlədə bilərik. Bu halda cümlə belə alınacaqdır: Onlar Bakıdan Ankaraya qədər olan yol məsafəsini 12 saat zaman kəsiyində maşınla qət etdilər. Belə olan halda "saata" sözündəki yönlük hal şəkilçisi "a" morfemi qanuni hal kimi düşür, onun vəzifəsini yerlik halda olan "kəsiyində" sözü öz üzərinə götürür. Burada hal paradiqması mühüm rol oynayır. Cümlədəki "getdilər" sözünün vəzifəsini "qət etdilər" paradiqması yerinə yetirir. Beləliklə, mətnin cümlələri arasında olan semantik əlaqələr, müəyyənlik və qeyri-müəyyənlik eləcə də parseyasiya-qoşulma obyekti zərurətdən doğur və müvafiq mətnlərin reallaşmasına, onların mənasının açılmasına zəmin yaradır və belə hallarda dilin qənaət prinsipi də istisna deyildir. Qənaət formaları nəqli cümlələrin əsas aspektlərindən biridir və V.A.Boqdanov göstərirdi ki, "*Bir halda ki, mətndə buraxılma predikativ vahidlərin əsas məna aspekti kimi özünü göstərir, onda onun implis əks olunmasını semantik strukturda axtarmaq lazımdır*" [124, s.90].

Nəsr mətnlərinin nəqli cümlələrində təyindən ibarət olan parselyatlarında da müəyyən cümlə üzvlərinin ixtisarı müşahidə olunur. Məs:, *Bizə məsləhət olmuşdu ki, belə hallarda sizə müraciət edək. Tanınmış bir həkim kimi* [44, s.9]. Bu cümlədə parsel hissəsi özündən əvvəlki cümlədən qoparılmışdır. Məqsədli şəkildə qoparılmış konstruksiyanı yerinə bərpa etsək, cümlə belə alınacaqdır: *Bizə məsləhət olmuşdu ki, belə hallarda tanınmış bir həkim kimi sizə müraciət edək.* Belə olan halda da cümlə tamamlıq budaq cümləsi modelinə tam uyğun gəlir.

Aşağıda verəcəyimiz mətnin qoşulma konstruksiya hissəsində həm xəbərin ellipsisi, həm də mübtədanın buraxılması özünü göstərir: *Amma başına çox bəlalar gəlib. Bir ayağını müharibədə itirib. Bir gözünü də həmçinin* [44, s.10]. Sonuncu cümlədə, yəni qoşulma konstruksiyada mübtəda və xəbəri özündən əvvəl gələn cümlələr vasitəsilə bərpa edib, qənaəti aradan qaldırmaq olar.

b) Sual cümlələrində qənaət. Nəsr mətnlərində sual cümlələri aktiv hərəkətdədir və kommunikativ prosesdə bu cümlə tiplərində qənaət formaları intensiv şəkildə özünü göstərir. "*Kommunikativ cəhətdən sual cümləsi nəqli, əmr və nida cümlələrinə qarşı*

qoyulur. Məlumatı verəndə (I şəxs) qeyri-müəyyən yarımçıq, natamam nitq şəraitində təfəkkürdəki informasiya çatışmazlığını bütöv etmək məqsədilə suala zərurət yaranır" [1, s.246]. Mətnlərdə hər hansı informasiyanın müəyyən hissəsinə aid cavab mövqeyində duran sual cümləsi məzmun və məqsədinə görə zənginliyi ilə diqqəti cəlb edir. Məs*: - Neçə yaşın var? – sürücü maraqlandı.*

— Yetmiş dörd.

— Bu yaşda arvadı neynirsən, ağsaqqal?

— Neyniyəcəm? Deyirəm, gecə üstüm açılanda, üstümü örtər [32, s.268].

Birinci dialoji nitqin cavab yerində işlənmiş cümləsində "yaşım var" ifadəsi ixtisar olunmuşdur. İkinci dialoqda isə personajın sualı cavab replikasında sualla ifadə olunur və həm sual, həm də cavab yerindəki cümlələrdə şəxs əvəzliyi ilə ifadə olunur və həm sual, həm də cavab yerindəki cümlələrdə şəxs əvəzliyi ilə ifadə olunan mübtədaya (mən, sən) qənaət olunmuşdur. Maraqlı cəhət budur ki, mübtədasına qənaət edilmiş sonuncu cümlədə, yəni "Neyniyəcəm" – cümləsində hökm ifadə olunur, ya,yox? Bu barədə dilçiliyimizdə müxtəlif fikirlər mövcuddur. R.Rüstəmov qeyd edir ki, "*Sual cümlələri hökm bildirmir. Belə olduqda sual cümlələrini cümlə hesab etməməliyik ki, bu da absurddur*" [103,4]. Bəzi araşdırmalarda bu münasibətlə geniş polemika aparılmış və göstərilmişdir ki, "*Əsil mənada sual cümlələri də hökmlə bağlıdır*" [59, s.321]. Fikrimizcə, sual cümlələrində məntiqi hökmün bu və ya digər şəkildə qurulmasında, yaxud verilməsində qənaət prinsipinin müəyyən rolu ola bilər. Çünki bədii sual cümlələrində qənaət formaları da özünü qabarıq şəkildə təzahür etdirir. "*Sual cümlələrinin bu növündə istifadə olunan fikrin varlığını, ona olan münasibətin doğruluğunu təsdiq etmək, möhkəmləndirmək, nəzərə çatdırmaq məqsədi qarşıya qoyulur*" [2, s.32]. Sual cümlələrinin replikalarında işlənən formalarında ellipsis daha çox müşahidə olunur. Tədqiqatçılar ellipsisi sintaktik səviyyədə araşdırarkən əsasən onun aşağıdakı növlərini fərqləndirirlər: 1) nitqi ellipsis; 2) qrammatik ellipsis; 3) semantik ellipsis.

Rus tədqiqatçılarından T.A.Kolsova ellipsisin iki növünü fərqləndirir: qrammatik və semantik ellipsis [134, s.102]. N.D.Arutneva isə semantik ellipsisi adət halını almış ellipsis adlandırır [121, s.26]. Belə bölgəyə O.Y.Qoyxmanın [130, s.156], N.N. Leonteyevanın da tədqiqat əsərlərində [130,s.30] rast gəlinir. E.N.Savvina ellipsisin mövcud xüsusiyyətlərini üç əsas amillə əlaqələndirir : "1) *fikri natamamlıq*; 2) *mövcud "tam konstruksiya"ya münasibətdə elliptik konstruksiyanın ikinci dərəcəli (törəmə) olması*; 3) *biri digərindən asılı olmayan dil vahidlərinin sintaqmatik asılılığı və ya passiv sintaktik vahidlərin mövcudluğu"* [141, s.5]. Ellipsislə əlaqədar yuxarıda sadalananların bəzilərini sual cümlələrinə də şamil etmək olar. Bəzi tədqiqat əsərlərində sual cümlələrində qənaət formalarından danışılarkən "*əsas diqqət sual cümlələri və onların qrammatik formalarına yönəldilir*" [148, s.71].

Qrammatika kitablarında çox vaxt qənaət prinsipindən danışarkən əksər tədqiqatçılar onu cavab cümlələrində axtarırlar. Fikrimizcə, qənaəti sual cümlələrinin özlərinin tərkibində də müəyyənləşdirmək daha effektli ola bilər. Nümunələrə nəzər salaq: *Adamların tərpənən halları olmasa da, hünərləri dillərinə yetirdi*:

— *Neçəyə deyirsən? –pirojkisatan maraqlandı.*

— *Biri on dollardan [deyirəm]. Aşağı yeri də var?*

— *Nə qaldı qulağımız eşitməsin ... İt dişi, [hara], canavar dırnağı hara, dollar hara?*

— *[Mən] nağayrım, qardaş? İndi hamı dollarla işləyir* [32, s.263].

Tərəfimizdən mötərizəyə alınmış sözlər ellipsisə məruz qaldığından lazımsuz təkrarçılığın qarşısı alınmış, süni ağırlaşma aradan götürülmüşdür.

Sual cümlələrində morfoloji səviyyədə nəsr mətnlərində şəkilçilərin ixtisarı aktiv şəkildə özünü biruzə verir. Məs:, *Burada cəhətləri, qütbləri təyin eləmək olmur, yeraltı dünya cəhətsiz [di], qütbsüzdü sanki, bilinmir Şərq hayandadı, Qərb hayanda [dı], Cənub hayandadı, Şimal hayanda [dı]* ? [32, s.301]

Burada –dı xəbər şəkilçisinin işlənməsi ilə qənaət forması 100-ün 50-yə nisbətindədir.

C) Nida cümlələrində qənaət. Nəsr mətnlərində nida cümlələri də işlək bir vəziyyətdədir və xitablarla işlənən bu tip cümlələrə daha çox rast gəlirik. "*Mətnlərdə "ey", "ay" nidalarının işlənmədiyi, söz sonuna I şəxs tək mənsubiyyət şəkilçisinin (-ım, -im, -m] əlavəsi ilə əmələ gələn xitablar çoxdur*" [80, s.66]. Ş.Orucova qeyd edir ki, "*yazılı mətnlərdə, istərsə də canlı danışıq dilində Allaha xitab geniş yer tutur*" [80,98]. Qənaətlə əlaqədar nəsr mətnlərinin nida cümlələrində yazıçının üslubu ilə əlaqədar olaraq həm *ay, ey, oy* və digər müraciət bildirən sözlər, həm də müraciət edilən şəxsdə şəkilçilər ixtisar olunur. Məs:, - *Ay tanrı [m], bağışla [məni] hüzurunda çox günah işlətmişəm*! [32, s.38]; - *Vay...! öldü!*

İkinci nümunədə "vay" nidasından sonra istifadə edilən çox nöqtə işarəsindən anlaşılır ki, personaj həmin sözdən bir dəfə deyil, bir neçə dəfə istifadə etmişdir. Qənaətə müvafiq olaraq "ölən" sözü də ellipsisə uğramışdır, onu əvvəlki cümlənin köməyi ilə bərpa etmək mümkündür. Nida cümlələrində müəyyən elementlərin ixtisarı "*həmin cümlələrdə heç bir məna dəyişikliyinə səbəb olmur*" [25, s.222].

Nida cümlələrinin bəziləri sinkretik xüsusiyyətlə malik olduqlarından onlarda xəbərin ellipsisi özünü daha çox biruzə verir. Məs:, *Xədicə əllərini dizinə vurdu: -Tövbə [edirəm], Tövbə [...]! [44, s.25]; Pərvərdigara [sənə şükür]! Nə qədər şadam!* [44, s.36]*; Şükür [olsun ki], evdə adam var*! [44, s.43].

D) Əmr cümlələrində qənaət. Azərbaycan nəsr mətnlərində elliptik - əmr cümlələrinin işləklik intensivliyi müşahidə olunur. Azərbaycan dilçiliyinin sintaksis şöbəsinə aid yazılmış əsərlərin yarımçıq cümlələrdən bəhs edən hissələrində [20, s.120; 21, s.281; 23, s.120; 70,s.16; 151, s.243], üslubiyyata, üslubi vasitə və fiqurlara, ritorikaya həsr olunmuş araşdırma işlərində [70, s.81; 127, s.105;] əmr cümlələrində ellipsisləşmə məsələlərinə toxunulmuş, hətta bunu qənaət prinsipi ilə əlaqələndirənlər də olmuşdur. Məsələn Z.İ.Budaqova bədii ədəbiyyatda elliptik-əmr cümlələrdən bəhs edərək göstərir ki, "*Müəyyən sözün buraxılması həmin cümlələrdəki fikrin yığcam şəkildə verilməsini şərtləndirir*" [21, s.281]. Ə. Abdullayev də bu tip cümlələrin yığcam və lakonik olması ilə bağlı fikirlərini söyləyərkən, şübhəsiz ki, onlardakı qənaət prinsipinə işarə etmişdir:

"*Əmrin əsas xüsusiyyəti onun qısa olması ilə bağlıdır. Ona görə də feili olmayan ayrı-ayrı sözlər, birləşmələr, hətta xəbəri olmayan azsözlü yarımçıq cümlələr, soz-cümlələr əmr cümləsi ola bilir*" [7, s.99]. Müşahidələrimiz göstərir ki, nəsr mətnlərində "Sakit!" şəklində işlənən cümlə qənaət prinsipinə uyğunlaşdırılmışdır və bu cümlədə qənaəti aradan qaldırsaq, belə alınar: Siz sakit olun! Deməli, qənaət prinsipi ilə verilmiş əmr cümləsində eyni vaxtda həm mübtəda, həm də xəbər buraxılmışdır. Eyni fikri "Farağat! [farağat olun mənasında], Azad! [siz azad olun mənasında], "İrəli!" [siz irəli gedin mənasında], "Arxamca!" [siz arxamca gəlin mənasında] və s. elliptik-əmr cümlələrinə də şamil etmək olar.

Nəsr mətnlərinin həm dialoji, həm də monoloji nitq aktlarında elliptik-əmr cümləsinin epiforik [cümlə sonu mövqedə- K.H] mövqedə qənaətinə daha çox rast gəlinir. Qənaət formalı bu cür "... *konstruksiyalar mətnin informasiya strukturunda son dərəcə məhsuldardır*" [35, s.121] Bu tip cümlələrdə "olsun" xəbəri ellipsisə uğrayır: Məsələn, Mirzə Cəlilin "Təsvir ustadları" felyetonu başdan-ayağa həm dialoji nitq aktlarında, həm yazıçının təhkiyə dilində qənaətə uyğun olaraq xəbərin ellipsisləşməsi ilə müşayiət olunur. Dialoji nitq aktında ellipsisləşməyə baxaq:

— *Ağa, mərhəmətiniz artıq.*

— *Ağa, lütfünüz artıq*.

Küçədə divar dibində bir övrət oturub acından ağlayır.

— *Ağa, mərhəmətiniz artıq.*

— *Ağa lütfünüz artıq* [85, s.39].

Dialoji nitqdə "olsun" xəbərinin ellipsisi abstrakt şəkildə sözsüz ki, təsəvvür edilir və bir xeyli bu nitq aktı yazıçı tərəfindən davam etdirilir, sonra felyetonun ümumiləşdirmə, yəni söz sənətkarının təhkiyə nitqində də həmin ellipsləşdirmə formaları saxlanılır: *Şəhərin bu tərəfindən o tərəfinə gedənə kimi küçələrdə minlərcə ağlayan övrət-uşaq və şikəst dilənçi düzülüb və küçələrdən keçən ağalardan biri o birinə deyir: "mərhəmətiniz artıq", o da belə deyir: "lütfünüz artıq"; bu deyir : "lütfünüz artıq". Aman həmin mərhəmət mədənində və lütf zavodunda evlərdə gecələr sübhədək soyuqdan*

və acından ağlayan uşaq, şikəst və sahibsiz övrət o qədərdir ki, cəmi yer üzünün tayfalarını buraya tamaşaya yığsaq,mat və heyran qalarlar [85, s.39-40].

Bu mətndə "xəbərin" ["olsun" xəbərinin] ellipsisə uğraması cümlənin strukturunun məntiqi mühakimənin quruluşu ilə tam uyğunluq təşkil edir. Cümlə strukturunun məntiqi mühakimənin strukturu ilə uyğunluğunu və ya qeyri-uyğunluğunu yarımçıqlığın müəyyənləşdirilməsi ilə aşkara çıxarmaq mümkündür. "*Ümumiləşdirmə nəticəsində qısa, lakonik strukturların yaranması dildə qənaət prinsipindən irəli gəlir*" [19, s.12]. Nəsr mətnlərində elliptik-əmr cümlələri müxtəlif kommunikativ aspektlərdə təzahür edir. Belə ki, ekspessiv-emosional səciyyəli nitqdə elliptik-əmr cümlələri qəti əmr, xahiş, yalvarış, tələb, təkid, məsləhət, müraciət, çağırış, təəccüb, təəssüf kimi mənaları ifadə edir. Bu tip əmr cümlələrdə xəbər ellipsisə uğrayır. Məs:,*Üzünə bir yumruq! [vurun] [32, s.38]; Mənim sözüm qətidir, Kərim! –Onda onu meşəlikdə ! [öldürün] [32, s.10]; - Tez olun sarıyın ağaca, belinə əlli zopa [vurun]* [32, s.201].

Bu bədii nümunələrdə mötərizəyə alınmış sözlər feilin qəti əmr və təkid çalarını ifadə edərək qənaət prinsipinə müvafiq tərzdə verilmişdir.

Nəsr mətnlərində ekspessiv-emosional nitqdə elliptik-əmr cümlələrinin bir qismi dildə sabit işlənən ifadələdən ibarətdir və bu tip cümlələrdə də qənaət halları mətnlərin xəbər zonasında özünü göstərir. Məs:, R*əna qəzəblə qışqırdı: — İtil gözlərimdən* [32, s.108]; - *Muştuluq! Axşam can verən itin dirilib* [32, s.203] və s. Z.Budaqova "İtil", "Muştuluq" və s. kimi əmr cümlələrinin dilimizdə daşlaşdığını qeyd edir [21, s.93]. T.Əfəndiyeva bu tip cümlələr haqqında yazır: "*Bu tip cümlələrin bir hissəsi, həqiqətən nitqdə uzun müddət işlənərək, sabit formaya çevrilmişdir. Bu tərkiblər daha çox danışıq dilinə xasdır*" [31, s.82]. Elliptik cümlələrin bu tipini sabit frazeoloji birləşmələr kimi səciyyələndirmək daha düzgündür, fikrimizcə, bu cümlələr genetik planda elliptik olsalar da, onlar tamamilə bütöv cümlələr kimi nəzərdən keçirilməlidir. M.Yusifov belə formaları "sinkretik cümlələr" adlandıraraq, onları tək komponentli [sabahın xeyir, yaxşı yol] və ikikomponentli [Biri var idi, biri yox idi] olmaq üzrə iki qrupa ayırmış və qeyd etmişdir ki, "*təkkomponentli sinkretik cümlələr sadə, ikikomponentlilər isə mürəkkəb*

konstruksiyalardan əmələ gəlmişdir” [152, s.15]. Nəsr mətnlərində əksər məqamlarda elliptik-əmr cümlələri yüksək intonasiya ilə tələffüz olunur və belə tələffüz kontekstual şəraitlə bağlı olaraq müəyyənləşdirilir. Aşağıda verəcəyimiz nitq aktında “gəlin xəbəri ixtisar edilməklə sintaktik vahid zərfliklə ifadə olunan söz-cümlə strukturunda özünü göstərir. Məs:, *Gözü yolda qalmışdı. Pristav çevik bir hərəkətlə atlanıb təzə təşkil olunmuş mühafizə dəstəsinin üzvlərinə göstəriş verdi:*

— *Arxamca!* [30, s.162].

Aşağıdakı nümunədə də “gedin” xəbərinin ellipsisi aydın şəkildə özünü təzahür etdirir: *Qəza rəisi özündən çıxır:*

—*Bəs at, bəs mənim tüfəngim, çort poberi! Tez olun, atlanın onun dalınca!* Dialoji nitqin birinci komponentində sual məzmunu qabarıqdır və burada da “necə olsun” ifadəsi ellipsisə uğramışdır.

Qənaətlə verilmiş elliptik-əmr cümlələri bədii dildə bütöv, yəni qənaət edilməmiş cümlələrlə müqayisədə daha çox üslubi kəsər kəsb edir. Məs:, — *Zati- aliləri qulaq verirsənmi? Qoşun sizin əmrinizi gözləyir. İndi hara gedəcəyik?*

—*Bir baş Tiflisə*! ... [30, s.179]. Cümlənin ümumi strukturundan dərhal sezilir ki, sintaktik vahid əmr məzmununun təkid çaları ilə müşaiyət olunur, cavab cümləsində “getməlisiniz” xəbərinə qənaət olunmuşdur.

İnsan təsəvvürü ilə ellipsisləşmə arasında güclü və qırılmaz vəhdət mövcuddur. K.Abdullayevin nəzərincə, “*Təsəvvür ellipsis üçün müəyyən başlanğıc təşkil edən məqam kimi özünü göstərir. Bizə elə gəlir ki, məhz ellipsisin təsəvvürlə əlaqəsi ellipsisləşməni, bütövlükdə, dinamik səciyyəni şərtləndirir. Başqa sözlə desək, bu halda ellipsisin və təsəvvürün cümlə quruluşundan bizə məlum olan müstəqilliyini göstərir*” [10, s.93]. Nəsr dilində elliptik-əmr cümlələrində buraxılan hər hansı üzv təsəvvürümüzdə mexaniki və yaxud inistikt şəkildə öz yerinə bərpa edilə bilir. Məs:, *Binnət kişi bir an fikrə getdi: — Sabaha kimi mənə möhlət! – dedi* [30, s.244]. Cümlədə “verin” xəbəri avtomatik şəkildə təsəvvürümüzdə canlanır.

Məlumdur ki, əmr cümlələri hər üç şəxsə aid ola bilir, ancaq daha çox II şəxsə müraciət olunur və onu görə də bu tip cümlələrin xəbəri çox vaxt II şəxsə yönəldilir ki, şəxs göstəriciləri burada maddi söz cildində çıxış etmir və onlar şəxs şəkilçilərinin iştirakı ilə ifadə olunur. Məs:, — *Ay Kərim, qov onu! [Sən] [32, s.38]; — Çalışın [siz], adınıza söz çıxmasın! [32, s.101]; Çalışsınlar [onlar]odunları tez dağıtsınlar*! [32, s.106] və s.

Cümlələrdə mötərizəyə alınmış əvəzliklər tərəfimizdən bərpa edilmiş və göründüyü kimi, ellipsisə uğramış, qənaətə uyğun olaraq onların işlədilməsinə ehtiyac olmamışdır. Ellipsis hər hansı bir komponentdə bu və ya başqa vahidin formal şəkildə iştirak etməsindən yaranır. Ellipsislik ideyası, əslində sintaktik vahidin dəyərə malik yoxluğunun üzərində qurulur. Məhz belə bir yoxluq ellipsisli komponentləri, başqa sözlə desək, sıfır üzvlü komponenti başqa komponentlərə daha çox şəkildə bağlayır. Doğrudan da, yuxarıda verdiyimiz nümunələrdə komponentləri bir-birinə maddi cilddəki şəxsə aid sözlər deyil, onlara məxsus morfoloji göstəricilər bağlamışdır.

Nəsr mətnlərinin əmr cümlələrində qənaətin ən mühüm vasitəsi supperasiyadır və suppreasiya dildə təkcə, əmr cümlələrini əhatə etmir, o, ellipsisə uğramış bütün cümlə tiplərində özünü göstərir. O, Espersen qeyd edir ki, "*Suppesiya – məlumatı ötürən hər hansı dil elementini ifadə etməyə qadir, amma ifadə etmədiyi haldır*" [132, s.359]. İ.F.Vardul göstərir ki, "*Dil vahidini ellipsisə uğratmaq, bu onu sadəcə olaraq işlətməmək deyil, onu işlətməklə onun məzmununu suppresiya vasitəsilə ifadə etmək deməkdir*" [126, s.303]. A.Abdullayev ellipsisləşmə prosesində mətndə buraxılmış üzvləri "dəyərə malik yoxluq" [118, s.306] kimi səciyyələndirir və nəsr mətnlərinin əmr cümlələrində də "dəyərə malik yoxluq" şəxs əvəzliklərində xüsusən də ikinci şəxsin tək və cəmində daha çox özünü göstərir. Məs:, — *Cəld ayağa qalx, dərə aşağı qaç, özünü evə yetir, tufəng və patrondaşı götürüb qayıt* [32, s.108].

Tabesiz mürəkkəb strukturundan olan bu cümlələrdə 4 yerdə ikinci şəxsin təkindəki "sən" əvəzliyi ixtisar edilmişdir, əgər həmin əvəzlik cümlələrdə təkrar işlədilsəydi, cümlədə lazımsız təkrarçılıq baş verər və o həddən artıq ağırlaşardı. Deməli

informasiyanı ötürənin “sən” əvəzliyini ifadə etməyə qadir olduğu halda, onu ifadə etməməsi halı qənaət prinsipi üçün ən dəyərli implist əlamətdir.

Nəsr mətnlərində lakoniklik, yığcamlıq elliptik-əmr cümlələrinə xas olan bir məziyyətdir, qısa ifadə biçimlərinə uyğun gələn əvəzliklə ifadə edilən mübtədanın, feillə ifadə edilən xəbərin ixtisarına, buraxılmasına baxmayaraq bu nitq vahidləri – cümlə üzvləri eyni vəhdətdə dərk olunur, mübtəda xəbəri və yaxud əksinə onlar bir-birini tamamlayır və bunlar qənaətli deyim tərzindən başlanğıc götürür. Məs:, *Kərəm, Quşqonmaz dağına üzüyuxarı hərəkət, hərəkət! — deyə qışqırdı. Atışma başladı, Kərəm bu dəfə səsinin tonunu yavaşıtdı: — Qalxın, qalxın, sürətlə qalxın! Dağa-dərəyə səs düşdü. Elə bil göy guruldayır, ildırım çaxırdı* [30, s.266].

Burda mikromətnin birinci komponentində “hərəkət” sözündən əvvəl “siz şəxs əvəzliyi, sonra isə əmr məzmununu qətiləşdirən “edin” xəbəri buraxılmışdır. İkinci mətnin məzmunundan aydın görünür ki, Kərəm “dağa qalxmağı” təkid edir, deməli cümlədə “Siz dağa” komponenti üsluba uyğun olaraq ixtisar edilmişdir və bir daha da qeyd etməliyik ki, bunlar təsəvvürümüzdə mexaniki canlana bilir.

Nəsr mətnlərinin nəqli, sual, nida, əmr cümlələrində qənaət bədii-üslubi xüsusiyyətlidir. Yazıçının hissi mənbəyinin fəallığında bu tip cümlələr də mühüm yerlərdən birini tutaraq onların formal-semantik qənaətli ifadəsinə şərait yaradır. Mətnin təşkilində, cümlə düzümündə qənaət prinsipinə meylilik zahiri struktur cizgiləri ilə bərabər, ümumi mətni fikri-emosional cəhətdən zənginləşdirmə və bədii mənalandırma vasitəsidir. Buna görə də qənaət prinsipi tətbiq edilmiş məqsəd və intonasiyaya görə cümlə növlərinin məna çalarlarına, üslubi fəallığına görə olduqca tutumludur, oxucunun qavrama fəaliyyətinə olduqca müsbət təsir göstərən linqvistik faktorlardandır.

3.2. ***Ümumi şəxsli və şəxssiz cümlələrdə qənaətə uyğun struktur-semantik sıxılma***

Nəsr mətnlərində ümumi şəxsli cümlələr aktiv fəaliyyətdə olan təktərkibli cümlə konstruksiyalarından biridir və həmin konstruksiyalarda linqvistik qənaət cəhətdən

müəyyən xarakterik xüsusiyyətlər özünü göstərir. Belə ki, nəsr mətnlərində ümumi şəxsli cümlələrin bir qisminin xəbəri feilin əmr formasının birinci şəxsinin təkində, ikinci şəxsin təkində olan cümlələrdə əvəzliklərlə ifadə olunan mübtədalara qənaət olunur və bunlar əsasən atalar sözləri, məsəlləri, aforizmləri, məsləhət, nəsihət xarakterli cümlələri əhatə edir. Nəsr mətnlərində xəbəri ikinci şəxsin təkində olan ümumi şəxsli cümlələr öz formasına görə mübtədası qənaət məqsədilə buraxılmış cüttərkibli cümlələrə oxşayır. Hansı sintaktik konstruksiyalara, yəni cümlələrə şəxs əvəzliyi ilə ifadə olunan mübtədanı artırmaq olmadıqda, deməli, onlar ümumi şəxsli cümlələr modelindədir. Qeyd etməliyik ki, xəbəri üçüncü şəxsin cəmində olan ümumi şəxsli cümlələr ilə qeyri-müəyyən şəxsli cümlələr arasında da formal baxımdan müəyyən oxşarlıqlar müşahidə olunur. Bu tip cümlələrdə əsas oxşarlıq onlarda, yəni cümlənin xəbəri üçüncü şəxsin cəmində olmasıdır. Qeyri-müəyyən şəxsli cümlələrdə adından da göründüyü kimi şəxslər qeyri-müəyyəndir. Ümumi şəxsli cümlələr isə hamıya hər yerdə, həmişə aid olan işi bildirir. Ümumi şəxsli cümlələrin çox hissəsi atalar sözləri və məsəlləri əhatə edir "*Mənsub olduğu xalqın inkişafı ilə bağlı xalqın yaratdığı atalar sözləri də zaman-zaman dəyişilir, mükəmməlləşir, yaddaşlarda möhkəm kök salır*" [34, s.136]. "*Obyektiv reallıq çoxşaxəli olduğu üçün*" [1, s.246] onun dərki də ümumi şəxsli cümlələr şəklində də təzahür edir və bu təzahüretmədə qənaət formaları da özünü bariz şəkildə göstərir. Ümumi şəxsli cümlələr ta qədimdən dilimizdə işlənməkdədir və onların formalaşmasında situasiya, psixoloji durum, yazıçının intellektual səviyyəsi aparıcı amillərdəndir. Belə vəziyyətdə, yəni bu zaman nitqdə öz əksini tapmayan sözün və ya ifadənin məna yükünü mətn daşıyır. Bu tip cümlələr "Kitabi-Dədə-Qorqud"un dilində də təzahür edir. Məs:, *Ana həqqi – tənri həqqi [dir] [78, s.47]; Bəg nökərdən [ayrıldı], nökər bəgdən ayrıldı* [78, s.50] və s.

Nəsr mətnlərində qənaət prinsipi "*...özünü nəinki üslubi cəhətdən cümlənin lazımlı vasitəsi kimi göstərir, eyni zamanda daha tam kommunikativliyə, daha tam informativliyə xidmət göstrən amil kimi də çıxış edir*" [3, s.99].

Qeyd etdiyimiz kimi, nəsr mətnlərində təsviri elastikliyə xidmət edən sintaktik konstruksiyalardan biri kimi ümumi şəxsli cümlələr və təktərkibli cümlənin bu növü

əksərən atalar sözləri və məsəllərstrukturunda olur. Ta qədim dövrlərdən üzü bəri folklor yaradıcıları müdrik kəlamları da yığcam, lakonik formalarda söyləmiş, az sözlə aydın, dolğun və təsirli örnəklər yaratmağa nail olmuşlar və belə atalar sözləri, məsəllərin bəziləri qənaətə meylliklə əlaqədar olaraq sanki yarımçıq cümlə kimi sabitləşmişdir. Ancaq bu tipli yarımçıq cümlələr adi yarımçıq cümlələrdən keyfiyyətcə fərqlənir. Bəzi hallarda frazeoloji vahidin daxlindəki ahəngdarlıq, vəzn, qafiyə, bədii ümumiləşdirmə və obrazlılıq təkrar olunan xəbərin, yaxud xəbər şəkilçisinin düşməsinə səbəb olur və burada ifadə edilən fikir yığcam, aydın və təsirli verilir. Qənaət prinsipi əsasında formalaşmış və təşəkkül tapmış atalar sözləri və məsəllərdən ibarət olan ümumi şəxsli cümlələr nəsr mətnlərinin semantik cəhətləri ilə bilavasitə bağlı və asılı olur. Məs:, *Sual İmdada çox qəribə və gülməli göründü:*

— *Səbəbi aydındır. Bizlərdə deyərlər**:** düşmən səni daşla, sən düşməni aşla... [113, s.101];...Muxtar arada söz gəzdirir, birinin üstünə beşini qoyub, bundan ona, ondan buna deyərdi. Atalar sözüdür: qazan altdan köz, adam altdan söz....dostlar bir-birinin kölgəsini qılınclamaq dərəcəsinə gəlirdilər* [113, s.203].

Hər iki sintaktik bütövün strukturundan aydın şəkildə görürük ki, birincisində "qarşıla" xəbəri, ikincisində isə sözlərin sonunda "dır" morfoloji göstəricisinə qənaət edilmişdir. Bunun da əsas səbəbi atalar sözlərinin hər iki komponentində həmin söz və şəkilçinin təkrar işlənməsinin qarşısını almaqdan ibarətdir. Həmin sintaktik bütövlərin ümumi məzmunundan onu da görürük ki, hər iki folklor materialı öz mahiyyəti etibarı ilə geniş semantik çalarlar ifadə edir.

Nəsr mətnlərində atalar sözü və məsəllər demək olar ki, əksər məqamlarda məzmunca təhkiyəçinin nitqi ilə semantik baxımdan sıx bağlılıq təşkil edir, yəni yazıçının bədii məqsədindən asılı olaraq onların tərkibindəki müəyyən sözlər ixtisar edilsə də, bədii fikir hökm şəklində ifadə olunur. Məs:, *Bəlkə gəlib ki, gic, dəli çekmitaya qızına baş çəkməyə? – Ziyarət....ticarət məsələsi* [75, s.99].

Sual cümləsindən sonrakı hissədə işlədilən sözlərdən dərhal sezilir ki, yazıçı bədii fikrini "*Həm ziyarət, həm ticarət*" məsəli vasitəsilə hökmləşdirmiş və məqsədli şəkildə

kəlamın hər iki komponentində "*həm*" bağlayıcısını atmış, qənaət hadisəsini formalaşdırmışdır. Buna baxmayaraq diqqətli oxucu məsəlin funksional strukturunu və onun elementlərini müəyyənləşdirməkdə, onları şüuraltı şəkildə yerinə bərpa etməkdə bir o qədər də çətinlik çəkmir. Nəsr dilində istər bütöv şəkildə, istərsə də ixtisara uğradılmış atalar sözlər və məsəllərdə "*....fikir hökm imperativ şəklində ifadə olunur*" [104, s.181], yəni yuxarıdakı cümlənin tərkibində işlədilən məsəlin funksional strukturu bütün elementləri ilə hökmləşdirməyə, hökm şəklində ifadə olunan universallaşdırmaya xidmət edir.

Dilimizin frazeologiyasının zənginləşməsində bir qisim atalar sözləri və məsəllər xüsusi rola malikdir və "*.....dilimizin atalar sözü və məsəllərinin az bir qismi müəllifin nitqinin tam tərkib hissəsi kimi çıxış edir. Bu əlamətə malik olanlar artıq dilin frazeoloji sisteminə daxil olub, onun zənginləşməsi mənbələrindən birinə çevrilmişdir"*[16, s.40]. Dilimizin qanunauyğun halı kimi belə atalar sözləri və məsəllərin strukturunda qənaət prinsipinə uyğun olaraq müəyyən dəyişikliklər baş vermiş, həmin deyimlərin tərkibindəki müəyyən sözlər atılaraq frazeoloji vahidlər kimi formalaşdırılmışdır. Məsələn, "*Tülkü tülkülüyünü sübut edincə dərisini boğazından çıxararlar*" [89, s.17] atalar sözü 7 leksik vahiddən ibarət bir müdrik kəlamdır və bu deyimdən müəyyən sözlər atılaraq 3 sözdən ibarət frazeoloji vahid "dərisini boğazından çıxarmaq" ifadəsi yaradılmışdır. Bədii mətndən kənarda da "Tülkü tülkülüyünü sübut edincə dərisini boğazından çıxararlar"- atalar sözü məzmun və struktur baxımdan bitkin şəkildədir, yəni buradakı poetik imperativ –hökm həm məzmun, həm də onun ifadə, semantik planı baxımından da bütövdür. Bu deyim əsasında yaranmış "dərisini boğazından çıxarmaq"- frazeoloji vahidi üçün isə mütləq bədii kontekst lazımdır. Məs:, -*Mənim adıma Qara Nəbi ilə topladığım şeylər haradadır? Deməsən, dərini boğazından çıxaracağam!* [88, s.41]. Cümlənin tərkibində işlədilmiş "dərisini boğazından çıxarmaq" frazeoloji vahidindən dərhal sezilir ki, bədii ifadə "ultimatum məzmununa malik olub" [39, s.12], xəbərdaredici səciyyə kəsb edir.

Dilimizdə *"Namərdin çörəyi dizinin üstündə olar"* [89, s.15] atalar sözündən çörəyi dizinin üstündə olmaq, "*Sözü bütövdür, özü yarımçıq*" atalar sözündən *sözü bütöv*, "*Üz vermə astar da istər*" atalar sözündən [89, s.73] üz vermək*, "Aşı bişirən yağdır, gəlinin üzü ağdır" [89, s.75] atalar sözündən üzü ağ olmaq, "Qaz vur qazan dolsun, sərçədən nə çıxar"[89, s.83] atalar sözündən "qaz vur qazan dolsun", "Hesabı doğru olanın alnı açıq olar" [89, s.66] atalar sözündən alnı açıq olmaq,* "*Kasıbın gözü tox olar*" [89,s.90] atalar sözündən *gözü tox olmaq* frazeoloji vahidi yaranmışdır ki, bunlardakı ixtisarlar qənaət hadisəsinə uyğun şəkildə baş vermişdir.

Atalar sözləri və məsəllər əsasında yaranmış frazeoloji vahidlərin şübhəsiz ki, müəyyən əməliyyatlara məruz qaldıqdan sonra bədii mətnə gətirilməsi fikrin obrazlı şəkildə verilməsinə güclü təsir göstərir və bunlardan əlavə min illərin sınağından çıxmış bəzi atalar sözü və məsəllər də folklorumuzda mövcuddur ki, bu müdrik kəlamlar yarandığı dövrdən onların tərkibində təkrara yol verməmək üçün ixtisarlar edilmiş, həmin ifadələrə qənaət qanunu tətbiq olunmuşdur. Məs:, *O, qəzəbli bir tərzdə* dedi: *– İlanın ağına da lənət, qarasına da [75, s.108]; Gecə yarısına qədər davam edən söhbətə o, yekun vurdu:-Söz sözü gətirər, arşın bezi-deyib ayağa qalxmağı təklif etdi [75, s.201]; Anlayana da can qurban, anlamayana da, dad yarımçıq əlindən [89, s.35].*

Birinci nümunədəki atalar sözünün ikinci komponentində "lənət" sözü, ikincisində "gətirər" feili, üçüncüsündə isə "can qurban" ifadəsi buraxılmışdır ki, oxucu şüur altı şəkildə onları asanlıqla öz yerlərinə bərpa edə bilir. Ünsiyyət zamanı bunlar tam şəkildə işləndiyi kimi, birincisinin "ağına, qarasına lənət", ikincisinin "dad yarımçıq əlindən", üçüncüsünün "söz sözü gətirər" qənaət edilmiş formalarından da eyni mənada istifadə edilir. Lakin belə səciyyə daşıyanlar şəxsə görə dəyişdirilmədiyindən və bununla bağlı olaraq məna və ya məzmunca frazeoloji vahidə məxsus keyfiyyətə malik olmadıqlarından, yəni bilavasitə fikrin tərkib hissəsinə çevrilmədiyindən atalar sözü və ya məsəlin ixtisarı kimi qalır. Nəsr mətnlərində söz sənətkarlarının istifadə etdiyi atalar sözləri və məsəllərin əksəriyyəti ümumi şəxsli sadə cümlə strukturundadır. Araşdırmalarımız göstərir ki, bunların həqiqi mənaya malik olanlarının bəzisi məcazi mənada işlədilməklə və strukturca

da dəyişikliyə uğradılmaqla frazeoloji vahidə çevrilmişdir. Məsələn, "*İsti aşa soyuq su qatmazlar*" atalar sözünü götürək. Bu müdrik kəlamın həqiqi mənası elə isti aşa soyuq su qatmamağın təbliğindən ibarətdir, çünki isti aşa soyuq su qatanda onun keyfiyyəti müəyyən dərəcədə aşağı düşür. Buna görə də lazım gəldikdə isti aşa isti su qatmaq [tökmək] məsləhət görülür. Lakin dilimizdə bu ifadə öz həqiqi mənası ilə yanaşı, məcazi mənada da işlədilir. Bunun məcazi mənası müəyyən bir işin görülməsi haqqında qabaqcadan razılaşdırılmış məsələyə sonradan hər hansı bir şəxsin müdaxilə edərək bu razılığın pozulmasına səbəb olmamaq fikrini təbliğ etməkdir. Belə bir məzmun ifadə etmək üçün həmin folklor örnəyində quruluşca müəyyən dəyişiklik edilir: "*İfadə olunan fikrin məzmunu ilə əlaqədar buna hər üç şəxsdən [isim və ya şəxs əvəzliyindən] ibarət olan konkret bir mübtəda verilir. Beləliklə, quruluşca ümumi şəxsli cümlə məcazi məna kəsb etməklə yanaşı, müəyyən şəxsli cümləyə çevrilir*. Məs:, - *Sən mənim isti aşına soyuq su qatma cümləsində olduğu kimi*" [16, s.42].

Nəsr dilində atalar sözləri və məsəllər qəlibləşmiş dil materialı kimi əksər məqamlarda aktuallaşdırılır, onlar üzərində tətbiq edilən qənaətdən sonra ciddi yaradıcılıq aktı kəsb edir və önəmli struktur-semantik imkanlar qazanır. Məsələn, xalq arasında "*Yetmişində öyrənən gorunda çalar*" – atalar sözündən tez-tez istifadə olunur. Bəzən yazıçı personajın psixoloji durumu ilə əlaqədar olaraq həmin atalar sözünün ikinci komponentinə məqsədli şəkildə qənaət edir, yəni "....gorunda çalar" hissəsini buraxır: - *Nədi mənası. Deyir yetmişində öyrənən... Mən də ömrümün bu axır çağında öyrənim ki, bəlkə inkir-minkirə bir cavab verə bildim. [77, s.323].*

Göründüyü kimi, həmin atalar sözü yarımçıq şəkildə olsa da, sintaktik bütövün struktur-semantikasına bədiilik aktı kimi uyğunlaşdırılmış, qənaət təbəddülatından sonra xüsusi dinamizm kəsb etmiş, təravətli cazibədarlıq qazanmışdır.

Bədii mühitdə atalar sözləri və məsəllərə müdaxilə etmək, onun strukturunu dəyişdirmək, qənaət prinsipinə uyğunlaşdırmaq söz sənətkarının birbaşa səlahiyyətində, ixtiyarında olan bir məsələdir və belə olan halda ya sabitləşmiş ifadələrin hissələrinə qənaət etməklə, başqa sözlə, "özününküləşdirməklə" onlara yeni üslubi məna rəngləri

əlavə etmiş olur. Məs:, - *Səfehləmə, Nəcəf, sən də eşşəyə gücün çatmır... Hünərin varsa, andraniklərə, onun yolunu tutan əclaf erməni daşnaklarına özünü göstər* [61, s.91]; *Nə var? – Necə deyərlər, adını sənə qoyum, səni yana-yana* [61, s.29].

Burada ikinci komponentdə "palanını toqqaşlamaq", ikincisində "qoyum" sintaktik konstruksiyaları buraxılsa da, bu atalar sözünün bədii semantikasına təsir göstərə bilməmiş, belə olan halda da atalar sözü kontekstdə üslubi münasibəti aşkarlayır, bədii mühitdə bitkin ifadə, məzmun təsiri bağışlayır.

Xalq arasında yaxşının yaxşı, pisin pis ilə ölçülməsi, həm yaxşının, həm də pisin nəzərdə tutulması məqamında "*Qoyunu qoyun ayağından, keçini keçi*" tipli məsələ müraciət olunur və ilk baxışda adi görünən bu məsəldə dərin ictimai məzmun izlənilir, müxtəlif ictimai təbəqələr, eyni və ya müxtəlif dünyagörüşlü insanların münasibətləri nəzərdə tutulur. Məsələn, strukturundan aydın şəkildə görünür ki, həmin məsəli yaradan ulu balalarımız məsəlin hər iki komponentində qənaət prinsipinə doğru-düzgün əməl etmiş, birinci komponentdə "asarlar" feilini, ikinci komponentdə isə "ayağından asmaq" feili birləşməsi ellipsisə uğratmışlar və həmin məsəlin sözügedən formasına nəşr mətnlərində də rast gəlinir. Məs:, *Köhnə Həsənlinin başına gələnlərdən söhbət düşəndə kəndimizin bəzi ağsaqqalları ayrı cür hava çalırdılar. Deyirdilər, qoyunu qoyun ayağından asarlar, Keçini keçi* [61, s.25].

Yaxşı tərbiyəni uşaqlara aşılamaq üçün işlənən "*Uşağı bələkdə, küçüyü dəməkdə*" atalar sözü bir didaktik süjeti əhatə edir. Ümumi hökmlər şəklində – xəbərdarlıq tipində olan bu atalar sözünün hər iki tərəfində qənaət hadisəsi müşahidə olunur. Belə ki, deyimin birinci tərəfində "gərək" ədatı, ikinci komponentində isə "öyrədəsən" feili buraxılmışdır. Şüuraltı səviyyədə və yaxud zehni fəaliyyət nəticəsində bu deyimdə mexaniki olaraq qənaətin təzahürü aradan qaldırılaraq həmin buraxılmış elementlər yerlərinə bərpa oluna bilir. Məs:, -*Yox, İsfəndiyar, səhvin var, -dedi. – Ağacın əyrisini siv vaxtı düzəltmədin, yoğunlayandan sonra ha çalışsan xeyri yoxdur. Gərək uşağı bələkdə, küçüyü dəməkdə öyrədəsən...* [61, s. 33-34].

Atalar sözləri və məsəllərin nəsr dilinə sirayət etməsi və onun estetik məziyyətlərlə zənginləşdirməsi olduqca maraqlı prosesdir və onun söz sənətkarı tərəfindən məqsədli şəkildə dəyişikliklərə uğradaraq, qənaət prinsipinə uyğunlaşdırılması cəhətlərinin şərhi prosesin mühüm qanunauyğunluqlarına aydınlıq gətirilməsi baxımından olduqca əhəmiyyətlidir. Qənaət prinsipi fərdi səciyyəli olduğundan hər bir yazıçının yaradıcılıq üslubunda spesifik cəhətlərlə təzahür edir. Məsələn, folklor kitablarında didaktik səciyyə kəsb edən "*Yetimə can-can deyən çox olar, çörək verən az*". Bəzi nəsr mətnlərində bu deyimin ikinci komponenti qənaətlə əlaqədar olaraq tam şəkildə buraxılır:

— *Eh mənim balaca dostum, eşit, agah ol ki, yetimə can-can deyən çox olar...* [61, s.55]. Aşağıdakı aforizm səviyyəli deyimdə də həm ikinci komponentdəki feil, həm də şəxs əvəzliyinə [mənim] qənaət olunmuşdur: *Əkinçilər həmişə deyir ki, qarlı qışım ola, dumanlı yazım* [61, s.67].

Atalar sözləri və məsəllərin böyük bir qismi III şəxsin cəmində olanlar və belə formalar ümumi şəxsli cümlələrin xəbəri üçün olduqca əlverişlidir. Bu formada olan deyimlərdə də qənaət hadisəsinin təzahür halları geniş şəkildə müşahidə edilir. Məs:, *Hamısı tənbəl-tünbəl şeydir. Nə ölüyə hay verəndilər, nə diriyə pay* [61, s.81].

Burada işlədilən atalar sözünün əvvəlinə III şəxsin cəmini bildirən "onlar" əvəzliyini artırmaq olar. Deyimin ikinci komponentinin sonuna isə "verəndilər" xəbərini əlavə etmək olar. Qənaət prisipini aradan qaldıranda da deyim ümumi şəxsli cümlə formasında qalır və onun strukturunda müəyyən dəyişiklik baş versə də, semantikasında heç bir dəyişiklik baş vermir. Ümumi şəxsli cümlələrlə qeyri-müəyyən şəxsli cümlələri dəqiq meyarlarla fərqləndirən Q.Kazımov doğru olaraq göstərir ki, "*Xəbəri III şəxsin cəmində olan ümumi şəxsli cümlələr quruluş və semantik xüsusiyyətlərinə görə qeyri-müəyyən şəxsli cümlələrə yaxın olsa da, məna həcminə görə onlardan fərqlənir*" [72, s.203]. Ümumi şəxsli cümlələrin bu növünü [xəbəri III şəxsin cəmində olanları] qeyri-müəyyən şəxsli cümlələrdən fərqləndirmək üçün onların məna həcminə - işin, hərəkətin ümumi, hamıya aid olduğuna, yaxud bir və ya bir qrup şəxsi əhatə etdiyinə diqqət yetirmək lazımdır: Məsələn: *Qoy sizi irəli çəkib direktor qoysunlar* – cümləsi qeyri-

müəyyən şəxslidir: buradakı iş [birisini direktor vəzifəsinə qoymaq işi] bir və ya bir qrup adama aid ola bilər. Ürək ağrısını ovmazlar- cümləsi hamıya aid olan işi bildirir – ümumi şəxslidir. Eləcə də *Sən boyda məsul işçini heç zaddan vəzifədən götürməzlər. Qaranlıq yerə daş atmazlar* – cümlələrindən birincisi qeyri-müəyyən şəxsli, ikincisi ümumi şəxsli cümlədir. Bir nəfəri işdən çıxarmaqla bir və ya bir qrup şəxs məşğul ola bilər, iş bir və ya bir qrup qeyri-müəyyən şəxsə aiddir. "*Qaranlıq yerə daş atmazlar- cümləsinin ifadə etdiyi iş isə bir qayda şəklini almış olan, hər yerdə, hamıya aid olan işdir*" .

Nəsr mətnlərində müəyyən üslubi məqsədlərlə işlədilən atalar sözləri və məsəllərin bir qisminin xəbəri II şəxsin təkində olur. Xəbər bir sıra feil formalarının II şəxsin təkində olan cümlələrin ümumi strukturundan sanki belə təsəvvür yaranır ki, burada "sən" əvəzliyi buraxılmışdır. Məs:, - *İndi, qardaşoğlu, o Cümşüd məsələsindən addayıb. Atalar demişkən, yalvarana yalvar* [61, s.80]. Bu atalar sözündə təsəvvürümüzdə canlandırdığımız "sən" əvəzliyini reallıqda deyimə əlavə etsək, cümlə cüttərkibli cümləyə çevirilər və həm də işin icraçısı konkretləşər, cümlə ümumi şəxsli cümlə funksiyanı itirər. "*Yalvarana yalvar*" deyimində "sən" təsəvvürü semantik baxımdan hamını əhatə etdiyinə görə, ümumi şəxsli cümlədir və deməli, dildəki qənaət hadisəsi bir sıra cümlə tiplərini formalaşdırmağa da xidmət göstərir.

Əvəzliklərin buraxılması təkcə ümumi şəxsli cümlələrdə özünü göstərmir, bu, əksər cümlə tiplərində özünü göstərir, çünki, "*dilçilik ədəbiyyatında nitq hissəsi olaraq əvəzlik əsasən isim, sifət, say və bəzən də zərfləri əvəz edən söz və söz qrupları qismində izah edilir*" [107, s.96].

Bəzi atalar sözü və məsəllərdə qanunauyğun linqvistik hal kimi morfoloji səviyyədə də qənaət hadisəsi müşahidə olunur. Məsələn, "*El ağzı, sel ağzı* [çuval ağzı]" deyiminin ikinci komponentində hökmü qəti şəkildə vermək üçün "dır" xəbər şəkilçisindən istifadə edilməli idi. Lakin yazıçı həmin morfoloji göstəricini ixtisara salmış, semantik cəhətdən ümumilik bildirən fikir ifadə etmişdir. Məs:, *Niyəsini də açıb-ağartmıyıb, El ağzı, sel ağzı* [61, s.83].

Nəsr mətnlərində xalq dilinin güclü təsiri və təması aktiv səciyyədə özünü göstərir, xalq ruhunun, milli koloritin sadə və təbii verilməsində digər sintaktik konstruksiyalarla bərabər ümumi şəxsli və şəxssiz cümlələrin qənaət şəklinə salınmış formaları da mühüm rol oynayır.

Şəxssiz cümlələrdə qənaət. Nəsr mətnlərində qənaət prinsipini reallaşdıran cümlə strukturlarından biri də şəxssiz cümlə tipləridir. Qənaətin şəxssiz cümlələrdə təzahürü zaman bildirən söz və ifadələrin buraxılması nəticəsində özünü biruzə verir. Azərbaycan dilinin sintaksisinə dair mənbələrdə şəxssiz cümlələr elə tip cümlələr adlandırılır ki, onlarda mübtəda olmasın və ya təsəvvür edilməsin. Q.Kazımov da düzgün olaraq göstərir ki, "*Şəxssiz cümlələrdəki məzmun, fikir predmeti xəbərlərlə birlikdə təsəvvür edilir*" [72, s.186]. Şəxssiz cümlələr üzərində qənaət prinsipi ilə əlaqədar müşahidələrimiz əsas verir deyək ki, həmin cümlələrdə formal baxımdan əksər məqamlarda zaman bildirən leksik vahidlərin buraxılması özünü göstərir. Məs:, — *Axı tanışlıq üçün vaxt bir az gecdir.*

—*Gecdir? Xeyr, əsil vaxtıdır* [61]

Fikrimizcə, birinci cümlədə işlənən "vaxt" sözü artıqlıq yaradaraq yerinə düşmür, çünki həmin sözün semantik yükünü "gec" zaman bildirən leksik vahid öz üzərinə götürür. Sual məzmunlu cavab cümləsində "indi" zaman zərfi buraxılmışdır. Sonuncu cümlədə də "gec deyil" birləşməsi ellipsisə məruz qalmışdır. Sual cümləsinin məzmununa görə gözləmək olardı ki, indi gec deyil, vaxt əsil vaxtdır" – kimi olacaqdır, lakin bu halda lazımsız təkrarlarla qarşılaşmış olarıq ki, belə hallar qənaət prinsipi üçün tamamilə yad formalardır. Sintaktik norma cəhətdən cümləni belə də tərtib etmək olar: "*Axı, tanışlıq üçün bir az gecdir*". İkinci cümlə isə onu tamamlayır: "*Əsil vaxtdır*". Hər iki halda mübtəda tələb olunmur. Bu cümlələrin hər ikisi ismi xəbərli şəxssiz cümlələrdir.

Nəsr mətnlərində bəzi məqamlarda buna oxşar şəxssiz cümlələrinin zaman bildirən leksik vahidinin buraxılması müşahidə olunur. Məs: *Gecdir. Gedim evimizə, yıxılım – yatım* [61]. Birinci cümlənin əvvəlinə "indi", "hazırda" zaman bildirən sözlərindən birini artırsaq, cümlə yenə də şəxssiz cümlə statusunu qoruyub saxlayacaqdır:

“ [*İndi, hazırda gecdir*].” İkinci cümlədə isə konkret olaraq şəxs mövcuddur, həmin şəxs [mən] cümlənin xəbəri ilə aydın şəkildə təsəvvür olunur. “*Gecdir*” — şəxssiz cümləsini mücərrəd kəmiyyət bildirən nitq vahidləri hesabına artırmaq da olar: *Artıq gecdir; Daha gecdir; Çox gecdir* və s. Belə hallarda da şəxssiz cümlə hüququ qorunub saxlanılacaq, qənaət prinsipi aradan qalxacaqdır.

Nəsr mətnlərində qənaətə uyğun olaraq və sintaktik norma kimi zaman mənalı ifadələrin buraxılması şəxssiz cümlələr üçün intensiv səciyyə daşıyır. Məs: *Namazın vaxtıdır* [61, s.38]. Qənaəti aradan qaldırıb bu şəxssiz cümləni belə də qurmaq olar : İndi namazın vaxtıdır; Müəyyən yiyəlik halda olan “namazın” sözündə -ın morfoloji göstəricini də atıb “namaz vaxtıdır” – şəklində də işlətmək mümkündür, yaxud, həmin sözü “namazının” – mənsubiyyət şəkilçisinin əlavəsi ilə də işlətmək olar, ikinci halda sözün morfoloji tərkibində qənaət prinsipi aradan qalxacaqdır.

3.3. Adlıq cümlələrdə linqvistik qənaətin şərtilikləri

“*Qrammatikanın əsas tədqiqat mövzularından biri də dilin inkişafındakı səviyyələri bir-birindən ayırmaq və onların real vəziyyətini açmaqdır*” [112, s.64]. Adlıq cümlələrdə qənaət prinsipi qədim dövrlərin dil göstəricisidir. Nəsr mətnlərində işlədilən adlıq cümlələr linqvistik qənaətə meylliliklə əlaqədardır, belə cümlələrin istifadəsi söz sənətkarının dilimizin leksik zənginliyinə, estetik qaynaqlarına dərindən bələd olmasını tələb edir və sadə təktərkibli cümlələrin bu növündə əşya və hadisənin adı çəkilir, lakin onun haqqında əlavə məlumat verilmir, cümlənin xəbəri olmur, buna görə də əlamətin daşıyıcısı, hərəkətin icraçısı barədə bir söz deyilmir, yalnız onların mövcudluğu bildirilir. Adlıq cümlələrin əsasında adlıq halda olan sözlər və birləşmələr durur. Cümlənin özəyini təşkil edən sözlər, birləşmələr mübtədaya uyğun gəlir. Yığcamlıq və lakoniklik adlıq cümlələrin ən önəmli struktur məziyyətidir və bunun üçün də sintaksisə aid əsərlərdə bu cümlələrin xəbərinin olmaması, mübtəda əsasında formalaşdığı dönə-dönə vurğulanır. Nəsr mətnlərində adlıq cümlələr daha çox bədii təsvirə xidmət göstərir və başqa sözlə

desək, nəsr dilində üzərində qənaət əməliyyatı aparılmış ən güclü sintaktik vasitələrdən biridir. Adlıq cümlələrin tərkibində çıxış edən əksər söz və ifadələrin nominativ mənası olur, həmin söz və ifadələrdə təbii-morfoloji vasitələrlə deyil, intonasiyanın kommunikativliyi ilə predikativlik yaradılır. Mətn sintaksisində və bədii mühitdə adlıq cümlələr öz təbiəti etibarı ilə əşya, məkan, zaman və s. haqqında təsviryaratma meyarlarını şərtləndirir və "*bədii təsvirin bu mühüm cəhətlərini təcəssüm etdirir. Bir sözlə, "sıxılmış" vəziyyətdə adlıq cümlələr bədii təsvir üçün etibarlı sintaktik vahiddir*" [28;32;138; **Ошибка! Источник ссылки не найден.**].

Nəsr mətnlərinin adlıq cümlələrində qənaət qanunundan danışılarkən bu cümlələrin öz funksiyalarına görə qruplarına daha çox diqqət yetirilməli, onların qrupları-təsviri, işarəedici, münasibət bildirən, xüsusi adlıq cümlə növləri analitik təhlil süzgəcindən keçirilməlidir. Çünki bu qruplardan olan adlıq cümlələr də sintaktik informasiyanı zənginləşdirən vasitələrdən olub, nəsr mətnlərində yazıçının bədii məzmuna uyğun forma rəngarəngliyindən istifadə vərdişindən törəyir, söz sənətkarının bədii düşüncələrində obrazlı qavrayışın güclənməsi və bədii konkretliyin yaranması ilə şərtlənir. Bədii təsvirdə qənaətə meyllilik mühüm səciyyə daşıyır və adlıq cümlələr vasitəsilə də bu linqvistik əməliyyat reallaşdırılır, qənaət qanunu burada sözlərin semantik tutumunun dolğunlaşmasına real şərait yaradır, əşya və hadisələrin vəziyyəti, yeri, zamanı, kəmiyyəti barədə qısa, yığcam, obrazlı şəkildə verilən məlumatlar oxucu təsəvvüründə mental, şüuraltı səviyyədə daha dəqiq və bütöv halda canlandırılmağa istiqamətləndirilir. Müxtəlif üslub və dəsti-xəttə malik olan yazıçıların nəsr dilində rəngarəng təsviri məqamları verərkən adlıq cümlələrə müraciət etmələri təbii haldır və nəsr mətnlərində əksər məqamlarda bunlar struktur-semantik keyfiyyət dəyişmələrinin əsasını təşkil edir ki, onlarda qənaət şərtiliklərinin araşdırılması aktuallıq kəsb edən məsələlərdəndir.

Nəsr mətnlərində adlıq cümlələr informasiya həcminin yığcamlaşmış şəkildə göstərir. Adlıq cümlələr elə cümlə növüdür ki, bunlarda bədii dilin şərtilikləri qənaətin sıxlığına zəmin yaradır, lakoniklik bu növ sintaktik vahidlərdə aparıcı rol oynayır və bunlar nəsrin mikromətninin semantik, məna tutumuna zərər vermir, əksinə, onun siqlətini

daha da artırır. Ayrılıqda götürüldükdə şəxs, əşya, məkan, zaman, hadisə və s. bildirən adlıq cümlələr nəsr mətnlərində motivləri təsvir edərkən dil materiallarına qənaətlə yanaşmaq vəzifəsini uğurlu surətdə icra edir. Bu prosesdə həmin cümlələrin köməyi ilə əşya və hadisələrin vəziyyəti, yeri, zamanı, kəmiyyəti barədə qısa, yığcam, obrazlı məlumat verilir, mübtəda əsasında qurulan bu qəbildən olan cümlələr "insan fikrinin açarı" [53, s.74] olur. Məsələn, aşağıdakı nəsr parçasının ilk cümləsi adlıq cümlə ilə başlanır və onun ardınca izahedici cümlələr silsiləsi gəlir və həmin parçadakı adlıq cümlə ümumi isimlərlə ifadə olunur, bunlar üç sözü əhatə edir: *İlıq yaz axşamı* ...[61, s.16]. Bu üç sözdən ibarət adlıq cümlənin qənaət prinsipi ilə qurulmasından əlavə, özündən sonra gələn digər cümlələr üçün zəmin hazırlamaq da başlıca vəzifəsidir. Nəsr dili əksər məqamlarda lakonikliyə meylidir ki, burada maddi formada iştirak edən söz mətndə işlənməyən sözlərin məna yükünü də öz üzərinə götürüb yazıçının oxucuya çatdırmaq istədiyi mündəricəni açır, müəllifin bədii qayəsi oxucu tərəfindən düzgün qavranılır, mənalandırılır. Xalq yazıçısı Anarın "Sizsiz" xatirə-povesti adlıq cümlələrlə demək olar ki, zəngindir və söz sənətkarı bu struktura malik cümlələri elə məharətlə işlədilir ki, deyilməmiş bədii fikirlər bir sistem şəkli alır və onları bəzən yazıçı işarəedici cümlələr vasitəsilə verir. Yazıçının işarə etdiyi bədii fikirlər oxucu düşüncələrini silkələyir, onu diqqətli olmağa sövq etdirir və beləliklə, o, oxucunun düşüncələr axınını nizama salır, onu müəyyən məcraya yönəldir. Yazıçı Anarın vaxt, zaman motivləri haqqında adlıq cümlələr şəklində verdiyi sintaktik vahidlərə nəzər salaq: *Axşamlar... onların axşamları, ... Son illərin axşamları ...* [112, s.423]*; Yuxu gecələri... Yuxulu gecələr ... Gecə yuxuları ...* [13, s.520]. Bu adlıq cümlələrdə hər sözün ümumi informasiya vermək vəzifəsi ilə bərabər, eyni zamanda hər bir nitq vahidinin öz enerjisi, öz bədii potensialı, psixoloji gərginlik yaratmaq effekti var və bu keyfiyyətlər uğurla yerinə yetirilmiş qənaət əməliyyatları nəticəsində əldə edilmişdir. Birinci nümunə 3 adlıq cümlədən, ikinci nümunədə eyni sayda adlıq cümlədən ibarətdir və maraqlı cəhət budur ki, ikinci nümunə xiazm şəklində qurulmuş, emosionallığı daha da gücləndirmişdir. Ehtimal etmək olar ki, E. Hemenquey bədii sözü aysberqlə müqayisə edəndə qənaət əməliyyatının özünəməxsusluğuna

əsaslanmışdır və o, göstərir ki, "*Ancaq səkkizdə bir hissəsi su səthinə qalxıb görünən, qalan hissəsi isə suyun dərinliklərində gözə görünməyən aysberq kimi söz də oxucudan gərgin əmək tələb edir ki, suyun içində qalan hissəni-maddi şəkildə deyilməyən mənanı hiss etsin. Bu zənginliyi, dərinliyi isə o zaman duymaq olar ki, dilin incəliklərinə yiyələnəsən, dilin poetik qanunlarına müvafiq düşünə biləsən, bədii lövhələri təsəvvür etməyi, qarşılaşdırmağı, həyəcanlanmağı bacarasan*" [127, s.22].

Nəsr mətnlərində adlıq cümlələrin əsas funksiyalarından biri ümumi şəkildə və predikatsız informasiyavericilikdir və yazıçılarımız əsərlərində təsviri cəhətlərə daha çox müraciətetmə məqamlarında, yəni əşyanın, hadisənin, obyektin, məkanının, zamanın təsviri prosesində təktərkibli cümlənin bu növünü predikatsız işlədir və onu intonasiyanın ixtiyarına buraxırlar. Məsələn, aşağıdakı mikromətndə 7 adlıq cümlə işlədilmişdir ki, bunlardan 3-ü qənaət prinsipinə müvafiq olaraq söz birləşməsi modelində, 4-ü isə söz şəklindədir: *Məhkəmənin açıq iclası. Müttəhim skamyası. Camaat. Yazı. Müşavirə otağı. Komendant. Hökm ...* [89, s.162].

Bu nümunədə məkan "və məkanda baş verən hadisənin — məhkəmənin ağırlığı həmcins adlıq cümlələrlə verilmişdir ki, "*burada yazıçı həmcins üzvlərdən ibarət adlıq cümlələri silsilə şəklində qurmaqla məkan və hadisə haqqında dəqiq təsəvvür yarada bilmişdir*" [54, s.421]. Adlıq cümlələrin bu qrupundan bədii başlanğıcında, xüsusən dram əsərlərinin remarkalarında müəyyən əşyanın, hadisənin, obyektin, məkanın, zamanın qısa və emosional xarakteristikası, təsviri prosesində istifadə edilir və təsvir edilən dövrdə həmin varlıqların mövcudluğu iqrar edilir.

Nəsr mətnlərində adlıq cümlələr vasitəsilə baş verən hadisələrin yeri və zamanı bəzi hallarda qarışıq şəkildə verilir, intonasiya vasitəsilə predikativlik yaradılır, yer və zaman motivləri "sıxlaşmış" halda, ardıcıl verilir və nəticədə, bədii dilin şərtiliyi qənaətin sıxlığına zəmin yaradır. Məs:, *1957. 7 yanvar. Moskva* [13, s.520]. Bu nümunədə birinci və ikinci cümlədə vaxt, zaman, üçüncü cümlədə isə yer haqqında verilən informasiya yığcamlaşmış ifadə qəliblərində təzahür edir.

Nəsr dilində bəzi hallarda konkret olaraq hadisələrin baş verdiyi yer adlıq cümlələr vasitəsilə ifadəsini tapır və az sözlə çox məna ifadə etmək keyfiyyəti bu qəbildən olan cümlələrdə də əsas məziyyətdir və qənaətli deyim tərzinin nəticəsi kimi səciyyələndirilməlidir. Məs:, *Egey dənizi sahili ... Ay varlıq ...* [112, s.483].

Nəsr dilində qənaətə vəvac verən nitq vasitələri olduqca zəngindir və adlıq cümlələr nəsr dilinin yığcamlığına, lakonikliyinə xidmət edir, məna yükünün daşınmasını cümlədə iştirak edən nominativ sözlər öz üzərlərinə götürür və başqa sözlə desək, adlıq cümlələrin əsasını təşkil edən sözlər ondan sonra gələn sintaktik vahidlər üçün etibarlı özül və başlanğıc rolunu oynayır. Buna görə də adlıq cümlələrin daha çox işlənmə yeri mətninin əvvəlidir. Deməli, daha çox mətnin əvvəlində işlənən adlıq cümlələrin məna tutumu nə qədər yığcamdırsa, sözə qənaət nə qədər intensivdirsə, fikir dairəsi, bədii mətləbin əhatəsi bir o qədər genişdir. Bədii fikir yükünün ağırlıq gücü onu daşıyan dil vahidlərinin sayında yox, həm sanbalında, həm üslubi fəallığındadır. Məs:, *İyirminci il. Sentyabr* [89, s.148].

Aydın məsələdir ki, yazıçı adlıq cümlənin birinci komponentində "min doqquz yüz" sözlərini ixtisar etmiş, ikinci cümlədə də işlənən sözdən əvvəl və sonra konkret tarix göstərməmişdir ki, bu da sintaktik vahidlərin struktur tərəfləridir. Digər tərəfdən isə yanaşdıqda aydın olur ki, yazıçı bir hekayəsini həmin cümlələrlə başlayır, diqqət konkret zamana yönəldilir və hekayə mətninin əvvəlində çıxış edən bu cümlə mıətnin əsas leytmotivinə çevrilir, yazıçı oxucunu 1970-ci ilin sentyabrında baş verən hadisələrlə tanış edir və mətnin ümumi məna yükünün obrazlı şəkildə verilməsində hər bir söz maksimum güclə çıxış edir.

Öz funksiyasına görə adlıq cümlələrin digər bir qrupunu "*münasibət bildirən adlıq cümlələr*" [72, s.194] təşkil edir və bu qrupdan olan cümlələr nəsr dilində fəal çıxış edərək güclü intonasiya ilə müşayiət olunur, varlığa emosional münasaibət bildirilir. Bu növ adlıq cümlələrdə yazıçının hiss və düşüncə tərzində əşya və hadisələrə münasibəti əks olunur və qənaət prinsipinin mövcudluğu aydın şəkildə sezilir. Məs:, *Yemiş, nə yemiş! Öz-özünə tağda cırılan yemiş*! [88, s.230].

Fikrimizcə, nəsr dilində adlıq cümlələrlə başlanan mətnlərdə onların digər cümlə növləri ilə qarşılıqlı əlaqəsi çox güclü olmaqla yanaşı, bədii-estetik keyfiyyət göstəricisi də olub, onun lakonizmini təmin edir və bu baxımdan yanaşdıqda xüsusi adlıq cümlələr qrupundan olan kitab adları qənaətə xidmət edən linqvistik göstəricisi kimi böyük əhəmiyyət daşıyır. Məlumdur ki, xüsusi adlıq cümlələr bir və ya bir neçə sözdən ibarət olur və kitab adlarını da əhatə edir. Kitab adlarından ibarət adlıq cümlələrdə "sıxılma" da güclü olur və belə təsəvvür edək ki, 5, 10, 100, 1000 səhifəlik müxtəlif nəsr janlarına məxsus əsərlərin sadə və mürəkkəb mahiyyətli hadisələrinin təsviri bir və ya bir neçə sözdən ibarət başlıqlar – adlıq cümlələr ətrafında cəmləşdirilir ki, belə adlar qənaəti daha çox özündə ettiva etdirir. Məsələn, yazıçı Əli İldırımoğlunun "Daş yağan gün" romanın adı 3 sözdən ibarət olub, 2 isimdən, 1 feili sifətdən təşkil olunmuşdur və olduqca bəlağətli səslənir, dərin fikirləri özündə əks etdirir, kitabın qənaət prinsipi ilə verilmiş adı oxucuları dərin fikirlər aləminə qərq edir. Həyat hadisələrini 3 sözdən ibarət bir adlıq cümlə ətrafında təsvir etmək, təmərgüzləşdirmək istedad sahibi olan söz sənətkarından böyük yaradıcılıq qabiliyyəti tələb edir və Əli İldırımoğlu bu vacib tələblərinin öhdəsindən sözün əsil mənasında ustalıqla gəlmişdir. İstedadlı qələm ustadının 200 səhifəlik bədii təqdimatından aydın şəkildə görünür ki, yazıçı romanda baş verən hadisələrin mahiyyətinə dərindən varır və təsvir etdiyi hadisələrin bütün bədii cəhətlərini rəmzləşdirilmiş adlıq cümlə ətrafında cərəyan etdirir və beləliklə də, yazıçının əsərə seçdiyi qənaət əsasında qurulmuş adlıq cümlə, yəni, "Daş yağan gün" adlıq cümləsi tam şəkildə özünü doğruldur.

Mətn mühitində əsər adlarından ibarət olan xüsusi adlıq cümlələr dolğun mahiyyətini daha çox büruzə verir və yazıçı öz bədii məqsədinə, məramına görə belə cümlə növünə müraciət etməli olur. Məsələn, "Qabusnamə" əsərində ermənilər haqqında bədnam fikirlər olduqca çoxdur və Əli İldırımoğlu bu bədnam fikirlərdən məharətlə yararlanaraq ermənilərin iyrənc xislətini dolğun şəkildə açıb göstərməyə çalışmış və belə məqamda "Qabusnamə" əsərinə müraciət etməli olmuşdur. "Daş yağan gün" romanının bir yerində yazıçı gürcü personajının nitqinə işarəedici adlıq cümlələr tipindən olan və söz birləşməsi modelində qurulan "Qabusnamə" məsələsi" cümləsini daxil edir. Burada adlıq

cümlənin birinci komponenti əsər adını bildirir, ikinci komponentdə işlənən "məsələsi" sözü isə işarəedicilik vəzifəsini konkretləşdirir və cümlənin semantik yükü olduqca sanballıdır, ağırçəkilidir, çünki həmin əsərdə ermənilərin vəfasızlığı, xəyanətkarlığı, yaltaqlığı, xəbisliyi barədə çoxlu müdrik kəlamlar söylənilmişdir.

Nəsr mətnlərində adlıq cümlələrin həm müxtəsər, həm də geniş quruluşa malik olanlarından da istifadə olunmuşdur. Müxtəsər adlıq cümlələrdə yalnız mübtədanı müəyyənləşdirmək olur ki, bu da qənaəti şərtləndirən səbəblərdən biridir. Məs:, *Bir gün də ... [62,s.84] ; Belə bir əhvalat ... [88, s.123]; Yenə o illərin ... [88,s.124].*

Göründüyü kimi, bu müxtəsər adlıq cümlələr quruluşuna görə xəbərsiz yarımçıq cümlələrə oxşayır. "*Lakin yarımçıq cümlə daha çox mətn daxilində, dialoqlarda işləndiyi halda, adlıq cümlələr daha çox mətnin əvvəlində işlənir. Yarımçıq cümlənin xəbərini bərpa etmək olur. Adlıq cümlələr mətndən çıxarıldıqda da ayrılıqda məna ifadə edə bilir*" [58, s.198-199]. Hər iki cümlə növündə əsaslı fərqli cəhətlər olsa da, hər ikisi qənaət prinsipi əsasında qurulur, linqvistik qənaətə xidmət göstərirlər. Kitab, qəzet, jurnal, əsər adlarından ibarət cümlələri də müxtəsər adlıq cümlələr qrupuna aid etmək olduqca ağlabatan görünür, çünki, həm müxtəsər, həm də geniş adlıq cümlələr qrammatik yolla ifadə oluna bilmir, zaman anlayışı xəbərdə öz ifadəsini tapmır, yəni xəbəri olmur. Zaman anlayışının baş üzvü olan xəbərdə öz ifadəsini tapmaması, yəni adlıq cümlələrdə xəbərin olmaması, həmin cümlələrin qənaət prinsipi əsasında qurulmasını bir daha dəqiq şəkildə şərtləndirir. Geniş adlıq cümlələrin tərkibi saylar, sifətlər, əvəzliklər, feili sifət, feili bağlama tərkibləri hesabına genişlənsə də, bu struktura malik sintaktik vahidlər də indiki zaman məzmununu daşıyır, lakin istər indiki zaman, istərsə də digər zaman anlayışları qrammatik yolla öz ifadəsini tapa bilmir. Məs:, *Yenə də ... Yenə də Şüvəlan ünvanlı yad və doğma məkan. Qarıyıb-qarımış qoca tut. Ahıl qələm əhli. Yönü dənizə olan birmərtəbəli ev. Ağacların dincliyinə qənim kəsilən aramsız, amansız küləklər ...[62, s.371]; Yüksək vəzifələr. Oğul-uşaq xoş güzəran ... Ana ehtiramı üzərində bərqərar olan ilahi xoşbəxtliyi ...* [62, s.105].

Nəsr mətnləri ilə sıx əlaqədə çıxış edən adlıq cümlələrin sintaktik strukturunda predikativliyə qənaət olunur, yəni o, açıq şəkildə təzahür etmir, implist şəkildə olur. Əgər o, eksplist şəkildə özünü göstərsə, belə konstruksiyalar adlıq cümlə statusunu itirər, başqa cümlə tiplərinə transfer olunar. Adlıq cümlələrdə dilin normativ, qanunauyğun halı kimi qrammatik zaman kateqoriyasının morfoloji əlamətləri işlənmir. Bu tip cümlələrin strukturunda mövcudolmaya, yəni nitq momenti ilə eyni zamanda mövcudluğa işarə edən indiki zaman reallaşır. Məs:, *Səngərlər. Təlaş. Ölənlər və yaralananlar*". Mikromətndən göründüyü kimi, burada vaxt, zaman yaradan morfoloji əlamət, yaxud da heç bir leksik vahid yoxdur. Bununla belə, müəyyən hadisə və ya prosesin mövcudluğu göz önündədir. Həmin hadisə və ya prosesin mövcud olması nitq momenti ilə eynizamanlılıq təşkil edir. Adlıq cümlələrin semantikasında ümumi zamanın mövcud olması indiki zamanla bağlıdır. M.Adilov da doğru olaraq göstərir ki, "*Adlıq cümlələrin keçmiş və gələcək zaman forması yoxdur. Onlar indiki zaman mövcudiyyatını təsdiq edir və onlarda inkar forması olmur*" [11, s.222]

Nəsr mətnlərində adlıq cümlələrin nitq prosesində predikativ cümlələrlə müşayiət olunması halları da özünü göstərir və belə məqamlarda -dır xəbər şəkilçisinin buraxılması müşahidə edilir. Məs:, *Kişinin evi [dir]. Axşamçağı [dır]. Kişi bir küncdə oturub mizin üstündəki bir qalaq plastilindən nəsə düzəldir* [36]; *1929-cu il. Hadrut. Sübh tezdən. Quşların səsi, qoyun-quzunun mələşməsi eşidilir* [75, s.201]. Birinci mikromətnin ilk və ikinci cümlələrində apardığımız bərpa əməliyyatını, ikinci mətndə də apara bilərik və hər iki halda sintaktik normaya xələl gəlmir, sadəcə olaraq əməliyyat aparılmış mətndə nominasiya zəifləyir, hökm çaları güclənir, predikativ açıq şəkildə təzahür edir ki, belə sintaktik meyar adlıq cümlə tipləri üçün səciyyəvi hal hesab olunmur.

Nəsr mətnlərinin strukturunda təktərkibli cümlə növlərindən biri kimi adlıq cümlələr də mühüm yer tutur və onlar əşyanın, hadisənin mövcud olduğunu, varlığını intonasiyanın köməyi ilə təsdiq edən sadə cümlə şəklində meydana çıxır və qənaətə müvafiq olaraq bunlar mikromətnin ümumi struktur-məna yükünü, məzmunun semantik sıxılma mexanizmini şərtləndirir.

3.4. Dialoqlarda söz-cümlələr və vokativ cümlələr qənaətin universal göstəricisi kimi

Söz-cümlələr nəsr mətnlərinin dialoji nitq aktlarında ən çox işlədilən cümlə tiplərindən biridir və onlar dialoqların qarşılıqlı replikalarında daha çox cavab cümləsi kimi çıxış edir və bütöv sintaktik vahidin semantikasına uyğun məzmun ifadə edir ki, bu tip cümlələr dilçilik əsərlərində "söz cümlələr" adlandırılır. Mövcud bədii nəsr mətnləri üzərində apardığımız müşahidələr əsas verir deyək ki, söz cümlələr bədii nitqdə elə bir sintaktik konstruksiyadır ki, o, fikir-məna siqlətinin yığcam, lakonik ifadəsinə xidmət göstərir, bədii dilin semantik sıxılmasında müstəsna rol oynayır. Söz-cümlələr adlıq cümlələrdən, yarımçıq cümlələrdən, vokativ cümlələrdən spesifik xüsusiyyətləri ilə fərqlənsə də, onların ümumi oxşar xüsusiyyətlərindən biri yəni qənaət prinsipinə xidməti universallıq təşkil edir. Bu cümlə tiplərinin ifadə vasitələri müxtəlif olsa da qənaətə meylliliklər daha güclüdür. Vokativ cümlələr də bu keyfiyyətə malikdir.

Nəsr mətnlərinin dialoqlarının cavab replikalarında söz-cümlələr işləklik nöqteyi nəzərdən daha çox diqqəti cəlb edir və onların ifadə vasitələrinə görə təzahür formaları vardır. İşlənmə tezliyi baxımından da söz-cümlələr və vokativ cümlələr emosionallıq, ekspessivlik istiqamətinə daha çox yönəldilir. Nəsr mətnlərinin dialoji nitq aktların daxili strukturunda, bədii kontekstin hissi emosional əsaslarının möhkəmləndirilməsində mühüm rola malik olan söz-cümlələr və vokativ cümlələr qənaətə müvafiq variantlarda dialoqlarda işlədilmədikdə adi tavtoloji söz və cümlə yığını təsiri bağışlayar, oxucunu həm də fiziki baxımdan yorar. Əksər yazıçılarımız bədii fikirlərini, obraz və personajların hiss və duyğularını qənaət prinsipinin bünövrəsi üzərində təqdim etməyə daha çox üstünlük verdiklərinə görə, söz-cümlələrdən və vokativ cümlə tiplərindən də yan keçməmişlər və elə buna görə də bu tip cümlələrdə yaradılan qənaət dialoji nitq aktlarının səciyyəvi

əlamətlərindən biri kimi özünü göstərir. Söz-cümlələr və vokativ cümlələr əsasında yaradılan qənaət nəsr mətnlərinin dialoqlarında istənilən qədərdir, onlar sintaktik bütövlərin müəyyən spektrlərini əhatə edir ki, mətn mühitində bir neçə sözün, söz birləşməsinin, cümlənin bir söz şəklində ifadəsi, tavtologiyaya aparıb çıxarmır, dialoji nitqdə dolaşıqlıq yaratmır, əksinə, söz sənətkarının təqdim etdiyi bədii fikirdə semantik-sıxılma yaradır.

Bədii dil daima qənaətə meylliliyi ilə səciyyələnir, söz sənətkarının qənaətə səyləri həyati gerçəklikləri qısa, yığcam, lakonik formalarda əks etdirməsi üçün əlamətdardır. Bədii baxımdan nəsr mətnlərinin özünəməxsus cəhətlərini aydınlaşdırmaqdan ötrü qrammatika kitablarında üzvlənməyən cümlələr adı altında öyrənilən söz-cümlələr və vokativ cümlələr tiplərinin nitq aktlarında oynadığı rolu, onların qənaətə xidmətetmə tərəflərini analiz etmək olduqca vacib və gərəklidir. Dil rəvanlığının qanunauyğun hal kimi onun miqyasını qısaltmaq, bədii emosiyanın tutumlu spektrini əhatə etmək üçün üzvlənməyən cümlə növlərindən biri olan söz-cümlələr nəşr mətnlərinin başlıca forma məziyyətlərindən biri kimi çox səciyyəvi sintaktik konstruksiyalardandır. Təlqin edilən fikrin və həyəcanların bədii təcəssümü üçün söz-cümlələrin ifadə modelləri mətnin bədii strukturunda ədat, nida, modal sözlər funksiyasında çıxış edərək detallaşır və onlar nəsr mətnlərinin sintaktik sərvətinə çevrilir, linqvistik qənaətə xidmət etməklə bərabər, yersiz təkrarın qarşısını alır, həm də daha konkret ifadə etsək, bədii-üslubi xüsusiyyətləri özündə əks etdirir, bədii təfəkkür və əhvali-ruhiyyəni obrazlı şəkildə təzahür etdirmək üçün mətnin ayrılmaz tərkib hissəsi olur. Araşdırmalarımız göstərir ki, güclü sintaktik göstərici kimi nəsr mətnlərində söz-cümlələr funksiyasında *hə, bəli, yox, xeyr* kimi ədatlar, *ah, aha, oho, ey, əfsus* kimi nidalar *əlbəttə, əsla, qətiyyən, sözsüz, baş üstə, göz üstə, şübhəsiz* kimi modal sözlər aktiv işlənir və bu tip sözlər hesabına yaranan qənaət cəlbedici və orijinal təsir bağışlayır, daha çox dialoji nitq aktlarında fəal işləklik hüququ qazana bilirlər. Məs:,- *Aşağı düşməzsən? – Nazim soruşdu.*

Alverçi:

- *Xeyr! [63,s.25]; Məsələdən yəqin ki, xəbərdarsan ?! – Bəli [77, s.15]; - Gəldim dayı. Özümlə də on min mürid gətirmişəm. – On min ? – Bəli [77, s.31]; Onda bir onu at görüm ! – Baş üstə [77, s.33]; Fil ölüb? – Bəli [77, s.33]; Başa düşdün məni? – Xeyr [77, s.44]; - Yüz dəfə demişəm ki mənə Məleykə deyib çağırma! – Baş üstə [77, s.51]; O dağlar, dərələr, düzənlər ki, var, ora nədir? – Ərdəbil mahalı – Yox [77, s.63]; - Gəl gedək. – Yaxşı* [77, s.65] və s.

Söz-cümlə termini iki komponentdən – "söz" və "cümlə" komponentlərindən ibarətdir. Bu o deməkdir ki, belə cümlələr bir sözdən ibarət olur, lakin bir cümlənin ifadə etdiyi məzmuna bərabər məna ifadə edir. Başqa sözlə desək, bu tip cümlələr linqvistik qənaətin təzahür formalarından biri kimi cümlələri formal baxımdan qısaldır, az sözlə, geniş mənalar ifadə edilməsinə şərait yaradır, psixoloji semantikanı mükəmməlləşdirir və bədii məzmunun dolğun şəkildə dərk olunmasına kömək edir. Məsələn, aşağıda verəcəyimiz bədii nümunələrdə söz komponentinin qarşısına bərabərlik işarəsi [=] qoymaqla cümlələrin ifadə etdiyi üslubi-semantik tutumu aydın şəkildə görmək olar: - *Qaranlıq düşsün? - Hə [77, s.143] [= Qaranlıq düşsün]; - Ziyarətə gəlib ağalar? – Bəli. [77, s.151] [= Ziyarətə gəlib ağalar] ; - Mən səni vəkil eləmişdim ? – Yox [77, s.16] [= Mən səni vəkil eləmişdim]; - Sultanəli, atamız o gələn adamlardan qorxurdu – Yox [77, s.165] [= Sultanəli, atamız o gələn adamlardan qorxmurdu]* və s.

Nominativ mənaya malik olmayan, yəni ədatlar, modal sölər və nidalarla ifadə olunan söz-cümlələr nəşr mətnlərində təsdiq və inkar mənalar ifadə edə bilir. Təsdiq söz cümlələr *bəli, hə, əlbəttə, şübhəsiz, yaxşı, baş üstə, sözsüz və* s. kimi ədat və modal sözlərlə ifadə olunur, dialoji nitq aktlarında qoyulan suala müsbət cavab kimi işlənir və nəsr dilində çox geniş istifadə potensialına malik olur. Məs:, - *Ərdəbil Azərbaycandan ayrılsın! – deyə Sultanəli təəccüblə soruşdu. – Bəli [77, s.167]; - Vəzir, dolma necə bişib? – Çox gözəl [77, s.179]; O burada olacaq , işini qurtar, gəl saraya. – Baş üstə [77, 161]; - Demək qızılbaş olan kimi, libasın atlas, eşşəyin at oldu. – Bəli* [77, s.181]*; - O mənim dostumdu, hər isinə mən cavabdehəm. – Çox yaxşı [77, s.189]; Bu da həqiqətdi ? – Əlbəttə! [77,s.187]* və s.

Nəsr mətnlərində təsdiq söz-cümlələrin sinonim variantları ilə işlənməsi halları da müşahidə olunur və belə hallarda təsdiq mənasının emosionallığı güclü təsir bağışlayır. Məs:, - *Axı mən əlif-beyi tanımıram. Əbih Sultan: - Çox gözəl, çox pakizə. [77, 182] ; - lələ, bu torpaqlar babanın türbəsinin oyuqlarıdı, ona görə də burada yaşamaq üçün yaylaq evi tikdirmək olar. – Baş üstə, göz üstə [77,204]* və s.

Bədii dildə inkar söz cümlələr də işlənmə çevikliyi ilə diqqəti daha çox cəlb edir və bu tip cümlələr *yox, xeyr, qətiyyən, əsla* və s. ədat və modal sözlərlə ifadə olunur, dialoqun əvvəlki replikasına və ya personajın öz fikrinə inkar cavabdan ibarət olur. Məs:, - *Rəhmətə gediblər? – Xeyr [61,s.186]; - Sən o işə razı oldun? – Qətiyyən [6, s.168] ; - Doğru deyir? – Əsla* [61, s.191] və s.

Söz – cümlələr bəzən mətn şəraiti və situasiya ilə bağlı olaraq sual mənası ifadə edir, bu sözlər cox hallarda personajların fikrini sual məqamında təkrar edir. Məs:, - *Sən bizi öldürməyə aparırsanmı? – Bəs necə? [77, s.166]; Monqol atına minən Əbih Sultana oxşamırdımı? –Hə?* [77, s.176] və s.

Nidalarla, nidalaşan sözlərlə, bəzi ədatlarla ifadə olunan söz-cümlələrə də bədii dildə rast gəlinir, intonasiya və mətndən asılı olaraq, müəyyən fikirlə bağlı emosional münasibət bildirilir. Məs:, - *Yoox!! Sözümü qurtarmamışam, Arsen ! [61,198]; - Aha! bu haradan çıxdı? [61,s.31]; Nacap kirvə, nə ki, işlər görmüsən, gəlib çıxır qarşıma . Hi...hi... [61, s.166]; - Ara, Nacap kirvə, elə bilirsən kepimə pis olur?! – Hi...hi... [61, s.166]; Yeznə, sən çobansan, həm də musurmansan, belə şeyləri anlaya bilməzsən! – Hi...hi... [61,s.166]; Arsen gülümsəyib Nəcəfə tərəf döndü və əlini onun enli kürəyinə çəkərək : - Malades! [61,s.207]; Qretanın uzaqdan cavabı eşidildi: - Afərin! [61, s.201] və s.*

Bədii mətnlərdə əvəz etdiyi cümlələrin semantik xarakterinə görə söz- cümlələrin məqsəd və intonasiya baxımından nəqli cümlə tipi də geniş müşahidə olunur. Məs:, - *Gərək ki, Rumlu elindənsən, eləmi? – Bəli. [77, s.174]; Əbih Sultanı yaxşı tanıyırsanmı? – Əlbəttə ? [77, s.175]; Qohumluğun var? –Yox. [77, s.176] və s.*

Nümunələrdən də göründüyü kimi, nəqli cümlələrin yerində işlənən *bəli, əlbəttə, yox* söz cümlələr nəqli xarakterdədir və qənaətə müvafiq bir şəkildə işlənmişdir. Nəsr mətnlərində söz cümlələr müxtəlif tipli cavab cümlələrini əvəz edə bilir:

a) Cüttərkibli sadə cümlələr: - *Mən səni vəkil eləmişdim? – Yox [110 s.,161]; - Əbih Sultan, sizə döyüşmək lazımdır? – Bəs necə ? [77,201]; - Yox qonaq qalır, qonaq yerində : - Bəs necə ? [77, s.332] və s.*

b) Təktərkibli sadə cümlələri: *Deyəsən, hazırdır. – Bəli [110, s.152]; Görəsən gəlir? –Yox [77,s.131] və s.*

c) Tabeli mürəkkəb cümlələri: *Deyirsən, onların xilası mümkündür? – Bəli [110,s.155]; Görünür, onu taxtdan salmağın vaxtıdır? –Xeyr* [77,s.154] və s.

d) Tabesiz mürəkkəb cümlələri: *Daha burda qalmaq olmaz, getmək lazımdır. – Əlbəttə [77,s.151]; Ora getmək istəyirəm, mənimlə gedək. – Baş üstə* [77, s.143] və s.

İstər intonasiyaca, istərsə də semantik-strukturca rəngarəng olan söz cümlələr vasitəsilə az sözlə geniş məna ifadə edilir.

Söz-cümlələrlə adlıq cümlələr və yarımçıq cümlələr arasında mühüm fərqlər var və dilçilik ədəbiyyatında onların fərqli cəhətləri göstərilmişdir (8, s.234)

Nəsr mətnlərindəki sintaktik bütövlərdə söz-cümlələr müxtəlif semantik çalarlıqlar ifadə edir və bunlar aşağıdakı şəkildə nəzərdən keçirə bilərik:

a) Bəlkə,bəlkə də modal sözü ilə ifadə olunan söz-cümlələrdən bədii dildə geniş istifadə olunur və belə cümlələrdə qənaətli şübhə çaları ifadə edilir. Məs:, - *Gələn o idi? – Bəlkə də [43,s.99]; - Atanızın xəbəri varmı? - Bəlkə də [43,s.91]; Padşahı görmüsən? – deyə ondan soruşdu? – Bəlkə də* [43,s.81] *və s.*

b) Maşallah, bərəkallah, afərin, əhsən, amin predikativləri ilə ifadə olunan cümlələrdə qənaətli alqışlama, tərifləmə məna çalarlıqları qüvvətli olur. Məs:, *Atamın ölümündən sonra şeyxlik mənə çatıb.- Maşallah, maşallah. Bu söz cümlədə predikativin 2 dəfə təkrarı tərif mənasını daha da emosionallaşdırmağa xidmət göstərir – Onda biz niyə qorxaq ki? – Əhsən* [43, s.165] və s.

c) Bədii əsərlərin dilində personajlar salamlaşma və vidalaşma məqamlarında xüsusi söz cümlələrdən də istifadə edirlər ki, bu tipdən olan *salam, salaməleykim, xudafiz, əlvida* kimi sözlər dilçilik əsərlərində nitq etiketləri kimi də səciyyələndirilir. "*...Nitq-müraciət etiketləri deyəndə əsasən iki məsələ önə çəkilməlidir. Birincisi, ünsiyyət üslubu. Bu, ünsiyyət etiketləri də adlandırılır. Ünsiyyət etiketləri gündəlik məişətdə salamlaşma, sağollaşma, üzrxahlıq etmə, təşəkkür etmə məqamlarında meydana çıxır. Bunlar gündəlik həyatda, məişətdə insanın nitq fəaliyyətinin çox geniş dairəsini əhatə edir"* [69, s.3]. Bədii əsərlərdə işlədilən söz-cümlənin əsas modellərindən olan nitq etiketləri müxtəlif üslubi məqsədlərə xidmət göstərə bilir. Məs:, *Sultanəli şəhər meydanında atını saxladı, əlini yuxarı qaldırdı. Hamı susdu.*

- *Salam olsun, ey camaat!*
- *Salam olsun ! – Elə bir gurultu qopdu ki, göydə uçan quşlar da hürkdü [43,s.183]; - Sən gedirsən, - Xudahafiz*! [77, s.333] və s. Söz- cümlələr ara sözlərə daha çox oxşayır. Çünki ara sözlər kimi söz-cümlələr də modal sözlərlə ifadə olunur. Lakin ara sözlərdən fərqli olaraq modal söz söz-cümlə olsa da, dialoqda ayrıca işlənir və müstəqil məna ifadə edir. Ara söz kimi işləndikdə isə, müəyyən bir cümlənin daxilində həmin cümlədəki fikrə münasibət bilinir. Məs:, -*Tək gedirdi? – Bəli [77,s.334] – Yenə qayıtmısan yol kəsməyə ? – Əbih Sultan onu acıladı. – Bəli, Əbih Sultan, yol kəsmək sənin sarayındakı işlərdən daha abırlı sənətdi [77,s.334]*.

Birinci nümunədəki bəli söz-cümlə, ikincisində isə ara sözdür. Bəli sözü üzvlənən cümlə ilə bir yerdə o zaman söz-cümlə olur ki, üzvlənən cümlə onun mənasından fərqli məna ifadə etsin. Birinci cümlədə bəli sözü üzvlənmədiyi halda, ikincisində üzvlənmə xüsusiyyəti kəsb edir. Eyni fikir yox, xeyr, hə, əlbəttə, şübhəsiz kimi sözlərə də şamil etmək olar və bunların qənaət prinsipinə xidməti eyni dərəcədə də aparıcıdır və onların situasiya ilə bağlı müxtəlif çalarlarından faydalanma yazıçı üçün stimul yaradır.

Nəsr mətnlərinin dialoji nitq aktlarında üzvlənməyən cümlələrin bir növü olan vokativ cümlələr də aktiv şəkildə müşahidə olunur. Aydın məsələdir ki, məişət nitqində müraciətlə işlədilən, müəyyən məsələ ilə əlaqədar xəbərdarlıq məqsədi daşıyan *əyə* nitq

etiketi vokativ söz hesab olunur və həmin sözün "Ə" hərfi ilə qənaət edilmiş formasına sintaktik bütövlərdə tez-tez rast gəlinir. Məs:, *Cantaraq oğlan Nazimin sözünü ağzında qoydu:*

- Bura bax, ə, malçişka! [63, s.28-29]; Nazim ac-susuz, başını taxta çamadanın üstünə qoyub mürgülədiyi yerdə kimsə onu dümsüklədi:

- Ə, əmoğlu! [63, s.29]; - Ə, nə yaxşı gəlib çıxdın, Nazim dedi. [63, s.32]; - Ə, bala, maa niyə xəbər eləməmisən?

Birinci cümlədə *ə* vokativi mənfi çalarda, digərlərində isə müsbət planda işlədilmişdir. N. Hacıyeva qeyd edir ki, *"bəzən dilimizdə "ə" vokativinin varlığından bəhs olunur. Doğrudan da, vokativ funksiyasında həmin sözə bədii əsərlərdə də tez-tez rast gəlmək olur" [42, s.104]. Tədqiqatçı onu da göstərir ki, "... ə vokativini heç də müstəqil, ayrıca söz hesab etmək olmaz və bu vokativ "əyə" vokativinin fonetik variantının daha çox reduksiya olunmuş formasıdır. Təsadüfi deyil ki, "ə" vokativi, adətən, adi bir səslə yox, uzadılmış səslə tələffüz olunur. Yazıda isə iki, bəzən də üç "ə" hərfi ilə yazılır. [43, s.104].*

Dialoji nitqdə "ay" müraciət sözünün sonundakı "y" samitinin qənaət prinsipinə uyğun olaraq düşməsi hadisəsi də çox hallarda müşahidə olunur, həmin vokativ söz də bir səslə ifadə olunur. Məs:, *Evdə Nabat arvad deyirdi ki, a qızım, bax gör imkan varsa, keç partiyaya [63, s.106]; A qızım, bunlar sənə deyiləsi məsələ deyil [63, s.108].*

Göründüyü kimi, hər iki cümlədə "a" vokativi "qızım" sözü ilə, yəni xitabla işlənib müraciət məzmununu qüvvətləndirməyə xidmət göstərmişdir, cümlənin hər ikisində konkret müraciət olunan şəxs mövcuddur. " Ay" vokativinin sonundakı "y" səsinin düşməsi fikrimizcə, bir tərəfdən qənaətlə bağlıdırsa, digər tərəfdən dialekt səciyyəsi ilə də bağlı ola bilər, çünki orfoqrafiya lüğətlərimizdə "a" nida kimi qeydə alınsa da, vokativ söz kimi qeydə alınmamışdır.

Bədii dildə bəzən qohumluq münasibəti bildirən sözlərə mənsubiyyət şəkilçiləri və əzizləmə mənası bildirən "can" sözü artırmadan da situativ vokativ sözlər işlənir, lakin

qənaət xatirinə buraxılmış söz və şəkilçini abstrakt şəkildə təsəvvürə gətirmək mümkündür. Məs:, - *Bu xalqın taleyi necə olsun, dədə [dədəm, dədəcan] [37, s.128].*

Nəsr dilində "... bir sıra sözlər birinci şəxsin təkinin mənsubiyyət şəkilçisini qəbul edərək, vokativ müraciət sözləri kimi işlənir:aslanım, quzum, canım, həmşərim, dostum, qardaşım, şəkərim, gözəlim, həyatım, igidim, qoçum və s." [102, s.12]. Bu tip müraciət formalarında maddi söz cildində birinci şəxsin təkini bildirən "mən" əvəzliyi ellipsisə uğrayır və onun vəzifəsini vokativlərin sonundakı şəkilçilər öz üzərinə götürür. Məs: Ey müridim, Hacı Rəisüs-sadat, mən, sənə hökm edirəm ki, bu saat Xudavəndi –aləmin mənə bu dəqiqə vəhy olunduğu hökmü əmələ gətirəsən [85, s.221]: Möhtərəm müəllimimiz Manafzadə Əlağa yenə baş idarələrin birinə müraciət edib əhvalatı sözləyir [85, s.270]. Vokativ cümlələr bədii nitqdə lazımi məqamlarda ellipsisləşmiş müraciət formalarına çevrilir.

Dilin daxili qanunları əsasında yaranan və inkişaf edən söz-cümlələr və vokativ cümlələrin ifadəlilik imkanlarından söz sənətkarlarımız səmərəli şəkildə bəhrələnmiş, daha çox dialoji nitq aktlarında bu sintaktik vahidlərdən qənaət prinsipinə uyğun bir tərzdə istifadə etmiş, nəsr mətnlərində semosioloji cəhətdən təkrarçılığa və yaxud heç bir yabancı ünsürə yol verməmişlər.

3.5. Yarımçıq cümlələrdə qənaətin üslubi-kommunikativ imkanları

Dildə qənaət prinsipinin rolu yarımçıq və elliptik cümlələrdə də ortaya çıxır və nəsr mətnlərində qənaəti birinci növbədə ellipsis hadisəsi formalaşdırır. Yazıçının təhkiyə dilində, surət və obrazların nitqində bu hadisə ilə tez-tez rastlaşmaq olur. Ş.Balli «ellipsis» terminini ilk dəfə dəqiqləşdirib: "*Ellipsis nitqdə dərk eldilən işarədir, əvvəlki kontekstlə əlaqədar və situasiya ilə bağlı yaranır*" [122, s.159-160] Konstruksiyada artıq elementlərin təkrar olunmasına ehtiyac qalmaması ucbatından bu formalar yaranır. Nitq elementinin, demək olar ki, bir zənciri ellipsisə məruz qalır. Bunu qramatistlər adətən «zevq» adlandırırlar. Bu hadisə elliptik cümləni əmələ gətirir. Elliptik cümlələr

kommunikativ-ikitərkibli və kommunikativ-təktərkibli quruluşuna görə fərqlənirlər. Birinci tema və remadan ibarətdir. İkinci isə yalnız remadan ibarətdir. Birincində də feili xəbər iştirak etmir. Məs.: *Çörək, yalnız bir loğma çörək…* [89, s.109]. Bu elliptik cümlədə qənaət xatirinə «dalınca gedirəm» ifadəsi buraxılmışdır, «Dirilən adam» romanının qəhrəmanı Qədirin nitqində həmin qənaətə yol verilmişdir. İkincisində isə predmet-məntiqi məna, buraxılmış üzvün qrammatik səciyyəsi və onlardan istifadə əsas yer tutur.

Ellipsis mənaya görə asanlıqla bərpa olunan cümlə üzvlərindən birinin [çox zaman xəbərin] buraxılmasına əsaslanan sintaktik fiqurdur. Həmin üslubi fiqurun köməyi ilə nitqin dinamikliyi və lakonikliyi əldə edilir. Ümumiləşdirmə nəticəsində qısa, yığcam strukturların yaranması dildə qənaət prinsipindən irəli gəlir. "*Dil vahidlərinin qənaətli şəkillərinin nitqdə müxtəlif formaları vardır. Başqa sözlə, ellipsis həm dil, həm də nitq ilə, onların qənaəti ilə əlaqədar olan hadisədir*" [118, s.6] Dildə qənaət prinsipindən irəli gələn elliptik cümlələr nəsr mətnlərində və paremioloji vahidlərdən olan atalar sözlərində daha tez-tez müşahidə edilir. Həmin cümlələr və paremioloji ifadələr mətnin dilinin sadəliyini təmin edir və hərəkətin gərginliyini və ya surətin həyəcanını, tələşını əmr cümləsi şəklində ifadə edir. Məs.: *Oğlanın kürəyindən bir ağac* [85, s.62]; *Maşının arxa tərəfində oturdu. İdarəyə* [13, s.31]; *Ata qamçı, ulağa biz; Dost ürəyi dost ovcunda*. Burda buraxılmış "vurmaq" və "sürmək", «vurarlar», «gərək olsun» feilləri ekspressiv-emosional xarakterli nitqi təmin etmişdir. Belə cümlələrdə feilin yoxluğu heç də onun «atılması», «düşməsi», «ixtisar edilməsi» demək deyildir, şübhəsiz ki, bu, bir sintaktik normadır» [142,s.75]

Ellipsis emosional sintaktik hadisədir, artıq fraza elementləri buraxılır. Formal-elliptik konstruksiyalar dialoqun cavab replikasında emosional təsir bağışlayır. Məs:,

— *A bəy, onlar vağzalın böyüyüdürlər*.

— *Ona baxma, işləri bizdən aşır. Nə baxırsan! Gəlib getməkdən… [89, s.201]*

Burada sonucu cümlə elliptik hadisəsinə məruz qalıb. Üç nöqtənin əvəzinə «bezmək» feili xəbəri buraxılmışdır.

Ellipsis cümlənin fraqmenti olaraq məna, məzmun kontekst vasitəsi ilə müəyyənləşir. Ellipsis anaforlaşmadır, anafora görünüşündədir.

Ellipsis hadisəsində implisit imformasiyalar qərarlaşır, daha doğrusu, ötürülür. Qənaətlə bağlı implikasiya əsas etibarı ilə qeyri-verbal [söz olmadan] qarşılıqlı təsirə malikdir. Qeyd edək ki, informasiyanın implisit ötürülməsi sahəsi hələ Azərbaycan dilçiliyində lazımı səviyyədə öyrənilməmişdir.

Nəsr əsərlərinin mətnlərində işlənən elliptik konstruksiyalarda feilin [feili xəbər] buraxılması qənaət üçün şərait yarada bilmişdir. Yenə misallara müraciət edək: *Əlini cibinə!* [89, s.48] «Salmaq» feili buraxılmışdır.

Qənaət prinsipi dilin strukturunu yığcamlaşdırmağa və mənanı, fikri genişləndirməyə cəhd edir. Bu prinsipin iki əsas ənənəsi mövcuddur. Birincisi, kommunikasiyanı emosional cəhətdən səciyyələndirir, A.Martinenin təbirincə, bədii nitqdə qənaətdən istifadə onun psixi və fiziki imkanlarını minumuma endirmək istəyi ilə bağlıdır [142, s.532-533].

Dil faktları göstərir ki, nitq prosesində qənaət prinsipi kommunikasiyada sinxron prosesdir, sabit dil hadisələrindəndir. A.Martine və M.Yusifov dildə qənaət prinsipini fonetik dəyişmələr aspektində aydınlaşdırmışlar [152, s.7]. A.Paul «Dilin tarixi prinsipləri» kitabının ayrıca bir fəslini “Dilin qənaət vasitələri” adlandırmışdır. A.Paul qənaət prinsipinin sosial-mədəni şərtlənməsini tədqiqatında önə çəkmişdir. “Qənaət qanunun gücü” ifadəsini A.Peşkovski işlətmişdir [121, s 9]

Düşüncə, nitq, dil, qənaət və bu dördlüyün bir-birilə əlaqəsində yarımçıq və elliptik cümlələrin mühüm yeri görünür. Dildə qənaət prinsipi yalnız ellipsis hadisəsi ilə deyil, həmçinin də, yarımçıqlıq və implikasiya hadisələri ilə bağlı məsələdir. Çoxlu sayda elmi mənbələrdə hadisələrdə dil vahidlərinin tərkibindən bir və ya bir neçə komponentin ixtisarı əsas şərt olaraq götürülür [64, s.101; 65, s.202; 69, s.203].

Qənaət və artıqlığın yaranmasında və aradan qaldırılmasında ellipsisin yeri və rolu böyükdür. İnsan düşüncəsində ellipsisin yeri bəllidir. Bu formalar insan düşüncəsi

sayəsində yaranır. Nitqdə və dildə aktiv forma kimi fəaliyyət göstərir. Əlavə vəzifələri də yerinə yetirir ki, bu da artıqlıq və qənaət deyilən hadisələri tənzimləyir.

Elliptik cümlə yarımçıq cümlənin bir növüdür və bütöv cümlərlə müqayisədə meydana çıxır. Strukturca yarımçıq, semantik cəhətdən bütövdür. Məs:, "*Həmin teleqrama bacımdan"*cümləsi ona görə strukturca yarımçıqdır ki, «gəlmək» feili xəbəri iştirak etmir və ya buraxılmışdır. Amma semantikada yarımçıqlıq yoxdur, hər iki variantı qarşılaşdırsaq, məna olduğu kimidir. Lakin ikinci forma situasiyaya görə qısadır, feili xəbərin işlənməməsi qənaət əmələ gətirmişdir. Və ya, *atam rayonda, anam kənddə*. Bu variantda da "yaşamaq" feili xəbərindən istifadə olunmamışdır.

Ellipsis və tamamlanma da bir-birilə bağlı məsələlərdir və ellipsisin linqvistik təsvirində mərkəzi məsələdir. Məntiqi qrammatikada, mənanın mahiyyətinin açılmasında və dilin ifadə formalarında tamamlanma termin-anlayışından geniş istifadə olunur. Tamamlanma üslubu nizamlayır, cümlənin strukturu, intonsiya ritmi və funksional-üslubi dəyəri dəyişir. Tamamlanma nəticəsində cümlənin tonu dəyişir. Məsələn, Təbrik, təbrik, dost! Cümləsində «edirəm» feili işlənmədən tamamlanmışdır. Bu vəziyyət yuxaprıda sadalan xüsusiyyətlərin yaranmasına səbəb olmuşdur. *Çinar da yerindədir, kəhriz də [75, s.201]; Bəli, məni axırıncı yedirdilər. Özü də yeməkxananın soyumuş zalında yox, mətbəxtdə, ahxanada [74, s.108]; Buyur, oğul,dedi. Mənə görə qulluq!* [36, s.101]

Yarımçıq cümlələr də mətn vahidi kimi nitqdə geniş fəaliyyət göstərir. Yarımçıq cümlənin də qənaət resursları [ehtiyatları] genişdir. Bu ehtiyatlar həm kontekstual, həm situativ, həm də qoşulma yarımçıq cümlələrdə özünü göstərir.

Bunu yarımçıq cümlənin öncəki forması ilə müqayisə etmək olar: *Biz hamımız namusumuzu xilas etmək üçün son damla qanımızadək vuruşmağa hazırıq!- deyə başın yuxarı qaldıran gizir dilləndi.*

Sonrakı forma: *Hazırıq!...* [36, s.88]

Mətni [kontekstual] yarımçıq cümlələrdə buraxılmış üzv ya öncəki cümlələrdə, ya mövcud cümlələrin komponentlərinin birində olur, yaxud tərkib üzvlərdən biri ilə müəyyənləşir. Məs:, *Qoçəlinin göstərdiyi səmtə baxdıqdan sonra Toğrul soruşdu:*

— Kənddən bura maşınla neçə dəqiqəlik yoldur?

— Ən çoxu on dəqiqə. [36, s.201]

Situasiya ilə əlaqədar yaranan yarımçıq cümlələrdə buraxılmış üzv müəyyən şəraitlə, mimika və jestlərlə müəyyən olunur. Mətni və situativ yarımçıq cümlələr arasında o qədər də kəskin sərhəd qoymaq olmaz, çünki bədii əsərdə mövcud situasiya təsvir edilir və nəticədə mətnlə simtuasiya birləşmiş olur. Məs:, *Qoşqar əlini havada yellədi.— Buraya…. [36, s.106]; Axsaqqal kişi Qədirə him elədi: —Yeyin… [89, s.201]; Qədir çarığınn ucu ilə girdə kişinin ayağına toxunub, him elədi: — Qaraltı! [89, s.191].*

Qoşulma yarımçıq cümlələr nəsr mətnlərində kifayət qədər işlənir. Nəsr mətnlərində qənaət yaradan vasitə kimi qoşulmaların meydana çıxması bir sıra halların nəticəsi olaraq izah oluna bilər: gözlənilmədən, qəflətən, birdən-birə ağla gələn fikir kimi; əlavə mühakimə kimi; öncə deyilənin izahı kimi; hərəkətin şəraitinin dəqiqləşdirilməsi və ya əşyanın, şəxsin keyfiyyəti kimi; gözlənilənə tam əks fikir ifadə edən konstruksiya kimi; ikiplanlı və ya çoxplanlı sintaktk konstruksiya kimi. Onların ifadə etdiyi lakonik fikir mətn proqressiyası üçün məntiqi sıçrayış təşkil edə bilir. və s. Təbii ki, bunların sayını artırmaq da olar.

Məs:, *Uşağın görkəmində utançaqlıq əlamətləri sezilirdi. Danışığında, hərəkətində də. [36, s.301]; Nökərlər özlərini itirdilər. Ömürlərində belə dəhşətli səs eşitməmişdilər. O da Qıssa xanım da… [89, s.93].*

Parselyasiya hadisəsinin meydana gətirdiyi qoşulma yarımçıq cümlələrdən istifadə edilərkən, bazis cümləyə qoşulan parselyatlar silsiləsinin işlənməsi nəticəsində bütöv cümlənin strukturu bir neçə hissəyə parçalanır, müstəqil intonsiyalı fraza əmələ gətirir. Cümlənin ümumi qrammatik strukturunu saxlamaqla konstruksiyaya qoşulan parselyatlarda intonasiya və ritmin qalxıb enməsi poetik ovqat və qənaət yaradır. Bu da «yeni nəsr»in emosionallığını, ekspressivliyini təmin edir. Məs:, *Varlığını uzaqdan-uzağa duya bilərəm. Sahil kəndlərinin sakinləri dənizi görməsələr də, duyduqları kimi [61]; Mən dünyanı heç vaxt o rəngdə görməmişəm, nə dağları, nə otları, nə ağacları [30, s.42].*

Bu cümlələr üçün əsas səciyyəsi cəhət tərkibdən hər hansı bir üzvün buraxılmasıdır. Mübtəda və ya xəbərin buraxılması heç də fikrin yarımçıqlığına dəlalət etmir, başqa sözlə desək, yarımçıq fikir əmələ gətirmir. Mübtəda və ya xəbəri buraxılmış cümlə ancaq üzvün çatışmamazlığına, mövcud cümlənin quruluşuna görə yarımçıqdır, ümumi mətn həmin yarımçılığı çox asanlıqla doldurur. Odur ki, yarımçıq cümlələrdəki üzvlərə təcrid edilmiş şəkildə baxmaq olmaz. Onu işləndiyi yaxud başqa cümlələrdəki üzvlərlə əlaqəli şəkildə götürmək lazımdır. Yarımçıq cümlə hər hansı bir cümlənin tərkibindəki məntiqi cəhətdən mühüm olan üzvü nəzərə çarpdırmaq, nitqə qənaət, yüngüllük, səlislik, yığcamlıq vermək, lazımsız təkrarın qarşısını almaq məqsədilə işlədilir. *"Belə cümlələrdə ya əvvəl adı çəkilmiş, ya da şəraitdən məlum olan söz təkrar edilmir, bunun da nəticəsində nitq daha aydın, səlis və konkret olur*" [136, s.167]

Başqa bir müəllifin fikrincə, *qənət prinsipi nəticəsində ən çox yarımçıq cümlələr formalaşır, dialoq mühiti sadələşir və aydınlaşır* [150, s.132]. Bu fikirlər "*yarımçıq cümlənin üslubi-kommunikativ imkanlarından doğur*" [68, s.702]. Qənaətin kommunikativ aspektləri sırasında yarımçıq cümlənin müxtəlif tiplərinin xidmət etməsi birmənalıdır. Məs:,

— Bəs, belə olan yerdə, sizcə fikirləşmək danışmaqdan yaxşıdır?...

— Sözsüz. [89, s.51]; — Sağ ol, Mirzə Şəfi! Dünya durduqca… [89, s.38];

— Əlbəttə, hacı, zorla qalanda Qumrunu bəy aparar. Canavar qoyun aparan kimi. [114, s.49]

Kommunikasiya şəratində personajlardan biri nə isə öyrənmək istəyir, soruşur, o birisi isə qənaətə can ataraq yarımçıq cümlədən istifadə edir. Məs:,

Üzü nimçəyə oxşayan Xərasp boynunu üzadıb dedi:

— Ən yüksək müdriklik nədir?

— Qulaqla eştimək, gözlə görmək. [101, s.41]

Şah hər cavabdan başını razılıqla yelləyir, bundan sonra kahinlər növbə ilə soruşur, Zərdüşt cavab verirdi:

— Ən yaxşı at hansıdır?

— *Çapanda toz qaldırmayan və iz qoymayan…*

— *Qılıncın misilsizi neçə cür olur?*

— *Üç cür.*

— *Hansılardır? [46, s.48]*

Müasir linqvistikada ellipsis, yarımçıq cümlə, implikasiya, kompressiya, semantik sıxılma və s. dilin qənaət vasitələridir. Bunlar bir-biri ilə qarşılıqlı əlaqədədir. Ellipsis sintaktik cəhətdən linqvistik kompressiyanı gerçəkləşdirir. Kompressiya - informasiyanın maksimal həcmi, ellipsis dildə qənaət prinsipini bir vasitə olaraq reallaşdırır.

Müşahidələr göstərir ki, yarımçıq cümlədə qənaət aktivliyi çox yuksək olur. Nitqin güclü tələbinə görə belə cümlələrdə «artıq elementlər»ə yer verilmir. Cümlənin modeli, strukturu aktivləşir. Formal qənaət yaranır. Yəni informasiyavericilik cümlənin üzvlərinin kəmiyyətcə azalması hesabına yüksəlir. Yarımçıq cümlədə tire və digər durğu işarələri qənaət prinsipinə əsaslanır. Məs:, *Mən bu ağıcı sevəni görməmişdim - məhz çökəni. — Sizə kim lazımdır? — Yoldaş İsgəndərzadə. [62, s.108].*

Semantik qənaət pleonazm [artıqlıq] hadisəsilə də bağlıdır. Semantik qənaət nə zaman müşahidə olunur? T.A.Kolosova bu sualı belə cavablandırdı: "*O zaman söyləmin, konkret olaraq yarımçıq cümlənin strukturu [bütöv struktur] yüksəlir, yuxarı həddə qalxır, dərin struktur elementləri artır. Başqa bir tərəfdən semantik artıqlıq dərin struktur elementi kimi özünü göstərir. Beləliklə, semantik qənaət fikir elementi kimi implisit [gizli] təqdim olunur*" [134, s.103]

Nitq qənaəti-nitq prosesində söyləmin yuxarı strukturunun bir elementinin buraxılmasıdır:

1. Mübtəda buraxılır: *Əsdi [buraxılmış mübtəda: payız küləyi] Payız küləyi əsdi.*

2. Xəbər buraxılır: — *Kimlər çıxış edəcəklər? — Tələbələr [buraxılmış üzv: çıxış edəcəklər].*

Qənaətin dil vasitələrindən olan sintaktik vasitələr mətndə aktuallaşma yaradır. Sintaktik vasitə kitmi qoşulma konstruksiyalar bu vəzifəni yerinə yetirir. Məs.:, *Cavab əvəzinə, mənim gözlərim doldu… O qız Pəriyə oxşayırdı… «Pəri xanım və Alı xan»*

dastanındakı Pəriyə [29, s.41] -Ay rəhmətliyin nəvəsi, bu bədbəxtin heç kəsi yoxdu. Nə əri, nədə ki, uşağı. [29, s.108].

Qənaət dilin bir hadisəsidir. Qənaət prinsipinə praqmatik yanaşma nəticəsində subyekt və adresat nitqinin mövqeləri [intensiyası] öyrənilir, sosiolinqvistikada sosial amillərin təsiri rasional nitq davranışında; koqnitiv linqvistikada isə dildə qənaət freym nəzəriyyəsi ilə əlaqədə götürülür. Linqvistik tədqiqatlarda «ekonomiya» [qənaət] anlayışı «tendensiya» [ənənə], «prinsip», «qanun» anlayışları ilə uyğunlaşdırılır. Bir sıra dilçilər tendensiya [ənənə] və qənaətdən dil vasitəsi və dilin inkişafının ümumi qanunu kimi bəhs etmişlər. P.Paul və A.Martine öz tədqiqatlarında göstərmişlər ki, dildə qənaət həmçinin «qənaət prinsipi» adlanır; bu prinsipə görə informasiyanın çox böyük əksəriyyəti müəyyən vasitələr sərf olunmadan, xərclənmədən ötürülür» [139, s.381]

«Linqvistik qənaət» termini dillə bağlı qənaətləri əhatə edir. Burada əsas səbəb [amil] kimi dil dəyişmələri, nitq prosesində şərtləndirilmiş yığcam danışıq əsas götürülür. Fikrimizcə, qənaət söyləmin semantikası və nitq situasiyası arasındakı münasibəti ifadə edir, bu əlaqə daxilində *nitq yaxud situasiya qənaət*i terminlərindən istifadə olunur .

İnformasiya şüurun məhsulu, idrak və kommunikativ proseslərin təsvirində sintezləşdirməyə imkan verən abstraksiyadır. İnformasiya efektivliyin qiymətləndirmə göstəricisidir. Bu baxımdan qənaət informasiya üçün mühüm əlamətlərdəndir. Hamı istəyir ki, düşüncəsini sözlərə, cümlələrə, mətnlərə qənaət etməklə çatdırsın.

Qənaət olunmuş mətnin təhlilində bu keyfiyyətlər nəzərə alınmalıdır. Belə mətnlər esse janrındakı mətnlər kimi də sayıla bilər. Həmin mətnlərdə yüksək səviyyədə qənaət vardır. Xüsusi konstruksiyalar, effektiv strukturlaşma, yüksək dərəcəli ümumiləşdirmə mətnin komponentlərində — giriş, problemin formalaşması, əsas hissə - süjetin inkişafı, kommentariya — özünü büruzə verir. Qənaət, o cümlədən semantik qənaət istiqamətləndirilmiş fenomendir. Onun istiqamətlərini aşağıdakı cümlə variantlarında da görmək olar:

Ana, çay!

Ana, mənə çay!

Ana, mənə bir stəkan çay!

Ana, mənə bir stəkan çay ver\\gətir!

Dildə bu cür sistem qənaətə bir tərəfdən ənənə keyfiyyətinə görə, digər tərəfdən isə dilin inkişafını müəyyənləşdirmək baxımından yanaşılmışdır. "İnsan sözü işlətməyə tənbəllik edir, həvəsi gəlmir". [106, s. 75-89]

Mətnin kondensasiyası və dildə qənaət məsələsi üzərində də dayanmaq lazım gəlir. Bəllidir ki, nəsr mətnlərində hadisələrin təsviri və ona uyğun informasiya sıxılır. Bunun səbəbi həmin mətnlərə xas diskurslara müxtəlif ekstralinqvistik amillər təsir göstərir. Bu amillər nəticəsində qənaəti yaradan dil vasitələri o mühitdə aktivləşir.

Əsas müddəa ondan ibarətdir ki, qənaət prinsipi - kommunikasiyada və qarşılıqlı ünsiyyət situasiyasında rasional seçimdir. Bu prinsip dil vasitələrindən minimum [az miqdarda] istifadə etməklə maksimum [optimum] məzmun və mahiyyəti ötürməkdir. Dildə qənaətin nəticəsi kimi qısa [sıxılmış] mətn meydana gəlir, struktur-semantik sıxılma [sıxlaşdırılmış] formalaşır. Beləliklə, dildə qənaət prinsipi dil vasitələrinin optimal seçmi ilə, formal qısalıq və mətnin semantik yükünün son dərəcə yığcamlığı ilə xarakterizə olunur.

Tələffüzün «yarımçıq tipi» ənənəsi dil vasitələrinin qənaəti ilə bağlıdır. Səs və səs birləşmələri dilin fonetik quruluşunda buraxılır. Morfoloji səviyyədə qrammatik formalar sadələşdirilir, bəsitləşdirilir, asanlaşdırılır. Nitq sintaksisində elliptiklik vasitələri nəinki cümlə səviyyəsində, həmçinin də sintaktik bütöv səviyyəsində müşahidə olunur.

Yazılı nitqdə qənaət üçün müxtəlif tip terminlər işlədilir: kompressiya, sıxılma, ixtisar, kondensasiya, kontaminasiya, mətnin struktur-semantik sadələşdirilməsi, minimal və maksimal [optimal, əlverişli] struktur formalar arasında əvəzlənmə məna yarımçıqlığı. Nəsr mətnlərinin formal strukturu üzərində apardığımız müşahidələr göstərir ki, bu sahədə bir çox istiqamətlərin öyrənilməsi zəruridir. Belə mətnlərin semantik planda tədqiqi [fikrin sadələşdirilməsi, asan şəklə salınması zonası; semantik kompressiyanın ifadə vasitələri]; Mətnin formal strukturunun təhlili [dilin müxtəlif səviyyələrində mətnin sıxılma

vasitələrinin dil vasitələrinin köməyilə təsviri]. Kompozisiyanın təhlili [sıxılmış kompozisiyanın təyini, kompozisiya elementlərinin bəzilərinin ixtisarı və s.]

Qənaət prinsipinin dil vasitələri ilə gerçəkləşməsi vasitələri funksional-sistem kimi təsvir olunur. Dilin sintaktik vasitələri kimi yarımçıq və elliptik cümlələr təhlil obyekti seçilir.

Beləliklə, nəticə göstərir ki, danışıq dili üçün səciyyəvi olsa da, müasir Azərbaycan nəsrində yarımçıq cümlənin və elliptik cümlənin müxtəlif tiplərindən geniş istifadə olunur. Canlı resurs kimi nəsrdə aktiv işlənən bu formalar və variantlar həm də dilin qənaət vasitələrini gerçəkləşdirir. Müəyyənləşir ki, ellipsis qənaət üçün effektiv alətdir, vasitədir. O cümlədən, yarımçıq cümlə də eyni funksiyanı yerinə yetirir. Əsas nəticələrdən biri bədii mətnin məzmun və mahiyyətinin kompressiyasıdır [sıxılmasıdır]. Bu hadisə nəticəsində, demək olar ki, mətnin semantik yükü azalır.

3.6. Çoxnöqtə qənaəti işarələyən punktuasiya göstəricisi kimi.

Azərbaycan nəsrində elə bir söz sənətkarı tapmaq çətindir ki, onlar əsərlərində çox nöqtə durğu işarəsindən istifadə etməmiş olsun və bu durğu işarəsi nəsr mətnlərinin ünsürləri, sintaktik bütövlər arasında qrammatik-semantik əlaqələrin ifadə vasitəsi rolunu oynayır, həm emosional səciyyəli olma cəhətdən, həm də üslubi baxımdan böyük əhəmiyyət kəsb edir. Nəsr əsərlərində çox nöqtənin funksiyası və qənaətə müvafiq bir şəkildə işlədilməsi yazıçının yaradıcılıq qayəsinə müəyyən istiqamət verir. Çox nöqtə işarəsinin nəsr mətnlərinin məzmununa, obrazlı mahiyyətinə əlavə etdiyi üslubi çalarların əhəmiyyəti və qənaət prinsipinə göstərdiyi xidmət barədə Azərbaycan dilçiliyində demək olar ki, ayrıca araşdırma işinə rast gəlmirik. Bədii mənanın tələblərindən asılı olaraq istifadə edilən bu durğu işarəsi qənaət prinsipinə uyğun olaraq bədii düşüncələrə genişlik, söz sənətkarının mühakimələrinə qısalıq gətirir və bu qısalıq həssas oxucunu silkələyir, onu çox nöqtə qoyulan yerlərdə dərindən düşünməyə vadar edir. Mətnlərdə elə spesifik cümlə tiplərinə rast gəlirik ki, onlarda qoşulma konstruksiya ilə çoxnöqtə durğu işarəsi

istifadə olunmuş cümlələr ardıcıl verilir və belə məqamlarda sintaktik yarımçıq cümlələrdə ekspessivlik keyfiyyət yüksək səviyyədə olur. Məs:, — *Bəli, mən ölmüşdüm. Ancaq kağızda, məktubda. Əslində isə* ... [44, s.13]. Burada özündən əvvəlki cümlədən qopub ayrılan konstruksiyada feilin təsdiq formasında işlənməli olan "ölmüşdüm" sözünə, ikincisində isə inkar formada olan "ölməmişdim" feilinə qənaət olunmuşdur.

Çox nöqtə dilin ümumi qrafik sistemində mühüm yer tutan punktuativ göstəricilərdən biridir və nəsr mətnlərində intensiv şəkildə istifadəyə cəlb edilməklə sintaktik bütövlərin həm əvvəlində, həm də ortasında və sonunda işlədilməklə nəsr dilində mənalı hissələrə çevrilir, yazıçılar tərəfindən yeri gəldikcə fəallaşdırılır və başqa sözlə desək, nəsrin dinamik və emosional bədii ovqatının genişlənməsində aktiv iştirakçı rolunu oynayır. Çox nöqtə durğu işarəsi vasitəsilə yazıçı bir tərəfdən qənaətə riayət edirsə, digər tərəfdən bədii təəssüratlar aləmini rəngarəng çalarlarla zənginləşdirir. Nəsr mətnlərində elə məqamlar olur ki, yazıçı söz və ifadələri hətta bütöv cümlələri işlətməyi lazım bilmir və belə məqamlarda üç nöqtəyə müraciət edir və bu durğu işarəsi vasitəsilə bədii fikirlərini aktuallaşdırır və bədii obrazın, detalın dolğunlaşmasına şərait yaradır. Nəsr kontekstlərinin ayrı-ayrı hissələrində müxtəlif məna çalarları təzahür edir və çox nöqtə işarəsi bu məqamlarda da fəallıq göstərərək, yazıçının bədii və estetik tələbatını ödəməyə xidmət göstərir. Bədii nitqin formalaşması və dolğunlaşması, eyni zamanda qənaətin yaranmasında da müstəsna rol oynayan çox nöqtənin üslubi cizgilərinin hərtərəfli bir şəkildə təhlilə cəlb edilməsi, fikrimizcə, bu mövzunu kifayət qədər aktual edir.

Azərbaycan dilçiliyində çox nöqtə işarəsinin istər şeir, istərsə də nəsr mətnlərində işlənmə yeri və üslubi imkanları haqqında ara-sıra müəyyən qeydlərə rast gəlmək olur. "*Çox nöqtə bir tərəfdən vergülə, o biri tərəfdən nöqtəyə yaxındır. Çox nöqtə adətən üç nöqtə şəklində olur. Sitatlarda özgəsinin nitqi kəsildiyi yerdə [sitatın əvvəlində, ortasında və ya sonunda] üç nöqtə qoyulur. Cümlənin ortasında, sonunda qoyulan çox nöqtə fikrin bitmədiyini göstərir. Fikrin bitməməsi müxtəlif səbəblərdən ola bilir*" [71, s.485]. "*...Onu davam etdirməyi ya müəllif lazım bilmir, ya gizli saxlamaq məqsədilə demir, ya da elə sözlər olur ki, onun deyilməsi cəmiyyət üçün məqbul deyildir, ya yaddan çıxmış olur,*

ya fikir başqası tərəfindən kəsilir, ya da nitq həyəcanlı olduğu üçün fasilələrlə danışmalı olur" [8, s.464]. Belə fikirlərlə və bu və ya digər şəkildə B. Xəlilovun "Müasir Azərbaycan dili. Sintaksis" [58, s.411], M.Hüseynovanın " Müasir Azərbaycan dili: punktuasiya məsələləri" [54, s.83-96], V.Dumanoğlu və İ. Əsgərin şərikli yazdıqları "Müasir Azərbaycan ədəbi dilində durğu işarələri" [27,s.109] adlı əsərlərində rast gəlmək olur.

Nəsr mətnlərində yazıçılarımız çox nöqtədən təsvir etdikləri hadisələrin, obrazların, personajların, motivlərin xarakter və məzmununu dolğun bir şəkildə vermək üçün daha çox istifadə edirlər və çox nöqtə işlədilən cümlələrdə həmin durğu işarəsi sintaktik bütövün ayrılmaz bir komponentinə çevrilir, emosional qüvvə kəsb, yazıçı tərəfindən təqdim edilən bədii effekti gücləndirir. Məs:, *Baharın nəfəsi duyulanda, yenə də... Yenə də oyanır, sevinir, yaşıl libasa bürünür, bir dünya yaraşıq olur. On ildi, yüz ildi bax beləcə gün-güzəran keçirir bu tut ağacı. Kölgəsində neçə-neçə süfrələr açılıb, toy-düyünlər olub, qız-gəlin karxana tutub, tiyanlar dolub-boşalıb, dinclik tapıb insanlar. İndi ... qarıyıb qartalıb, qocalıb, gücdən-taqətdən düşüb. Əvvəlki qəddi-qamətindən əsər-əlamət qalmayıb* [62, s.70].

Göründüyü kimi, yazıçı qocalmış tut ağacı barədə hiss və duyğularını emosional bir tərzdə vermək üçün bir abzas daxilində iki cümlədə çox nöqtədən istifadə etmiş və bu yolla tut ağacı motivi haqqında düşüncələrinə sürəklilik, axıcılıq, intensivlik bəxş etmişdir. Və nəsr dilində "... *çox nöqtə onun oxucuya bağışladığı hiss-emosional təsirlə daha artıq bağlıdır. O, hissi idrakla məntiqi idrakın qovuşduğu məqamın ifadəsidir*" [110;38;108;32;112,136].

Yazıçı yuxarıdakı abzasda altından qara xətt çəkilmiş sözlərdən sonra qəsdən susmuş, bir fikirdən başqa bir fikrə keçid edilməsini bildirməkdən ötrü qənaət prinsipi naminə çox nöqtədən istifadə etmişdir.

Çox nöqtə nəsr mətnlərinin həm dialoji, həm də monoloji nitq aktları üçün xarakterikdir. Məsələn, aşağıda verəcəyimiz dialoji nitq aktının sonuncu cümləsində ver xəbərinin yerinə çox nöqtədən istifadə edilməklə qənaətə düzgün əməl olunmuşdur:

—Bu yemişlər satdıqdırmı?

—Bəli.

—Beş on kilo... [106, s.25].

Əslində bəli söz-cümləsindən sonra da satdıqdır sözü işlənməli idi, lakin bəli sözü buna imkan vermədiyinə, yəni qənaətin ən mühüm sintaktik göstəricisi olduğundan həmin söz də ixtisar edilmişdir. Əgər həmin söz işlənsəydi, şübhəsiz ki, nitq aktında bir ağırlıq yaranardı. Çox nöqtə nəsr mətnlərinin monoloqlarında daha çox müşahidə olunur və sintaktik bütövün ayrılmaz bir tərkibinə çevrilməklə yanaşı, bədii məziyyətlərə aydın sezilən bir impuls verir. Məs:, *Üç-dörd kiloqram ağırlığında olan yemişin birini götürüb diqqətlə nəzərdən keçirdim. Necə də xoş ətir saçır, ilahi! — düşündüm. Üzərində qeybdən neçə-neçə cizgilər, çarpaz-çarpaz xətlər...* [106,25].

Yazıçı bir abzas həcmində yemişin xarici görünüşünü təsvir məqamında çox nöqtədən yararlanır və bu durğu işarəsindən qənaətə uyğun istifadədən aydın şəkildə sezilir ki, yemişin üzərindəki xətlər təkcə çalın-çarpaz olmaqla bitmir və onun üzərində digər cizgilər də mövcuddur. Nasir bu cizgilərə adi xətlər kimi baxmır, bədii düşüncələrini çox nöqtədən sonra da davam etdirərək: *Xəyallandım, mənə elə gəldi ki, bu, adi cizgilər yox, vaxtilə müəllim, qəzet redaktoru kimi gəzib-dolaşdığım çaylar, çəmənlər. meşələr, dağlar diyarının hələ dərk edə bilmədiyimiz hərflərlə yazılmiş salnaməsidir* [106, s.25]. Bunlar yazıçının fərdi və subyektiv bədii düşüncələrinin məhsuldur, həqiqi və obyektiv yöndən yanaşdıqda isə yemişin qabığının üzərində çalın-çarpaz xətlərlə bərabər qırıq-qırıq, əyri-üyrü, düz cizgilər də vardır ki, yazıçı sifətdən ibarət bu sinonimik cərgədən də istifadə edə bilərdi, belə olan halda çox nöqtəyə ehtiyac olmazdı, qənaət qanunu aradan qaldırılmış olardı.

Nəsr mətnlərinin sintaktik bütövlərində çox nöqtə vasitəsilə qırıqlıq, yarımçıqlıq halları daha çox müşahidə olunur ki, bu da "*hissi idrakla məntiqi idrakın qovuşduğu məqamın ifadəsi*" [144, s.137] kimi səciyyələndirilməlidir. Məs*:, Bir gün, bir həftə oldu, beş ay oldu ... Anam gəlib çıxmadı ki, çıxmadı*! [62, s.31-32].

Çox nöqtənin yerinə yazıçı altı, yeddi, səkkiz, doqquz, on, ay, il oldu ifadələrini də işlədə bilərdi, lakin həssas oxucu özünün idrakı ilə onları abstrakt şəkildə çox nöqtənin yerinə bərpa edə bilir və həmin cümlədə vaxt, zaman bildirən [gün, həftə, ay] sözlər ardıcıl sadalandığına, çoxluq təşkil etdiyinə görə bir neçəsi buraxılmışdır.

Bəzən yazıçı sintaktik bütövə daha qüvvətli və daha kəskin bir təsir gücü vermək məqsədi ilə sözü gözlənilmədən birdən-birə kəsir, cümləni yarımçıq saxlayır, yarımçıq qalan hissəni çox nöqtə işarələyir və belə hallar daha çox personajların həyəcanlarını vermək məqamında özünü göstərir. Məs:, *Qucağına atılmaq istədim. Ancaq ... Ancaq, sən demə, bayaqdan bəri yolunu gözlədiyim anam deyilmiş. Özgəsinin anasıymış* [62,s.33]. *Bax, bu da xatirə dəftərinin Xalxal səhifəsindən bir neçə sətir ... Naxçıvanın yaşıl inciləri arasında əmanət qoyub getdiyin Süleymanlı, İslamlı, Əlaqalı, Adilli anlarım ...* [62,s.46].

Bu nümunələrdə çox nöqtələrdən əvvəl gələn və xüsusi fasilə ilə deyilən məqamda təhkiyəçinin sanku kövrəkliyini, qəhər boğduğunu, nitqinin qırıldığını, linqvistik qənaətin yarandığını görürük, obrazın həsrətli ovqatını, iztirablarını duyuruq. Çox nöqtə qrafik işarəsinin tələbindən doğan intonasiya bu bədii təhkiyədən intisar tapan düşüncə və mühakimələr bir anlıq oxucunu öz ağuşuna alır, onu bir müddət narahat edir və təhkiyəçinin hiss və həyəcanının mənasını dərk etməyə istiqamətləndirir. Deməli, çox nöqtə vasitəsi ilə əldə olunan qənaət belə məqamlarda ən güclü bir ifadə qədər zəngin təsirə malik olur.

Qənaətin sintaktik göstəricisi kimi çox nöqtə istedadlı yazıçılar üçün olduqca güclü üslubi priyomlardan biridir. Nəsr mətnlərində elə cümlələrə rast gəlirik ki, həmin cümlələrin həm əvvəlində, həm də sonunda çox nöqtələrdən istifadə edilir, bu da emosional gərginliyin daha da artmasına xidmət göstərir və aşağıdakı sintaktik bütövlərdə olduğu kimi: ... M*əhkəmə prosesi başa çatdı. Ailə dağıldı ... Qohum olmuş iki nəsil arasında düşmənçiliyə çevrilən ədavət hələ də davam edirdi* [62, s.53].

Bu cümlələr yazıçı tərəfindən bir məhkəmə prosesində baş verən olayların son abzasında verilmişdir. Yazıçı birinci cümlənin əvvəlində istifadə etdiyi çox nöqtə

vasitəsilə demək istəyir ki, məhkəmədə çox sözlər söylənildi, yəni tərəflər bir-birlərini qədərincə ittiham etdilər və yazıçı bunları qəsdən vermir və həssas oxucu dərhal başa düşür ki, bu olayları daha geniş şəkildə təqdim etməyə heç ehtiyac da duyulmur. İkinci cümlənin sonunda işlədilən çox nöqtə təbii şəkildə onu diqtə edir ki, ailə dağılandan sonra hansı faciələr baş verə bilər və beləliklə, onlarla sözün, ifadənin, cümlənin çox nöqtə ilə əvəz olunması və yaxud buraxılması "*...nitqin ekspessivliyinə səbəb olur, həm də nitqə fasiləlik verir. Ekspessivlik, emosionallıq, həm personajların əhvali-ruhiyyəsini ifadə edir, nəzərə çarpdırır, həm də oxucunu, dinləyicini həyəcana gətirir*" [14, s.346,66,108;82, s.103; 97, s.38;102, s.103].

Nəsr mətnlərində bəzən personajın tərəddüdü nəticəsində müəyyən söz və ifadələr buraxılır, fikir yarımçıq, qırıq şəkildə ifadə olunur. Bu zaman nitqdə ifadənin "*yüksək kulminasiya nöqtəsi nəzərə çarpdırılır*" [14, s.348] və oxucu özünün təfəkkürünün gücü ilə həmin söz və ifadəni cümlədəki çox nöqtə yerinə bərpa edə bilir. Məs: *Tay biz hər yanda adı beddam olmuşuq. O kitabın adı gələn yerdə, başımızı yuxarı qaldıra bilmirik ...* [62, s. 43]. Bu cümlənin sonundakı çox nöqtə yerinə "xalq arasında biabır olmuşuq" cümləsini bərpa etsək, qənaət prinsipi yoxa cıxar.

Nəsr mətnlərinin dialoji nitq aktlarında bəzən çox nöqtədən yazıçının fərdi üslubuna uyğun olaraq bir neçə yerdə istifadə olunur və belə hallarda qənaətin intensivliyi daha da artmış olur. Məs:, *Pirverdi Kərəmin söhbətdən pozulduğunu görüb ona ürək-dirək verdi:*

— *Fikir eləmə, a Kərəm ... Sən eldən cida düşsən də rəiyyət sənnən öyünür ... Siz Niftalı koxanı öldürənnən bəri bəylərin, ağaların canına vəlvələ düşüb...* [30,67].

Aşağıdakı dialoji nitq aktının sual-cavab cümlələrində çox nöqtə işarəsi vasitəsilə qənaətin sürəkliliyi təmin olunmuş, emosional keyfiyyətin hissi tutumu maksimum dərəcədə yüksəldilmiş, qənaət prinsipinə də ciddi əməl olunmuşdur: *Kərəm başını buladı və soruşdu:*

— *Niyə, nəyin üstə, dalaşıblar?*

— *... Həmin haqq-hesabdı ... İsrafil ağa Mehdi Noxaya bir sillə ilişdirif ki...*

Qoca sərkarın söhbəti hamını maraqlandırdı. Kişi bir neçə ay bundan əvvəl baş vermiş əhvalatı nəql etdi ...; ... Kənddən dörd-beş verst aralı, obanın günbatan səmtində, iki il bundan qabaq çəkilmiş Bakı –Tiflis dəmir yollarının üst tərəfində ilanyalı bir təpə var [30, s.69].

“ Niyə, nəyin üstə, dalaşıblar”? – Kərəmin sualının cavabı əsərdə 4 səhifə həcmində bədii şəkildə şərh edilir və burada təxmini olaraq çox nöqtədən 15 -ə qədər cümlədə istifadə olunur ki, oxucu bu durğu işarəsi qoyulan yerlərdə gərgin düşüncələrə dalır. Akademik T.Hacıyev qrafik-üslubi əlamətlərin yaradıcılıq və sənətkarlıqla sintezini xarakterizə edərək göstərir ki, “*Cümlənin sonunda bir nöqtə əvəzinə üç nöqtə qoyulur. Oxucu düşüncəli qalır, bilmir mətləbi necə həll etsin — başqalarındakı düşüncəli finaldan fərqli olaraq, burada oxucunun sualın cavabına tutuşmurlar, oxucunu öz sualları ilə oyatdıqları emosiyaların əlində qoyurlar — bunun nəyi pisdir ki? Qoy oxucu dərin-dərin düşünsün, emosiya soyuyunca [sualın cavabı tapılmasa da] onun əlində əsir-yesir qalsın*” [40, s.170].

Qrafik vasitə və qənaətin linqvistik göstəricisi kimi çox nöqtə qaba, vulqar sözlərin nəşr mətnlərində işlədilməsi, yəni həmin sözlərin əvəzinə bu qrafik işarədən istifadə edilməsi də mühüm bədii yaradıcılıq faktıdır. Belə olan halda “... *müəyyən bir vulqar sözü söyləmək əvəzinə susmaq, fikri yarıda saxlamaq, sükutla keçinmək*” [71, s.199] yazıçı üçün düzgün bədii forma məsələsi olmaqla bərabər, sosial etikanın, nəzakət qaydalarının pozulmaması ilə də bağlıdır. Məsələn, aşağıdakı dialoji nitq aktının birinci cümləsində hədələmə məqamında müəyyən vulqar ifadə buraxılmış, üçüncü cümlədə vulqarizmin biri işlədilsə də digərləri çox nöqtə ilə əvəz edilmişdir ki, bütün bunlar qarşıdakı şəxsə fikri daha kəsərli çatdırma məqsədi güdmüş, personajın mənfi keyfiyyətlərini açıb-göstərməkdən ötrü edilmişdir: — *Sizə belə divan tutmasam ... qanan döysünüz! Gedin ölünüzü də xarabanızda basdırın! Haranı əkdirirəm sümük çıxır, köpək uşağı ...* [30, s.12].

Bəzən yazıçı personajın hiss-həyəcanlarını daha təsirli çıxması, eyni zamanda qənaətə əməl etmək məqsədilə müəyyən sintaktik bütövlərdən sonra çox nöqtədən

istifadə edir və belə cümlələr personajların hissi vəziyyətini bildirir, həm də oxucunun həmin hadisələrə və eyni zamanda çox nöqtə işarəsinə diqqətini daha çox cəlb edir. Məs:, *Sərkər də qəlyanını sümürə-sümürə elə bunu dedi:*

— *Ora da Kəsəməndir ... Ölülər Kəsəməni ... Bizim də son köçümüz oradı ... Dədə-babaların yanı! ...*

Kərəm dilləndi:

— *Birinin damını uçursalar o, özünə təzəsini qura bilər. Əmbə, ölü özünə təzədən ev tikməyəcək ... Onun xatirəsi ürəklərdə, cəsədi torpaqlardadır* ... [30, s.72].

Ümumxalq dilində xüsusi bir təbəqə, böyük bir lay təşkil edən vulqar söz və ifadələr nəsr dilində müxtəlif fərdlər arasında ciddi, kəskin münasibətin ifadəçiləri kimi fəaliyyət göstərir və onların ixtisar edilmiş, çox nöqtə vasitəsilə verilən halları da az deyildir. Qənaət üçün bu hal da təbiidir, çünki söz sənətkarı obrazı, surəti, personajı bir insan kimi təsvir etmək, onun ictimai həyatda, məişətdə mövqeyini dəqiq göstərmək və aydınlaşdırmaq, digər obrazlara, müxtəlif hadisələrə münasibətini təbii və həyati şəkildə əks etdirmək məqamlarında vulqarizmlərə də müraciət etməli olur və bəzən onları ixtisara salır, bəzən isə böyüməkdə olan gənc nəslin zövqünü korlamamaq məqsədilə bu leksik vahidləri çox nöqtə ilə əvəz edir. Məsələn, yazıçı aşağıdakı dialoji nitqin son cümləsində vulqarizmlərin mühüm bir qrupundan olan kobud söyüş sözünün işlədilməsini məqsədəuyğun bilmədiyindən onu çox nöqtə işarəsi ilə verməyi məqbul saymış, sükut manerasına üstünlük verməli olmuşdur: — *Dərvişin əkənin də, doğanın da ənkə böyüyün ənginə* ... [77, s.310]. Burada F. Kərimzadənin “Xudafərin körpüsü” romanının personajlarından biri olan Həmid bəy dərvişlərin gecə ikən qaçdıqlarını eşidən momentdə, yəni hirslənmə məqamında çox nöqtə ilə əvəz edilən söyüş sözünü işlətməli olmuşdur və söz sənətkarı əsərin dilini korlamamaq, oxucunu iyrəndirməmək məqsədilə həmin leksik vahidi olduğu kimi işlətməmişdir. Azərbaycan dilçiliyində kobud, nalayiq söz və ifadələrin nəsr mətnlərində olduğu kimi işlədilib-işlədilməməsi məsələsi açıq şəkildə qalır, nəzəri şəkildə, elmi baxımdan hərtərəfli araşdırılması öz tədqiqini gözləyir.

Fikrimizcə, ustad sənətkarlarımızın əsərlərinin dili bu vacib məsələnin araşdırılması üçün zəngin material verir.

Bəzi əsərlərdə müəyyən məqamlarda obrazın nitqinin yarımçıq kəsilməsi, nalayiq söz və ifadələrin sükut manerasının ümumi tələbinə uyğun olaraq ixtisar edilməsi qənaətin mühüm göstəricilərindəndir. Məsələn: *Arvad! Görmürsən mənə deyir ki, başına bir daş vurram! O haranın ... ki, mənə daş vursun ... Xanım Əminənin sərf etdiyi bu iyrənc kəlmə bütün ətrafdakıları diksindirdi* [89, s.102].

Nəsr parçasının sonuncu cümləsindən tam şəkldə anlaşılır ki, Xanım Əminənin nitqində istifadə etdiyi ifadə iyrənc kəlmədir və yazıçının həmin cümlə vasitəsilə izahatında da bunu aydın şəkildə sezirik.

Nəsr mətnlərində çox nöqtə durğu işarəsi əksər məqamlarda qənaətin linqvistik göstəricisi kimi çıxış edir. Digər üslubi priyomlarla da təzahür etməsi geniş şəkildə müşahidə olunur. Sintaktik bütövlərdə çox nöqtə işarəsinin köməyi ilə əldə edilən əhval-ruhiyyə, psixoloji momentlər deyilmiş söz və ifadələrdən daha güclü olur və söylənilməmiş fikirlər, yarımçıq, qırılmış söz və ifadələri abstrakt bir şəkildə yerinə bərpa etmək asanlıqla mümkün olur. Nəsr mətnlərinin tərkibində sintaktik bütövlərin əvvəlində, otasında, sonunda qoyulan çox nöqtə işarəsi oxucunu dayandırmağa sövq edir, sanki bir siqnala çevrilir, onu daha diqqətli olmağa məcbur edir. Qənaət qanununa xidmət edən çox nöqtə işarəsi yazıçının tendensiyasına qətiyyən mane olmur, əksinə söz sənətkarının canlandırdığı duyğu və düşüncələrini yığcam, lakonik bir şəkildə, yüksək bədii bir formada verməyə xidmət göstərir.

Nəticə

Azərbaycan nəsr mətnlərində linqvistik qənaətin təzahür səviyyələri mövzusu üzrə apardığımız tədqiqat işi bizə aşağıdakı nəticələrə gəlməyə əsas vermişdir :

1. Dil qanunauyğun inkişafında daima qənaətə meyliliyi özündə şərtləndirir, artıqlığa çevrilən elementləri normalaşma halı kimi özündən kənarlaşdırır. Müəyyən elementlərin ifadəsi dildə artıqlıq yaratdığı üçün lüzumsuz görünür. Qənaət bütün dil vahidləri üzrə baş verən bir linqvistik prinsip kimi nitq fəaliyyəti ilə əlaqə vəhdətində özünü təzahür etdirir. Nəsr mətnlərində qənaət formaları heç vaxt, yəni istifadə edildiyi məqamlarda qeyri normallığa səbəb olmur, əksinə, dil vahidlərinin norma prinsiplərinə uyğunlaşmasına xidmət edir. Rus və Avropa dilçiliyində qənaət prinsipinin tədqiqi vəziyyəti qənaətbəxş olsa da, bu fikri Azərbaycan dilçiliyi barədə söyləmək çətindir. Nəsr mətnlərində qənaətin təzahür səviyyələri ilk dəfə olaraq Azərbaycan dilçiliyində bu tədqiqat işində yerinə yetirilir.

2. Psixolinqvistika elminin metod və üsulları ilə qənaət prinsipinə yanaşdıqda aydın olur ki, nitqdə konkretlikdən ümumiliyə doğru inkişafla əlaqədar olaraq dil sistemi təfəkkürə münasibətində müəyyən dəyişikliklərə məruz qalır və qənaət bu dəyişikliklər prosesində özünü bariz şəkildə göstərir. Qənaətə tarixi-müqayisəli müstəvidən baxdıqda müəyyənləşdiririk ki, tarixi inkişaf nəticəsində dil mürəkkəblikdən bəsitliyə, qısalaşmaya, lakonikliyə doğru yol keçmiş, müəyyən parametrlər üzrə sözün bu və ya digər səsinin, morfemin elementlərinin, sintaqmatik məlum üzvlərinin qanunauyğun linqvistik hal kimi ellipsisə uğraması hesabına baş vermişdir.

3. Nəsr mətnlərində fonetik səviyyədə qənaət sözlərdə sait və samitlərin ixtisar edilməsi ilə aşkara çıxarılır və müəyyənləşdiririk ki, belə səviyyədə qənaət təsadüfi, ixtiyari xarakter daşımır, müəyyən dil normalarına əsaslanan qanunauyğunluqlar sistemi kimi özünü göstərir.

4. Nəsr mətnlərində leksik səviyyədə qənaət prinsipi aktiv şəkildə təzahür edir və onlar bədii ünsiyyətdə, cümlələrin texniki və üslubi tərtibində mühüm rol oynayaraq

mətnin müəyyən sahəsində işlədilməsindən asılı olaraq yazıçı tərəfindən aydın görünüş mövqeyinə gətirilir təsvir olunan situativ-vəziyyətin yığcam, lakonik, qısaldılmış biçimlərdə canlandırılmasını təmin edir.

5. Nəsr mətnlərində morfoloji səviyyədə qənaət müəyyən dil vahidlərində şəkilçilərin ixtisar edilməsi ilə baş verir. Bədii əsərlərin dilində hal, mənsubiyyət, xəbərlik kateqoriyasının morfoloji göstəricilərində situasiyadan asılı olaraq qənaətə meyliliklə bağlı əlverişli üslubi imkanlar olur və söz sənətkarları məna – ekspessiv çalarlıqlar, ritorik, bədii tələblər əsasında bunlardan məharətlə istifadə etmişlər.

6. Təhlil prosesində nəsr mətnləri üzrə sintaktik səviyyədə qənaət prinsipinə bir qədər geniş prizmadan yanaşmağı zəruri hesab edib, zəngin nəsr materialları əsasında müəyyənləşdirmişik ki, cümlənin məqsəd və intonasiyaya görə növlərində, ümumi şəxsli cümlələrdə, şəxssiz cümlələrdə, yarımçıq cümlələrdə, adlıq cümlələrdə, söz-cümlələrdə, vokativ cümlələrdə, punktuasiya göstəricisi olan çoxnöqtə durğu işarəsi ilə yaranan qənaət prinsipi həm ellipsisləşmə, həm də yazıçının üslubi əməliyyatı ilə bağlı meydana çıxan qənaət üçün effektiv linqvistik göstərici rolunu oynayır.

7. Nəsr mətnlərinin nəqli, sual, nida, əmr cümlələrində qənaət bədii-üslubi xüsusiyyətlidir. Yazıçının hissi mənbəyinin fəallığında bu tip cümlələr də mühüm yerlərdən birini tutaraq onların formal-semantik qənaətli ifadəsinə şərait yaradır. Mətnin təşkilində, cümlə düzümündə qənaət prinsipinə meylilik zahiri struktur cizgiləri ilə bərabər, ümumi mətni fikri-emosional cəhətdən zənginləşdirmə və bədii mənalandırma vasitəsidir. Buna görə də qənaət prinsipi tətbiq edilmiş məqsəd və intonasiyaya görə cümlə növlərinin məna çalarlarına, üslubi fəallığına görə olduqca tutumludur, oxucunun qavrama fəaliyyətinə olduqca müsbət təsir göstərən linqvistik faktlardandır.

8. Nəsr mətnlərində xalq dilinin güclü təsiri və təması aktiv səciyyədə özünü göstərir, xalq ruhunun, milli koloritin sadə və təbii verilməsində digər sintaktik konstruksiyalarla bərabər ümumi şəxsli və şəxssiz cümlələrin qənaət şəklinə salınmış formaları da mühüm rol oynayır.

9. Nəsr mətnlərinin strukturunda təktərkibli cümlə növlərindən biri kimi adlıq cümlələr də mühüm yer tutur və onlar əşyanın, hadisənin mövcud olduğunu, varlığını intonasiyanın köməyi ilə təsdiq edən sadə cümlə şəklində meydana çıxır və qənaətə müvafiq olaraq bunlar mikromətnin ümumi struktur-məna yükünü, məzmunun semantik sıxılma mexanizmini şərtləndirir.

10. Dilin daxili qanunları əsasında yaranan və inkişaf edən söz-cümlələr və vokativ cümlələrin ifadəlilik imkanlarından söz sənətkarlarımız səmərəli şəkildə bəhrələnmiş, daha çox dialoji nitq aktlarında bu sintaktik vahidlərdən qənaət prinsipinə uyğun bir tərzdə istifadə etmiş, nəsr mətnlərində semosioloji cəhətdən təkrarçılığa və yaxud heç bir yabancı ünsürə yol verməmişlər.

11. Nəticə göstərir ki, danışıq dili üçün səciyyəvi olsa da, müasir Azərbaycan nəsrində yarımçıq cümlənin və elliptik cümlənin müxtəlif tiplərindən geniş istifadə olunur. Canlı resurs kimi nəsrdə aktiv işlənən bu formalar və variantlar həm də dilin qənaət vasitələrini gerçəkləşdirir. Müəyyənləşir ki, ellipsis qənaət üçün effektiv alətdir, vasitədir. O cümlədən, yarımçıq cümlə də eyni funksiyanı yerinə yetirir. Əsas nəticələrdən biri bədii mətnin məzmun və mahiyyətinin kompressiyasıdır [sıxılmasıdır]. Bu hadisə nəticəsində, demək olar ki, mətnin semantik yükü azalır.

12. Nəsr mətnlərində çox nöqtə durğu işarəsi əksər məqamlarda qənaətin linqvistik göstəricisi kimi çıxış edir. Digər üslubi priyomlarla da təzahür etməsi geniş şəkildə müşahidə olunur. Sintaktik bütövlərdə çox nöqtə işarəsinin köməyi ilə əldə edilən əhval-ruhiyyə, psixoloji momentlər deyilmiş söz və ifadələrdən daha güclü olur və söylənilməmiş fikirlər, yarımçıq, qırılmış söz və ifadələri abstrakt bir şəkildə yerinə bərpa etmək asanlıqla mümkün olur. Nəsr mətnlərinin tərkibində sintaktik bütövlərin əvvəlində, otasında, sonunda qoyulan çox nöqtə işarəsi oxucunu dayandırmağa sövq edir, sanki bir siqnala çevrilir, onu daha diqqətli olmağa məcbur edir. Qənaət qanununa xidmət edən çox nöqtə işarəsi yazıçının tendensiyasına qətiyyən mane olmur, əksinə söz sənətkarının canlandırdığı duyğu və düşüncələrini yığcam, lakonik bir şəkildə, yüksək bədii bir formada verməyə xidmət göstərir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Abbasov Ə., Əliyev H. Müəyyən şəxsli sual cümləsinin semantikasında intonasiya. Linqvistika problemləri. Beynəlxalq elmi jurnal //. Ə. Abbasov, H. Əliyev. – Bakı, 2021, №2, – s.246-253
2. Abbasov Ə.M. Sual cümləsinin struktur-modal semantikası. "Azərbaycan dili və ədəbiyyat tədrisi": elmi-metodik jurnal, // Ə.M. Abbasov. – Bakı, 2021, №2, – s.35-39
3. Abbasova R. Yarımçıq cümlələrin kommunikativ tipləri. Dilçilik İnstitutunun əsərləri, // R. Abbasova. – Bakı, "Elm və təhsil", 2018, №1, – s. 201-210
4. Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs / Ə. Abdullayev, – Bakı: Zərdabi LTD MMC, – 2011, – 272 s.
5. Abdullayev Ə. Mətni anlama modelləri / Ə. Abdullayev, – Bakı: Səda, 1999, – 344 s.
6. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. / Ə. Abdullayev, Y.Seyidov, A. Həsənov – Bakı: Şərq-Qərb, – 2002 s.
7. Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri /.Abdullayev Ə.Z. – Bakı, Azərbaycan Dövlət Universiteti nəşriyyatı, 1992, 330 s.
8. Abdullayev Ə.Z., Cəfərov N.Q., Seyidov Y.M., Həsənov A.Q. Müasir Azərbaycan dili. Sintaksis. / Ə.Z.Abdullayev, N.Q.Cəfərov, Y.M.Seyidov, A.Q Həsənov. – Bakı, "Maarif", – 2009, s.
9. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Yenidən işləmiş və əlavələr edilmiş ikinci nəşri/ K.M.Abdullayev– Bakı, MTM-İnnovation, 2016, – 360 s.
10. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.M. Abdullayev, – Bakı, 1999, – 282 s.

11. Adilov M.İ. Azərbaycan dilində sintaktik təkrarlar / M.İ.Adilov, – Bakı, 1974, Elm, – 233 s.
12. Ali təhsilin magistr pilləsi üçün "Koqnitiv dilçilik" fənninin proqramı / Tərtibçi:Abdullayev Ə.Ə. "ADU" nəşriyyatı, MMC, – Bakı, 2011, –16 s.
13. Anar. Sizsiz / Anar. –Bakı, "Gənclik", 1992, –502 s.
14. Azərbaycan bədii dilinin üslubiyyatı. Oçerklər /Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutu ; red. M. Ş. Şirəliyev, Z. İ. Budaqova. – Bakı, "Elm", 1970, –360 s. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000008199
15. Babayeva M.R. Lirik söz təhkiyəsində nida və sual intonasiyası // M.R.Babayeva Linqvistika problemləri. Beynəlxalq elmi jurnal. – Bakı, 2021, №2, –s.89-100.
16. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları / H. Bayramov, – Bakı, "Maarif", 1978, – 176 s.
17. Bayramov İ. Müasir Azərbaycan dilində isim / İ. Bayramov, Nizami adına Dil və ədəbiyyat İnstitutunun əsərləri. Azərb. SSR EA nəşriyyatı, –Bakı, 1957, – s.62-67. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000006930
18. Bəşirov K.K. Türk dillərinin müqayisəsi; oğuz qrupu türk dillərində morfoloji kateqoriyalar / K.K. Bəşirov. Dərs vəsaiti. – Bakı, "Elm və təhsil", 2018, –408 s.
19. Bəylərova A. Bədii dildə üslubi fiqurlar / A. Bəylərova. – Bakı, "Nurlan", 2008, – 210 s. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000068325
20. Budaqova Z.İ. "Cümlənin ifadə məqsədinə görə növləri" // Z.İ. Budaqova, Azərbaycan bədii dilinin üslubiyyatı. – Bakı, "Elm", 1970, – s.263-280.
21. Budaqova Z.İ. Müasir Azərbaycan ədəbi dilində sadə cümlə / Budaqova Z.İ., Azərb. SSR EA nəşriyyatı, – Bakı, 1963, – 224 s.
22. Cəfərov S. Müasir Azərbaycan dili (Adlar və onları düzəldən şəkilçilər) / S. Cəfərov, – Bakı, 1949, –196 s.
23. Cəfərova Ç. Müasir rus dilində denotivasiya və sadələşdirmə // Ç. Cəfərova, –Bakı, Filologiya məsələləri, №6, 2017, – s.160-164.

24. Dəmirçizadə Ə.M. Azərbaycan dilinin üslubiyyatı / Ə.M.Dəmirçizadə, –Bakı, Azərtədrisnəşr, 1962, –271 s.
25. Dəmirçizadə Ə.M. Azərbaycan ədəbi dilinin tarixi / Ə.M. Dəmirçizadə, I hissə, – Bakı, "Maarif", 1979, –340 s.
26. Dilçilik ensiklopediyası. II cild (dərs vəsaiti) / Prof. F.Veysəllinin redaktəsi ilə. – Bakı, Mürtəcim, 2008, – 528 s.
27. Dumanoğlu V., İlkin Ə. Müasir Azərbaycan ədəbi dilində durğu işarələri / V.Dumanoğlu, Ə. İlkin, – Bakı, "Elm və təhsil", 2016, –182 s.
28. Elatlı E. Adsız tablo / E. Elatlı, – Bakı, "Elgün", 2013, – 222 s.
29. Elatlı Elxan. Ön dördüncü adam / E. Elatlı, – Bakı, "Teas press", 2017, –332 s.
30. Eyvazlı Fərman. Qaçaq Kərəm / [roman], Fərman Eyvazlı, – Bakı, "Yazıçı", 1986, –416 s.
31. Əfəndiyeva T.Ə. Elliptik cümlə. "Azərbaycan dilinin sintaksisnə dair tədqiqlər", // T.Ə. Əfəndiyeva, – Bakı, Azərb. SSR EA nəşriyyatı, 1968, – s.118-121.
32. Əfsəroğlu Kamil. Tüfəng açıldı / [hekayə və romanlar]. Kamil Əfsəroğlu, – Bakı, "Qanun", 2015, –368 s.
33. Əhmədzadə G. Nəsr mətnlərinin monoloqlarında funksional nəqli cümlə tipinin struktur-semantik xüsusiyyətləri // G. Əhmədzadə, Linqvistika problemləri. Beynəlxalq elmi jurnal. –Bakı, 2021, №2, – s.176-182.
34. Əsədova S.S. İngilis və Azərbaycan dillərində zoonimik –paremiologiya. S.S. Əsədova // Linqvistika problemləri. Beynəlxalq elmi jurnal. – Bakı, 2021, №2, – s. 127-137.
35. Əsgərova B.A. Mətnin informasiya strukturunda partiklların rolu // B.A. Əsgərova. Linqvistika problemləri. Beynəlxalq elmi jurnal. – Bakı, 2021, cild 2, №2, – s. 119-126.
36. Fazil Güney [Abbasov] Qara qan [roman] / II kitab, Fazil Güney, – Bakı, "Apostrof" çap evi, 2009, –456 s.

37. Hacıyev K.B. Azərbaycan dilində xüsusi nitq hissələri / K.B.Hacıyev –Bakı, “Çaşıoğlu”, 1999, –164 s.
38. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi / T.İ Hacıyev. – Bakı, I cild, 1976, –156 s.
39. Hacıyev T.İ. Sabir: qaynaqlar və sələflər / T.İ. Hacıyev, –Bakı, “Yazıçı”, 1980, – 175 s.
40. Hacıyev T.İ., Vəliyev K.N. Azərbaycan ədəbi dili tarixi.// T.İ. Hacıyev, K.N. Vəliyev, –Bakı, 1983, –182 s.
41. Hacıyeva B. Türkiyə türkcəsində leksik yolla söz yaradıcılığının əsas xüsusiyyətləri // B. Hacıyeva, Türk filologiyası, №2, – Bakı, 2021, – s.22-28.
42. Hacıyeva N. Azərbaycan dilində müraciət məqsədilə işlədilən vokativlər. “Azərbaycan dilində nitq etiketləri” // [məqalələr toplusu], N. Hacıyeva, – Bakı, 2016, – s. 100-107.
43. Hacıyeva N. Azərbaycan dilində vokativlər. / N. Hacıyeva, – Bakı, 2017, –143 s.
44. Hasilova Xalidə. Xatirənin sorağı ilə. Hekayələr və povestlər. Xalidə Hasilova, – Bakı, “Yazıçı”, 1983, –240 s.
45. Həbibova K.Ə. “Kitabi-Dədə Qorqud” dastanlarına dilində qənaət prinsipinin psixolinqvistik şərhi.// K. Həbibova, “Türkologiya” jurnalı, №4, – Bakı, 2011, – s.75-83.
46. Həsən Mirzə. Hanı o səndəki el, Dərələyəz?! / Mirzə Həsən, –Bakı, “Qismət”, – 799 s.
47. Həsənov H. Azərbaycan dilinin frazeologiyası. / H. Həsənov, – Bakı, 1979, – 65 s.
48. Həsənova K. N. Mənsubiyyət kateqoriyasında qənaətin təzahür imkanları. “Linqvistika problemləri” Beynəlxalq Elmi Jurnal, –Bakı cild 3, №2, 2022, s.20-27.
49. Həsənova K.N. Azərbaycan və dünya dilçiliyində qənaət prinsipinin tədqiqi vəziyyəti ilə bağlı bəzi qeydlər. “Linqvistika problemləri” Beynəlxalq Elmi Jurnal, –Bakı, cild 3, №1, 2022, s.71-78 2022

50. Həsənova K.N. Həsən Mirzənin şeir yaradıcılığında qənaət qanunu lakonikliyi, yığcamlığı şərtləndirən amil kimi. // K.N. Həsənova. Linqvistika problemləri. Beynəlxalq elmi jurnal. – Bakı, 2021, №4, –s.63-70.
51. Həsənova K.N. Mahirə Nağıqızının şeir yaradıcılığında sintaktik təkrarların üslubi xüsusiyyətləri. // K.N. Həsənova. Linqvistika problemləri. Beynəlxalq elmi jurnal. – Bakı, 2020, №2, – s.135-142.
52. Həsənova K.N. Nəsr mətnlərində qənaətin fonomorfoloji səviyyədə təzahürü. // K.N. Həsənova. Linqvistika problemləri. Beynəlxalq elmi jurnal. –Bakı, 2021, №2, – s. 138-144. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000009294
53. Hüseynov M. Dil və poeziya. / M. Hüseynov, – Bakı, Elm, 2008, –434 s.
54. Hüseynova M.N. Müasir Azərbaycan dilində punktuasiya məsələləri. / M.N. Hüseynova , – Bakı, 2017, – 244 s.
55. Hüseynova M.N. Türk dillərində labiallaşma hadisəsi və onun dialekt və şivələrdə substrat qalıqları. // M.N. Hüseynova. Linqvistika problemləri. –Bakı, 2021, №1, – s.10-18.
56. Xanalıyeva A. Azərbaycan dilində frazeoloji sinonimlərin frazeoloji variantlarından fərqləndirilməsi meyarları //. A. Xanalıyeva. Filologiya məsələləri, –Bakı, №6, 2017, – s.137-143.
57. Xəlilov B.Ə. Müasir Azərbaycan dili. Fonetika /. B.Ə. Xəlilov, – Bakı, "Bakı çap evi" nəşriyyatı, 2013, –312 s. https://www.ebooks.az/view/5WVL7vaN.pdf
58. Xəlilov B.Ə. Müasir Azərbaycan dili. Sintaksis. / B.Ə. Xəlilov, – Bakı, "Adiloğlu", 2017, 428 s. http://www.buludxan-xelilov.com/pdf/sintaksise%20girish%2003.07.2017-A4.pdf
59. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin leksikologiyası. / B.Ə. Xəlilov, – Bakı, "Nurlan", 2008, – 442 s. https://www.buludxan-xelilov.com/pdf/morfologiya-I-hisse.pdf
60. Xudiyev N.M. Azərbaycan ədəbi dili tarixi. / N.M. Xudiyev, –Bakı, Maarif, 1997, – 496 s.

61.İldırımoğlu Əli. Daş yağan gün [roman] / Əli İldırımoğlu, – Bakı, “Nurlan”, 2011, – 240 s.
62.İldırımoğlu Əli. Közərən sətirlər / Əli İldırımoğlu, – Bakı, “Elm və təhsil”, 2014, – 372 s.
63.İldırımoğlu Əli. Zorən jurnalist [roman]/ Əli İldırımoğlu, – Bakı, “Aspoliqraf”, 2011, – 680 s.
64.İsmayılov N.V. Psixatriya. Ali məktəblər üçün dərslik. / N.V. İsmayılov , – Bakı, Maarif, 1992, – 370 s.
65.İsmayılzadə N. Zaman fonları və formaları. N. İsmayılzadə, – Bakı Filologiya məsələləri, №6, 2019, – s.121-126.
66.Kazımov Ç.B. Cəbrayıl toponimləri. / Ç.B. Kazımov, – Bakı, “Sabah”, 1995, –54 s.
67.Kazımov İ.B. Mahmud Kaşğari “Divan”ı və çağdaş türk dilləri. / İ.B. Kazımov, – Bakı, “Elm və təhsil”, 2014, – 224 s.
68.Kazımov İ.B. Müasir türk dillərinin müqayisəli fonetikası. / İ.B. Kazımov, – Bakı, “Elm və təhsil”, 2011, – 196 s.
69.Kazımov İ.B. Nitq etiketləri universal dil hadisəsi kimi. “Azərbaycan dilində nitq etiketləri” (məqalələr toplusu), İ.B. Kazımov, –Bakı, Orxon NPŞ MMC, 2016, – s.3-18.
70.Kazımov İ.B. Oğuz qrupu türk dillərində yarımçıq cümlə. / Nam.dis. aftoreferatı, İ.B. Kazımov, – Bakı, 1987, –s.21.
71.Kazımov Q.Ş. Dildən xüsusi seminar. Yazıçı və dil (dərs vəsaiti). / Q.Ş. Kazımov, – Bakı, “APİ”-nin nəşri, 1975, – 228 s.
72.Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. / Q.Ş. Kazımov, – Bakı, “Elm və təhsil”, 2010, – 400 s.
73.Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. / Q.Ş. Kazımov, – Bakı, “Təhsil”, 2007, – 496 s.
74.Kazımov Tahir. Müsibət [roman] / II kitab, Tahir Kazımov, – Bakı, 2008, 516 s.

75. Kazımov Tahir. Taleyin qisməti beləymiş yəqin / [IV kitab] [roman], Bakı, “Nurlan”, 2010, –592 s.
76. Kərimov S. Qurbani haralıdır? “Ulduz” jurnalı, // S. Kərimov, – Bakı, 1981, №3, – s.31-33.
77. Kərimzadə Fərman. Xüdafərin körpüsü [roman] / Fərman Kərimzadə, –Bakı, “Yazıçı”, 1980, –382s.
78. Kitabi – Dədə Qorqud. / tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə: F. Zeynalov, S. Əlizadə ; red. E. Əlibəyzadə. –Bakı, Yazıçı, 1988.–263 s.
79. Quliyeva Ə. Müasir türk və Azərbaycan dillərində sadə söz birləşməsi modelində formalaşan iqtisad terminləri. Ə. Quliyeva,“Türk filologiyası” jurnalı, №2, – Bakı, 2021, – s.41-53.
80. Quliyeva Q. Qədim uyğur mətnləri kontekstində xitabların üslubi-ekspessiv funksiyaları. // Q. Quliyeva, – Bakı, “Dilçilik İnstitutunun əsərləri”, 2018, –s.59-68.
81. Quliyeva N. İngilis dilində mürəkkəb sözlərin tərkib hissələri. // Filologiya məsələləri, N.Quliyeva, – Bakı, 2017, №6, – s.77-83.
82. Qurbanov A.M. Azərbaycan dilinin onomalogiyası. / A.M.Qurbanov, – Bakı, Maarif, 1988, – 596 s.
83. Qurbanov A.M. Ümumi dilçilik, II cild, A.M.Qurbanov, – Bakı, “Nurlan”, 2004, – 532 s.
84. Məhərrəmli Q. M. Televiziya dili. Q. Məhərrəmli, – Bakı, Elm, 2002, –304 s.
85. Məmmədquluzadə C. Əsərləri, dörd cilddə./ Ə.Rəcəbli, III cild, C. Məmmədquluzadə, – Bakı, Öndər, 2004, – 480 s.
86. Məmmədova S. İngilis və Azərbaycan dillərində söz yaradıcılığı prosesinin nəzəri məsələləri. // S. Məmmədova “Filologiya məsələləri”, –Bakı, 2019, №6, –s.20-25.
87. Məmmədova S. Müstəqillik illərində Azərbaycan dilinin leksik sistemində baş verən dəyişikliklər //. S. Məmmədova. Filologiya məsələləri, –Bakı, №9, 2019, – s.27-32.
88. Mir Cəlal. Seçilmiş əsərləri. / II cild. Mir Cəlal, –Bakı, 1967, – 497 s.

89. Mir Cəlal. Seçilmiş əsərləri. I cild. Mir Cəlal, –Bakı, Azərb. Dövlət Nəşriyyatı, 1967, –504 s.
90. Mirzəliyeva M. Türk dillərinin frazeologiyası. I c. M. Mirzəliyeva, – Bakı, "Nurlan", 2009, – 216 s.
91. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. H. Mirzəzadə, –Bakı, 1990, – 308 s.
92. Müasir Azərbaycan dili / məsul red. Z. İ. Budaqova ; cildin red. A. Q. Ələkbərova ; AzSSR EA Nəsimi ad. Dilçilik İn-tu. – Bakı, "Elm", 1978, –330 s.
93. Müasir Azərbaycan dili. /məs. red. M. A. Şirəliyev, Z. İ. Budaqova ; cildin red. A. Q. Ələkbərov ; AMEA, Nəsimi ad. Dilçilik İn-u. 3 cilddə, I cild. –Bakı, "Elm", 2010, – 351 s. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000172840
94. Müasir Azərbaycan dili. Fonetika, əlifba, orfoqrafiya, orfoepiya, leksikologiya / məsul red. Z. İ. Budaqova ; cildin red. A. Q. Ələkbərova ; AzSSR EA Nəsimi ad. Dilçilik İn-tu. – Bakı. Elm, I cild. 1978, – 220 s.
95. Müasir Azərbaycan dili. Morfologiya /red. Z. Budaqova ; Azərb. SSR Elmlər Akad., Nəsimi ad. Dilçilik İn-tu–Bakı, "Elm", II cild.1980, – 510 s. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000006849
96. Niftəliyeva E.G. Azərbaycan dilində enontosemiya hadisəsi – sözlərin qrammatik qütbləşməsi kimi. // Linqvistika problemləri. E.G. Niftəliyeva, – Bakı, 2020, №3, – s.134-142.
97. Niftəliyeva E.G. Azərbaycan dilində enontosemiyanın üslubi imkanları. // "Linqvistika problemləri". Beynəlxalq elmi jurnal. E.G. Niftəliyeva, – Bakı, 2021, №2, – s.145-153.
98. Orucova Ş. Türk dillərində xitab. / Ş. Orucova, – Bakı, "Nurlan", 2007, –200 s.
99. Rəcəbli Ə. Göytürk dilinin morfologiyası. / Ə. Rəcəbli, – Bakı, 2002, –510 s.
100. Rəhimov S. Hekayələr. /S. Rəhimov, – Bakı, Yazıçı, 1963, –201 s.
101. Rəhimov S. Şamo. / S. Rəhimov, –Bakı, Yazıçı, 1980, –603 s.

102. Rəsulov Ə. Müasir türk dilində xitab inversiyası. / “Türk filologiyası”, №2, Ə. Rəcəbli, – Bakı, 2021, – s.9-15.

103. Rüstəmov R. Müasir türk ədəbi dilində - sa, -se şəkilçilərinin köməyi ilə formalaşan cümlələrin yeri məsələsi [II məqalə]. // R. Rüstəmov “Türk filologiyası”, – Bakı, 2021, №2, –s. 3-8.

104. Rzasoy S. “Kitabi – Dədə Qorqud” eposu paramioloji vahidlərini [atalar sözləri] funksional semantikasında mifoloji invariant strukturunun roluna dair. “Azərbaycan ədəbiyyatının tarixi poetikası”. // II kitab, S. Rzasoy, – Bakı, “Elm”, 20026, – s.167-200.

105. Səmədova K. Azərbaycan dilinin şimal qrupu dialektlərində cümlə üzvləri, cümlə tipləri və onlarda qıpçaq elementləri. // K. Səmədova, – Bakı, “Dilçilik İnstitutunun əsərləri”, 2018, – s.32-43.

106. Şahbazova Z. Xitablar və onların linqvistik xüsusiyyətləri. Azərbaycan filologiyası: inkişafın yeni mərhələsi mövzusunda Respublika elmi konfransının materialları. // Z. Şahbazova, – Bakı, 2016, “Bakı Universiteti” nəşriyyatı, – s.67-72.

107. Şirəliyeva Ş. Oğuz qrupu türk dilərində əvəzliklərin leksik-semantik xüsusiyyətləri //. Ş. Şirəliyeva , “Türk filologiyası” jurnalı, №2, –Bakı, 2021, –s.96-103.

108. Şükürlü Ə. Qədim türk abidələrinin dili. / Ə. Şükürlü, –Bakı, ADPU, 1993.

109. Tağıyeva Ş. Metaforalarda, evfemizlərdə siyasi-iqtisadi diskursun səciyyəvi xüsusiyyətləri //. Ş. Tağıyeva, – Bakı, Filologiya məsələləri, №6, 2017, – s. 120-124.

110. Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası. / Ə. Tanrıverdi, – Bakı, “Elm və təhsil”, 2019, –464 s.

111. Təhməzov Z.İ. Müasir Azərbaycan dilində köməkçi nitq hissələrinin təsnifi. / Z.İ. Təhməzov, – Bakı, 2017, –152 s.

112. Vaqifqızı L. Türk dilinin tarixi inkişafına dair // L.Vaqifqızı “Türk filologiyası” jurnalı, №2, Bakı, 2021, – s.63-67.

113. Varis. Sonuncu ölən ümidlər [4-cü təkrar nəşri]. Varis, – Bakı, “Apostrof”, 2011, – 351 s.

114. Yusifov M.İ. Azərbaycan dili fonetikasının əsasları. M.İ. Yusifov, – Bakı, “Elm və təhsil”, 2012, – 320 s.
115. Yusifov M.İ. Dil sistemində qənaət (Azərbaycan dili materialları üzrə) filoloq.e.nam.alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. / M.İ. Yusifov, –Bakı, 1976, –169 s.
116. Zahidoğlu V.A. “Kitabi-Dədə Qorqud”un “Qan Turalı boyu”ndakı biz soylama haqqında. //V.A. Zahidoğlu, “Dilçilik İnstitutunun əsərləri”, – Bakı, 2018, –s.44-56.
117. Zülfüqarova S. Şifahi və yazılı dil //. S.Zülfüqarova, – Bakı, Filologiya məsələləri, №6, 2017, – s.89-93.
118. Абдуллаев А.З. Об афинитных конструксиях в тюркских языках. // А.З. Абдуллаев, “Советская тюркология”, 1986, № 2, – стр. 156-168.
119. Абдуллаев К.М. Проблемы синтаксиса простого предложения в азербайджанском языке. / К.М. Абдуллаев, – Баку, «Элм», 1983, –108 стр.
120. Адмони В.Т. Структурно-смысловое ядро предложения. / Члены предложения в языках различных типов. В.Т. Адмони , – Москва, 1972, 320 стр.
121. Артунева Н.Д. Семантическое соглосование слов и интерперитация предложения //. Грамматическое описание славянских языков: концепции и методы. Н.Д. Артунева, – Москва, Просвешение, 1974, – 234стр.
122. Балли Ш. Общая лингвистика и вопросы францсузского языка. / Ш. Балли, – Москва,1955, –412 стр.
123. Баскаков Н.А. Каракалпакский язык. Т. II фонетика и морфология. Н.А. Баскаков, – М. 1952, –544 стр.
124. Богданов В.В. Семантико-синтактическая организация предложения Ленинградского Университета. В. В. Богданов, –Ленинград, 1976.
125. Бодден де Киртенс И.А. Некоторые общие замечания о языковедении и языке, в кн. «И.А.Бодден де Киртенс, избранные труды по общему языкознания.» / И.А Бодден де Киртенс, АН, СССР, –Москва, 1963, том I, –стр.

126. Вардиль И.Ф. К вопросу о явлении эллипсии. // И.Ф. Вардиль, –Москва, 1969, –стр.63-72.
127. Вахидова Ш.К. К изучению вопросительных конструкций на занятиях русского языка как иностранного.// Ш.К.Вахидова, Filologiya məsələləri, №6, 2017, –стр. 66-72.
128. Виноградов В.В. О теории поэтической речи. В.В.Виноградов, –Москва, “Высщая школа”, 1971, – 240 стр.
129. Гасанова К.Н. Проявление экономии в обобщенно-личных предложениях прозаических текстов. Бюллетень науки и практики. 2022. Т.8, №4, с.596-603.
130. Гойхман О.Я. / Речевая коммуникация. О.Я.Гойхман,–Москва, Нифра, 2001, – 60 стр.
131. Димитриев Н.К. Грамматика башкирского языка. Н.К.Димитриев, –Москва, 1948, – 70 стр.
132. Есперсен О. Философия грамматике. / О. Есперсен, – Москва, 1958, –329 стр.
133. Зверчинцев В.А. / Теоритическая и ргикладная лингвистика. В.А. Зверчинцев, – Москва, 1968, –стр.
134. Колосова Т.А. Русские сложные предложения ассиметрической структуры. / Т.А. Колосова, – Воронеж, 1980, –188 5стр.
135. Кононов А.Н. Грамматика современного тюрецского литературного языка. /А.Н. Кононов , –М. 1952.
136. Кязымов И.Б. Неполные предложения в тюркских языках огузской группы. АКД. Баку, 1987, стр.21.
137. Кязымов И.Б. Сравнительный синтаксис. / [Синтаксис неполного предложения в тюркских языках огузской группы]. И.Б. Кязымов –Баку, «Елм и тахсил», 2016, –168 стр.
138. Леонтева Н.Н. Семантический анализ и смысловая перолиота текста. / Дис. канд. филол. наук. Н.Н. Леонтева ,– Москва, 1968, –21 стр.

139. Леонтьев А.А. Слово в речевой деятельности. А.А.Леонтьев, –Москва, 1965, – 216 стр.
140. Лотман Ю.М. Анализ поэтического текста. / Структура стихи. –Ленинград, 1972, –221 стр.
141. Лотман Ю.М. Структура художестенного текста. Ю.М.Лотман, –Москва, 1970, – 384стр.
142. Мартине А. Принципы экономии в фонетических изменениях. / А. Мартине, – Москва, 1960, –263 стр.
143. Нурманов А.Н. Пресиппозициональный аспект простого предложения узбекского языка. // А.Н.Нурманов, «Советская тюркология», 1968, «Грамматика и логика». –Москва, –стр. 143-151.
144. Общее языкознание. – Москва, 1970, – 450 стр.
145. Психолингвистика в очерках. Xrestomatiya: p 86, 2003, –464 стр.
146. Радлов В.В. Опыт тюркских словарей. /В.В. Радлов, – СПБ, 1893, –1160 стр.
147. Райхтейн А.Д. Немецкие устойчивые фразы и устойчивые предикативные единицы. / Дис. канд. филол. наук. –Москва, 1974, –стр.44.
148. Саввина Е.Н. Синтактический и семантический эллипсис в русских сравнительных конструкциях. / Автореф. дис. канд. филол. наук. Е.Н. Саввина, – Москва, 1988, –стр. 23.
149. Серебреников Б.А. Вероятностные обоснования в компаративистике. / Б.А. Серебреников, –Москва, 1974, –стр.
150. Федоров В.О. природе поэтической реальности. / В.О.Федоров, –Москва, “Советский писатель”, 1984, –184 стр.
151. Шмелев Д.Н. Слово и образ. / Д.Н. Шмелев, –Москва, “Наука”, 1977, –335 стр.
152. Юсифов М. И. Экономия в системе языка [на. литер. азерб. яз]. Автореф. дис. канд. филол. наук. М. И. Юсифов, –Баку, 1976, –21 стр.